

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV
# VƏ
# AZƏRBAYCANIN
# KİTAB MƏDƏNİYYƏTİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Rasim Süleymanov**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN KİTAB MƏDƏNİYYƏTİ

**MONOQRAFİYA**

*Bakı Dövlət Universiteti Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının qərarı ilə nəşr olunur (Protokol №8, 20.05.2019)*

Bakı - 2020

UOT-014+016.8
KBT-78.5

Redaktor:
**Knyaz Aslan**
*Bakı Dövlət Universiteti Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının müdiri, fəlsəfə doktoru, dosent*

Rəyçi:
**Kərim Tahirov**
*M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi, professor*

Rasim Süleymanov. Ulu Öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti: Monoqrafiya.-Bakı, 2020.- 360 s.

$S\frac{4702060000-049}{2020}$

© "Ləman Nəşriyyat Poliqrafiya" MMC, 2020

***Monoqrafiyada Azərbaycan tarixini, mədəniyyətini və ədəbiyyatını dərindən bilən, onu böyük məhəbbətlə sevən və yüksək qiymətləndirən xalqımızın ümummilli lideri, müstəqilliyimizin memarı, dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın kitab mədəniyyəti, kitabçılıq işi, kitab və onun nəşri məsələləri ilə əlaqədar diqqət və qayğısı, eyni zamanda onun zəngin irsi və ulu öndərə həsr olunmuş fundamental əsərlər araşdırılmış və tədqiq edilmişdir.***

***Kitabda ulu öndərin həyatımızın bütün sahələrini əhatə edən zəngin elmi-nəzəri irsinin araşdırılmasına, öyrənilməsinə geniş yer ayrılmış və bu məsələlər ardıcıllıqla təhlil olunmuşdur.***

***Respublikamızda və dünyada görkəmli ictimai-siyasi, dövlət və elm xadimlərinin Heydər Əliyevə və onun zəngin irsinə həsr etdikləri fundamental nəşrlərin və elmi əsərlərin gələcək nəsillərə çatdırılması məsələləri də burada ümumiləşdirilmişdir.***

***Kitab kitabşünaslar və naşirlər, ali məktəb tələbələri, magistrantlar, doktorantlar, mədəniyyət işçiləri və tədqiqatçılar, habelə Heydər Əliyev irsini sevən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

***Rasim Süleymanov***

## ÖN SÖZ

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi ən güclü siyasi və dövlət xadimidir. Bu böyük şəxsiyyətin irsi xalqımızın milli sərvətidir. Azərbaycanın milli-mənəvi və əxlaqi dəyərlərinin ümumbəşəri ideyalarla zənginləşdirilməsində ensiklopedik təfəkkürlü, dərin erudisiyalı müdrik rəhbər kimi Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. O, Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu tarixi keçmişinə, zəngin mənəvi dəyərlərinə, maddi-mənəvi irsinə qayğı ilə yanaşırdı. Heydər Əliyev Azərbaycan mədəniyyətinin hamisi olmuşdur. Ulu öndər xalqın mənəviyyatını zənginləşdirən, onu dünyada tanıdan milli mədəniyyətimizin hərtərəfli inkişafını, yüksəlişini daim izləmiş, ona yardım etməyi özünün ən ümdə vəzifəsi kimi qəbul etmişdir.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva demişdir: "Heydər Əliyev fəlsəfəsini başa düşmək, dərk etmək üçün Azərbaycan xalqının son 50 illik tarixini öyrənmək, yüzlərlə elmi, siyasi, bədii, publisistik əsərləri oxumaq lazımdır. Yaşlı nəsil Heydər Əliyevin – ulu öndərin ölçüyəgəlməz xidmətləri ilə yaxşı tanışdır.

Bugünkü nəsil də, gələcək nəsillər də bu böyük düha sahibinin xalqı, vətəni üçün gördüyü işləri, vətən qarşısındakı xidmətlərini bilməlidir.



Heydər Əliyevin parlaq şəxsiyyəti, Heydər Əliyevin irsi bir məktəbdir – tərbiyə, mənəvi zənginlik, kamillik, vətənpərvərlik, qəhrəmanlıq, dövlətçilik, ümumbəşərilik məktəbi. Bu məktəbdən, bu ümmandan hər bir kəsin bəhrələnməsi üçün ulu öndərin zəngin irsi tədqiqatçılarımız tərəfindən mütəmadi olaraq tədqiq edilib öyrənilməlidir.

Ümidvarıq ki, nəsillər bir-birini əvəz edəcək, ulu öndərə olan sevgi və məhəbbət hissi, onun tükənməz irsindən bəhrələnmək, öyrənmək arzusu daha da genişlənəcək, ürəklərdə əbədiləşəcək, tarixin yaddaşına həmişəlik qızıl hərflərlə həkk olunacaqdır".

1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayarkən onun çoxşaxəli fəaliyyətinin bir mühüm qolu da respublikada elmin və mədəni mühitin yaradılması oldu və çox qısa vaxtda elm, mədəniyyət və sənət adamları onun simasında özləri üçün əsl arxa, dayaq tapdılar. Bakı SSRİ-nin elmi-texniki və mədəni mərkəzlərindən birinə çevrilməyə başladı. Beynəlxalq konfrans və simpoziumların, Ümumittifaq tədbirlərin Bakıda keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlı idi. O, Azərbaycanda ziyalı mühitinin yaradılması üçün böyük əmək sərf etmişdir. O zaman keçmiş SSRİ-nin ali məktəblərinə tələbələrin göndərilməsi Heydər Əliyevin uzaqgörənliyinin bariz nümunəsi kimi tarixə düşmüşdür. Heydər Əliyev gənclərimizin ən istedadlılarını seçib

Moskvaya və digər şəhərlərdəki nüfuzlu ali məktəblərə göndərərkən bu potensialın aşkarlanmasına, üzə çıxmasına şərait yaradırdı. Təhsillərini başa vurduqdan sonra Azərbaycana dönüb elmi-texniki tərəqqimizə çox böyük töhfələr verən həmin gənclər bu gün də siyasi həyatda, elmin inkişafında, iqtisadiyyatın ayrı-ayrı sahələrində qabaqcıl yerlərdədirlər. Dünyanın elmi mərkəzləri ilə əlaqələri məhdud olan Azərbaycan üçün SSRİ-nin mərkəzi şəhərlərində bərqərar olmuş və inkişaf etmiş elm və mədəniyyətin dərinliklərinə yiyələnməkdən başqa çarə yox idi və o dövrdə bu dahicəsinə tapılmış çox düzgün yol idi.

Heydər Əliyev Bakı Dövlət Universitetinin məzunu olmağı ilə fəxr etdiyini dəfələrlə vurğulayıb və bu təhsil ocağını Azərbaycan xalqının milli sərvəti adlandırıb. Heydər Əliyevin universitetdə təhsil illəri və sonralar bu təhsil ocağı ilə sıx əlaqələri BDU-nun şanlı tarixinin parlaq səhifələrini təşkil edir. Bir hadisə heç vaxt unudulmayacaqdır: 1969-cu ildə universitetin bugünkü – sayca üçüncü binasında onun yarıməsrlik tarixi ilk dəfə idi ki, böyük təntənə ilə qeyd edilirdi. Bu yubileyin əsl qiymətini verən, onu elm və el bayramına çevirən isə cənab Heydər Əliyev oldu. Məhz o universitetin dünya şöhrətli məzunu, gələcək fəxri doktoru həmin 50 illik yubileydə bütün Sovetin yazılmamış qanunlarını pozaraq Azərbaycan dilində çıxış etdi və bu çıxış ziyalıların uzun illərdən



bəri gözlədikləri milli oyanış istiqamətində həlledici addım oldu, XX əsr tariximizin ən böyük hadisələrindən birinə çevrildi.

Heydər Əliyev haqqında çox yazılıb, qalın-qalın kitablar çap olunub. İllər keçdikcə daha da çox yazılacaq, tarixin süzgəcindən keçmiş qiymətlər daha da artacaq dünyada və ölkəmizdə baş verəcək olayların, gələcək hadisələrin kontekstində onun xidmətləri daha dərindən dərk olunma zərurəti qazanacaq.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük və şərəfli adı, saysız-hesabsız əməlləri əbədi olaraq tariximizə daxil olmuşdur.

Azərbaycanın XXI əsrin astanasında müstəqillik əldə etməsi onun tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Milli sərvətimiz olan müstəqilliyimizin dönməz xarakter almasında, dünya dövlətləri sırasında Azərbaycanın özünə layiqli yer tutmasında ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti mühüm rol oynamışdır.

Odlar Yurdu Azərbaycan dünyanın çox qədim tarixə və zəngin mədəniyyətə malik məmləkətlərindən, bəşəriyyətin ən qədim yaşayış məskənlərindən biridir. Avropanı Asiya ilə birləşdirən məşhur "İpək Yolu"nun Azərbaycandan keçməsi, şərqlə qərb və cənubla şimal arasında karvanların bir məkanda qovuşması nəticəsində bu diyarda elm və mədəniyyət inkişaf etmişdir.

Hər bir Azərbaycan vətəndaşı Heydər Əliyev irsinə sadiqliyi, ilk növbədə, etibarlı əllərdə olduğundan və alternativi olmayan, praktik fəaliyyəti ilə xalqa xidməti öz amalına çevirən İlham Əliyev şəxsiyyətində görür. Prezident İlham Əliyevin hələ 2003-cü il andiçmə mərasimindəki çıxışı zamanı ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə sosial, iqtisadi, siyasi, hüquqi, təhsil, səhiyyə və mədəniyyət sahələrində, milli ordu quruculuğunda başlanmış islahatları davam etdirəcəyini, hər bir vətəndaşın prezidenti olacağını bəyan etdi. 2003-cü ilin 24 noyabr tarixli prezidentlik fəaliyyətinin beş illik dövrü ilə bağlı imzaladığı proqram xarakterli sənəd ölkədə dinamik inkişafı sürətləndirməyə güclü səbəb olmuş və Heydər Əliyev kursunun davamlılığının dönməz olduğunu təsdiq etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bizim ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, ana dilimiz, milli dəyərlərimiz vardır. Bizim milli dəyərlərimiz ümumbəşəri milli dəyərlər əsasında qurulubdur. Hesab edirəm ki, qloballaşan dünyada xüsusilə gənc nəsil üçün milli-mənəvi dəyərlər xüsusi rol oynayır və oynamalıdır. Hər halda, biz Azərbaycanda buna böyük əhəmiyyət veririk və onu da qeyd etməliyəm ki, başqa mədəniyyətə, dinə, tarixə olan hörmət öz mədəniyyətinə, tarixinə, öz dininə olan hörmətdən başlamalıdır."



Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşü zamanı çıxışında demişdir: "Məsələn, bizim Əlyazmalar Fondunda çox dəyərli, zəngin məlumat verən kitablar var. Amma məsələ tək bunda deyildir. Dünyanın ən böyük kitabxanalarında, muzeylərində tariximizi əks etdirən çox zəngin kitablar, əlyazmalar, tarixi sənədlər var. Ancaq bizim tarixçilərimiz onlardan səmərəli istifadə edə bilmirlər. Ola bilər ki, Sovetlər İttifaqında yaranmış şərait də buna imkan vermirdi. Lakin yadınızdadır ki, bizim Ali Sovetin binası (mən təzə binanı nəzərdə tuturam) hazır olanda köhnə bina haqqında cürbəcür müraciətlər olmuşdu. Bir nazirlik istəyirdi ki, bu binanı ona verək, deyirdilər ki, bu bina rəhmətlik Hacı Zeynalabdin Tağıyevdən yadigar qalıb, başqa təşkilatlar da istəyirdilər. Çox düşündük, nəhayət, mən o binanın akademiyanın Əlyazmalar Fonduna verilməsi haqqında qərar qəbul etdim. Nə üçün? Çünki Əlyazmalar Fondu, əsrlərdən bəri qalmış o kitablar bizim üçün böyük bir sərvətdir. Onlar burada bu binanın zirzəmilərində pis vəziyyətdə idi. Onları çıxarıb bir muzey nümunəsi kimi yaxşı saxlayıb istifadə etmək üçün bu binanı Əlyazmalar Fonduna verdik və onun əsasında elmi institut yaratmaq haqqında

qərar qəbul etdik. Tarixçilərimiz üçün böyük imkan açdıq, şərait yaratdıq ki, bunlardan istifadə olunsun."[1]

Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında, beynəlxalq aləmdə nüfuz dairəsinin genişlənməsində, cəmiyyətdə mənəvi-əxlaqi yetkinliyin bərqərar olmasında, iqtisadi-sosial sahələrin inkişafında, ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsində misilsiz xidmətlər göstərmiş Heydər Əliyevin tarixi irsi, müstəsna idarəçilik isdedadı, yenilməz şəxsiyyətini şərtləndirən keyfiyyətləri illər ötdükcə daha dərindən öyrənilməli, gənc nəslin ümummilli liderimizin həyat və fəaliyyəti nümunəsində tərbiyə olunması təhsil ocaqları və pedaqoji kollektivlərin ən ümdə vəzifə borcuna çevrilməlidir. Heydər Əliyev irsinin pedaqoji işçilər tərəfindən gündəlik oxunub öyrənilməsi və təlim-tərbiyə prosesində nəzərə alınması gənclərin milli-mənəvi tərbiyə işində uğurlu nəticələr qazanmağın ən etibarlı mənbəyi olmalıdır.

Ümummilli lider Heydər Əliyev demişdir: "Müəllimlər gərək yerlərində saymasınlar, nə qədər təcrübəli olsalar da, daim öz biliklərini artırsınlar. Çünki dünya çox dinamik inkişafdadır. Bu dinamik inkişaf dünyada sürətlə yeniliklər meydana çıxarır. Ona görə də, təbiidir, müəllim 10-15-20 il bundan öncəki səviyyəsi ilə bizim bugünkü yüksək təhsilimizi təmin edə bilməz. Gərək

[1] Əliyev Heydər.Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər bəyanatlar, müsahibələr. Məktublar, məruzələr, fərmanlar.-Bakı, 1997.-K.1.-S.148.



müəllim öz üzərində daim işləsin, dünyanın texniki, elmi tərəqqi nailiyyətlərindən xəbərdar olsun və onları tələbələrə, gənclərə, uşaqlara çatdırsın."[1]

Tarixi şəxsiyyətlərə qiymət verərkən belə bir prinsip əsas götürülməlidir ki, onlar öz dövrünün imkanları ilə müqayisədə nələri edə bilmişlər. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin istər birinci dövrünə, istərsə də müstəqillik dövründəki fəaliyyətinə qiymət verərkən tam inamla deyə bilərik ki, o, zamanın və şəraitin diktə etdiyi çərçivələrdən çıxaraq öz dövrünü qabaqlamış və həlli mümkün olmayan problemləri də reallaşdırmışdır.[2]

Heydər Əliyev elmin və əməli fəaliyətin ən müxtəlif sahələrində ensiklopedik biliklərə malik olması, ona həmişə əsaslandırılmış, düzgün qərarlar qəbul etməyə imkan vermişdi.

Heydər Əliyevin bütün həyat və fəaliyyətinə verilən qiymətlər, onun yaratdığı və şah əsəri olan müstəqil Azərbaycanın tərəqqisi yolundakı xidmətləri dünyada azərbaycançılıq obrazı və azərbaycançılıq məktəbinin təməlini qoymuşdur.

Heydər Əliyevin yüksək zirvələri fəth etmiş həyatı və siyasi fəaliyyəti, onun təkrarolunmaz dövlətçilik irsi, xalqa xidmət nümunələri bundan sonra da saysız-hesab-

2. Mehdiyev R. Heydər Əliyevin dövlət idarəçiliyinin nəzəriyyə və təcrübəsinə töhfəsi. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası(1999-2003).-Bakı: Çaşıoğlu, 2004.-S.159.

sız əsərlərin tükənməz mövzusu olacaq və yaradıcılıq mənbəyinə çevriləcəkdir.

Ümummilli lider Heydər Əliyevin "Kitab və kitab nəşri haqqında müdrik fikirləri" kitabım ilk dəfə "Mütərcim" nəşriyyatı tərəfindən 2016-cı ildə, onun II nəşri isə "Ləman Nəşriyyat Poliqrafiya" MMC tərəfindən 2018-ci ildə hər biri kiçik tirajla nəşr olunmuşdur.

Ulu öndərin xüsusi olaraq vurğuladığı "Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram" fikirləri bu monoqrafiyanın məqsəd və vəzifələrini ifadə edir.



## HEYDƏR ƏLİYEV VƏ KİTAB MƏDƏNİYYƏTİ

Azərbaycan elmini, mədəniyyətini və ədəbiyyatını dərindən bilən, onu böyük məhəbbətlə sevən, uca tutan və yüksək qiymətləndirən Heydər Əliyev nitqlərinin birində deyir: "Azərbaycan xalqının qədim mədəniyyətinin, elmi təfəkkürünün kökləri onun tarixinin dərinliklərinə gedib çıxır. Bir çox əsrlər boyu Azərbaycan xalqı Şərq ədəbiyyatı və incəsənətinin, müxtəlif dövrlərin fəlsəfə və elminin ən yüksək nailiyyətlərini özündə təcəssüm etdirən zəngin, çoxcəhətli və orijinal mədəniyyət yaratmışdır. Ən qədim zamanlardan burada təbabət, astronomiya, riyaziyyat, coğrafiya, tarix, fəlsəfə, ədəbiyyat, musiqi mədəniyyəti və dekorativ sənət, bədii sənətlər inkişaf etmiş, gözəl memarlıq tikililəri yaradılmışdır."[3]

Dahi Heydər Əliyev hesab edirdi ki, milləti dünya xalqları içərisində fərqləndirən başlıca xüsusiyyət onun mədəniyyətidir. Yüksək mədəniyyətə malik olan xalq daim inkişaf edir və irəli gedir.

9 iyun 1998-ci ildə Astana şəhərində türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündəki nitqində ulu öndər Heydər Əliyev demişdir: "Dərin məmnunluq hissi

[3] Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər).- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, s.137.

ilə qeyd etmək istəyirəm ki, ümumi mənəvi irsimizin təbliğinə və inkişafına böyük diqqət yetirilir. Qırğızların "Manas" eposunun minilliyinin, özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyinin, Şərqin görkəmli mütəfəkkiri, Azərbaycan şairi Füzulinin 500 illiyinin, böyük Qazax şairi Abayın 150 illiyinin bayram edilməsi xalqlarımızın mədəni həyatında mühüm hadisələrə çevrilmişdir.

Ümumi sərvətimiz olan məşhur "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi 1999-cu ildə UNESCO ilə birlikdə Azərbaycanda geniş qeyd ediləcəkdir."[4]

Türkdilli dövlətləri başçılarının 12 may 2001-ci ildə keçirilən VII zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qeyd edirdi: "Bizim zirvə görüşlərimiz nəticəsində bir sıra nəcib ənənələrin əsası qoyulmuşdur. Onların sırasında dahi şəxsiyyətlərimizin, milli mədəniyyətlərimizin korifeylərinin, bəşər sivilizasiyasının inciləri sayılan möhtəşəm eposlarımızın əlamətdar ildönümlərini, xalqımızm həyatmdakı mühüm və tarixi hadisələri birlikdə bayram etməyimiz əhəmiyyətli yer tutur.

4 Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar. nitqlər, bəyanatlar, müsahibələr. məktublar. məruzələr, müraciətlər, fərmanlar. İyun, 1998 - iyul, 1998. K.16 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı: 2005, s.15.



"Manas" eposunun 1000, Əmir Teymurun 660, Məhəmməd Füzulinin 500, Abay Kunanbayevin 150, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin, əsasən, türkdilli dövlətlərin başçılarının zirvə görüşü çərçivəsində bayram edilməsi, bu görüşlərin əhatə dairəsini daha da genişləndirmişdi.

Belə yubiley tədbirlərinin birlikdə qeyd olunmasında əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bütün dünyaya bir daha nümayiş etdirməkdir. Digər tərəfdən belə yubiley tədbirlərini keçirməklə biz inandırıcı şəkildə göstəririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunus İmrənin, Füzulinin, Məxtəmqulunun, Mahmud Qaşqarinin, Abayın və bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlar təkcə bizim xalqlarımıza məxsus deyil, onlar həm də bütün bəşəriyyətin mədəni sərvətidir. Sarsılmaz tarixi tellərlə bağlılığımızla bərabər, məqsəd və vəzifələrimizin, qarşılaşdığımız problemlərin oxşarlığı ölkələrimizi və xalqlarımızı birləşdirən güclü amildir".

Hələ 1982-ci ildə dahi Heydər Əliyev "Gənclərin əmək, əxlaq və ideya-siyasi tərbiyəsini hər vasitə ilə gücləndirməli" məruzəsində vurğulayırdı: "Azərbaycan adları dünya ədəbiyyatı xəzinəsinə daxil olan Nizami, Xaqani, Tusi, Füzuli, Nəsimi, Natəvan, Vaqif,

M.F.Axundov, Sabir, C.Məmmədquluzadə, M.S.Ordubadi, C.Cabbarlı, Üzeyir Hacıbəyov, S.Vurğun və bir çox başqa yazıçıların, şairlərin, bəstəkarların, alimlərin vətənidir. Gənclərimiz də korifeylərin yaradıcılığına, Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində yaradılan bütün mənəvi sərvətlərə yaxşı bələd olmalıdırlar."[5]

27 may 1998-ci ildə Respublika sarayında "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə ulu öndər Heydər Əliyev səmimiyyətlə qeyd edirdi ki, "Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov və digərləri o illər yaratdıqları əsərlərlə xalqımızda milli şüurun oyanmasına, inkişaf etməsinə, milliliyin yüksəlməsinə böyük təsir göstərmişlər və böyük xidmətlər etmişlər. Onlar hamısı 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının əsasını, demək olar ki, birlikdə təşkil etmişlər. Bu gün, bu bayram günü Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarının və Azərbaycan Xalq Cümhuriyyətinin ikiillik fəaliyyətini təmin edənlərin hamısını böyük minnətdarlıq hissi ilə yad edirik. Onlar, həqiqətən, vətəndaşlıq şücaəti göstərərək, öz xalqı, milləti qarşısında böyük qəhrəmanlıq nümayiş etdiriblər. Xalq Cümhuriyyətinin yaradıcıları – Məmməd Əmin Rəsulzadə, Fətəli

[5] "Kommunist" qəzeti. 6 aprel.- 1982., s.2.



xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Usubbəyov, Həsən bəy Ağayev, Xalq Cümhuriyyətinin ilk Milli Şurasının bütün üzvləri, Xalq Cümhuriyyəti hökumətinin üzvləri Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstəriblər. Xalqımız onların xidmətlərini bu gün minnətdarlıq hissi ilə yad edir. Onların gördüyü işlər və əziz xatirələri Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır."[6]

9 mart 1996-cı ildə ulu öndər Tbilisi Nəbatat bağında Fətəli xan Xoyskinin abidəsinin açılışı mərasimində nitqində xüsusi olaraq vurğulamışdır: "Biz indi, bu dəqiqələrdə Gürcüstanın Tbilisi şəhərində, təbiətin gürcü xalqına bəxş etdiyi ən gözəl guşələrdən birindəyik. Böyük iftixar, məhəbbət hissi ilə qeyd edirəm ki, bu gözəl guşələrdən birində Azərbaycanın böyük övladları, böyük şəxsiyyətləri əbədiyyətə qovuşublar, əbədi uyuyurlar. Azərbaycan xalqının böyük oğlu, mütəfəkkir insan, yazıçı, şair, alim, filosof, dövlət xadimi Mirzə Fətəli Axundovun məzarı buradadır. Onun övladlarının, qohum-əqrəbalarının məzarları buradadır. Mirzə Fətəli Axundovun məzarı qarşısında, onun ruhu qarşısında Azərbaycan xalqı adından baş əyirəm, ona Allahdan bir daha, bir

[6] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Noyabr, 1995 - mart, 1996. K.5 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı:, 1998, s.430

daha rəhmətlər diləyirəm! Biz Azərbaycan xalqının görkəmli oğlu Mirzə Şəfi Vazehin qəbri önündəyik. Azərbaycan xalqının elminin, mədəniyyətinin inkişafında Mirzə Şəfi Vazehin böyük xidmətləri olmuşdur. O, öz yaradıcılığı, fəaliyyəti ilə tarixdə böyük iz qoymuşdur. Biz onun məzarı qarşısındayıq. Mən onun ruhu qarşısında baş əyirəm və ona Allahdan rəhmət diləyirəm.

Biz Azərbaycanın görkəmli oğlu, böyük dövlət xadimi, ictimai-siyasi xadim Fətəli xan Xoyskinin məzarı önündəyik. Fətəli xan Xoyskinin xatirəsini əbədiləşdirmək üçün məzarı üzərində onun büstünü gürcü qardaşlarımızla birlikdə təntənəli surətdə açdıq."[7] "Buraya toplaşan azərbaycanlıların və bu gün məsciddə olan azərbaycanlıların hamısı Azərbaycan xalqının adət və ənənələrini, o cümlədən Azərbaycan xalqının dəyərli şəxsiyyətlərinin ruhunu və qəbirlərini Gürcüstan torpağında qoruyub saxladığınıza görə sizə böyük minnətdarlıq və təşəkkürlərini bildirirlər. Şübhəsiz ki, bu sahədə alimlərin, müəllimlərin, Gürcüstan ziyalılarının xüsusi rolu var və mən sizə Azərbaycan xalqı adından minnətdarlıq və təşəkkürümü yetirirəm."[8]

---

[7] Əliyev Heydar. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Noyabr, 1995 - mart, 1996. K.5 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı: 1998, s.430

[8] Əliyev Heydar. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Noyabr, 1995 - mart, 1996. K.5 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı: 1998, s.430



21 avqust 1998-ci ildə Prezident iqamətgahında Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimlərinin böyük bir qrupuna "Şöhrət" ordenlərinin təqdim edilməsi mərasimində dahi Heydər Əliyevin dedikləri insanı riqqətə gətirir: "XX əsrdə Azərbaycan mədəniyyəti, elmi, ədəbiyyatı, musiqisi, incəsənəti çox inkişaf edibdir. Bizim xalqımız çox istedadlı xalqdır və qədim dövrlərdən də elm, mədəniyyət, incəsənət, musiqi sahəsində böyük əsərlər yaratmışdır. Ancaq biz bu gün tam əsasla deyə bilərik ki, Azərbaycanın istedadlı şəxsləri, insanları XX əsrdə, ötən bütün əsrlərin nailiyyətlərindən istifadə edərək daha da böyük, dəyərli əsərlər yaratmış, incəsənət nümunələri meydana çıxarmış, tariximizi, elmimizi, mədəniyyətimizi zənginləşdirmişlər. XX əsrin ikinci yarısı isə bu baxımdan daha da məhsuldar olmuşdur.

Bu gün Azərbaycan müstəqil dövlət olaraq xalqımız tərəfindən tarix boyu yaradılmış əsərləri, əldə edilmiş nailiyyətləri bütün dünyaya nümayiş etdirir və bununla da, dünya xalqları içərisində xalqımızın nə qədər böyük, istedadlı xalq olduğunu sübut edir...

Bu gün buraya toplaşanlara nəzər salarkən mən bir fikri də ifadə etmək istəyirəm. Birincisi, siz – bu gün Azərbaycanın yüksək mükafatlarını alan şəxsləri – hər biriniz Azərbaycanın mədəniyyət, elm, incəsənət tarixinə öz töhfələrini vermiş, xalqımıza böyük xidmətlər göstər-

miş insanlarsınız. Siz Azərbaycanın mənəvi dəyərlərini inkişaf etdirmiş insanlarsınız."[9]

26 mart 1998-ci ildə Respublika sarayında Azərbaycanın xalq şairi, görkəmli ictimai xadim Süleyman Rüstəmin anadan olmasının 90 illiyi münasibətilə təntənəli yubiley gecəsində çıxışında ulu öndərin vurğuladığı sözlər mühüm əhəmiyyət kəsb edir: "Vətənə, Azərbaycana bağlılıq Süleyman Rüstəmin Təbrizlə əlaqədar şeirlərində də və böyük Azərbaycan, İran şairi Şəhriyarla yazışmalarında da özünü göstərir. Yalnız vətənini, millətini hədsiz sevən və ona sadiq olan bir insan, şair Süleyman Rüstəmin yazdığı şeirləri yaza bilərdi. Əgər o hisslər olmasaydı, o, belə şeirləri yazmazdı, o hisslər olmasaydı Şəhriyarla yazışmazdı, ona şeirlər ithaf etməzdi və ondan şeirlər almazdı. Bunlar bizim ədəbiyyat, mədəniyyət tariximizin qızıl səhifələridir. Biz bunları qiymətləndirməliyik." [10]

Məhz Heydər Əliyevin böyük nüfuzu sayəsində XX əsr Azərbaycan ədəbiyyatının klassiklərinə – Süleyman Rəhimova, Rəsul Rzaya, Mirzə İbrahimova, Süleyman Rüstəmə, böyük mədəniyyət və incəsənət xadimlərimizə – Qara Qarayevə, Fikrət Əmirova, Niyaziyə, Rəşid Behbudova, Tahir Salahova o dövrün ən şərəfli mükafatı –

[9] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. İyul, 1998 - oktyabr, 1998. K.17 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev.- Bakı: 2005, s.160.

[10] Yenə orada.- K. 15, s.97.



Sosialist Əməyi Qəhrəmanı adı verildi. Ədəbiyyatımız və mədəniyyətimiz dünyanın ən qabaqcıl mədəniyyətləri sırasına yüksəldi.

17 oktyabr 1997-ci ildə Respublika saraymda məşhur müğənni və bəstəkar Müslüm Maqomayevin yubiley gecəsində ulu öndər Heydər Əliyev xüsusi pafosla vurğulayırdı: "Şükürlər olsun, yurdumuza, respublikamıza, xalqımıza çoxlu şeirlər, mahnılar, çoxlu musiqi əsərləri həsr olunmuşdur. Onların hamısı gözəldir, hamısı sevindirir. Ən başlıcası isə yurdumuza, vətənimizə - Azərbaycana həsr olunmuş hər bir belə mahnı, hər bir belə musiqi insanlarımızda, məsələn, şəxsən məndə vətənpərvərlik hissi, iftixar, sevinc hissi doğurur ki, bizim Azərbaycanımız var, Azərbaycana həsr edilmiş belə mahnılar, şeirlər var və bu gün müstəqil, azad Azərbaycan var."[11]

18 dekabr 1997-ci ildə ulu öndərin xalq rəssamı Mikayıl Abdullayevə təbrik məktubunda deyilir: "Azərbaycan ədəbiyyatının incilərinə, xüsusilə xalqımızın əzəli mövzusu olan "Kitabi-Dədə Qorqud" dastanına çəkdiyiniz illüstrasiyalar klassik milli irsə bəslədiyiniz hörmət və sevgi hissinizi nümayiş etdirir. "Nizami" metrosuna verdiyiniz tərtibat, teatrdakı fəaliyyətiniz bunu

[11] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. avqust, 1997 - oktyabr, 1997. K.: 12/H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı: 2004, s.357.

bir daha təsdiqləyir. Vətən eşqi, ana məhəbbəti, Azərbaycan qadınının səadəti sizin lirik lövhələrinizdə ustalıqla öz əksini tapıb. Böyük emosional təsir qüvvəsinə, milli koloritə, tərbiyəvi məzmuna malik əsərləriniz gənc nəslin formalaşmasında böyük rol oynamışdır. Sizin yorulmaz, məhsuldar fəaliyyətiniz daim Azərbaycan xalqına xidmət etmişdir."[12]

26 mart 1997-ci ildə xalq şairi Səməd Vurğunun ev-muzeyində çıxış edərkən dahi Heydər Əliyev xüsusi olaraq vurğulayırdı: "Biz bu gün Vaqifin şəkillərini, heykəlini görürük. Amma həqiqətdə Vaqifin fotoşəkli olmayıbdır. Vaqifin şəklini də Səməd Vurğun və Vaqif rolunu oynayan böyük sənətkarımız, aktyorumuz Ələsgər Ələkbərov və Azərbaycan Dövlət Dram Teatrı yaratmışdır. Görürsünüz, Səməd Vurğun bir əsərdə bizim milli mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza aid nə qədər böyük məsələləri həll edibdir. Səməd Vurğun xalqımıza nə qədər böyük xidmətlər göstəribdir. Biz də Səməd Vurğunun yolu ilə gedərək Vaqifin adını əbədiləşdirməyə çalışırıq, onun ölümündən 200 il sonra Şuşada, Cıdır düzündə Vaqifin qəbri üzərində böyük məqbərə yaratdıq. Həmin məqbərədə Səməd Vurğun,

[12] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. avqust, 1997 - oktyabr, 1997. K.: 12/H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı: 2004, K.8.- S.399.



Azərbaycan teatrı və Ələsgər Ələkbərov tərəfindən yaradılmış Vaqif surətinin heykəlini qoyduq.

Səməd Vurğunun digər dram əsərləri də yüksək qiymətə layiqdir. "Fərhad və Şirin" də, "Xanlar" da, "İnsan" da Azərbaycan ədəbiyyatına, şeirinə, teatrına böyük töhfələrdir. Onlar əbədi yaşayacaqlar." Burada Heydər Əliyev özünəməxsus tərzdə demişdir: ""Vaqif" əsərinin xüsusiyyəti, şübhəsiz ki, birinci növbədə bu əsərin Azərbaycan xalqının tarixinin müəyyən bir hissəsini əks etdirməkdən ibarətdir. O, eyni zamanda, dərin fəlsəfi fikirləri əks etdirən bir əsərdir, hər bir azərbaycanlının ürəyinə yatan, onu sevindirən şeir misralarıdır". O, qeyd edir ki, "Vaqif" əsəri Azərbaycan xalqına onun Molla Pənah Vaqif kimi bir şəxsiyyətini tanıdan əsərdir. Etiraf etməliyik ki, Səməd Vurğunun "Vaqif" əsəri yarananadək Molla Pənah Vaqif xalqın arasında geniş təbliğ olunmamışdı və xalq onu o qədər də tanımırdı. Şübhəsiz ki, ədəbiyyatçılar, ziyalılar, şeir pərəstişkarları Vaqifin şeirlərini yaxşı bilirdilər. XVIII əsrdə Azərbaycan ədəbiyyatının, şeirinin inkişafında Vaqifin xidmətləri haqqında mən dedim. Ancaq Vaqifi geniş tanıtmaq, onu xalqa daha da yaxınlaşdırmaq, Vaqifin şəxsiyyətini, onun surətini xalqa göstərmək və Vaqifi xalqa doğma etmək – bunların hamısını Səməd Vurğun etdi."

XX əsrdə heç bir ədəbiyyatşünas və tarixçi tərəfindən yada salınmayan bu fikirlər də ulu öndərə məxsus-

dur: "Xatırlayın, 1937-ci iladək – "Vaqif" əsəri yaranana qədər Azərbaycanda Vaqif adı daşıyan adam ya olmayıb, ya da çox az olubdur. Bəlkə də, heç kəs buna fikir verməyibdir. Bəlkə də, hamı güman edir ki, Azərbaycanda geniş yayılmış Vaqif adı elə dövri-qədimdəndir. Amma "Vaqif" əsəri meydana çıxandan sonra insanlar Vaqifi, yəni Səməd Vurğunun yaratdığı Vaqif obrazını o qədər sevdilər ki, həd-dindən çox ailə yeni doğulan övladlarına Vaqif adı verdi."

Dahi Heydər Əliyevin Səməd Vurğunun ev-muzeyinin "Qonaqlar kitabı"na yazılmış ürək sözləri təqdirəlayiqdir: "Bu gün böyük şair Səməd Vurğunun 90 illik yubileyini qeyd edərkən, 1975-ci ilin oktyabr ayını xatırlayıram. O günlər ölməz Səməd Vurğunun ev-muzeyinin təntənəli açılışı oldu. Ötən illər muzey Səməd Vurğunun həyat və yaradıcılığını təbliğ etmək üçün çox iş görüb, xalqımızın, mədəniyyətimizin inkişafına böyük xidmətlər göstərib. Əminəm ki, Səməd Vurğunun ədəbi irsi daim yaşayacaq, muzey ölkəmizin görkəmli mədəniyyət ocağı kimi o şərəfli işə bundan sonra da xidmət edəcəkdir."

01 aprel 1997-ci ildə R.Mustafayev adına İncəsənət Muzeyində Azərbaycanda Rusiya Federasiyasının Mədəniyyət Günlərində Dövlət Tretyakov Qalereyasının kolleksiyasından ibarət sərgidə çıxışında ulu öndər Heydər Əliyev demişdir: "Mən Tretyakov Qalereyasının 25



cildlik kitablar külliyyatından qədim rus rəngkarlığına dair birinci cildi lütfkarlıqla mənə hədiyyə etdiyinə görə, habelə Tretyakov Qalereyası əsərlərinin Bakıda sərgisinə görə Dövlət Tretyakov Qalereyasının direktor müavini Raisa Litvinovaya təşəkkürümü bildirirəm və hesab edirəm ki, bu sərgini əsl mənada böyük hadisə adlandırmaq olar."

Heydər Əliyev 22 aprel 1996-cı ildə Rusiya Federasiyasının Lüksemburqdakı səfirliyi ərazisində böyük Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi önündə çıxış edərkən demişdir: "Hələ Sovet İttifaqının varlığı dövründə, mən Azərbaycanın rəhbəri olarkən SSRİ-nin Lüksemburqdakı səfiri səfirliyin ərazisində yaradılan, qalereya üçün elə bir şey göndərməyi xahiş etdi ki, o, Azərbaycan tarixini və ya mədəniyyətini əks etdirsin. O vaxt biz bu qalereya üçün Nizami Gəncəvinin heykəlini təqdim etməyi lazım bildik. Bunun böyük mənası var. Axı, Nizami Gəncəvi bütün bəşər sivilizasiyasına məxsusdur. Onun dünya sivilizasiyasına, dünya mədəniyyətinə, dünya ədəbiyyatına verdiyi töhfə hamıya məlumdur. Lakin bununla bərabər, o, azərbaycanlıdır. Azərbaycan şairidir. Odur ki, burada həm ümumbəşəri mədəniyyət, ümumbəşəri dəyərlər – hesab edirəm ki, onlar bütün Dünya Birliyinin əsasıdır – həm də milli fərq, milli xarakter vəhdət yaradır. Hər bir xalq ümumbəşəri mədəniyyətə öz töhfəsini vermişdir və verir. Bütün bunlar isə

ümumbəşəri dəyərlər əmələ gətirir. Mən şadam və çox sağ olun ki, bunların hamısı yaxşı vəziyyətdədir. Ümidvaram ki, bundan sonra da belə olacaqdır. Tale elə gətirdi ki, bu səfirlik Rusiyanın səfirliyinə çevrildi. İndiki halda da bu, Rusiya ilə Azərbaycan arasında, xalqlarımız arasında dostluğun rəmzi olacaqdır. Bir baxın, burada nə qədər rəmzlər var. Mən bunların hamısını ümumi sərvətimiz, ümumi dəyərlərimiz hesab edirəm."

Ulu öndər Heydər Əliyev tərəfindən 18 aprel 1998-ci il tarixdə imzalanmış "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununun 51-ci maddəsində göstərilir: "Müvafiq icra hakimiyyəti orqanları xaricdə yaşayan azərbaycanlılarla mədəni əlaqələr yaradır və inkişaf etdirir, o cümlədən onların mədəniyyət və informasiya mərkəzlərinin, fondlarının, təsisatlarının məqsədyönlü fəaliyyətinə köməklik göstərir, bu qurumların Azərbaycan Respublikasında nəşr olunan kitabları əldə etmələri, qəzet və jurnallara abunəçi olmaları üçün şərait yaradılır." Qanunun "Mədəniyyət və milli mədəniyyət əmlakı" adlanan fəslində: "Əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profilli arxivlər və arxiv sənədləri, not yazıları, məktublar. elmi-tarixi yadigarlar və nadir nəşrlərə mədəniyyət sərvətləri statusu verilmişdir."



25 dekabr 1999-cu ildə Prezident sarayında ulu öndərin Rusiya jurnalistlərinin bir qrupu ilə görüşdə çox maraqlı söhbətdə Gennadi Maltsev demişdir: "Biz, indi Sizin gördüyünüz adamlar, Azərbaycanın dostlarıyıq. Öyrəndiklərimiz və gördüklərimizi obyektiv şəkildə çatdırmağa çalışacağıq. Biz yeni çox şey öyrəndik. Sizi dövlət işlərinizdən çox ayırmaq istəmirik. Amma, üzlülük kimi qəbul etməyin, bizə lütfkarlıqla bağışlanmış "Aforizmlər və müdrik kəlamlar" kitabınıza avtoqraf yazardınızmı?

Heydər Əliyev: Bu kitab sizdə haradandır? Mən onu görməmişəm.

Gennadi Maltsev: Bizdəki bu kitab rus və ingilis dillərindədir. Çox maraqlı kitabdır. Bəzi fikirlər biz jurnalistlərin ünvanınadır.[13]

Heydər Əliyev: Haraya imza edim? Bax, buraya qol çəkəcəyəm.

Gennadi Maltsev: Bu, Sizdən bizə Yeni il hədiyyəsidir.

Heydər Əliyev: Kitab hər birinizdə varmı? (*imza edərək*): İndi bizdə hər şey Azərbaycan dilindədir, amma imza keçmişdəki kimi, rus dilində qalmışdır.

[13] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Dekabr, 1999 - fevral. 2000. K.24 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı: 2008. s.101-102.

Gennadi Maltsev: Heydər Əliyeviç, icazə verin, söhbətimizi Sizin bir aforizminizlə tamamlayaq: "Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini və mənəviyyatını dünyaya nümayiş etdirirlər." Zənnimcə, bu aforizm tamamilə Sizə aiddir.

Ümummilli lider Heydər Əliyevin xalq şairi Zəlimxan Yaquba onun 50 illik yubileyi münasibətilə ünvanladığı təbrikdə deyilir: "Siz müasir ədəbiyyatımızda Azərbaycanın zəngin şeir ənənələrini yaşadan şairlər nəslinə mənsub olan sənətkarlardansınız. Xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərlərini, mənəvi məziyyətlərini təcəssüm etdirən şifahi xalq yaradıcılığından ustalıqla bəhrələnməklə siz Azərbaycan poeziyasının inciləri səviyyəsinə qalxa bilən nəzm əsərləri yaratmısınız. Mövzuca rəngarəng və məzmunca dolğun olan şeirləriniz poeziyamızda həmişə yeni səs, yeni söz kimi qəbul edilmişdir. Vətən övladlarının qəhrəmanlıq ruhu, ocaq, yurd həsrəti ilə dolu şeirləriniz sizin əsl vətəndaş mövqeyinizi nümayiş etdirərək gənc nəslə vətənpərvərlik duyğuları aşılayır, nikbin əhvali-ruhiyyə yaradır və gələcəyə ümidləri daha da möhkəmləndirir".

28 noyabr 1999-cu ildə Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl dost ölkənin dövlət başçısının şəxsi təyyarəsi ilə qədim İsparta şəhərinə gəldilər.



İspartanın Süleyman Dəmirəl adına Hava Limanında Azərbaycan və Türkiyə prezidentlərini şəhərin valisi Xəlil İbrahim Daşöz, dövlət və hökumət nümayəndələri, ətraf şəhərlərin valiləri, bələdiyyə başçıları, ictimaiyyətin nümayəndələri hərarətlə, mehribanlıqla qarşıladılar.

Dövlət başçıları hava limanından İspartanın mərkəzində yerləşən Şövkət Dəmirəl adına Kardioloji Mərkəzə gəldilər.

Heydər Əliyev mərkəzin qurucusu, tanınmış iş adamı Şövkət Dəmirələ xatirə hədiyyələri təqdim etdi və dedi:

"Azərbaycan rəssamının bu əsərini sizin tibb mərkəzinə hədiyyə edirəm. Bu, Azərbaycanın Şahdağıdır. Bu da onun ətəyində bitən gözəl ağaclardır. Qoy, bu, məndən hədiyyə olaraq burada qalsın. Bu da onun pasportudur. Yəni bu əsərin rəssamının adı və s. burada vardır. Mən bu kitabı da sizə təqdim edirəm. Bu kitab "Süleyman Dəmirəl: İslamköydən Çankaya köşkünə qədər" adlanır. Bunu mən yaratmışam. Əziz dostum Süleyman Dəmirəlin 75 illik yubileyinə, doğum gününə həsr olunubdur. Türk dilində yazılıbdır, amma bu, Azərbaycanın, mənim yaratdığım əsərdir. Bunları sizə hədiyyə verirəm."

Şövkət Dəmirəl prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirərək dedi: "Cənab prezident, çox

təşəkkür edirəm. Bunların hamısı bizim muzeyimiz üçün çox qiymətli əsərlərdir."[14]

11 aprel 2000-ci il tarixdə Prezident sarayında Türkiyənin "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri ilə görüşdə Akkan Suver demişdir: "Hörmətli cümhurbaşqanı, Siz bizim vəqfin fəxri sədri seçilmisiniz. Mən hər zaman görürəm ki, çiynimdə iki böyük yük var: biri bizim cümhurbaşqanımız Süleyman Dəmirəlin qarşısında, digəri isə Azərbaycanın böyük övladı, zati-aliləri Heydər Əliyevin qarşısında məsuliyyətimdir. Bunu nəzərə alaraq, əgər izn verirsinizsə, fəaliyyətimiz barədə zati-alinizə məlumat vermək istəyirəm. Biz ötən il Baş nazirin, doqquz nazirin və 17 ölkənin nümayəndələrinin iştirakı ilə 2-ci Avrasiya iqtisadi zirvəsini böyük uğurla keçirdik. Azərbaycan bu toplantıya 20 nəfərlik bir heyətlə qatıldı. Siz bu toplantıya çox gözəl bir təbrik göndərdiniz. İqtisadi zirvəyə həsr etdiyimiz kitabda həmin təbriki və Sizin şəklinizi bizim cümhurbaşqanının təbriki ilə birlikdə dərc etmişik. İzn versəniz, mən əvvəlcə bu kitabı zati-alinizə təqdim etmək istərdim".

5 iyul 2000-ci ildə dahi Heydər Əliyev Avstriya Respublikasının paytaxtı Vyana şəhərində yerləşən

[14] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn]. İyun, 2000 - iyul, 2000. K.28 /H. Əliyev; burax. məs. R. Mehdiyev. Bakı: 2009, s.252.



BMT-nin nümayəndəliyinin fəxri qonaqlar kitabında ürək sözlərini belə ifadə etmişdir: "Birləşmiş Millətlər Təşkilatının Vyana qərargahını məmnuniyyətlə ziyarət etdim. Bizim ölkəmiz üçün böyük əhəmiyyətə malik olan məsələlər ətrafında danışıqlar, fikir mübadiləsi apardıq, sənədlər imzaladıq. Azərbaycan BMT ilə bütün sahələrdə əməkdaşlığı xarici siyasətimizin əsas istiqamətlərindən biri hesab edir."[15]

14 oktyabr 1999-cu il tarixdə Naxçıvan şəhərində ulu öndər Heydər Əliyev milli memarlığımızın möhtəşəm abidəsi, XII əsrdə görkəmli Memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı Mömünə Xatun türbəsini ziyarəti zamanı çıxış edərkən demişdir: "Yadımdadır, mən burada yaşayan zaman, gənc vaxtımda, məktəbdə oxuyanda gəlib bunun ətrafında gəzirdim. Məktəbdə oxuyanda çoxlu rəsm çəkirdim, buna həvəsim vardı, rəssam olmaq istəyirdim. Onda memar nə olduğunu heç başa düşmürdüm. Ancaq rəsm çəkdiyimə görə axtarır, gözəl yerləri çəkirdim. Məsələn, Haçadağı, Naxçıvanın başqa yerlərini çəkirdim. Mömünə Xatun türbəsini bir neçə variantda çəkmişəm. Çox təəssüf edirəm, mən Bakıya, oradan Leninqrada, Moskvaya gedəndən sonra buradakı ki-

[15] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn] İyul, 2000 - sentyabr, 2000. K.29 /H. Əliyev; burax. məs. R. Mehdiyev. Bakı: 2009, s.64.

tablarım, çəkdiyim şəkillər hamısı dağıldı. Təəssüf edirəm. Akvarellə çəkdiyim çox gözəl şəkillərim vardı."

4 oktyabr 1999-cu il tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Görkəmli səyyah və alim Tur Heyerdala" təbrik məktubunda deyilir: "Hörmətli Tur Heyerdal, sizi – dünya şöhrətli səyyahı və alimi, Azərbaycanın böyük dostunu anadan olmağınızın 85 illiyi münasibətilə ürəkdən təbrik edirəm. Tədqiqatlarınızı, Azərbaycanın qədim maddi mədəniyyət abidələrinin, Azərbaycan-Norveç tarixi əlaqələrinin araşdırılması və təbliği ilə bağlı fəaliyyətinizi yüksək qiymətləndirirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar arzulayıram."

Görkəmli səyyah Tur Heyerdalı Prezident sarayında qəbul edərkən ulu öndər demişdir: "Xoş gəlmisiniz! Budəfəki ziyarətinizin səbəbləri haqqında bir az bilirəm, amma istərdim ki, siz mənə deyəsiniz.

Tur Heyerdal: Cənab Prezident, məhz o dövrdən Qərbdə əldə etdiyim çoxsaylı dostlarla bərabər, Şərqdə də çoxlu dost tapmağa başladım və məni o vaxtlar Azərbaycan Elmlər Akademiyasına dəvət etdilər. Biz hamımız bilirdik ki, Azərbaycan Elmlər Akademiyası Coğrafiya İnstitutunun direktoru akademik Həsən Əliyev ölkə rəhbərinin qardaşı idi. Qəribədir ki, ilkin vaxtda, tez bir zamanda onunla yaxından dostlaşdıq. Onu da deyim ki, Sizin qardaşınızla bərabər mən Azərbaycanın rayonlarını



ziyarət etdim, ayrı-ayrı bölgələrində oldum və bizim ölkələr arasındakı əlaqələrin lap qədim köklərə malik olması barədə ilk fikirləri məhz ondan öyrəndim. Onun təşəbbüsü ilə mən Qobustana getdim, oradakı yazılarla tanış oldum və beləliklə, Norveçdə olan bu qəbildən yazılarla onları müqayisə etməyə başladım. Sonralar sizin ölkənizi dəfələrlə ziyarətlərim sayəsində belə qənaətə gəlməyə başladım ki, çox güman, ölkələrimiz arasında çay sistemləri vasitəsilə - Xəzər dənizindən Volqa, Don çaylarına keçmək və oradan da Baltik dənizi vasitəsilə Norveçlə təmasların olması köklərini araşdırmağım lazımdır.

Onu da deyim ki, İslandiya adlı balaca bir ada mənim diqqətimi Azərbaycana yönəltdi. O vaxt İslandiyanın prezidenti məni və xanımım Jaklini öz ölkəsinə dəvət etdi və yenicə tərcümə olunmuş sağalar ilə tanış olmağımızı xahiş etdi. Bu tanışlıqdan sonra qənaətim getdikcə daha da dolğunlaşmağa və yaqinləşməyə başladı ki, 800 il bundan öncə İslandiya ilə bu bölgə - Qafqaz arasında və türklərin torpaqları olan bu ərazilər arasında coğrafi baxımdan yaxınlıq olmuşdur. Sonrakı tədqiqatlar bilavasitə sübut etdi ki, hələ vikinqlərin dövründə indiki ölkələrimiz arasında təmaslar və əlaqələr mövcud olmuşdur. İslandiya IX əsrdə Norveçdən ayrılmışdır. O dövrdən etibarən İslandiya ilə əlaqədar olan bütün sənədlər qorunub saxlanılmışdır.

Beləliklə, Azərbaycana indiki səfərimin əsas məqsədi sizin alimlərlə birgə çalışaraq, onlarla vikinqlərdən daha əvvələ aid tarixdə Azərbaycan barədə hansı məlumatların olduğu ilə tanış olmaq, bu sahədə onlarla əməkdaşlıq etməkdir. Burada əldə etdiyim məlumatlar nəticəsində belə qənaətə gəlmişəm ki, Skandinaviya ölkələrində mövcud olan kral ailələri öz mənşələrini məhz Azərbaycandan götürmüşdür. Onların əcdadları bizim eramızdan əvvəl birinci əsrdə və yaxud bizim eramızdan sonra bu məmləkətdən, ölkədən törəmiş, çıxmışlar.

Cənab Prezident, bütün bunlarla bərabər, onu da deməyi özümə borc bilirəm ki, Sizinlə tanış olmaq şərəfinə nail olduqdan sonra ölkələrimiz arasındakı əlaqələrin belə geniş səpkidə inkişaf etməsi və güclənməsi məni çox sevindirir. Çox məmnunam ki, ölkələrimiz arasında getdikcə daha çox və sıx əlaqələr yaranmaqdadır.

Bilirəm ki, Sizin ölkənizdə bütün səviyyələrdən tutmuş, yuxarı – hökumət səviyyələrinə qədər olan adamlar arasında dövlətimiz barədə məlumatlar daha geniş yayılır və ölkəmizlə tanışlıq daha da artmışdır. Eyni sözləri norveçlilər barəsində də deyə bilərəm. Onu da söyləyim ki, məhz sizin Norveçə rəsmi səfərinizdən sonra ölkəmizdə Azərbaycan haqqında məlumatlar daha geniş yayılmışdır. İndi insanlar Azərbaycanı daha yaxşı tanıyırlar.



Ölkəmizin kralı ilə məxsusi söhbətim zamanı o, mənə Sizinlə keçirdiyi görüşü yaxşı xatırladığını söylədi və xahiş etdi ki, Sizi bir daha görsəm, onun şəxsi salamını sizə yetirim.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Mən sizin dediyiniz bütün sözlərlə tamamilə razıyam. Bizim ölkəyə və onun tarixinə maraq göstərməyinizi yüksək qiymətləndirirəm.

Təbiidir, dünyanın böyük alimi kimi, böyük səyyahı kimi, siz birinci növbədə öz xalqınızın əcdadlarının haradan gəlməsini arayırsınız və axtarışlar apararaq gəlib bunun izlərini Azərbaycanda tapmısınız. Təbiidir ki, sizin axtarışlarınız, elmi tədqiqatlarınız, arxeoloji tədbirləriniz Azərbaycan alimləri ilə müştərək olmalıdır və elmi axtarışların nəticələri də bir-birinə uyğun olmalıdır."[16]

12 aprel 2002-ci il tarixdə "STATOYL" şirkətinin nümayəndə heyəti ilə görüşdə səmimi qəbula görə dövlətimizin başçısına təşəkkürünü bildirən Norveçin Bakıdakı səfiri Steinar Gil bu il ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmasının və "Statoyl"un Azərbaycanda fəaliyyətinin on illiyinin qeyd ediləcəyini söy-

---

[16] Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn] İyul, 2000 - sentyabr, 2000. K.: 29 /H. Əliyev; burax. məs. R. Mehdiyev.- Bakı, 2009.- S.432.

lədi. Məşhur səyyah Tur Heyerdalın ciddi xəstə olduğunu bildirən səfir dedi ki, cənab Prezident, ölkəmizin neft sənayesi və energetika naziri bütün Azərbaycanın dostu cənab Heyerdal son kitabını Sizə hədiyyə göndərib və kitabın ön səhifəsində ən xoş arzularını yazmışdır. Səfir Tur Heyerdalın kitabını Prezident Heydər Əliyevə təqdim etmişdir.[17] Ətraflı məlumata görə qonaqlara təşəkkür edən, Tur Heyerdalın xəstələnməsindən çox kədərləndiyini bildirən Prezident Heydər Əliyev dostunun səhhətinin yaxşılaşmasını arzuladı və onun kitabını əldə etməsindən məmnunluğunu söylədi. Dövlətimizin başçısı dedi: "Norveç ilə Azərbaycan arasındakı əlaqələr, indiyə qədər olduğu kimi, bundan sonra da yüksək səviyyədə olacaqdır. Bu bizim siyasətimizdir, arzumuzdur. Bilirəm ki, Norveç hökuməti də məhz belə siyasət aparır."

Ulu öndər, dahi Heydər Əliyev "Kitabi-Dədə Qorqud" Ensiklopediyasına ön söz əvəzi "Milli varlığımızın mötəbər qaynağı" akademik yazısında deyir: "Müstəqilliyin qarşımızda qoyduğu vəzifələr çoxdur. Biz hüquqi, demokratik dövlət quruculuğu yolu ilə inamla addımlayaraq siyasi islahatları həyata keçiririk, iqtisadiyyatı in-

[17]Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn] Iyul, 2000 - sentyabr, 2000. K.: 29 /H. Əliyev; burax. məs. R. Mehdiyev. K.38. Bakı: 2011, s.111-112.



kişaf etdiririk, dövlətimizi möhkəmləndiririk. Bununla yanaşı, son illərdə müstəqilliyin imkanlarından istifadə edərək tariximizi təhlil etmək, ədəbiyyatımızı, mədəniyyətimizi yenidən dərk etmək və dünyaya nümayiş etdirmək sahəsində çox işlər görülmüşdür. Sözsüz ki, bu istiqamətdə bundan belə də qarşımızda duran mühüm problemlər çoxdur və ümidvaram ki, biz onları həll edə biləcəyik. Bu genişmiqyaslı planların mərhələ-mərhələ gerçəkləşdirilməsi Azərbaycanın müstəqil dövlət kimi dünyada daha yaxşı tanınmasına kömək edəcəkdir. Əlbəttə ki, "Kitabi-Dədə Qorqud" ensiklopediyasının nəşri də həmin ali məqsədə xidmət edən bir amil olacaqdır.[18]

Bütün sahələrin bilicisi, dahi insan Heydər Əliyev Azərbaycan kitab mədəniyyətinin dünya miqyasında yüksək zirvədə olduğunu belə dəqiqləşdirir: "Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir. Böyüyə hörmət, ata-anaya məhəbbət, iman və etiqad, namus və qeyrət, ailəyə, torpağa, vətənə sədaqət – bu insani keyfiyyətlər, mənəvi məziyyətlər Qorqud övladlarının qanına ana südü ilə ata nəfəsi ilə birlikdə daxil olur və son mənzilə qədər də onlarla birlikdə gedir. Dədə Qorqud dünyasındakı milli dəyərlər, stereotiplər, rituallar sistemi əslində hər bir azərbaycanlının varlığının ayrılmaz hissəsidir. Müasir dövrdə azərbaycanlıların men-

[18] Heydər Əliyev. Milli varlığımızın mötəbər qaynağı: "Kitabi-Dədə Qorqud" Ensiklopediyası: 2 cilddə. Bakı: Yeni nəşrlər evi, 2000, s.4-6.

talitetində milli və ümumbəşəri dəyərlərin yerinin müəyyənləşdirilməsi də Dədə Qorqudun etik prinsiplərindən çıxış etməklə gerçəkləşir."[19]

Ümummilli lider Heydər Əliyev qeyd edir ki, "Kitabi-Dədə Qorqud" ensiklopediyası, ilk növbədə, gənc nəslə ünvanlanan bir kitabdır. Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur duymağa başlayır və sözsüz ki, bununla fəxr edir.

Ulu öndər ana kitabı adlandırdığı bu mötəbər abidəni belə xarakterizə edir: "Azərbaycan xalqının tarixinin, etnik yaddaşının, arxaik təfəkkürünün güzgüsü olan "Kitabi-Dədə Qorqud" nitqimizin, dilimizin, mənəviyyatımızın, ruhumuzun nəğməsi kimi də böyük mədəni-estetik əhəmiyyət kəsb edir. Kitab elə bir qüdrətə malikdir ki, özündən sonra gələn söz sənətimiz, ozan-aşıq sənətimiz, yazılı ədəbiyyatımız onun təsirindən kənarda qala

[19] Heydər Əliyev. Milli varlığımızın mötəbər qaynağı: "Kitabi-Dədə Qorqud" Ensiklopediyası: 2 cilddə.- Bakı: yeni nəşrlər evi, 2000.- S.4-6.



bilməmişdir. Ensiklopediya da "Kitabi-Dədə Qorqud"un bu təsir gücünü əyani şəkildə nümayiş etdirir."

Dahi öndər dünya mədəniyyəti ilə Azərbaycan mədəniyyətinin ümumdünya sivilizasiyası zəminində formalaşdığını orijinal tərzdə ümumiləşdirir: "Bəli, burada bəzi təsadüflərdən də söhbət açmaq olar. Məsələn, Dits Drezden kitabxanasında əlyazmaya rast gəlməsəydi, Bartold Almaniyada təhsil almasaydı və həmin dövrdə Nejdeke ilə rastlaşmasaydı və sairə. Lakin burada bir qanunauyğunluq da vardır. Bu, ayrı-ayrı xalqların elminin, mədəniyyətinin və ədəbiyyatının ümumdünya sivilizasiyası zəminində formalaşdığını bir daha əyani şəkildə təsbit edir.

Dünyada "Avropa renessansı" adı ilə tanınan böyük hərəkatın təməlində də əslində belə qanunauyğunluq durur. Məhz Şərqin mədəniyyət mərkəzləri yunan-Roma elm və incəsənətinin incilərini qoruyub inkişaf etdirərək onu Qərbə mütəşəkkil bir şəkildə qaytarmışdır. Bu baxımdan "Kitabi-Dədə Qorqud"un XX əsrin ortalarından Azərbaycana qayıdışını da qorqudşünaslıqda bir renessans, bir intibah dövrünün başlanğıcı kimi qiymətləndirmək olar."

Ulu öndərin bütünlükdə Azərbaycan mədəniyyətinin, o cümlədən kitab mədəniyyətinin tərəqqisinə xidmət edəcək dahiyanə fikirləri insanı riqqətə gətirir: "Kitabi-Dədə Qorqud"un elmi nöqteyi-nəzərdən tədqiq edilməsi

bizim üçün çox lazımdır. Təbiidir, hamımız bilirik ki, hər bir tarixi hadisəni elmi kitablardan da tapıb oxumaq olar. Lakin hər bir insan elmi kitablardan istifadə edə bilmir. Son onilliklərin təcrübəsi onu göstərir ki, geniş kütlə, xalq üçün tarixi hadisələri izah, təbliğ etməkdən ötrü ən gözəl vasitə onlar haqqında filmlərin, səhnə əsərlərinin yaradılmasıdır. Məsələn, Üzeyir Hacıbəyov vaxtilə "Koroğlu" operasını yaradana qədər, bəlkə də, xalqımız Koroğlunu bu qədər dərindən dərk edə bilmirdi. Ancaq Üzeyir Hacıbəyovun yaratdığı "Koroğlu" operası və onun səhnəmizdə çox gözəl şəkildə təqdim olunması indi Koroğlu obrazının və "Koroğlu" dastanının məzmununu, mənasını hamımız üçün çox gözəl göstərir. İndi hər birimizdən soruşsalar ki, Koroğlu kimdir, mərhum böyük müğənnimiz Bülbülün səhnədə yaratdığı Koroğlu obrazı yada düşür. Yaxud Səməd Vurğunun Vaqif haqqında yazdığı pyes Vaqifi geniş kütləyə tanıdıbdır. Vaqifin şeirləri, əsərləri tanınırdı, amma o qədər də geniş yox. Şeirlərini oxuyurduq, lakin Vaqifin kim olduğu, onun həyatı, tərcümeyi-halı, yaradıcılığı haqqında geniş məlumat yox idi. Xatirimdədir, mən orta məktəbdə oxuyarkən "Ədəbiyyat müntəxəbatı" kitabında Vaqif haqqında bir-iki səhifə məlumat və şeirləri var idi. Biz orta məktəbdə oxuyarkən Vaqifin "Bayram oldu, heç bilmirəm neyləyim" şeirini öyrənmişdik. Mənim orta məktəbdən yadımda qalan odur. Amma "Vaqif" pyesini görən-



dən sonra Ələsgər Ələkbərovun ifasında Vaqifin surəti də, eyni zamanda, Vaqif də bizə məlum oldu.

Məhz "Kitabi-Dədə Qorqud"un təbliği baxımından Anarın xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Bəlkə də, Anar uşaqlar üçün Dədə Qorqud haqqında kitab yazanda, yaxud Qorqudla bağlı başqa kitablarını yazanda çoxları bunun nə qədər əhəmiyyətli olduğunu o dərəcədə dərk edə bilmirdilər. Amma indi biz artıq öz milli dəyərlərimizi, köklərimizi, tariximizi olduğu kimi təsvir etməyə çalışarkən vaxtilə atılmış belə addımların nə qədər qiymətli olduğunu dərk edirik. Mən Anarın bu münasibətlə yaratdığı filmi də qiymətləndirirəm. Təqdirəlayiqdir ki, "Kitabi-Dədə Qorqud" ensiklopediyasının yaranma ideyası da məhz Anara məxsusdur."[20]

Ulu Öndər qeyd edir ki, "1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında fərman imzaladım. Fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o, "Kitabi-Dədə Qorqud" dastanının ən azı 1300 il yaşı olduğunu dünyaya nümayiş etdirdi. Bu fərmanla biz bildirdik ki, "Kitabi-Dədə Qorqud" dastanı bütün türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir. Fərmana əsasən yaradılmış Dövlət Komissiyası yubileyin yüksək səviyyədə keçirilməsi üçün geniş

[20] Heydər Əliyev. Milli varlığımızın mötəbər qaynağı: "Kitabi-Dədə Qorqud" ensiklopediyası: 2 cilddə. Bakı: Yeni nəşrlər evi, 2000. s.11.

tədbirlər planı hazırladı. Həmin fərman verilən gündən keçən müddət ərzində planda nəzərdə tutulmuş bir çox işlər uğurla həyata keçirilmiş, sanballı kitablar çap olunmuşdur. Fərman bir çox gələcək illər, onillər üçün böyük perspektiv açmışdır. Bu tədbirlər, nəşrlər içərisində ən önəmlisinin "Dədə Qorqud" ensiklopediyası olduğunu desəm, zənnimcə, yanılmaram."[21]

Akademik ön sözün sonunda dahi Heydər Əliyev qeyd edir ki, "Ensiklopediya gənc qorqudşünas-alimlər yetişdirilməsi üçün əsas ilkin mənbələrdən biri olacaqdır. O, geniş oxucu kütlələrinin faydalana biləcəyi məlumatları da əhatə etdiyinə görə "Kitabi-Dədə Qorqud"un xalq arasında geniş təbliğ olunmasına imkan yaradacaqdır. Ensiklopediya Azərbaycanın dövlət müstəqilliyinin bəhrələrindəndir. Onun məhz müstəqillik dövründə yaranması da olduqca önəmlidir. Biz indi sərbəstik, azadıq, müstəqilik, biz tariximizi olduğu kimi tədqiq edirik və bundan sonra da edəcəyik. Biz öz tariximizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Həqiqətən də, "Kitabi-Dədə Qorqud" dastanı kimi böyük elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər."[22]

[21] Heydər Əliyev. Milli varlığımızın mötəbər qaynağı: "Kitabi-Dədə Qorqud" Ensiklopediyası: 2 cilddə.- Bakı: Yeni nəşrlər evi, 2000, s.12.
[22] Yenə orada.



"Kitabi-Dədə Qorqud" ensiklopediyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi ilə bağlı fərman və sərəncam, Dövlət Komissiyasının işi, yubileyin ümumdünya miqyasında keçirilməsi barədə UNESCO-nun qərarı haqqında məlumat da verilmişdir. Bununla yanaşı, "Kitabi-Dədə Qorqud"la bağlı keçirilmiş elmi konfrans, simpozium, seminar və digər tədbirlər haqqında da məlumatlar vardır. İkinci cildin sonunda isə yenə də qorqudşünaslıq tarixində ilk dəfə olaraq "Kitabi-Dədə Qorqud" haqqında biblioqrafiya təqdim edilmişdir.

Respublikamızın ictimai-siyasi həyatında baş verən mühüm, önəmli proseslər, iqtisadiyyatımızın inkişafı istiqamətində aparılan islahatlar, xarici siyasətlə bağlı görülən təxirəsalınmaz tədbirlər Heydər Əliyevin elm, təhsil, ədəbiyyat və mədəniyyət sahələrindəki fəaliyyəti ilə də şərtlənir.

Onlarca müğənni, rəssam, bəstəkar və şair məhz onun qayğısı nəticəsində ucaldı və dünya şöhrəti qazandılar. Heydər Əliyevin gördüyü bu işlər, ilk növbədə, Azərbaycan xalqının milli ruhunu, milli oyanışını təmin etdi. Heydər Əliyevin misilsiz zəhməti və vətənpərvərliyi sayəsində Azərbaycan dili dövlət dili statusu ilə 1978-ci il Konstitusiyasına salındı.

1970-1982-ci illərdə – Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə respublikamızın mədəniyyət və elm xadimlərinin 10 nəfərdən çoxu ən yüksək ada – Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza, Mirzə İbrahimov, Fikrət Əmirov, Qara Qarayev, Niyazi, Rəşid Behbudov, Mustafa Topçubaşov, Mikayıl Hüseynov kimi böyük sənətkarlar dünya şöhrəti qazandı.

Heydər Əliyevin mədəniyyətimizə, tariximizə olan yüksək məhəbbətinin rəmzi kimi Bakının görkəmli yerlərində İmadəddin Nəsiminin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Mehdi Hüseynzadənin, Səttar Bəhlulzadənin, Nəriman Nərimanovun və b. görkəmli şəxsiyyətlərin əzəmətli heykəlləri ucaldıldı. Molla Pənah Vaqifin Şuşada məqbərəsi tikildi.

16 yanvar 2001-ci ildə Prezident sarayında Heydər Əliyev TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələri ilə görüşdə demişdir: "Bu da çox əhəmiyyətlidir. Amma siz isə, bir də qeyd edirəm, bizim türkdilli xalqların ən incə və vacib işi ilə məşğulsunuz. Ticarət bu gün də, sabah da var. Bu, ola bilər ki, türkdilli, başqa dilli dövlətlə olsun – ticarət elə ticarətdir. Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin – bunların böyük tarixi və dərin kökləri vardır."[23]

"Bizim ədəbiyyatımız, musiqimiz, tarixi köklərimizi sübut edən əsərlərimiz – bunların hamısı təbiidir ki, çox böyük əhəmiyyətə malikdir. Məsələn, biz keçən il "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini keçirdik. Bütün türkdilli dövlətlərdən, təkcə türkdilli dövlətlərdən yox, bir çox ölkələrdən, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Biz "Kitabi-Dədə Qorqud" haqqında, demək olar ki, o bir il içərisində öyrəndiyimizin heç on faizini də bilmirdik. Amma indi "Kitabi-Dədə Qorqud" hamı üçün ulu babadır. Birisi Dədəm Qorqud deyir, biri Ata Qorqud deyir, digəri Dədə Qorqud deyir. Yaxud da ki, bir neçə il bundan öncə biz yenə də hamımıza mənsub olan Füzulinin yubileyini keçirdik. Çox dəyərli bir hadisə oldu. Mən Azərbaycanda keçirilənləri deyirəm. Qazaxıstanda da, Özbəkistanda da çox gözəl tədbirlər keçirilibdir. Qırğızıstanda "Manas"ın minillik yubileyini keçirdik. Türkmənistanda da belə tədbirlər olmuşdur. Ona görə də sizin gördüyünüz işlər xalqlarımız üçün ən dəyərli işlərdir. Bu münasibətlə sizə təşəkkür edirəm, sizi təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu təşkilat yaşayacaq, inkişaf

[23] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir [Mətn]: K.31. Noyabr 2000-yanvar 2001. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Məruzələr. Müraciətlər. Fərmanlar.-Bakı: Azərnəşr, 2010, s.96.

edəcək və gələcək nəsillər üçün çox yeni şeylər yaradacaqdır."[24]

2 may 2002-ci il tarixdə Bakıda keçirilən "Azərbaycan milli-mədəni və təbii irsinin qorunub saxlanılması – Milli Parklar Proqramı" Beynəlxalq Konfransının iştirakçıları ilə görüşdə Mixail Zukkov (Almaniyanın Mixail Zukkov adına Təbiəti Mühafizə Fondu Şurasının sədri) demişdir:

"Cənab Prezident, mən Sizə iki kitab təqdim etmək istəyirəm. Bunlardan biri Avrasiyada təbiətin mühafizəsinə həsr olunmuş kitabdır. Həmin kitabda keçirilən konfranslar öz əksini tapmışdır. İkincisi isə mənim Sizə şəxsi hədiyyəmdir. Mən ADR-də təbiəti mühafizə nazirinin müavini işləmişəm və park proqramını işləyib hazırlayanlardan biriyəm ki, bu, Almaniyanın birləşməsindən sonra bütün ölkəmizə şamil edildi. Bu kitabda təbiəti mühafizə sahəsində görülən işlər barədə məlumat və bununla bağlı sənədlər verilmişdir. Ən nəhayət, Sizə sadə bir hədiyyəni təqdim etmək istəyirəm. Bu, Azərbaycan dilində tərtib olunmuşdur və cənab Bağırovla (Azərbaycan Respublikasımn Ekologiya və Təbii Sərvətlər Nazi-

[24] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir [Mətn]: K.31. Noyabr 2000-yanvar 2001. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Məruzələr. Müraciətlər. Fərmanlar.-Bakı: Azərnəşr, 2010, S.98.



ri) görəcəyimiz işin proqramıdır. Bu bizim gələcəkdə də fəaliyyətimizin proqramı hesab edilə bilər."[25]

6 iyul 2001-ci il tarixdə Prezident sarayında müstəqil Azərbaycanın ali mükafatlarının təqdim olunma mərasimindəki çıxışında Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin inkişafına xüsusi diqqətini və misilsiz qayğısını Ulu Öndər belə ifadə edir: "Bu gün bu ordenlərin təqdim olunması mərasimi mənim üçün, eyni zamanda Azərbaycanın çox görkəmli şəxsiyyətləri ilə görüşümün əksidir. Siz görürsünüz ki, burada tam səmimi və bəlkə də, qeyri-rəsmi, sadə bir əhvali-ruhiyyə hökm sürür. Bunun da səbəbi ondan ibarətdir ki, Azərbaycanın prezidenti olaraq mən, eyni zamanda, heç prezident olmasam da, hələ gənc vaxtlarımda elmə, mədəniyyətə, təhsilə həmişə yüksək qiymət vermişəm. Keçmişdə Azərbaycanda işlədiyim illərdə, yaxud Sovetlər Birliyinin rəhbərliyində olduğum dövrdə və indi son səkkiz ildə Azərbaycanın prezidenti vəzifəsini daşıyaraq, mən bu sahələri həmişə özüm üçün öncül sahə, yəni xüsusi əhəmiyyət kəsb edən sahə hesab etmişəm. Ona görə də bu gün buradakı görüş, aldığınız mükafatlar sizi nə qədər sevindirirsə – mən mükafat almıram – sizinlə görüşmək,

[25] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- Mart, 2002 - may, 2001 /H. Əliyev; burax. məs. R. Mehdiyev K.38.- Bakı: Azərnəşr , 2011, s.220-221.

sizi yenidən belə yaxından görmək, sizinlə danışmaq, söhbət etmək, hətta zarafat etmək məni də sevindirir."[26]

9 avqust 2001-ci il tarixdə ulu öndərin imzaladığı Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında sərəncamda deyilir: "Qədim və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsilə Qobustan və Gəmiqaya təsvirləri, həmçinin epiqrafik abidələr şəklində daşların yaddaşına həkk olunaraq günümüzədək yaşamışdır. Tarixi faktlar sübut edir ki, bu qiymətli əsərləri yaradarkən Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə etmişdir.

İslamın yayıldığı dövrlərdən isə xalqımız ərəb əlifbasından istifadə yolu ilə min ildən artıq bir zaman ərzində tariximizin ən yeni mərhələsinədək zəngin mədəni irs yaratmışdır. Ərəb əlifbası yüz illər boyu geniş məkanda müsəlman Şərqi xalqlarının ümumi yazı sistemi kimi formalaşmışdır. Böyük Azərbaycan ədibləri, alimləri, mütəfəkkirləri islam mədəniyyətinin təşəkkül tapıb inkişaf etməsində mühüm rol oynayaraq bəşər sivilizasiyasını zənginləşdirmişlər. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqəsinə xidmət edən ərəb qrafikasının dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilməməsi, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmaması XIX əsrin ikinci yarısından etibarən Mirzə Fətəli Axundov başda olmaqla, dövrün mütərəqqi, maarifçi ziyalılarını əlifba islahatı problemi üzərində düşünməyə vadar etmişdir."[27]

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni əlifba komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtibinin tapşırılması yeni qrafikaya keçilməsi yolunda atılmış ilk ciddi addım idi. 1923-cü ildən etibarən latın qrafikalı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş birinci Ümumittifaq Türkoloji qurultayın tövsiyələrinə cavab olaraq, 1929-cu ildə yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Qısa bir müddət ərzində latın qrafikasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq, həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu. Yarım əsrdən çox bir müddət

[26]Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- Mart, 2002 - may, 2001 /H. Əliyev; burax. məs. R. Mehdiyev.- Bakı: Azərnəşr, 2011, K.35, s.131.

[27]Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- İyun, 2001 - avqust, 2001 /H. Əliyev; burax. məs. R. Mehdiyev K.35.-Bakı: Azərnəşr, 2011, s.341-342.

ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı.

Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının qəbul olunması ilə nəticələndi.

Sərəncamda daha sonra qeyd olunur ki, hər il avqust ayının 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilsin.

28 dekabr 1994-cü ildə Heydər Əliyev böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin ev-muzeyinin açılışı mərasimində çıxış edərkən xüsusi vurğulamışdır: "Bakı şəhərində yeni mədəniyyət ocağı, Mirzə Cəlil ocağı fəaliyyətə başlayır. Bu, C.Məmmədquluzadənin yaradıcılığına, onun ədəbi, mədəni irsinə, onun xalqımızın tarixində əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin rəmzidir. Şübhə yoxdur ki, muzey Mirzə Cəlil dühasının geniş təbliğinə faydalı xidmət edəcəkdir. Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə kömək edəcəkdir."[28]

"Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" kimi dahiyanə məktəb yaradıbdır və bizə böyük mənəvi irs

[28]Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Dekabr, 1994 - iyun, 1995. K. 3 /H.Ə.Əliyev; Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov .- Bakı: Azərnəşr, 1997, s.25.



qoyub gedibdir. Mirzə Cəlilin bu xidmətləri bizim üçün, dediyim kimi, bu gün də çox qiymətlidir. Biz bundan çox güclü istifadə etməliyik. Çünki hələ "Anamın kitabı"nda yazılan, təsvir olunan meyillər bu gün də cəmiyyətimizdə özünü büruzə verir."[29]

Həmin gün Respublika sarayında böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr edilmiş yubiley gecəsində ulu öndər nitqində belə vurğulayırdı: "Burada deyildi ki, "Molla Nəsrəddin" jurnalının faksimilesi on iki cilddən ibarətdir. Təəssüf ki, on il bundan öncə onun cəmi bir cildi buraxılıbdır, indiyə qədər qalanları çap edilməyibdir. Etiraf etmək lazımdır ki, 10 il bundan qabaq bunun hamısını bir ildə buraxmaq olardı. Beş il bundan qabaq da bunu buraxmaq asan olardı. Amma indi bunlar çətinləşibdir. Buna baxmayaraq, biz buna əməl etməliyik və geniş yaymalıyıq ki, xalqımız Mirzə Cəlil dühasından bəhrələnərək mənəviyyatca daha da saf olsun, mənəvi dəyərlərimiz daha da möhkəmlənsin."[30]

"Bizim xalqımız çoxəsrlik tarixində böyük şairlər, yazıçılar, mütəfəkkirlər yetişdiribdir. Xalqımızın tarixi çox zəngindir. Ancaq biz tariximizin qədim dövrlərini

[29] Yenə orada.- S.76.

[30] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. Dekabr, 1994 - iyun, 1995. K. 3 /H.Ə.Əliyev; Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov .-Bakı: "Azərnəşr", 1997, s.78.

xatırlayarkən, yaxud onları cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik.

Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar."

Azərbaycan yazıçılarının X qurultayında dahi öndər bildirirdi: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm. Bu gün sizə deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam. Bəlkə də bu əsərlərin bəzilərini ondan sonra oxumamışam, ancaq o illərdə - o uşaqlıq, gənclik illərində onlar mənə o qədər



təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam."[31]

Ümummilli Lider xüsusi vurğulayırdı ki, "Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da - intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız - ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var. Bunu yaradanlar bizim xalqın insanlarıdır. Onlar bəşər mədəniyyətini əsrlərdən əsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar.

Nizami, Xaqani, Nəsimi, Füzuli, Vaqif, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov – bunlar hamısı XX əsrə qədər yaşayıb-yaradıblar. Amma XX əsrdə də bizim böyük şəxsiyyətlərimiz olubdur. XIX əsrin sonu, XX əsrin əvvəli Azərbaycan ədəbiyyatının çox böyük, zəngin bir dövrü olubdur. Bu gün ədəbiyyatımız haqqında danışarkən biz bu dövrü çox yüksək qiymətləndirməliyik."

---

[31] Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr. 1997 - dekabr. 1997. K. 13 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev.- B.: Azərnəşr. 2004.- S.98-99.

7 noyabr 1997-ci il tarixdə Azərbaycan Milli Dram Teatrında Heydər Əliyev Xalq şairi Bəxtiyar Vahabzadənin "Hara gedir bu dünya?!" pyesinin tamaşasından sonra yaradıcı kollektivin üzvləri ilə görüşündə demişdir: "Bəxtiyar Vahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir. Bəxtiyar Vahabzadə adətən şeirlər, poemalar yazır, ancaq bir neçə səhnə əsəri də yaradıbdır. O, 1970-ci illərdə də çox uğurlu əsərlər yazmışdı, 1991-ci ildə də belə bir əsər yaradıbdır."[32]

"Mən Bəxtiyar müəllimə bildirmək istəyirəm – bu əsərdə bəzən bir az ümidsizlik hiss olunur. Ümidsizlik olmamalıdır. Cəmiyyət, insan ümidlə yaşamalıdır. İnsan ümidlə yaşamalıdır ki, cəmiyyət mənfi hallardan xilas olsun. Biz bəlkə də buna nail ola bilməyəcəyik. Amma gələcək nəsillər buna mütləq nail olacaqlar."[33]

Burada Ulu Öndər özünəməxsus uzaqgörənliklə vurğulayır: "Bəxtiyar müəllim, mən sizi bir daha təbrik edirəm. Çox gözəl bir əsər yaratmısınız. Bu vacibdir. Bu mövzu bu gün də, on il bundan sonra da aktual olacaqdır. Mən bədbin deyiləm, nikbinəm və bu əsərin ümid-

[32] Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr, 1997 - dekabr, 1997. K. 13 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev.- B.: Azərnəşr. 2004.- S.167.
[33] Yenə orada: S.171.



sizlik nüansları, notları ilə də razı deyiləm. Çünki insan ümidlə yaşamalıdır. İnsan inanmalıdır ki, hər şeyə nail olmaq – cəmiyyəti də düzəltmək, insanların əxlaqındakı mənfi cəhətlərdən də insanı xilas etmək, onu tam mükəmməl etmək olar. Bizim borcumuz mükəmməl insan, mükəmməl insan cəmiyyəti yaratmaqdır və bunun uğrunda mübarizə aparmaq lazımdır. Bax, bu əsər də bütün bunlara kömək edir."[34]

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.[35] Vaxtilə Nizaminin də portreti yox idi, amma yarandı. Bilirsiniz, yubileydə Dədə Qorqudun portretinin hazır olmaması heç də mümkün

[34] Yenə orada.
[35] Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Azərbaycan.- 21 yanvar.- 2013.- S.1.

deyildir. Sizin verdiyiniz bu medallarda da Dədə Qorqud şəkli var. İndi Dədə Qorqudu kim necə istəyir, o cür də çəkir. Amma yaramaz. Məsələn, Füzulinin bizə məlum olan portreti 1930-cu illərdə çəkilmişdi. Mən yenə də orta məktəb dövrünü yada salıram. O vaxt rəsmlə çox məşğul olurdum. Mən 1938-ci ildə Füzulinin həmin portretinə baxıb, onu boya ilə çəkmişəm. Bu, mənim yaxşı yadımdadır. Bu portret var idi, özü də rəngli idi. Yəni Füzulinin rəngli portreti var idi.

Nizaminin portretini 1947-ci ildə Qəzənfər Xalıqov yaradıbdır, heykəlini də Fuad Əbdürrəhmanov yaradıbdır. Nəsiminin portretini Mikayıl Abdullayev, heykəlini isə Tokay Məmmədovla İbrahim Zeynalov yaradıbdır. Yəni bunlar hamısı gözümüzün qabağında olmuş işlərdir.

Təsəvvür edin, biz "Kitabi-Dədə Qorqud" dastanının yubileyinə gəlirik. Dədə Qorqudun portreti yoxdur. Yaxşı, bəs, bu müsabiqə nə qədər davam edəcəkdir? Xahiş edirəm, bu barədə düşünün. Gəlin, məsləhətləşək. Bu mümkündürmü – biz "Kitabi-Dədə Qorqud" dastanının yubileyini keçiririk, ancaq onun portreti yoxdur. Xahiş edirəm, oturun, bu barədə fikirləşin, görün, nə edə bilərsiniz."

Azərbaycan Respublikası MEA Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi – 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əksetdirən muzey kimi, Bakıda



yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan ədəbiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazma, nadir kitablar, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin "İsgəndərnamə" poemasının 1413-cü ildə, Füzulinin "Bəngü-badə" əsərinin 1569-cu ildə köçürülmüş əlyazma nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı ekspozisiyaları və elmi fondlar, bədii tərtibat, elmi-kütləvi şöbələri vardır. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır.

1999-cu il oktyabrın 12-də Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində Heydər Əliyev məhəbbətlə demişdir: "Əgər şair Azərbaycanı vəsf edirsə və Azərbaycanın nə qədər gözəl, nə qədər qüdrətli, nə qədər iftixar hissi doğuran bir ölkə olduğunu öz şeirində göstərirsə, demək, bu, hər bir azərbaycanlıda öz Azərbaycanına, vətəninə, torpağına məhəbbət hissi yaradır... İndi yaşa dolmuş və 60-70-ci illərdə gənc olan yazıçılarımız və şairlərimiz də bu sahədə çox böyük xidmətlər göstərmişlər. Məsələn, mən "Qobustan" jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır, biri

deyirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu "Qobustan" jurnalına, görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də "Qobustan" jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm – "Qobustan" jurnalı o vaxt çox böyük işlər gördü.

Tariximizin böyük səhifələrini, intibah dövrünü – IX-XII əsrlərdə Nizamini, Xaqanini, Fələkini, Məhsətini götürsək, onların hamısının yaradıcılığı geniş yayılmışdır. Ancaq təkcə bir cəhəti xatırlatmaq istəyirəm. Nizami Gəncəvinin 800 illiyi 1948-ci ildə keçirilmişdir. 1981-ci ildə biz Nizaminin ədəbi irsinin öyrənilməsi haqqında böyük bir qərar qəbul etdik. Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tutdular ki, 840 il yuvarlaq tarix deyildir. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər.

Demək istəyirəm ki, bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini təkcə "Leyli və Məcnun" poemasının müəllifi kimi yox, dünyamiqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq. Təkcə ədəbiyyatçılar və yaxud yazıçılar Birliyi deyil, bütün elm xadimlərimiz bu sahədə işləməlidirlər."[36]



"Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suver ulu öndəri qarşılama mərasimində demişdir: "Azərbaycan millətinin hörmətli, misilsiz öndəri!

Türk aləminin ən qüdrətli, əziz lideri!

Bakı-Ceyhan neft kəmərinin böyük memarı, möhtərəm cənab Heydər Əliyev!

Sizi İstanbulda "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin bu möhtəşəm toplantısında qonaq kimi qarşılamaqdan böyük qürur hissi keçiririk. Biz bu dəqiqələrdə vəqfin 14 illik tarixinin ən müstəsna, ən böyük və ən şərəfli anlarından birini yaşamaqdan böyük həyəcan hissi keçiririk.

Əziz cümhurbaşqanımız!

Siz yalnız Azərbaycan dövlətinin yox, bütün türk aləminin etimadı, təminatçısısınız. Bunun ən konkret nümunəsini siz dünən Türkiyənin paytaxtında Ankara Bəyannaməsini imzalamağınızla bütün dünyaya göstərdiniz. Bunun dəyərini çox yaxşı bilirik və bu böyüklüyünüzü unutmayacağıq. Böyük türk milləti Sizin Bakı-

---

[36] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər bəyanatlar, müsahibələr. Məktublar, məruzələr, fərmanlar.-Bakı, 1997.-K.1.-S.148.

Ceyhan neft kəməri ilə bağlı nümayiş etdirdiyiniz yüksək fəaliyyətinizi başa düşür. Biz Sizə minnətdarıq![37]

Heydər Əliyev "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin keçirdiyi mərasimdə çıxış edərkən demişdir: "Mən çox məmnunam ki, Türkiyədə Azərbaycana böyük maraq var. Türkiyə Azərbaycanı həmişə öyrənir, bilir, Azərbaycanın keçmişini də, həyatını da bilir. Bu da bizim dostluğumuzun, qardaşlığımızın və gələcək iş birliyimizin çox uğurlu olduğunu göstərir.

Azərbaycan yeddi ildir ki, öz dövlət müstəqilliyini elan edibdir. Mən Azərbaycan dilində danışıram. Bilirsiniz, mən sizinlə Türkiyə türkcəsində sizin kimi danışa bilərəm. Yəni Türkiyə türkcəsində danışmaq imkanım var. Ancaq mən bunu etmirəm. Çünki mən istəyirəm ki, siz də mənim dilimi öyrənəsiniz, mən sizin dilinizi bildiyim kimi, siz də mənim dilimi biləsiniz. Ancaq bu dillərin də fərqi yoxdur. Bunlar eyni dildir. Bizim ən böyük uğurumuz, ən böyük xoşbəxtliyimiz odur ki, əcdadlarımız, ulu babalarımız bizi eyni dildə yaşadıblar və bu dil də tarix boyu yaşayıbdır.

Dünyada türkdilli millətlər çoxdur. Biz bir soydanıq. Özbəkistan da, Qazaxıstan da, Türkmənistan da, Qırğızıstan da, Azərbaycan da, Türkiyə də və digərləri də eyni soydanıq. Hamımızın bir kökü, bir soyu vardır,

[37] Həsənov, Ə. Avrasiya zirvələri: Azərbaycandan baxış / Ə. Həsənov, Niyazov Xalid.- İstanbul, 1998,-S.8.



bir dilimiz vardır. Ancaq Azərbaycan ilə Türkiyədə olan dilin bir-birinə yaxınlığı qədər heç bir dilin yaxınlığı yoxdur."[38]

Tarixdən məlumdur ki, hər bir xalq özünün taleyində müstəsna rol oynamış fenomen şəxsiyyətlərin zəngin ömür yolunu, mükəmməl dövlətçilik və siyasi irsini, təcrübəsini öyrənərək gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl iş aparır. Azərbaycan xalqı da öz taleyində misilsiz rol oynamış ulu öndərin xatirəsini daim əziz tutmuş, onun əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atmışdır. Prezident İlham Əliyev ulu öndərin əsasını qoyduğu strateji siyasi kursu artıq 17 ildən çoxdur ki, bütün sahələrdə inamla davam etdirməklə yanaşı, Heydər Əliyev ideyalarının cəmiyyətdə praktik surətdə gerçəkləşməsinə və möhkəmlənməsinə xidmət edən ciddi addımlar atmışdır. Dövlət başçısının hələ 2004-cü ildə imzaladığı fərmanla ulu öndərin adının əbədiləşdirilməsi istiqamətində bir sıra vacib tədbirlər həyata keçirilmiş, hələ 70-80-ci illərdə tikintisinə əzmlə nail olduğu bir sıra möhtəşəm binalara onun adı verilmişdir. 2004-cü ildən fəaliyyət göstərən Heydər Əliyev Fondu nəcib, xeyirxah və humanist insani dəyərlərə əsaslanaraq ümummilli liderin zəngin dövlətçilik irsinin bütün dünyada tanıdılması və təbliği istiqamətində ardıcıl iş aparır.

[38] Həsənov, Ə. Avrasiya zirvələri: Azərbaycandan baxış / Ə. Həsənov, Niyazov Xalid.- İstanbul, 1998,- S.11..

Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin elmi səviyyədə öyrənilməsi və təbliği məqsədilə 2006-cı il dekabrın 29-da "Heydər Əliyev Mərkəzinin yaradılması haqqında" Sərəncam imzalamışdır. Həmin sərəncam əsasında Bakıda Heydər Əliyevin adını daşıyan mərkəz zəngin eksteryerə malik, analoqu olmayan müasir memarlıq abidəsi kimi inşa olunmuşdur.

Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Heydər Əliyev sovet illərində Azərbaycana rəhbərliyi zamanı böyük risk edərək milli-mənəvi dəyərlərimizin dirçəlişi, mədəniyyətin yüksəlişi istiqamətində də mühüm addımlar atmış, bütün maneələri dəf edərək müstəqil düşüncəyə yol açmışdır. Bunun nəticəsi idi ki, o dövrdə Azərbaycanda elm, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyat sürətlə inkişaf etmiş, milli-mənəvi dəyərlərin qorunmasının prioritetliyi təmin olunmuşdur.

Qeyd etdiyimiz kimi, Heydər Əliyevin zəngin siyasi və ictimai irsinin, dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin xüsusən formalaşan gənc nəsil tərəfindən öyrənilməsi bütün Azərbaycan xalqının ümdə istəyidir. Bu mənada, Prezident İlham Əliyevin imzaladığı



sərəncamlara əsasən həyata keçirilən tədbirlərin icrası ulu öndərin dövlətçilik fəlsəfəsinin və azərbaycançılıq məfkurəsinin daha dərindən öyrənilməsi, geniş təbliğ olunması və həm də hərtərəfli inkişaf etdirilməsi baxımından ölkəmizin siyasi-ictimai və mədəni həyatında böyük rol oynayacaq.

Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu 40 ildən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan dövlətini və millətini zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. Respublikamızda müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, milli təhlükəsizliyin təmin olunması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi ilə bağlı proseslərin müvəffəqiyyətli həlli məhz Heydər Əliyevin xidmətləridir. 1994-cü ildə Heydər Əliyevin yeni neft strategiyasının reallaşdırılmasını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan xalqının öz maddi sərvətlərinin, o cümlədən neftinin həqiqi sahibi kimi çıxış etməsinin təntənəsinə çevrilmişdir.

Böyük strateq Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövləti-

nin rəmzi kimi səslənir. Çoxəsrlik dövlətçiliyimiz tarixində xüsusi yeri olan ümummilli liderin fəaliyyəti öz əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxır.

Dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi kimi tarixə düşmüş ulu öndərimiz və əbədi liderimiz Heydər Əliyev öz parlaq zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliyini yaratmış və xalqımızı gələcəyə aparan yolları, müstəqil dövlətimizin inkişaf strategiyasını müəyyən etmişdir.

Dövləti qurmaq və idarə etmək elminin ən dəyərli və unikal modelini formalaşdıraraq öz fəaliyyətində ardıcıl surətdə həyata keçirmiş Heydər Əliyev özünün dövlətçilik, ictimai-siyasi proseslərə rəhbərlik etmək təcrübəsi əsasında böyük bir məktəb yaratmışdır.

24 sentyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (Universitetinin) fəxri doktoru diplomunun təqdim edilməsi mərasimində rektor Anatoli Torkunov öz çıxışında xüsusi vurğulamışdır: "Onu xatırlamaq kifayətdir ki, uzun illər ölkəmiz vahid dövlətin tərkibində olmuş, xalqımız isə ağır və çətin günlərdə, böyük və şərəfli qələbələrdə və nailiyyətlərdə bir yerdə olmuşlar. Bu dostluğun qorunub saxlanmasında, siyasi ab-havaya, son on-on beş ilin dramatik hadisələrinə məruz qalmamasında Azərbaycan xalqının tanınmış lide-



ri və keçmiş vahid dövlətin – Sovet İttifaqının görkəmli dövlət xadimi kimi, Sizin böyük xidmətləriniz var."[39]

Daha sonra A.Torkunov demişdir: "Sizin səfərləriniz və Rusiya rəhbərləri, bizim prezidentlə görüşləriniz mədəniyyət məsələlərinin əhatə olunması baxımından da vacibdir. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 10 illiyinin bayram edilməsi çərçivəsində Peterburqda Siz və prezident Putin Azərbaycan ədəbiyyatının klassiki Nizami Gəncəvinin abidəsini açdınız. Nizami Gəncəvi hələ XII əsrdə demişdir ki, həyatda hər kəsin məsləkdaşı olmalıdır, ona görə də səninlə dostluq etmək istəyənə meyil sal.

Bundan əvvəl, 2001-ci ilin yayında Bakıda Sizin iştirakınızla Aleksandr Sergeyeviç Puşkinin abidəsi açıldı. Məncə, bunun dərin rəmzi mənası var."

Əməkdar müəllim Lətif Hüseynzadəyə ünvanladığı məktubda dahi Heydər Əliyev deyirdi: "Səmərəli pedaqoji fəaliyyətlə yanaşı, Sizin elmi fəaliyyətiniz də təqdirəlayiqdir. Mollanəsrəddinçi şair Əliqulu Qəmküsarın həyat və yaradıcılığına həsr etdiyiniz tədqiqat əsəri, Naxçıvanın mədəniyyət tarixinin müxtəlif məsələləri ilə bağlı araşdırmalarınız, şahidi olduğunuz tarixi hadisələr,

---

[39] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- sentyabr, 2002 - oktyabr, 2002- /H. Əliyev; burax. məs. R. Mehdiyev.- K.41.- Bakı: Azərnəşr, 2012.- S.304-305.

görkəmli şəxsiyyətlər haqqında qələmə aldığınız xatirələr tədqiqatçılarımız üçün qiymətli mənbələrdir."[40]

23 oktyabr 2002-ci ildə ulu öndərin imzaladığı "Hüseyn Cavidin 120 illik yubileyi haqqında" Sərəncamında deyilir: "Hüseyn Cavid klassik milli ədəbiyyatın ənənələri ilə yeni dövrün bədii və fəlsəfi axtarışları arasında vəhdət yaradaraq XX əsr Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynamış qüdrətli sənətkarlardandır. Dünya romantizm poeziyası ilə qırılmaz tellərlə bağlı olan Hüseyn Cavid yaradıcılığı öz bədii-estetik qaynağını Azərbaycan mədəniyyətinin dərin tarixi qatlarından alır.

Poeziyada və dramaturgiyada bənzərsiz sənət nümunələri olan əsərlər yaradan Hüseyn Cavid bir şəxsiyyət, mütəfəkkir və sənətkar kimi, ibrətli həyat və yaradıcılıq yolu keçmişdir. Böyük şair Hüseyn Cavidin əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuşdur."[41]

9 oktyabr 2002-ci il tarixdə Azərbaycan Dövlət İncəsənət Muzeyində İran rəssamı Vədud Müəzzinin fər-

---

[40] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- sentyabr, 2002 - oktyabr, 2002- /H. Əliyev; burax. məs. R. Mehdiyev.- K.41.- Bakı: Azərnəşr, 2012.-.- K.42, s. 107.

[41] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- sentyabr, 2002 - oktyabr, 2002- /H. Əliyev; burax. məs. R. Mehdiyev.- K.41.- Bakı: Azərnəşr, 2012.-.K.42. -S.120.



di sərgisinin açılış mərasimində ulu öndər demişdir: "Ancaq bugünkü hadisə, yenə də deyirəm, çox əlamətdar bir hadisədir. Onu bilirdim ki, İranda, ümumiyyətlə, keçmişdən, əlbəttə, böyük rəssamlıq məktəbi olubdur.

Sultan Məhəmmədin əsərləri, onun miniatür sənəti 500 il bundan öncə bizim Azərbaycanın bu sənət sahəsindəki nailiyyətlərini göstərir. Sultan Məhəmməd bunun əsasını qoyubdur. Amma ondan sonra da İranda və Azərbaycanda o üslubda çox gözəl əsərlər yaranıbdır. Çox gözəl əsərlər... Məsələn, indi bizim müxtəlif təşkilatlar jurnallar, kitablar nəşr edirlər. Onların içərisində miniatür əsərlərin fotosurətlərini dərc edəndə, o kitablar, jurnallar daha da çox dəyər kəsb edir. Çünki o əsərlər çox orijinaldır. Miniatür sənəti çox orijinal sənətdir.

Vaxtilə, gərək ki, 1981-ci ildə biz burada SSRİ Rəssamlıq Akademiyasının böyük bir iclasını keçirdik. Buraya ən böyük rəssamlar gəlmişdilər. Onda biz nə ilə fəxr etdik? Bəli, Avropanın qədimdən özünəməxsus üslubda məktəbləri var – Rafael, Mikelancelo, Titsian, Rubens və başqaları. Eləcə də rus rəssamları. Ancaq onunla fəxr etdik ki, bizim də miniatür məktəbimiz var – Sultan Məhəmmədin yaratdığı miniatür məktəbi. Burada onu çox böyük həvəslə qarşıladılar."[42]

---

[42] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. May, 1997 - iyul.

Fransada çıxan "Kuyer İnternasional" jurnalının 2003-cü il may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adlerin Prezident Heydər Əliyevin 80 illik yubileyi münasibətilə dərc olunmuş geniş məqaləsində deyilir: "Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb bir tarixi məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır."

Ulu öndərin yeni kitabların təqdimat mərasimində çıxışları belə nəşrləri təhlil etməyin və qiymətləndirməyin ən yaxşı nümunəsi kimi diqqətəlayiqdir.

M.F.Axundov adına Dövlət Kitabxanasında 1996-cı il martın 5-də İsraildə çıxan "Heydər Əliyev: siyasi portretin cizgiləri" kitabının təqdimat mərasimində çıxışı, 1997-ci il noyabrın 6-da "Azərbaycan qaçqınları" fotoalbomunun təqdimat mərasimində çıxışı, 1997-ci il noyabrın 22-də Amerikada nəşr edilən "Azərbaycan interneşnl" jurnalının beşilliyinə həsr olunmuş mərasimdə çıxışı və s. kitabşünaslıq baxımından dahi Heydər Əliyevin fenomen ensiklopedik biliyə malik olmasının bariz nümunəsidir.

---

1997. K.10 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev.- Bakı: Azərnəşr,2002.- S.107.



## AZƏRBAYCANDA KİTAB NƏŞRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

*"Biz nadir bir dövlətçilik irsinin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan dövlətimizin həm dünəninə, həm də bu gününə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır."*

***Heydər Əliyev***
***Ümummilli lider***

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, bütün dövrlərin dühası, xalqımızın ümummilli lideri Heydər Əliyev həyatının və fəaliyyətinin bütün dövrlərində Azərbaycan kitabına böyük qiymət vermiş və onun inkişafına, tərəqqisinə qayğı ilə yanaşmışdır.

Bəşəriyyətin ən nadir tarixi şəxsiyyətlərdən olan ulu öndərin həyat və fəaliyyətinə, zəngin və çox qiymətli irsinə zaman-zaman filosoflar, mədəniyyətşünaslar, dilçilər, tarixçilər, ədəbiyyatşünaslar, kitabşünaslar, kitabxanaşünaslar, sosioloqlar, iqtisadçılar və b. sahələrdən

olan alimlər, yaradıcı ziyalılar fundamental monoqrafiyalar, elmi və elmi-kütləvi əsərlər ithaf etmişlər.

Ümummilli lider Heydər Əliyev 3 iyun 1995-ci ildə M.F.Axundov adına Dövlət Kitabxanasında "Vətənə, dövlətə, xalqa sədaqət andı" miniatür kitabın təqdimat-sərgisində demişdir: "Mən çox məmnunam ki, bu gün Azərbaycanda yazıçılarımızın, şairlərimizin və ictimai-siyasi xadimlərimizin kitablarının miniatür nəşri, şübhəsiz ki, bu mədəniyyətimiz kitab nəşrimiz üçün çox əlamətdar hadisə, böyük nailiyyətdir. Bununla əlaqədar, mən sərginin təşkilatçılarını, Azərbaycan Respublikasının "Kitab" Cəmiyyətini, buraya toplaşanları təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, bu iş, təşəbbüs gələcəkdə də davam etdiriləcəkdir. Burada mənim Azərbaycan Prezidenti vəzifəsinə başlayarkən andiçmə mərasimimdə söylədiyim nitqin də miniatür nəşri nümayiş etdirilir. Bu gün həmin kitabı mənə təqdim etdilər. Mən bundan çox məmnunam. Doğrudan da mən nitqlər söyləyirəm, çıxışlar edirəm, lakin bunların kitab şəklində çıxmasını o qədər də gözləmirəm və hesab edirəm ki, haradasa dərc olunur. Ancaq indi belə bir təşəbbüs göstərmişlər. Güman edirəm ki, ölkəmiz, respublikamız üçün, o cümlədən, mənim üçün də çox əhəmiyyətli olan andiçmə mərasimində söylənmiş nitq nəfis şəkildə buraxılmışdır. Bu, mənim üçün də əlamətdar hadisədir. Bu işin təşəbbüsçülərinə, kitabı nəşr edənlərə - ilk növbədə,



Azərbaycan Respublikasının "Kitab" Cəmiyyətinə və onun rəhbəri Zərifə xanım Salahovaya təşəkkür edirəm. Eyni zamanda Amerikanın "Stark enterprayz" firmasının bu işdə fəaliyyətini, təşəbbüsünü yüksək qiymətləndirir və təşəkkürümü bildirirəm."

Bu mərasimdə ümummilli lider Heydər Əliyev daha sonra demişdir: "Kitab nəşri hər ölkənin, hər xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram.

Doğrudur, indiki ağır sosial-iqtisadi böhran dövründə, respublikamızın iqtisadiyyatında yaranmış çətinliklərlə əlaqədar və başqa ölkələrlə əlaqələrimizin məhdudlaşdığı bir vaxtda nəşriyyat işi çox çətinliklərlə qarşılaşır. Bu, təbiidir. Ancaq biz bu çətinliklərin qarşısını almalıyıq, bunun üçün yeni-yeni yollar axtarmalıyıq.

Eyni zamanda yazılan kitabların nəşr olunmasının qayğısına qalmalıyıq. Bilirəm ki, yazılanlar və yazmaq istəyənlər çoxdur. Bu adamlar – alimlər, yazıçılar, mədəniyyət xadimləri yazdıqlarının bir çoxunu çap etdirə bil-

mirlər. Bu çətinliyi hamımız dərk etməliyik. Ancaq bununla kifayətlənmək olmaz. Hər bir çətinlikdən çıxış yolu tapmalıyıq, özü də bu yolu birlikdə axtarmalıyıq. Dövlət də bütün imkanlardan istifadə edəcəkdir. Ancaq ayrı-ayrı cəmiyyətlər, təşkilatlar, iş adamlarımız da bu işə qoşulmalıdır. Arzu edirəm ki, bu tövsiyənin əməli nəticələri olsun".

Ulu öndərin bütün ideyaları kimi bu arzusu da onun layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin uğurlu siyasəti sahəsində dünya standartları səviyyəsində həyata keçirilmişdir. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ulu öndərin bu arzusunun qısa zamanda reallaşmasını nəinki respublikamızda, o cümlədən bütün dünyada təmin etdi.

Professor Abuzər Xələfov "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" monoqrafiyasında bu tarixi məruzəni belə xarakterizə edir: "Heydər Əliyevin böyük proqram əhəmiyyətinə malik olan bu çıxışı müstəqillik dövründə nəşriyyatların qorunub saxlanılmasına imkan verdi. Hakimiyyət böyük çətinliklə olsa da dövlət nəşriyyatlarına müəyyən qədər də olsa vəsait ayırır, özəl nəşriyyatların yaranmasına şərait yaradırdı. Dövlətin həyata keçirdiyi bu siyasət özünü doğrultdu, ölkədə özəl nəşriyyatların böyük şəbəkəsi yarandı. Ölkədə senzuranın ləğvi kitab çapı işində hər cür ideoloji maneəni aradan qaldırdı. 90-cı illərin kitab çapı sahəsində baş verən böhran



tədricən aradan qalxdı. Milli Məclisin müxtəlif vaxtlarda qəbul etdiyi "Kütləvi informasiya vasitələri haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunları və prezidentin "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edilməsi haqqında" 4 oktyabr 1997-ci il tarixli fərmanı, Nazirlər Kabinetinin "Radio və televiziya verilişləri, nəşriyyat-poliqrafiya fəaliyyəti üzrə xüsusi hazırlıq (lisenziya) verilməsi qaydalarının təsdiq edilməsi haqqında" 16 aprel 1998-ci il tarixli qərarı ölkədə nəşriyyat işinin hüquqi bazasının yaradılmasına, tənzimlənməsinə və inkişafına böyük təkan verdi. Artıq 90-cı illərin ortalarından dövlət nəşriyyatlarının fəaliyyəti xeyli yaxşılaşdı, həmçinin respublikada onlarla yeni özəl nəşriyyat yarandı."

Qeyd etmək lazımdır ki, professor Abuzər Xələfov "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" monoqrafiyasında respublikamızda kitabxana quruculuğu sahəsində ulu öndərin titanik fəaliyyətini, böyük qayğı və məhəbbətini, kitabxana işi haqqında ölməz ideyalarını və bu sahədə Azərbaycanda kitabxana işinin yüksək səviyyədə inkişafına dahi öndərin xüsusi diqqətini elmi cəhətdən məharətlə əsaslandırmışdır.

Müstəqillik illərində Heydər Əliyev Azərbaycan dili və ədəbiyyatının inkişafı, xalqımızın görkəmli yazı-

çılarının, şairlərinin və yaradıcı ziyalılarının maddi vəziyyətinin yaxşılaşdırılması, onların əsərlərinin nəşri və yayılması, görkəmli ədəbiyyat xadimlərinin cəmiyyətdə tutduğu mövqenin yaxşılaşdırılması, yaradıcı ziyalıların şəxsiyyətinin yüksəldilməsi üçün böyük əhəmiyyətə malik tədbirlər həyata keçirdi. Belə tədbirlər içərisində 1996-cı ildə M.Füzuli adına beynəlxalq mükafatın təsis edilməsini, 1997-ci ildə "Azərbaycan yazıçılarına dövlət qayğısını artırmaq haqqında" prezident fərmanının imzalanmasını, "Azərbaycan", "Qobustan", "Ulduz", "Литературный Азербайджан" jurnallarının və "Ədəbiyyat" qəzetinin nəşrinin dövlət hesabına həyata keçirilməsi haqqında sərəncam verilməsi ulu öndərin Azərbaycan kitab mədəniyyətinin inkişafına böyük qayğısı və xüsusi diqqəti kimi milli tariximizə qızıl hərflərlə daxil olmuşdur.

Dahi öndərin kitab sərgisini olduqca böyük mədəni hadisə kimi qiymətləndirməsi, ilboyu onlarla belə sərgilər təşkil edən kitabxanaların fəaliyyətinin, kitabxanaçı əməyinə verilən yüksək qiymət kimi olduqca səciyyəvidir.

Sərginin təşkilindən danışarkən Heydər Əliyev deyir: "Buradakı sərgidə Azərbaycanın görkəmli yazıçı və şairlərinin, alimlərinin əsərlərinin miniatür nəşrləri nümayiş etdirilir. Bir daha qeyd edirəm ki, bu əlamətdar hadisədir. Yazıçı və şairlərimiz, alimlərimiz, mədəniyyət



xadimlərimiz böyük potensiala malikdirlər. Onların indiyədək yazdıqları əsərlər Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında öz rolunu oynamışdır. Ancaq xalqımız Azərbaycanın elm və mədəniyyət potensialından bundan sonra daha çox bəhrələnməlidir. Ona görə də çalışmalıyıq ki, belə yaradıcı adamlar öz fəaliyyətlərini davam etdirsinlər. Onlara kömək etməliyik, şərait yaratmalıyıq."

1995-ci ildə Heydər Əliyev miniatür kitablar sərgisinə gələrkən M.F.Axundov adına Dövlət Kitabxanasına bağışlamaq üçün şəxsi kitabxanasından 300-ə yaxın kitab gətirmişdi. Çox qiymətli kitablardan təşkil edilmiş bu nadir kitablar kolleksiyası bilavasitə kitabxananın qızıl fonduna daxil olmuşdur.

Kitabları kitabxanaya hədiyyə edərkən Heydər Əliyev demişdir: "Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır və kitabxananın böyük xəzinəsində öz yerini tutarlar. Zənnimcə, bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan adamlar kitabxanamızı zənginləşdirmək üçün, yəqin ki, ona kitab bağışlayacaqlar. Bilirəm, bizim bu kitabxananın çox böyük fondu var. Kitabxananın direktoru bu barədə məlumat verdi. Ancaq kitabxana elə bir yerdir ki, gərək, daim

onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır, bunlar insanlara yeni biliklər, yeni məlumat gətirir. Ona görə də bizim bu mərkəzi kitabxanamız daim yeni-yeni nəşrlərlə təmin olunsun. Vaxtı ilə biz bunu planlı şəkildə edirdik. Dövlət planı var idi, heç kəsi narahat etmədən bu kitabxananı yaradıb inkişaf etdirmişdik və indi də fəaliyyət göstərir. Ancaq gərək indi buraya hər kəs öz payını versin. Azərbaycanın bütün ictimaiyyətini bu xeyirxah işə dəvət edirəm.

Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bu kitabı da (Qurani-Kərimi) bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim. Səfər zamanı biz İslam aləminin müqəddəs yerlərini ziyarət etdik və bundan çox məmnun olduq. Orada – İslam dininin mərkəzi Məkkədə mənə Quranın nüsxələrini bağışlamışlar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət Kitabxanasına verirəm."

Bu gün Azərbaycanın hər bir bölgəsində, hətta ən kiçik kəndində belə ulu öndər Heydər Əliyevin yaradıcı, qurucu siyasətinin bəhrəsini görmək mümkündür. O, ölkəmizin təkcə rəhbəri deyil, həm də "millətimizin atası" olmuşdur.

Dünyada bir sıra dövlətlərin qurulub – formalaşmasında müstəsna rolları olan görkəmli siyasət və dövlət adamları barədə çoxlu fundamental kitablar və minlərlə



əsərlər yazılmışdır. Corc Vaşinqton, Atatürk, Mahatma Qandi, Şarl de Qoll, Uinston Çörçill və başqalarının həyatı barədə yerli və xarici oxucu üçün çox sadə üslubda müfəssəl məlumat verən kitablar təqdirəlayiqdir.

Ümummilli lideri Heydər Əliyev haqqında yaranacaq minlərlə kitablar bu mənada gələcək nəsillərin formalaşmasında əsas rol oynayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev demişdir: "Bu gün Azərbaycan Heydər Əliyevsiz yaşayır. Bu, bizim hamımız üçün böyük imtahandır. Amma bizə təskinlik verən odur ki, Heydər Əliyevin ideyaları yaşayır. Heydər Əliyev fəlsəfi siyasəti yaşayır. Onun qurduğu, yaratdığı müasir Azərbaycan güclənir, yaşayır və bundan sonra da yaşayacaqdır."

Tarixən zəngin olan Azərbaycan mədəniyyətinin, onun tərkib hissələrindən biri olan kitab mədəniyyətinin bugünkü səviyyəsi ulu öndərin adı ilə birbaşa bağlıdır. Heydər Əliyev mədəniyyəti xalqın böyük milli-mənəvi sərvəti hesab edirdi. Ona görə də mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və nəşr olunması müasir dövrümüzün ən əhəmiyyətli sahəsi hesab olunur.

"Azərbaycan Respublikasının dövlət rəmzləri" kitabı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncam (13 mart 1998-ci il) əsasında hazırlanmışdır. Bu

əsərdə ilk dəfə olaraq sistem halında müstəqil Azərbaycanın dövlət rəmzlərinin (bayraq, gerb, himn) yaranması tarixi izlənilir, milli rəmzlərin bərpası və qəbulu yolunda Prezident Heydər Əliyevin müstəsna rolu göstərilir, üçrəngli bayraq və gerbdə əks olunan simvolların məna və funksiyası ilkin mənbələr əsasında araşdırılır, milli himnimizin təkamülü və ideya-məzmun tarixi-məzmun xüsusiyyətləri tarixi-filoloji planda təhlil edilir, nəhayət, dövlət rəmzlərimiz Azərbaycan Xalq Cümhuriyyətindən (1918-1920-ci illər) bizə miras qalan tarixi milli-mənəvi dəyərlər kimi qiymətləndirilir. Kitab təhsil işçiləri, müəllimlər, politoloqlar, diplomatlar, hüquqşünaslar, dövlət quruculuğu ilə məşğul olan mütəxəssislər, elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Təhsilin bütün pillələri üçün hazırlanan və nəşr edilən dərslik və dərs vəsaitlərinin ilk səhifəsində dövlət rəmzlərinin – bayraq və gerbin təsviri, himnin isə mətninin verilməsinə keçildi. Bütün təhsil-tərbiyə müəssisələrində "Azərbaycanın dövlət rəmzləri" adlı guşə yaradıldı, hər gün dərslərə himnin oxunması və bayrağın qaldırılması ilə başlanmasına keçildi..."[43]

1 noyabr 1994-cü ildə Heydər Əliyev Ankara yaxınlığındakı Bilkənd Universiteti şəhərciyində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olması-

[43] Mərdanov M. Azərbaycan Respublikasının dövlət rəmzləri /Mərdanov M.C., Quliyev Ə.Q. elmi red. Ramiz Mehdiyev.- Bakı: Çaşıoğlu, 2010.- 288 s.



nın 500 illiyinə həsr olunmuş yubiley şənliklərinin təntənəli açılış mərasimində demişdir: "Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz. Gərək, Füzulinin yubileyini elə hazırlayıb keçirək ki, xalqımız mənəvi irsimizə, mədəni, milli irsimizə böyük hörmət bəslədiyimizin şahidi olsun. Biz Füzuli kimi dahilərin yaradıcılığından bəhrələnərək mədəniyyətimizin yeni böyük abidələrini yaratmalıyıq.

Füzuli irsinin qiyməti əvəzsizdir, Azərbaycan xalqı Məhəmməd Füzulinin yaratdığı əsərlərin təsiri altında əsrlər boyu və xüsusən XX əsrdə öz mədəniyyətinin inkişafında böyük nailiyyətlər əldə etmişlər. Bəli, Füzulinin 500 il öncə yazdığı "Leyli və Məcnun" poeması əsasında Azərbaycanın böyük bəstəkarı, dahi insanı Üzeyir Hacıbəyov Şərq aləmində, türk dünyasında ilk professional opera yaratmışdır. Füzulinin əsərlərinin təsiri altında Azərbaycanın yazıçıları, alimləri, bəstəkarları, rəssamları böyük-böyük əsərlər yaratmış, respublikamızın mədəniyyətini inkişaf etdirmiş, dünya mədəniyyətinə böyük töhfələr vermişlər. Bunlar Məhəmməd Füzulinin bizə bəxş etdiyi bu günü və gələcəyi üçün böyük örnəkdir."[44]

[44] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. May, 1994 - dekabr, 1994. K. 2 /H.Ə.Əliyev; Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov.- Bakı: Azərnəşr, 1997, s.458.

8 noyabr 1996-cı ildə Respublika sarayında dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədəki nitqində Heydər Əliyev belə demişdir: "Beləliklə, Məhəmməd Füzuli öz yaradıcılığı ilə, öz əsərləri ilə indiyədək yaşamış, indi də yaşayan və bizim hamımıza ilham verən, mənəvi qida və ruh verən əsərləri ilə sonrakı nəsillərin şair, yazıçı, bəstəkar, rəssam və heykəltəraşların yaradıcılığı üçün gözəl mövzular, ideyalar vermiş, onlara ilham vermiş, onların öz sənətlərinin yüksək zirvələrinə qalxmasına kömək etmişdir."[45]

15 iyul 1996-cı il tarixdə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibətilə Dərbənd şəhərində keçirilən beynəlxalq elmi konfransın iştirakçılarına təbrik məktubunda Heydər Əliyev deyir: "Fitri istedad və yüksək sənətkarlıqla səciyyələnən Füzuli yaradıcılığı milli-coğrafi sərhəd tanımır, dünya mədəniyyətinin incisinə çevrilərək xalqlar arasında mənəvi-mədəni əlaqələrin möhkəmlənməsində, millətlərin bir-birinə yaxınlaşmasında əvəzsiz rol oynayır."

Həmin il, yəni 1996-cı ildə Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi üzrə Dövlət Komissiyasının qərarı ilə onun əsərləri altı cilddə "Azərbaycan" nəşriyyatı tərəfindən 2000 nüsxə tirajla çap olunmağa başlanmışdır. Təkrar nəşrin tərtibçisi Həmid Araslı olmuşdur.

[45] Yenə orada.- 1998.- K.8.- S.27.



5 noyabr 1997-ci ildə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında "Azərbaycan qaçqınları" fotoalbomunun təqdimatı mərasimində dahi lider demişdir:

"Bu gün Azərbaycanda yaşayan qaçqınların və məcburi köçkünlərin həyatını əks etdirən fotoşəkillərdən ibarət kitabın yaranması və təqdim olunması təqdirəlayiq, əlamətdar bir hadisədir. 1988-ci ildən, Ermənistanın Azərbaycana hərbi təcavüzü başlayandan indiyə qədər Azərbaycanın həyatında qaçqınlar və məcburi köçkünlər amili yaranmışdır. Təəssüflər olsun ki, qaçqınların və məcburi köçkünlərin sayı ilbəil artmışdır. İndi onların sayı artıq 1 milyon nəfərdir.

...Kitab Azərbaycanda yaşayan köçkünlərin və qaçqınların vəziyyətini müəyyən qədər əks etdirir. Hesab edirəm ki, bu, həmin məsələni, yəni qaçqınların vəziyyətini müəyyən qədər əks etdirir. Bu kitab həmin məsələni, yəni qaçqınların vəziyyətini bu qədər geniş əks etdirən ilk kitabdır. Ancaq mən hesab edirəm ki, Azərbaycanda yaşayan qaçqınların, məcburi köçkünlərin, çadırlarda ağır şəraitdə yaşayan insanların vəziyyətini əks etdirmək üçün bir neçə belə kitab lazımdır. Bu məsələ heç vaxt bir kitaba sığmaz. Ancaq indiyə qədər, demək olar ki, heç

bir şey olmadığı, yaxud bu barədə az vəsaitlər olduğuna görə biz bu kitabı yüksək qiymətləndiririk.

Yenə də deyirəm, bu kitab kənar adamlarda böyük təəssürat yaradacaqdır. Amma bizim borcumuz odur ki, bütün bu mənzərəni - Azərbaycanın həyatında olan qaçqınlarla və köçkünlərlə əlaqədar yaranmış mənzərəni bütün dünyaya çatdıraq. Onun üçün bir kitab yox, bir neçə kitab yaranmalıdır, bəlkə, seriyalar olmalıdır, bəlkə də, hər bir qaçqın düşərgəsi haqqında bir kitab yaratmaq lazımdır. Buna bir şeyi əsirgəmək lazım deyil. Bunun üçün hər bir vəsaitdən istifadə etmək lazımdır.

Hesab edirəm ki, Nazirlər Kabineti Prezidentin İcra Aparatı ilə bərabər belə kitabların yaranmasının proqramını hazırlamalıdır, tərtib etməlidir. Bu proqramın əsasında bir çox seriya belə kitablar yaranmalıdır.

Ümidvaram ki, bu mərasimdə iştirak edən xarici ölkələrin səfirliklərinin, beynəlxalq təşkilatların nümayəndələri kitabın yayılmasında, təbliğ olunmasında öz xidmətlərini göstərəcəklər. Bu gün burada meydana çıxmış məsələlərin həll olunmasında Azərbaycan Respublikasına, xalqına və yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşlarına yardımçı olacaqdır. Sağ olun."[46]

[46] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. May, 1994 - dekabr, 1994. K. 2 /H.Ə.Əliyev; Buraxılışa məsul: R.Mehdiyev, H.Orucov.- Bakı: Azərnəşr, 1997, s.108.



Heydər Əliyev Azərbaycanın zəngin tarix və mədəniyyətinin dərindən araşdırılmasına, təbliğinə diqqət yetirərək qədim əlyazmaların qorunmasına, öyrənilməsinə və tədqiqinə xüsusi fikir verirdi.

Azərbaycan tarixinə və mədəniyyətinə dair dünyanın müxtəlif arxiv və kitabxanalarında saxlanılan əlyazmaları toplanılıb respublikaya gətirilmədiyindən alimlər onlardan istifadə edə bilmirlər. Mövcud vəziyyətdən çıxmaqdan ötrü Heydər Əliyev böyük əzmlə mühüm qərarların qəbul edilməsinə nail oldu. Hələ 1981-ci ilin avqust ayında Azərbaycan KP MK "Azərbaycan SSR Elmlər Akademiyası respublika Əlyazmalar Fondunun fəaliyyətinin daha da yaxşılaşdırılması tədbirləri haqqında" məsələni müzakirə edərək, müvafiq qərar qəbul etdi. Mühüm elmi və siyasi əhəmiyyət daşıyan həmin qərarda deyilirdi ki, fondda müxtəlif dillərdə 40 mindən çox nadir yazılı abidə saxlanılır. Azərbaycan elmi, mədəniyyəti və tarixi üçün xüsusi əhəmiyyət daşıyan bu qərarın qəbul edilməsi ilə Əlyazmalar Fondu Əlyazmalar İnstitutuna çevrildi.

Həmin qərarda yazılı abidələrin saxlanılması üçün əlverişli şəraitin yaradılması, fondun maddi-texniki bazasının möhkəmləndirilməsi, əlyazmaların axtarılıb tapılaraq mühafizə edilməsi nəzərdə tutulurdu."[47]

[47] Qasımlı M. Heydər Əliyev: İstiqlala gedən yol (1969-1987-ci illər).- Bakı. Bakı Universitetinin nəşriyyatı, 2006.- S.145.

"Heydər Əliyevin fəaliyyətində dahi Azərbaycan şairi İmadəddin Nəsiminin həm ölkə miqyasında, həm də xarici ölkələrdə tanıdılması, əsərlərinin Azərbaycan dilində və xarici dillərdə nəşr edilməsi, abidə qoyulması mühüm yer tuturdu. Qeyd etmək lazımdır ki, Nəsiminin məzarını ilk dəfə Rəsul Rza Hələb şəhərinə səfərlərindən birində tapmışdı. 1970-ci ildə Heydər Əliyev İsrail-Suriya münaqişəsin dayandırmaq məqsədilə Dəməşqdə səfərdə olarkən Nəsiminin qəbrini ziyarət etmək üçün Hələb şəhərinə getmək istədiyini bildirmişdi. Onun Hələbə səfər etmək arzusunu yerinə yetirən prezident Hafiz Əsəd müvafiq göstəriş vermişdi. Ertəsi gün Heydər Əliyev bir neçə saat gözləmişdi. Çünki qəbri tapa bilmirdilər. Nəhayət, qəbrin yerini bilən bir nəfər tapılmışdı. Heydər Əliyev məzarı ziyarət etmişdi. Nəsiminin qəbri ümumi qəbristanlıqda idi. Şairin nəslinin nümayəndələri də orada dəfn olunmuşdular. Qəbir yaxşı vəziyyətdə saxlanılırdı. Ona qulluq edən adam da var idi."[48]

"Heydər Əliyev Azərbaycanda kütləvi nəşrlərə, xüsusən, ensiklopediyanın yaradılmasına diqqət verirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan sovet ensiklopediyasının yaradılması barədə hələ 1965-ci ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı qəbul edilmişdi. Bu qərara əsasən on cilddən

[48] Qasımlı M. Heydər Əliyev: İstiqlala gedən yol (1969-1987-ci illər).- Bakı, Bakı Universitetinin nəşriyyatı, 2006.-S.212.



ibarət ensiklopediyanın hər bir cildi 70 çap vərəqi həcmində olmalı idi. Lakin ötən müddət ərzində bu sahədə çoxlu qüsurlara və səhvlərə yol verilmişdi. Ensiklopediyanın heç bir cildi nəşrə hazırlanmamışdı, alimlər arasında elmi müzakirələr intriqalara çevrilmiş, xoşagəlməz mühit yaranmışdı. Ensiklopediyanın 1970-ci ilin sonunda hazırlanmış birinci cildi çoxlu səhvlər və qüsurlar ucbatından buraxılmamışdı. Buna görə də Heydər Əliyev Sov.İKP MK-ya 1974-cü il may ayının 23-də 252 №-li tam məxfi məktub yazaraq ensiklopediyanın birinci cildinin 1974-cü ildə, 10-cu cildinin isə 1980-ci ildə nəşr edilməsi barədə icazə istədi və Moskvanın razılığını aldı. Azərbaycan KP MK bürosunun 1976-cı il 10 fevral tarixli iclasında Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası və elmi-redaksiya şurası barədə qərar qəbul edildi. Heydər Əliyevin səyləri sayəsində 3836 məqalətermindən ibarət olan Azərbaycan Sovet Ensiklopediyasının birinci cildi nəşr olundu."[49]

Qeyd olunduğu kimi, Heydər Əliyev Azərbaycanda bədii tərcümə işinin yaxşılaşdırılmasını da tövsiyə edirdi. Bununla əlaqədar olaraq, o deyirdi ki, Azərbaycan oxucularını xarici ədəbiyyatın ən yaxşı nümunələri, dünya klassiklərinin şah əsərləri ilə tanış etmək tərcüməçilərin nəcib vəzifəsidir. Heydər Əliyev mövcud sistemin

[49] Qasımlı M. Heydər Əliyev: İstiqlala gedən yol (1969-1987-ci illər).- Bakı: Bakı Universitetinin nəşriyyatı, 2006, s.145.

şərtləri altında Azərbaycan xalqının dünya ədəbiyyatının yeni nümunələri ilə tanış olmasının və ədəbiyyatın zənginləşməsinin yollarından biri kimi bədii tərcümə işinin yaxşılaşdırılmasını görürdü. Bu məsələdə güdülən məqsədlər, həmçinin Azərbaycana mövcud şəraitdə ehtiyac duyulan və gələcəkdə daha çox lazım olacaq peşəkar tərcüməçilərin hazırlanması idi. Ona görə də həmin sahəyə diqqət verən Heydər Əliyev az sonra Azərbaycanda bədii tərcümə işini qaydaya salaraq müvafiq mərkəz yaratdı. Mərkəz sonrakı illərdə bədii tərcümə sahəsində Azərbaycanın beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrində mühüm rol oynadı. Mərkəzdə peşəkar tərcüməçilər toplandı, gənc tərcüməçilər yetişməyə başladı, xarici ədəbiyyatın orijinaldan Azərbaycan dilinə tərcüməsi artdı. Azərbaycan oxucuları dünya ədəbiyyatının ən yaxşı nümunələri ilə tanış olmağa başladılar.[50]

Ulu öndər Heydər Əliyevin təbirincə desək, “1920-1991-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Dünyəvi teatr, müasir məktəb və demokratik mətbuatın bünövrəsi XIX əsrdə qoyulsa da, bu 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər

[50] Qasımlı M. Heydər Əliyev: İstiqlala gedən yol (1969-1987-ci illər).- Bakı: Bakı Universitetinin nəşriyyatı, 2006.- S.190.



Akademiyası formalaşmış, minlərlə nüsxə qəzet və jurnal çap olunmağa başlamışdı.”[51]

11 mart 2000-ci il tarixdə “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasında ulu öndər demişdir: “Kütləvi surətdə həyata keçirilən tədbirlər “Dədə Qorqud”u geniş kütlələrə tanıdır. Bu kitabların yazılması və keçmişdə yazılmış kitabların belə nəfis şəkildə yenidən nəşr olunması çox qiymətlidir. Mən dünən soruşdum ki, bunların tirajı nə qədərdir – 1000, 2000 nüsxədir? Bir il keçəndən sonra bu kitabları yenə də tapmaq mümkün olmayacaq.

Təbiidir ki, indi biz bir kitabı bir neçə min nüsxədə nəfis şəkildə nəşr edə bilmərik. Biz bunları yubiley üçün yaratmışıq. Ancaq fikrim bundan ibarətdir ki, bu kitabların çoxunu, bəlkə də, hamısını, yaxud bir qismini geniş kütlələrə çatdırmaq üçün satışa buraxaq, kitabxanalara verək. İndi nəşr etdiyimiz bu əsərləri kitabxanalara versək, yerdə bir şey qalmayacaqdır. Çünki bunlar 1000-2000 nüsxədir, bundan artıq deyillər, elədirmi.”[52]

“Ona görə, gəlin, açıq danışaq ki, bizim bu işimiz yubileydə, sadəcə, yaxşı kitablar göstərməklə məhdudlaşmasın. Bu, başlanğıc olsun.

[51] Azərbaycanın təhsil müəssisələri /layih. rəhb. Misir Mərdanov.- Bakı, 2010.-S.21

[52] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn]. Fevral, 2000 - mart, 2000 K.25 /H. Əliyev; burax. məs. R. Mehdiyev.- Bakı: Azərnəşr, 2008.- S.334.

Ancaq geniş kütlənin "Kitabi-Dədə Qorqud" dastanı, abidəsi ilə bu gün və gələcəkdə dərindən tanış olması ondan ibarətdir ki, öz kökünü, keçmişini, millətinin tarixini dərindən bilsin – biz bugünkü və gələcək nəsillərin bu kitablardan lazımi qədər istifadə etməsi imkanına malik olmalıyıq. Mən bu fikri dünən söyləmişəm, indi bir daha deyirəm. Mən görülən işləri çox yüksək qiymətləndirirəm. Ancaq bu, işin başlanğıcı olmalıdır. Bunun üçün biz vəsait də tapa bilərik. Doğrudur, indi bizim vəsaitimiz o qədər də çox deyildir. Amma biz buna qənaət etməməliyik, bunları etməliyik. Çünki bunlar xalqımız, gələcək üçün lazımdır.

Alimlərimiz, yazıçılarımız bu qısa müddətdə keçmiş kitablardan əlavə yeni əsərlər yazıblar. Bu, çox gözəl hadisədir. Düşünürəm ki, əgər bu yubiley haqqında fərman imzalanmasaydı, bu işlər görülməsəydi, bəlkə də, müəlliflərdən 5 faizi öz vaxtını sərf edib belə kitablar yazardılar. Ancaq bu yubileyin keçirilməsi haqqında qəbul etdiyimiz qərar və Azərbaycanda bu məsələnin ötən üç il müddətində geniş təbliğ olunması, bu işə dövlətin böyük əhəmiyyət verməsi bizim bir çox alimlərimizi, yazıçılarımızı həvəsə gətiribdir. Onların hər biri yeni bir kitab yazıbdır. Beləliklə də, "Dədə Qorqud" haqqında bizim həm



tarixi kitablarımız, həm də ədəbi-publisist kitablarımız artıbdır. Bu da çox gözəl hadisədir. [53]

Xalqımızın möhtəşəm ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" eposunun 1815-ci ildə Almaniyanın Drezden Kral Kitabxanasında aşkara çıxarılmış ən mükəmməl nüsxəsi bu günədək orada saxlanılmaqdadır.

Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1999-cu il tarixli 98 saylı Sərəncamı ilə təsdiq edilmiş "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planının 25-ci bəndinə uyğun olaraq 1999-cu il oktyabrın 8-də Drezden şəhərində "Kitabi-Dədə Qorqud"a həsr edilmiş yubiley mərasimi keçirilərkən Almaniyanın Saksoniya əyalətinin Elm və İncəsənət Nazirliyi və Kral Kitabxanası tərəfindən həmin əlyazmanın çox yaxşı şəkildə hazırlanmış faksimilesi (əlyazma) Azərbaycan Respublikasının Prezidentinə hədiyyə edilmək üçün Azərbaycan nümayəndə heyətinə təqdim olunmuşdur. Həmin faksimile Azərbaycan tətbiqi sənəti ustaları tərəfindən məharətlə, Dədə Qorqud dövrünü əks etdirən milli ornamentlərdən istifadə olunmaqla cildlənmişdir.

Ulu öndərin imzaladığı 3 aprel 2000-ci il tarixli Sərəncamda deyilir: "Kitabi-Dədə Qorqud" irsinin gələ-

[54] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn]. Fevral, 2000 - mart, 2000 K 25 /H. Əliyev; burax. məs. R. Mehdiyev - Bak: Azərnəşr, 2008, s.335.

cək nəsillərə daha dolğun çatdırılmasını və onun tədqiqatçılarının mötəbər bir nüsxədən istifadəsini təmin etmək məqsədilə qərara alıram:

"Kitabi-Dədə Qorqud" eposunun Almaniyanın Drezden şəhərinin Kral Kitabxanasında saxlanılan əlyazmasının Azərbaycan Respublikası Prezidentinə bağışlanmış faksimilesi Azərbaycan Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna verilsin.

14 aprel 2000-ci il tarixdə Prezident Sarayında "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasının yekun iclasında ulu öndər vurğulayırdı: "Bu üç il müddətində, demək olar ki, hər bir kollektivdə, hər bir şəhərdə, hər bir rayonda, hər bir qəsəbədə, kənddə Dədə Qorqud yada salındı, təbliğ olundu. Dədə Qorqudun tanninması üçün işlər görüldü. İndi, demək olar ki, bizim xalqımız öz ulu əcdadını – Dədə Qorqudu tanıyır və güman edirəm ki, bundan sonra heç vaxt unutmayacaqdır.

Yaranmış əsərlər isə, təbiidir ki, gələcəkdə "Dədə Qorqud"un Azərbaycanda, digər türkdilli dövlətlərdə, başqa ölkələrdə təbliği üçün çox dəyərli işlərdir. Amma bununla bərabər, onlar xalqımızın təhsilində, təlimində, tərbiyəsində "Dədə Qorqud"dan istifadə olunması üçün çox əhəmiyyətlidir.

Bütün bu işləri görən dövlət komissiyasının üzvlərinə, alimlərimizə, tədqiqatçılarımıza, yazıçılarımıza, şairlərimizə, bəstəkarlarımıza, rəssamlarımıza – bütün mədəniyyət işçilərinə və bütün elm xadimlərinə, ziyalılarımızın hamısına təşəkkür edirəm. Kim nə iş görübsə, o, bu işlə xalqına xidmət edibdir. Təbiidir ki, hərə öz səlahiyyəti çərçivəsində, yaxud da imkanı dairəsində iş görübdür. Amma həqiqətən də, çoxları buna öz payını veribdir. Payın böyük və ya kiçik olmasından asılı olmayaraq, mən hamıya təşəkkür edirəm."[54]

Yekun iclasında Yazıçılar Birliyinin sədri, dövlət komissiyası sədrinin müavini, Milli Məclisin deputatı Anar demişdir:

"Hörmətli Cənab Prezident!

"Dədə Qorqud" yubileyinin belə yüksək səviyyədə, geniş miqyasda, belə görünməmiş vüsətlə keçirilməsində müxtəlif strukturların, müxtəlif təşkilatların, müxtəlif adamların rolu və xidməti olubdur.

Amma ən böyük xidmət, əsas rol Sizindir, əsas iradə sahibi Sizsiniz, Cənab Prezident. Ona görə mən yazıçılar adından, ziyalılar adından Sizə bir daha dərin təşəkkür və minnətdarlığımı bildirmək istəyirəm.

Bir neçə il qabaq Sizin iştirak etdiyiniz "Manas" tədbirlərinə mən də getmişdim. Doğrusu, orada həsəd hissi duyurdum ki, "Manas"la bağlı necə yüksək tədbir-

---

[54] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn]. Mart, 2000 - aprel, 2000. K.26 /H. Əliyev; burax. məs. R. Mehdiyev. - Bakı: Azərnəşr, 2008, s.301.

lər keçirildi, nə qədər kitablar çap olundu. İndi mən böyük məmnunluqla, böyük şərəf hissi ilə deyə bilərəm ki, həm tədbirlərin keyfiyyəti, həm də çap edilmiş kitablar baxımından "Dədə Qorqud" yubileyi "Manas" yubileyindən qat-qat üstün oldu. Tamaşalar, filmlər, sərgilər, xalq şənlikləri, sarayda keçirilən tədbirlər – bunlar öz yerində. Amma burada gördüyümüz kitablar həm keyfiyyəti, həm sanbalı, həm də sayı etibarilə "Manas"la bağlı kitablardan üstündür.

Bu kitablardan biri də, Sizin qeyd etdiyiniz kimi, bəlkə də, ən əhəmiyyətlisi "Dədə Qorqud" ensiklopediyası"dır. Siz bu ensiklopediyanın belə qısa vaxtda, bu cür yüksək səviyyədə çıxmasına göstəriş verdiniz. Siz bu ensiklopediyaya çox əhatəli, məzmunlu ön söz yazdınız və bu ön sözdə, başqaları ilə bərabər, mənim də az-çox işimə yüksək qiymət verdiniz. Buna görə Sizə dərin təşəkkürümü bildirirəm!

Bu işdə Yazıçılar Birliyi boynuna götürdüyü öhdəlikləri yerinə yetirəcəkdir. Biz belə bir siyahı tərtib etmişik. Özü də təkcə Azərbaycanın klassik və çağdaş ədəbiyyatının yox, dünya ədəbiyyatının. Yazıçılar Birliyinin Tərcümə Mərkəzi var. Ona maddi yardım göstərilərsə, Mərkəz büdcəyə qəbul olunarsa, biz burada dünya ədəbiyyatının ən gözəl əsərlərini latın əlifbası ilə çap edə bilərik.



Hörmətli Prezident! Bilirsiniz ki, hələ 30-cu illərdə Azərbaycanda Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsərinin mətni hazırlanıbdır. Rus dilində Dalın lüğəti məşhurdur, bu lüğət türk xalqları üçün daha əhəmiyyətlidir. Çünki o, yalnız lüğət deyil, - orada şeir parçaları, nümunələr var, ümumiyyətlə, bir ensiklopediyadır. Amma təəssüf ki, hazırlanmış həmin mətn Azərbaycanda çap olunmadı. Türkiyədə çap edildi. Sonra hətta özbəklər də qabağa düşdülər, çap etdilər. Bu qorqudşünaslıq, türkoloqlar üçün su, hava kimi lazım olan bir kitabdır. Dədə Qorqud Akademiyası "Divani-lüğət-it-türk"ün nəşrini də hazırlaya bilərdi. Türk xalqlarının terminoloji məsələsi də çox vacibdir. Bununla da, akademiya məşğul ola bilərdi.

Mən başqa bir məsələyə də keçmək istəyirəm. İndi 8-ci sinfə qədər dərslər latın əlifbasıyla keçilir. Amma latın əlifbası ilə məktəbdənkənar ədəbiyyat, demək olar ki, çox azdır. Azərbaycan klassik ədəbiyyatının ən vacib əsərlərini latın əlifbasıyla çap etməyi təklif edirəm. Homerdən, Firdovsidən, Şekspirdən, Puşkindən tutmuş bütün məşhur ədiblərin ən mühüm əsərlərini latın əlifbası ilə çap edib oxucularımıza çatdırmaq vacibdir."[55]

---

[55] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn]. Mart, 2000 - aprel, 2000. K.26 /H. Əliyev; burax. məs. R. Mehdiyev.- Bakı: Azərnəşr, 2008, s.311.

2000-ci il 29 dekabrda "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinə həsr olunmuş rəsmi qəbuldakı nitqində Prezident Heydər Əliyev demişdir:

"Azərbaycan xalqının, bütün türk xalqlarının tarixi abidəsi, elm abidəsi, fəlsəfə abidəsi olan "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini qeyd edərək, deyə bilərəm ki, Azərbaycanın çoxəsrlik tarixində indiyə qədər bizim qeyd etdiyimiz bayramların, yubileylərin hamısından üstündür. Biz bundan nəyə nail olduq? Son üç il müddətində Azərbaycanda indiyə qədər heç vaxtlar olmadığı kimi, "Kitabi-Dədə Qorqud"un tədqiqinə, təhlilinə, onun mənasının və məzmununun dərindən öyrənilməsinə, böyük əsərlərin yaranmasına və ən əsası isə "Kitabi-Dədə Qorqud"un bizim xalqımıza – Azərbaycan xalqına yenidən qayıtmasına nail olduq. "Kitabi-Dədə Qorqud"un 1300 il yaşı olduğunu bütün dünyaya bəyan etdik. Tarixdə - nəinki Azərbaycan tarixində, dünya tarixində - "Kitabi-Dədə Qorqud"un yaşı dəqiq, düzgün müəyyən olundu."[56]

"Kitabi-Dədə Qorqud"u dünyaya tanıtdıq. UNESCO çərçivəsində "Kitabi-Dədə Qorqud"un yubiley mərasimlərinin keçirilməsi, Drezdendə, Moskvada, Türkiyənin bir çox şəhərlərində, başqa yerlərdə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi və bununla bərabər yaranmış əsərlər, üç il müddətində "Kitabi-Dədə Qorqud"un təbliğ olunması "Kitabi-Dədə Qorqud" dastanını bütün dünyaya tanıtdı.[57]

Xalqımız, Azərbaycanın bütün vətəndaşları bu üç il ərzində "Kitabi-Dədə Qorqud" ruhu ilə yaşamış və bizim apardığımız işləri, son yubiley tədbirlərini böyük məmnuniyyət hissi ilə alqışlamış və dəstəkləmişlər. Bəziləri isə belə deyir: "Belə yubileylərin keçirilməsi nəyə lazımdır?" Hətta bəyan edirlər ki, "Bu keçmiş sovet sisteminin yaratdığı adət-ənənələrdir və biz bundan imtina etməliyik". Bəziləri deyirlər ki, "Ölkəmizin ərazisinin 20 faizi işğal olunduğu zaman, işğal edilmiş ərazilərdən bir milyon vətəndaşı didərgin düşüb, qaçqın və köçkün vəziyyətində çadırlarda ağır şəraitdə yaşadığı bir zaman, indi bir çox iqtisadi çətinliklərlə rastlaşdığımız zaman belə təntənələrin, belə yubileylərin keçirilməsi nəyə lazımdır?"[58] Mən belələrinə əvvəl də cavab vermişəm, bu gün də cavab verirəm və onların hamısına deyirəm ki, bəli, belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar bizim vətəndaşlarımıza, azərbaycanlılara, bu gün

[56] 29 dekabr 2000-ci il "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə həsr olunmuş Azərbaycan Prezidenti Heydər Əliyevin adından Gülüstan sarayında keçirilən rəsmi qəbulda Prezident Heydər Əliyevin nitqi: Əliyev Heydər. Müstəqilliyimiz əbədidir.- Bakı: Azərnəşr, 2010.- Kitab 31.- S.283.

[57] Yenə orada.

[58] 29 dekabr 2000-ci il "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə həsr olunmuş Azərbaycan Prezidenti Heydər Əliyevin adından Gülüstan sarayında keçirilən rəsmi qəbulda Prezident Heydər Əliyevin nitqi: Əliyev Heydər. Müstəqilliyimiz əbədidir.- Bakı: Azərnəşr, 2010.- Kitab 31.- S.283.

yaşayanlara və gələcək nəsillərə göstərir ki, biz kimik, haradan gəlmişik, haradayıq, hara gedirik. Biz beləliklə özümüz öz varlığımızı, öz milli köklərimizi dərk edirik. Biz belə yubileylərlə öz keçmişimizə öz zəngin tariximizə hörmət və ehtiramımızı qayğı və diqqətimizi ifadə edirik. Biz belə yubileylərlə dost, qardaş ölkələrlə, xalqlarla bir kökə, bir mədəniyyətə, bir milli-mənəvi ənənələrə mənsub olduğumuzu bir daha təsdiq edirik və bugünkü, gələcək nəsillərə nümunə göstəririk.

Zəngin tariximizi əks etdirən çox əsərlər var, kitablar var, maddi əşyalar var. Ancaq bunların hamısının içərisində bizim milli mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi əks etdirən əsərlər hamısından qiymətlidir və bu gün üçün, gələcək üçün hamısından da gərəklidir. Bu baxımdan, "Kitabi-Dədə Qorqud" dastanının, Azərbaycan tarixində görkəmli yer tutmuş böyük şəxsiyyətlərin, böyük əsərlərin və xüsusən mədəniyyətimizə, ədəbiyyatımıza aid olan əsərlərin əvəzsiz qiyməti vardır və onların hər birinin yubileyini keçirərək biz bir daha, bir daha öz milliliyimizi zəngin mədəniyyətə malik olduğumuzu, qədim, zəngin tarixə malik olduğumuzu, nümayiş etdiririk, təsdiq edirik, xalqımıza bir daha çatdırırıq və bütün dünyaya bəyan edirik.[59]

[59] 29 dekabr 2000-ci il "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə həsr olunmuş Azərbaycan Prezidenti Heydər Əliyevin adından Gülüstan sarayında keçirilən rəsmi qəbulda Prezident Heydər Əliyevin nitqi: Əliyev Heydər. Müstəqilliyimiz əbədidir.- Bakı: Azərnəşr, 2010.- Kitab 31.- S.283.



Ulu öndər kitab nəşrindən bəhs edərkən deyirdi: "Tərcümə məsələsi bizim üçün həmişə çox vacib məsələ olubdur. Yəqin ki, bəziləri xatırlayırlar, - 70-ci illərdə şəxsən mənim üçün bu, mühüm bir problem kimi qarşımda durmuşdu. O vaxt biz tərcümə mərkəzi yaratmaq barədə qərar qəbul etdik. Ancaq o vaxtlar biz tərcümə deyəndə əsərlərimizin rus dilinə tərcüməsi və rus dilindən əsərlərin Azərbaycan dilinə tərcüməsi nəzərdə tuturdu. Onda başqa tərcümə haqqında söhbət getmirdi.

Onu da deməliyəm ki, keçmişdə, ola bilər, 30-cu, 40-cı, 50-ci illərdə, hətta 60-cı illərdə də Azərbaycanda rus-Azərbaycan, Azərbaycan-rus tərcüməçiləri vardı və özü də çox dəyərli tərcüməçilər var idi. Çox yaxşı da tərcümələr edirdilər. Yəqin ki, yaşlı adamlar bunu xatırlayırlar. Bu, mənim xatirimdədir. Sonra, təbiidir ki, zaman keçdikcə bu kadrlar həyatdan köçdülər. Amma biz yeni tərcüməçi kadrlar yarada bilmədik. Ona görə də 70-ci illərdə mən hiss etdim ki, bu sahədə bizim işimizdə müəyyən bir boşluq yaranıbdır. Əvvəllər yaranmış tərcüməçilər qrupu, özü də çox sanballı tərcüməçilər, – hətta birinin familiyası mənim yadımdadır, – Süleyman Məlikov, çox yüksək səviyyəli tərcüməçi idi.

O vaxt bu işi başladıq, amma sonra yəqin ki, davam etməyibdir. İndi isə bizdə məsələ tamamilə başqa cür durur. Yəni bu problem bu gün də aktualdır, bu gün üçün lazımdır. Ancaq indi təkcə rus-Azərbaycan, Azər-

baycan-rus tərcüməsi yox, dünyanın məşhur dillərinə - ingilis, fransız, alman dillərinə, Şərq dillərinə, yəni ərəb, yaxud fars dillərinə tərcümə çox əhəmiyyətlidir...

Ancaq sadəcə, onu demək istəyirəm ki, bunun üçün xüsusi kadrlar lazımdır. Xüsusi kadrlar hazırlamaqdan ötrü də onlar üçün stimul yaratmaq lazımdır. Onlar bilməlidirlər ki, bəli, əgər özlərini bu peşəyə həsr etsələr, onların həyatı, gələcəyi uğurlu olacaqdır. Sadəcə, "tərcümə" hasil olmur. Bu, çox çətin prosesdir. Amma bunun bütün çətinliklərinə baxmayaraq, mən hesab edirəm ki, müstəqil dövlət kimi, bizim ölkəmiz inkişaf edir və biz bütün sahələrdə ilbəil səviyyəmizi qaldırmalıyıq və bu işlə də məşğul olmalıyıq."[60]

24 may 2000-ci il tarixdə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin məqbərəsini ziyarəti zamanı ulu öndər demişdir: "Nizaminin məqbərəsini qorumaq bizim müqəddəs vəzifəmizdir. Siz də bunu etməlisiniz, biz də etməliyik. Gərək elə olsun ki, indiki nəsil də, gələcək nəsil də vaxtilə buraxılmış səhvləri buraxmasınlar.

Mən bu gün böyük hisslərlə Nizaminin məqbərəsini bir daha ziyarət etdim. Onu da sizə deyə bilərəm ki, Nizaminin 800 illiyi 1948-ci ildə keçirilmişdi. Amma 840 illik yubileyini mən böyük təntənə ilə keçirdim, yəni bu

[60] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn]. Mart, 2000 - aprel, 2000. K.26 /H. Əliyev; burax. məs. R. Mehdiyev.- Bakı: Azərnəşr, 2008, s.309-310.



tədbiri həyata keçirməyə nail oldum. O vaxt buna da imkan vermirdilər. Mən Moskvada Kommunist Partiyası Mərkəzi Komitəsinin qarşısında bu məsələni qaldıranda – çünki onlarsız bu işi görə bilməzdik – dedilər ki, "840 illik yuvarlaq rəqəm deyildir. 800 illiyi qeyd eləmisiniz, 850 illik də ola bilər. Amma 840 olmaz, çünki sonra deyəcəksiniz ki, 845, nə bilim, 847". Xatirimdədir, Mərkəzi Komitənin ikinci katibi var idi – Suslov, Brejnevin dövründə ikinci katibi idi – mənə dedi ki, bu mümkün deyildir.

Mən isə dedim ki, siz Nizami Gəncəvini tanıyırsınızmı? Dedi ki, tanıyıram, yaxşı tanıyıram – Suslov keçmiş işçi idi, Stalinin yanında da işləmişdi, 1948-ci ildə onun yubileyinin keçirilməsindən də xəbərim var. Dedim, yəqin ki, tamam xəbəriniz yoxdur. Nizami Gəncəvi elə bir dahidir ki, onun nəinki 840 illiyini, onun yubileyini hər il keçirmək lazımdır.

Beləliklə, biz buna nail olduq, o vaxt Nizami Gəncəvinin 840 illik yubileyini keçirdik. Azərbaycanda, sonra Moskvada çox təntənə ilə keçirdik. O vaxt, yubiley ərəfəsində də qərar verdik ki, buradakı məqbərə yenidən qurulsun, Nizamiyə layiq bir səviyyəyə çatdırılsın.

Mən məmnunam ki, bunu etdik. Amma indi içərisinə də, çölünə də baxanda hesab edirəm ki, bundan da yaxşı edə bilərdik. Güman edirəm, əgər vaxt çatsa, biz bunu edəcəyik. Amma vaxt çatmasa, gələcək nəsillər bu

məqbərəni bundan da gözəl edəcəklər. Mənim buna şübhəm yoxdur.

Nizaminin xatirəsinə mənim bir xidmətim də olubdur. İndi burada fürsətdən istifadə edib onu da demək istəyirəm. Nizami Gəncəvinin əsərlərinin bir qismini 1948-ci ildə onun 800 illik yubileyi keçiriləndə rus dilinə tərcümə etmişdilər. Biz onun 840 illik yubileyini keçirəndə əsərlərinin tamamilə rus dilinə tərcümə olunması və Moskvada - əgər burada ədəbiyyatçılardan varsa, bilirlər, Moskvada "Xudojestvennaya literatura" nəşriyyatı var idi. O, ən yüksək səviyyəli, tarixi şəxsiyyətlərin kitablarını nəşr edirdi – böyük tirajla nəşr olunması barədə qərar qəbul etdik.

Bu asan bir iş deyildi. Mən buna da nail oldum, bu qərar da qəbul edildi. Ancaq elə oldu ki, bu qərar həyata keçirilənə qədər mən Bakıdan Moskvaya işə keçdim. Təbiidir ki, orada da mənim səlahiyyətlərim böyük idi. Bu işə nəzarət etdim və Moskvada "Xudojestvennaya literatura" nəşriyyatında Nizami Gəncəvinin 5 cilddən ibarət poemalarının çox nəfis şəkildə nəşr olunmasına nail oldum.

Bunun böyük əhəmiyyəti var. Çünki Nizamini biz tanıyırıq, Şərq ölkələri tanıyır. Amma lazımdır ki, Avropa da yaxşı tanısın. Avropada da tədqiqatçılar tanıyırlar, bir çox kitabxanalarda onun kitabları var. Ancaq rus dili böyük dil, Rusiya böyük ölkə olduğuna görə - o



vaxtlar biz Sovet ittifaqınm tərkibində idik – bu əsərlərin rus dilində yaxşı, yəni yüksək səviyyədə nəşr olunması, o vaxt bizim üçün böyük bir nailiyyət, böyük bir hadisə idi.

Mən qürur hissi keçirirəm ki, Nizaminin yolunda az iş görməmişəm. Onun xatirəsini əbədiləşdirmək, irsinin daha da təbliğ olunması, yayılması üçün, kitablarının nəşri üçün çox iş görmüşəm."[61]

12 oktyabr 2001-ci ildə Bakıda dahi rus şairi Puşkinin abidəsinin açılış mərasimində dahi Heydər Əliyev demişdir: "Puşkin təkcə Rusiyanın, rus xalqının yox, bütün bəşəriyyətin dahi insanlarından biridir.

Puşkin Azərbaycan üçün doğma bir insandır. Çünki Puşkinin yaradıcılığı Azərbaycanda hələ XIX əsrdə Azərbaycanın mütəfəkkir şəxsiyyətləri, alimləri, şairləri tərəfindən öyrənilirdi və tərcümə edilirdi. Təsadüfi deyil ki, Azərbaycanın böyük yazıçısı, şairi, filosofu Mirzə Fətəli Axundov Puşkinin əsərlərindən bəhrələnmiş və Puşkinin vaxtsız ölümü münasibətilə özünün ən dəyərli əsərlərindən birini - "Şərq poeması"nı yazmışdır."[62]

[61] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn]. Mart, 2000 - aprel, 2000. K.26 /H. Əliyev; burax. məs. R. Mehdiyev.- Bakı: Azərnəşr, 2008. s.307.

[62] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr. məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- Yanvar, 2001 - noyabr, 2001 /H. Əliyev; burax. məs. R. Mehdiyev K.32.- Bakı: Azərnəşr, 2010, s.258.

"1880-ci ildə Moskvada Puşkinə abidə qoyulan zaman Azərbaycan şairi Seyid Əzim Şirvani bu hadisəyə öz böyük şeirini həsr etmişdir.

Hələ XIX əsrdə Puşkinin əsərlərinin Mirzə Kazım bəy, Firudin bəy Köçərli Azərbaycan dilinə tərcümə etmiş və oxuculara çatdırmışlar."[63]

Puşkinin anadan olmasının 100 illiyi münasibətilə Bakıda, Şamaxıda, Naxçıvanda xüsusi mərasimlər keçirilmişdir. Naxçıvanda – mən bunu uşaqlıq vaxtlarından bilirəm, o vaxt, hələ 1899-cu ildə Naxçıvanın ən böyük küçələrindən birinə, yəni Naxçıvanın, demək olar ki, bir başından o biri başına gedən bir geniş prospektə Puşkinin adı verilmişdir. Həyatım elə gətiribdir ki, mən Naxçıvanda bu küçədə doğulmuşam. Ancaq məktəbdə oxuduğum zaman Puşkinin əsərləri ilə, onun şeirləri ilə tanış olduğum zaman mən anladım ki, nə üçün Naxçıvan kimi çox böyük olmayan bir şəhərin ən böyük prospektlərin birinə Puşkinin adı verilmişdir.[64]

Puşkin öz yaradıcılığı ilə rus xalqı ilə Azərbaycan xalqı arasında olan əlaqələrin inkişafında indiyə qədər böyük rol oynamışdır. Ancaq hesab edirəm ki, Puşkinin yaradıcılığı, Puşkin bu gün də bizə lazımdır. Ona görə lazımdır ki, Puşkin Rusiyanın böyük şəxsiyyətləri içərisində, tarixi şəxsiyyətləri içərisində elə bir şəxsiyyətdir ki, o hansı ictimai-siyasi sistemə mənsub olmasından asılı olmayaraq, hansı milli-mənəvi dəyərləri daşımasından asılı olmayaraq, böyük yaradıcılığı ilə bütün xalqlara öz təsirini göstərir. Bütün bunları nəzərə alaraq, biz Rusiyanın prezidenti hörmətli Vladimir Putinin Azərbaycana bu ilin yanvar ayındakı rəsmi səfəri zamanı bu məsələni müzakirə etdik və Puşkinin Bakıda, onun mərkəzində, gözəl bir guşədə abidəsinin qoyulmasını çox zəruri hesab etdik. İndi bu abidə qoyulubdur. Həqiqətən, bu, böyük bir heykəltəraşlıq əsəridir. Güman edirəm ki, böyük rus heykəltəraşı da bunu Puşkinə, onun yaradıcılığına böyük məhəbbət hissi ilə yaratmışdır.

Hesab edirəm ki, Puşkinin heykəli burada, Bakının və bütün Azərbaycanın vətəndaşlarının çox seyr etdikləri yerdə həmişə Rusiya-Azərbaycan əlaqələrinin, rus xalqı ilə Azərbaycan xalqı arasındakı əlaqələrin nə qədər zəruri olduğunu və onların daim inkişaf etdirilməsinin zəruriliyini yada salacaqdır, bildirəcəkdir. Bütün bunlara görə, hesab edirəm ki, bugünkü bu mərasim, bu hadisə Azərbaycanm ictimai-siyasi həyatında və xüsusən Azərbaycanın müstəqilliyinin onuncu ildönümü bayram edildiyi zaman çox əlamətdardır."[65]

[63] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- Yanvar, 2001 - noyabr, 2001 /H. Əliyev; burax. məs. R. Mehdiyev K.32.- Bakı: Azərnəşr, 2010, s. 259.
[64] Yenə orada.- S. 260.



[65] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- Yanvar, 2001 - noyabr, 2001 /H. Əliyev; burax. məs. R. Mehdiyev K.32.- Bakı: Azərnəşr, 2010.- S.260.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir.

Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Dağlıq Qarabağ münaqişəsinin əsl səbəb və nəticələrini beynəlxalq ictimaiyyətə çatdırmaq, informasiya blokadasını yarmaq, on illərdir erməni diasporası tərəfindən yayılan yalan və uydurmaların qarşısını almaq Heydər Əliyev siyasətinin ayrılmaz bir hissəsi idi. Heydər Əliyev hər bir xarici səfərinə Azərbaycanın xəritəsini də aparırdı və orada keçirilən görüşlər zamanı rastlaşdığı insanlara bütün əsl həqiqətləri, faktları çatdırırdı və bunu hər bir azərbaycanlıya tövsiyə edirdi.

Bu gün də həmin siyasət davam etdirilir. Milli Elmlər Akademiyasının 60 illik yubileyinə həsr edilmiş toplantıda Azərbaycan Prezidenti İlham Əliyev çıxışında demişdir ki, Qarabağ mövzusunda çoxsaylı elmi işlər yaradılmalıdır, kitablar yazılmalıdır, müxtəlif dillərə tərcümə edilib dünyaya yayılmalıdır.

10 sentyabr 1996-cı ildə Respublika sarayında dahi Heydər Əliyev akademik Yusif Məmmədəliyev haqqında çox orijinal fikirlər söyləmişdir: "Yusif Məmmədəliyev 1905-ci ildə Azərbaycanın gözəl guşələrindən biri



Ordubad şəhərində anadan olub, öz fitri istedadı, fədakarlığı, vətənpərvərliyi ilə qısa bir müddətdə dünyada, xalqımızın arasında, respublikamızda görkəmli yer tutub və tarixi şəxsiyyətlərdən birinə çevrilmişdir. Xalqımız Yusif Məmmədəliyev kimi şəxsiyyətlərlə tanınır və fəxr edir. Çünki belə insanlar, şəxsiyyətlər Azərbaycan xalqının zəkasını, elmini, mədəniyyətini, daxili mənəviyyatını dünyaya nümayiş etdirir. Elə bunun özü Yusif Məmmədəliyev kimi şəxsiyyətlərin xalq qarşısında olan böyük xidmətidir.

Yusif Məmmədəliyev xalqımızın tarixində böyük alim, maarifçi, təşkilatçı, görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. O, öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən neft kimyası elminə görkəmli töhfələr veribdir."[66]

Ulu öndər 29 oktyabr 1996-cı ildə Naxçıvanda Azərbaycan şairi və dramaturqu, böyük ədib Hüseyn Cavidin məqbərəsinin təntənəli açılışı mərasimində demişdir: "Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını,

[66] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. İyun, 1996 - noyabr, 1996. K.7 /H. Ə. Əliyev; Buraxılışa məsul Ramiz Mehdiyev - Bakı: Azərnəşr, 1998, s.191

onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir.

Hüseyn Cavid Azərbaycan xalqının tarixində görkəmli yer tutub. Məhz bunlara görə də biz 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illik yubileyi haqqında böyük bir qərar qəbul etdik. Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, mən bu qərarın həm təşəbbüskarıyam, həm də onun müəllifiyəm. Bu gün mən xoşbəxtəm ki, həmin o vaxt nəzərdə tutduğum arzularım, istəklərim 15 ildən sonra yerinə yetirilir."[67]

Azərbaycan Respublikasının Prezidenti, ümummilli liderimiz Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərmanı ilə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, xüsusilə, 2001-ci il avqust ayının 1-nə qədər bütövlükdə latın qrafikasına keçid yeni qrafikada orfoqrafiya lüğətinin hazırlanıb çap olunmasını ən aktual məsələlərdən birinə çevirdi.

14 aprel 1999-cu ildə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında gözəl insan, görkəmli oftalmoloq alim, tibb elmləri doktoru, əməkdar elm xadimi, professor, respublika Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Tibb Elmləri Akademiyasınm akademiki M.İ.Averbax

[67] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, maktublar, məruzələr, müraciatlar, fərmanlar. İyun, 1996 - noyabr, 1996. K.7 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev - Bakı: Azərnəşr, 1998, s.291.



adına mükafat laureatı Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş "Zərifə xanım Əliyeva" kitab-albomunun təqdimat mərasimində Ulu öndər məhəbbətlə və səmimiyyətlə demişdir: "Bu axşam biz burada birlikdə Zərifə xanım haqqında olan kitab-albomun təqdimat mərasimini, eyni zamanda bir xatirə gecəsini yaşadıq.

Bugünkü mərasim məni və ailə üzvlərimi bir daha on dörd il bundan öncə olan günlərə, aylara qaytardı. Nə qədər çox il keçsə də, bizim ailəmiz bu itkinin ağrısını-acısını həmişə hiss edir. Hesab edirəm ki, nəinki biz, mənim nəvələrim də, onların davamçıları da bu hisslərlə yaşayacaq və bizim hamımız üçün əziz, unudulmaz Zərifə xanım həmişə qəlbimizdə yaşayacaqdır.

Zərifə xanımın haqqındakı kitab onun şəxsiyyətinə, həyat yoluna, insani keyfiyyətlərinə, mənəviyyatına layiq bir kitabdır. Bu kitabı hazırlayanlara, çapdan çıxaranlara təşəkkür edirəm.

Bugünkü gecə bizim üçün çox təsirlidir, eyni zamanda olduqca maraqlıdır. Bu gecənin hazırlanması böyük incəsənət, mədəniyyət nümunəsidir. Bunun hazırlanması böyük istedad tələb edir. Bu gün biz bu istedadların şahidi olduq.

Görkəmli dövlət xadimi, elm təşkilatçısı Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım çox kübar, ziyalı, işgüzar, xalqını, vətənini, torpağını ürəkdən sevən bu ailənin layiqli övladı olmuşdu. O, respublika-

mızda tibb elminin, xüsusilə oftalmologiyanın inkişafında böyük rol oynamış, bu sahədə yüksəkixtisaslı kadrlar hazırlanmasında yaxından iştirak etmişdir."

5 noyabr 2000-ci ildə ulu öndər Bakı şəhərinin Səbail rayonundakı Tofiq İsmayılov adına Respublika Uşaq və Gənclər Yaradıcılıq Sarayında yerləşən 17 nömrəli seçki məntəqəsində səsvermə zamanı jurnalistin suallarına cavab verərkən:

Müxbir Reyhan Mirzəzadə: Cənab Prezident, Sizi xoş gördük. Bu gün Azərbaycan xalqı üçün bir bayramdır, yəni dövlətimizin qanunvericilik orqanına, parlamentə seçkilər günüdür. Bununla əlaqədar, Azərbaycan gəncləri adından, burada çalışan işçilər adından Sizi təbrik edirəm, Sizə cansağlığı arzulayıram.

Cənab Prezident, mənim üçün ikiqat bayramdır. Çünki bu yaxınlarda Moskvada yeni nəşr olunmuş bir kitab əldə etmişəm. O, «100 velikix praviteley XX века» adlanır. XX əsrin ən dahi siyasətçiləri arasında, 100 nəfər məşhur dövlət xadimi sırasında Sizin, Azərbaycan Prezidentinin, hörmətli cənab Heydər Əliyevin də adı vardır və o bununla dünya tarixinə düşür. Mən bu münasibətlə bütün heydərsevərləri təbrik edirəm. Bu bizim üçün fəxrdir, buna sevinir, qürur hissi keçiririk. İcazə verin. bu kitabı da Sizə təqdim edim!

Heydər Əliyev: Bu kitabdan birini mənə vermişdilər. Amma görünür, bu daha yaxşı nəşrdir. Əvvəl mənə



birini göndərmişdilər. Ancaq görürəm ki, bu, yeni nəşrdir. Bəli, XX əsrdə dünyanın 100 siyasi xadiminin tərcümeyi-halını burada yazıblar. O cümlədən Heydər Əliyevin. Sağ olun!"[68]

20 noyabr 1997-ci ildə M.F.Axundov adına Respublika Kitabxanasında Amerikada nəşr edilən "Azərbaycan İnternəşnl" jurnalının beş illiyinə həsr olunmuş mərasimdə ulu öndər qeyd edir ki, "Son illər belə bir ənənə yaranıbdır ki, yeni bir maraqlı kitab, yaxud jurnal, toplu, məcmuə, başqa bir əsər meydana çıxan zaman onun təqdimat mərasimi keçirilir. Bu ənənədən fərqli olaraq, "Azərbaycan internəşnl" jurnalı beş il bundan əvvəl özünün ilk addımlarını atıbdır və heç bir təqdimat mərasimi keçirməyibdir. Ancaq ötən illərdə ilbəil öz fəaliyyətini artırıb, gücləndirib və jurnalı çox yüksək səviyyəyə qaldırıbdır. Hesab edirəm ki, indi jurnalın fəaliyyətinə qiymət vermək üçün bu mərasim çox lazımlı bir mərasimdir.

"Azərbaycan internəşnl" jurnalının fəaliyyəti xüsusi qiymətə layiqdir. Çox qətiyyətlə demək olar və bunu etiraf etməliyik ki, indiyə qədər xarici ölkələrdə dərc olunan, nəşr edilən cürbəcür nümunələr - kitablar, jurnallar içərisində "Azərbaycan internəşnl" jurnalı qədər

---

[68] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, maruzələr, müraciatlar, fərmanlar. İyun, 1996 - noyabr, 1996. K.7 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev - Bakı: Azərnaşr, 1998, s.291.

Azərbaycan haqqında dolğun, düzgün və çox parlaq, gözəl, cazibədar məlumat yayan jurnalımız, toplumuz olmayıbdır.

Maraqlı, sevindirici cəhət də bundan ibarətdir ki, jurnalı nə Azərbaycanın dövlət orqanları, nə bir ictimai təşkilat, nə də respublikamızdakı hansısa bir təşkilat yaradıb. Bu jurnalı yaradanlar Azərbaycanı sevən, ona ürək yandıran, Azərbaycanla dostluq edən iki şəxs – xanım Betti və Piruz Yanlıdır. Onlardan biri amerikalı, o birisi isə azərbaycanlıdır, amma Amerika vətəndaşıdır. Onlar şəxsi təşəbbüs göstəriblər və öz fədakarlıqları nəticəsində o jurnalı yaradıb, indi belə bir yüksək səviyyəyə gətirib çıxarıblar.

"Azərbaycan internəşnl" bütün parametrlərinə, xüsusiyyətlərinə görə dünyada, ən inkişaf etmiş ölkələrdə nəşr edilən yüksək səviyyəli jurnallarla rəqabət apara bilən bir jurnaldır.

Bu jurnal həm Üzeyir Hacıbəyovu, Rəşid Behbudovu, Niyazini, həm bizim böyük şairlərimizi, rəssamlarımızı təbliğ edir, həm də bu gün meydana gələn gənc istedadlarımızı təbliğ edir. Bu, nə qədər gözəl təşəbbüsdür, işdir!

Mənim bu jurnal haqqında o qədər böyük təəssüratım var ki, bütün bunlar barədə çox danışmaq olar. Ən mühüm cəhət bir də ondan ibarətdir ki, bu jurnal artıq 47 ölkədə yayılır, 7 min nüsxə tirajla nəşr olunur. Demək, bu jurnal 47 ölkədə, özü də yüksək dövlət dairələrində, ictimai təşkilatlarda, böyük biznes, maliyyə mərkəzlərində yayılır. Bu, çox əhəmiyyətlidir.



Jurnalın gördüyü çox gözəl işlərdən biri də Azərbaycan musiqisinin kompakt disklərə yazılması və dünyaya yayılmasıdır. Xanım Betti bu barədə geniş məlumat verdi. Bu bizim üçün çox faydalı bir işdir. Onlar şəxsən mənə də kömək ediblər. Mən indi məni ziyarət edən qonaqlara "Azərbaycan internəşnl" jurnalını və Azərbaycan bəstəkarlarının gözəl musiqi əsərlərindən ibarət kompakt diskləri hədiyyə verirəm.

Jurnalın son xidmətlərindən biri də Azərbaycan prezidentinin Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfərinə həsr olunmuş, onların yaratdığı və burada təqdim etdikləri kitabdır. Bu kitab da çox yüksək səviyyədə yaranıbdır. Hesab edirəm ki, jurnal kimi, bu kitab da Azərbaycanın bugünkü həyatının, həqiqətlərinin, xarici siyasətimizin və Azərbaycan Amerika Birləşmiş Ştatları əlaqələrinin dünyada təbliğ olunması üçün çox dəyərli xidmətlər edəcəkdir."[69]

Mərasimin sonunda Azərbaycan Prezidenti Heydər Əliyev və "Azərbaycan internəşnl" jurnalının baş redaktoru Betti Bleyer "Qlobal üfüqlər, Prezident H.Əliyevin

[69] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr, 1997 - dekabr, 1997. K.13 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev.- Bakı: Azərnəşr. 2004, s.216-222.

ABŞ səfəri" nəşrini M.F.Axundov adına Respublika Kitabxanasına təqdim olunmaq üçün imzaladılar.

29 oktyabr 1997-ci ildə Prezident Sarayında Azərbaycan yazıçılarının X Qurultayı ərəfəsində gənc nəsildən olan yazıçı və şairlərin bir qrupu ilə görüşdə Heydər Əliyev giriş sözü ilə çıxış edərkən demişdir: "İki-üç gün bundan öncə mənə bir kitab göstərdilər. Baxıram, kitabda Elçinlə, hansısa bir şairlə, daha kiminləsə mənim də şəklim var. Elçin o vaxt gənc idi, qara, qıvrım saçları vardı. Elçin, o şəkli görmüsənmi? *(Elçin Əfəndiyev)*

Elçin: Görmüşəm. Nizami Xudiyevin kitabında verilib. Yeri gəlmişkən deyim ki, yaxşı kitabdır.

Heydər Əliyev: Hə, Nizami Xudiyevin kitabıdır. Mən hələ oxuya bilməmişəm. Bilirəm, Azərbaycan dilinə həsr olunub. Bu da mənim üçün ən dəyərli mövzulardan biridir. Hardansa toplanmış nadir şəkillər kitabda verilmişdir. İndi belədir, həmişə cavan qalmaq olmur."[70]

Görüşdə yekun sözündə, ulu öndər xüsusi vurğulayırdı: "Burada ayrı-ayrı kitabların nəşr olunması və nəşrin keyfiyyəti haqqında da deyildi. Mən bu barədə də düşünə bilərəm. Sonra siz, deyəsən, başqa məsələlər də qaldırdınız. Mən bayaq da dedim, – televiziyada xüsusi, daimi veriliş aparılmalıdır və orada bizim ədəbiyyatımızın nümunələri, xüsusən jurnallar daim təbliğ olunmalıdır. Çünki burada deyildi ki, jurnallar az oxunur, hətta oxumaq həvəsi azalıbdır. Bu da təbiidir. Çünki insanların bir tərəfdən dərdi çoxalıbdır, ona görə də oxumağa vaxt tapmırlar, ikinci tərəfdən bu jurnallar müntəzəm çıxmadığına görə insanlar bundan bir az soyuyublar. Deməli, əvvəlki münasibəti bərpa etmək lazımdır.

Mən Fatma Abdullazadəyə tapşırıram ki, sərəncam hazırlasın - sizin sabahkı qurultayınızda da ola bilər ki, hansısa məsələ qaldırılsın - qurultayın nəticələri ilə əlaqədar sərəncam hazırlasın. Mən həllinə imkan olan məsələləri bu sərəncamda əks etdirərəm, bu sərəncamı imzalayaram və indiki imkan daxilində sizə bu yardımı edərəm. Amma istəyirəm biləsiniz ki, bizim bu imkanlarımız gələcəkdə daha da çox olacaqdır."

Bu gün deməliyik ki, məhz sovet hakimiyyəti dövründə o vaxtkı insanlar 1926-cı ildə Azərbaycanda latın əlifbasının tətbiq edilməsinə nail oldular. Lakin ondan, təxminən, 10-11 il sonra latın əlifbasını bizim əlimizdən aldılar. İndi biz Mirzə Fətəli Axundovun XIX əsrin ortalarındakı arzularını, niyyətlərini həyata keçiririk. Amma ümidvaram ki, bunu əlimizdən daha heç kim

[70] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr, 1997 - dekabr, 1997. K.13 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev - Bakı: Azərnəşr. 2004, s.92.

ala bilməyəcəkdir. Çünki biz artıq müstəqil bir dövlətik və müstəqilliyimiz də daimidir, əbədidir.[71]

Xalqımızın milli-mənəvi dəyərlərinə daimi yüksək qayğı göstərən və dahi rəhbərin siyasi kursunun layiqli davamçısı olan möhtərəm prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü fəaliyyət sahəsində kitab nəşrinin müasir tələblər səviyyəsində inkişafı göz qabağındadır.

Heydər Əliyevin 13 mart 1998-ci ildə imzaladığı "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncamında deyilir: "Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi Təhsil Nazirliyi və Elmlər Akademiyası ilə birlikdə "Azərbaycan dövlət rəmzləri" adlı məlumat kitabının hazırlanıb çap olunmasını, dərslik, plakat, təqvim və digər çap məmulatlarında dövlət atributlarının təbliğ olunmasını təmin etsin."

Ulu öndərin bu tapşırığı əməkdar elm xadimi, professor Misir Mərdanovun rəhbərliyi ilə monoqrafik formada artıq üç dəfə kütləvi tirajla çap olunmuşdur.

Kitabın elmi redaktoru Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevdir.

---

[71] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr, 1997 - dekabr, 1997. K.13 /H. Ə. Əliyev; Buraxılışa məsul: Ramiz Mehdiyev.- Bakı: Azərnəşr. 2004, s.92



İnsan hüquqlarını bəşər sivilizasiyasının ən müdrik kəşflərindən biri hesab edən ümummilli liderimiz Heydər Əliyev demişdir: "Vəzifəli şəxslərin fəaliyyətini onların insan hüquqlarının qorunmasındakı xidmətlərinə görə qiymətləndirmək lazımdır." Beləliklə də, həmişə cəmiyyətdəki mövqeyindən asılı olmayaraq həyatda hər kəsi nəcib, xeyirxah, humanist amallar uğrunda mübariz olmağa, insan hüquqlarını qorumağa və hörmət bəsləməyə çağırmışdır. O, bunu hamıya tövsiyə etsə də, vəzifəli şəxslərdən xüsusi olaraq birmənalı şəkildə tələb etmişdir. [72]

30 sentyabr 2002-ci ildə Bakı şəhərində keçirilən "Qafqaz arxeologiya və etnoqrafiyası" mövzusunda beynəlxalq konfransın iştirakçılarına təbrik məktubunda ulu öndər demişdir: "Müasir dövrün mürəkkəb coğrafi-siyasi prosesləri Qafqazı dünyada nadir rol oynamağa qadir olan regiona çevirir. Hazırda burada həyata keçirilən Böyük İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi kimi qlobal layihələr ölkələrimizin dünya iqtisadi sisteminə daxil olmasına kömək edir. Məhz buna görə Qafqaz xalqlarının tarix və mədəniyyətinin öyrənilməsi çox böyük elmi əhəmiyyətlə yanaşı, şübhəsiz, siyasi məna da kəsb edir. Yaxın keçmişdə tari-

---

[72] Süleymanova E. Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi sahədə həyata keçirdiyi islahatlar və insan hüquqlarının təmin olunması /Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi: Beynəlxalq elmi-praktik konfransın materialları.- Lənkəran 23-24 dekabr - Bakı: Azərbaycan, 2007, s.51.

xi faktlar və ümumi tariximizin hadisələri ideologiyanın sərt çərçivəsinə tabe olunmuşdu. İndi tarixi keçmiş də, xalq ənənələri də, mədəni irs də qərəzsiz, ciddi elmi təhlil mövzusuna çevrilməlidir. Ümidvaram ki, belə məsul tarixi vəzifəyə xidmət etməli olan konfransımız Qafqazın arxeologiya və etnologiyasının öyrənilməsinə öz sanballı töhfəsini verəcəkdir."[73]

30 oktyabr 2002-ci ildə dövlətimizin başçısı Respublika Sarayının foyesində gənc rəssam Əli Cəfərin əsərlərindən təşkil olunmuş sərgiyə baxarkən demişdir: "Yaxşı, Dilarə xanım, sabah mənim yadıma sal. Mən mütləq təqaüd verərəm. Sankt-Peterburqdakı muzeylərdə həddindən çox əsərlər var. Orada təkcə Rusiyanın deyil, bütün dünya, Avropa rəssamlarının əsərləri var. Ermitajdır, rus muzeyidir, başqalarıdır. Mən gənc vaxtlarımda orada təhsil alanda onların hamısını görmüşəm, yaxşı bilirəm. Fikirləşin, vaxtını deyərsiniz, mən təşkil edəcəm, qoy oraya getsin."[74]

1998-ci ilin avqustunda "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərmanla ölkədə senzuranın ləğvindən sonra Azərbaycanda mətbuata maraq hədsiz dərəcədə gücləndi.

[73] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- sentyabr, 2002 -oktyabr, 2002-/H. Əliyev: burax. məs. R. Mehdiyev.- K.41.- Bakı: Azərnəşr, 2012.- S.376.
[74] Yenə orada.- S.191.



18 dekabr 2001-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Prezident sarayında ölkəmizdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşdə yekun nitqində demişdir: "Bizim ümumi məqsədimiz mətbuata daha da çox azadlıq verməkdir. Söz azadlığını daha da geniş təmin etmək və Azərbaycanda demokratiyanı bütün sahələrdə inkişaf etdirməkdən ibarətdir. İnanın, bu mənim səmimi sözlərimdir. Sözlər deyil, bu mənim siyasətimin bir hissəsidir."

Azərbaycanın bütün mətbuatını bir daha əməkdaşlığa dəvət edirəm. Sizi əməkdaşlığa dəvət edirəm! Hamını ədalətə dəvət edirəm. Hamını dostluğa, birliyə dəvət edirəm!"[75]

Daha sonra Ulu öndər demişdir: "Mən 32 il bundan öncə Azərbaycana başçılıq etməyə başlamışam. Mənim bütün bu 32 illik həyatım hamının gözü qabağındadır. Sizin bəzilərinizin, jurnalistlərin heç 32 yaşı yoxdur. Amma bu mənim 32 illik həyatımdır. Bütün əmək fəaliyyətimə baxsanız, mən 60 ildir əmək fəaliyyəti ilə məşğulam. Ona görə mənə heç bir ləkə yapışmayacaqdır. Məni Siyasi Bürodan çıxarandan sonra Qorbaçovun bütün təbliğat maşını, bizim Azərbaycandakı bədxahlarla birlikdə, xüsusən ermənilərlə birlikdə Qarabağ hadisə-

[75] Heydər Əliyev və mətbuat: müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar: 4 cilddə- Bakı, 2003.- S.350. (639)

sini başlamaq üçün, Heydər Əliyevi ləkələmək üçün bir neçə məqalə yazdılar. Amma onlar mənə bir şey edə bilmədilərsə, indi burada mənə nə edəcəklər? Heç bir şey! Çünki hər şeydə mənim vicdanım təmizdir. Hər bir kəsin qarşısında hər bir şeyə cavab verə bilərəm. Ona görə də mən bu şeylərə fikir vermirəm. Mənim haqqımda böhtan yazanlara da, sadəcə, məsləhət görürəm ki, özlərini yormasınlar. Bunlardan bir şey çıxmayacaqdır."[76]

15 mart 2003-cü ildə Azərbaycan Jurnalistlərinin Birinci Qurultayına müraciətində demişdir: "Yaşadığımız qloballaşma və informasiya əsrində azad söz və mətbuatın əhəmiyyəti getdikcə artmaqdadır. Mütərəqqi ənənələrə, milli və ümumbəşəri dəyərlərə malik Azərbaycan mətbuatı demokratiya və aşkarlığın mühüm vasitəsi kimi, bugünkü müstəqil dövlət və azad vətəndaş cəmiyyəti quruculuğunda müstəsna rol oynayır. Xalqımızın azadlıq arzularının, müstəqillik ideallarının əks etdirilməsində, milli-mənəvi dəyərlərin qorunmasında, aktual problemlərin ictimai müzakirəyə çıxarılmasında Azərbaycan mətbuatının xidmətləri xüsusi qeyd olunmalıdır."

[76] Yenə orada.- S.354.



# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN DƏRSLİK SİYASƏTİ

*"Cəmiyyətimizin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır."*

***Heydər Əliyev***
***Ümummilli lider***

Ulu öndər Heydər Əliyev mənəvi irsimizi aşağıdakı kimi dəyərləndirir: "Bizim tarixi, mədəni ənənələrimiz, gərək, orta məktəblərdə tədris olunsun. Çünki tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik. Ona görə də gənclər, gərək, öz köklərini, respublikamızın, xalqımızın tarixini bilərək bu gün də, gələcəkdə vətənpərvərlik, Vətənə xidmət, Vətənə qayğı hissi ilə yaşasınlar...

Azərbaycan xalqı istedadlarla, görkəmli insanlarla həmişə zəngin olmuşdur. Biz haqlı olaraq fəxr edirik ki, xalqımız böyük incəsənət, elm və mədəniyyət əsərləri ilə dünya sivilizasiyasını zənginləşdirmişdir. Fəxr edirik ki, bizim bəstəkarlarımız, musiqiçilərimiz, mədəniyyət xadimlərimiz var. Məhz onların yaradıcılığı əsrlər boyu

Azərbaycan xalqını ruhlandırmış və onu yeni nailiyyətlər, yeni hünərlər səviyyəsinə qaldırmışdır."

Heydər Əliyevin toxunduğu ən ciddi məsələlərdən biri milli təhsil və tərbiyənin məzmunca Azərbaycanın dövlətçilik prinsipləri əsasında qurulmasına nail olmaqdan, yeni məzmunlu milli dərsliklərin yaradılmasından, milli ideologiyanın əsas reallaşma vasitələri olan dil, ədəbiyyat, tarix, mədəniyyət və s. humanitar profilli fənlərin tədris səviyyəsini yüksəltməkdən, təhsil müəssisələrində latın əlifbasına keçid prosesini sürətləndirmək və onu başa çatdırmaqdan, nəhayət, məktəblərimizdə Azərbaycanın dövlət müstəqilliyinin məzmun və mahiyyətinin, o cümlədən, həmin müstəqilliyin rəmzlərinin, atributlarının məna və funksiyasının hər bir uşağa, hər bir şagirdə, hər bir tələbəyə, hər bir vətəndaşa başa salınmasını, öyrədilməsini, dərindən dərk olunmasını təşkil etməkdən ibarətdir.[77]

Ulu öndər 1 sentyabr 1997-ci ildə "Yeni dərs ili"nin başlanması münasibətilə Bakıdakı 18 nömrəli məktəbdə keçirilən görüşdəki nitqində xüsusilə vurğulamışdır: "Biz yeni əlifbaya – latın əlifbasına keçmişik. Mən hiss edirəm ki, latın əlifbasının tətbiqi çox ləng gedir. Hesab edirəm ki, bu işləri də sürətləndirmək lazımdır. Yaşlı nəsil kiril əlifbası ilə oxuduğuna görə latın əlifbasını

[77] Mərdanov M. Azərbaycan Respublikasının dövlət rəmzləri/ M. Mərdanov, Ə.Quliyev - Üçüncü nəşr.- Bakı: Çaşıoğlu, 2010.- S.33.



oxumaqda çətinlik çəkir. Bildirmək istəyirəm ki, burada heç çətin iş yoxdur. Latın əlifbası ilə kiril əlifbası arasında fərq o qədər də böyük deyildir. Sadəcə, mən yaşlı nəslə müraciət edib deyirəm ki, bir balaca özünüzü əziyyətə salın və tezliklə bu kiril əlifbasından xilas olun.

Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır. Nəşriyyata da bu gün müraciət edirəm ki, kitabların hamısı latın əlifbası ilə çap olunsun. 1939-cu ildən indiyə qədər yazılan kitabların hamısı kiril əlifbası ilə buraxılıb. Bu illərdə bizim ədəbiyyatımızda, mədəniyyətimizdə, tariximizdə, elmimizdə çox böyük nailiyyətlər, ixtiralar əldə olunubdur. Bunların hamısı öz əksini kitablarda tapıbdır. Bizim kitabxanalar belə kitablarla doludur. Şübhəsiz ki, bunlardan bu gün də, on illər sonralar da istifadə etməli olacaqlar. Əgər biz tezliklə bütün sahələrdə latın əlifbasına keçməsək, gecikmiş olacağıq. Bu işlər məktəblərdə, xüsusilə, təşkil olunmalıdır. Mən Təhsil Nazirliyindən, bütün məktəblərdən bunu tələb edirəm."[78]

Şəxsiyyətyönümlü məktəbi müasir dərsliklərsiz təsəvvür etmək çətindir. Respublikamızda dərsliklər və dərs vəsaitlərinin tərtibi və nəşri ümumi təhsil sahəsində aparılan islahatların mühüm tərkib hissəsidir. Dərslik hazırlığı sahəsində dünyada mövcud olan model və me-

[78] "Azərbaycan" qəzeti.- 1998.- 28 may.- №121.- S.1.

xanizmləri özündə əks etdirən "Ümumi təhsil sistemində dərslik siyasəti" sənədi Azərbaycan Hökuməti tərəfindən təsdiq edilmişdir.[79]

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliklərinə yenidən baxılması zərurətini yaratdı. Çünki bu dərsliklər 1993-cü ildə tərtib edilmiş proqramlar əsasında yazılmışdı və təbii ki, bir sıra çatışmazlıqlar və nöqsanlar vardı. Ona görə də görkəmli alimlər və orta məktəb müəllimlərinin iştirakı ilə yeni "Azərbaycan dili" və "Ədəbiyyat" proqramları əsasında dərsliklərin yazılmasına başlanıldı.

Qeyd etmək lazımdır ki, təhsil sistemində dərslik siyasətinin əsas prinsiplərində xüsusi olaraq vurğulanır: "Dərslik siyasətinin məqsədi məktəbliləri müasir standartlara uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək, Vətəninə, xalqına, onun adət-ənənələrinə bələd olan, milli və ümumbəşəri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir."

[79] Mərdanov M. Azərbaycan təhsili dünən, bu gün, sabah.- Bakı: Təhsil, 2006, S.13.



Ümumtəhsil məktəblərinin ibtidai sinif dərsliklərinin vaxtında və yüksək keyfiyyətlə çap edilib şagirdlərin istifadəsinə pulsuz verilməsi həmişə dövlətin diqqət mərkəzində saxlanılmışdır. Hələ 1978-ci ildən başlayaraq, orta məktəb dərslikləri dövlət vəsaiti hesabına çap olunub şagirdlərə pulsuz paylanılırdı. Lakin 1992-ci ildə həmin qərar ləğv olunaraq bütün dərsliklər açıq satışa buraxıldı. Bu da, təbii ki, əlavə çətinliklər törətdi, tədrisə mənfi təsir göstərdi.

Ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından az sonra Nazirlər Kabinetinin 25 avqust 1994-cü il tarixli 318 nömrəli qərarı ilə 1995-ci ildən etibarən hər il ibtidai sinif dərslikləri dövlət vəsaiti hesabına çap olunaraq məktəblilərə çatdırıldı.

"2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və ibtidai inkişaf üzrə Dövlət Proqramı"na müvafiq olaraq 2003-cü ildə dövlət ümumtəhsil məktəblərinin I-V sinif şagirdləri və I-XI siniflərdə oxuyan qaçqın və məcburi köçkün uşaqlar dərsliklərlə pulsuz təmin olunmuşlar. 2004-cü ildə bu iş davam etdirilərək VI-VII sinif şagirdlərinin, 2005-ci ildə isə VIII-IX sinif şagirdlərinin dərsliklərlə pulsuz təminatı uğurla yerinə yetirilmişdir.

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin bütün şagirdləri "Ümumtəhsil məktəbləri üçün

dərsliklərin nəşri, çapı və paylanması qaydaları"na uyğun olaraq dərsliklərlə pulsuz təmin olunurlar.

Heydər Əliyevin 30 mart 1998-ci il tarixli Sərəncamı ilə Azərbaycanda təhsil islahatları aparmaq üçün yaratdığı komissiya fəaliyyətə başladı. Dövlət İslahat Komissiyasının bir il ərzində hazırladığı proqram respublika Prezidentinin 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə məhz Milli Qurtuluş Günü təsdiq olundu. Bu proqram bütövlükdə təhsil sisteminin perspektivli inkişaf istiqamətlərini müəyyənləşdirdi, beynəlxalq standartlara uyğun və dünya təhsil sisteminə inteqrasiya, təlim-tərbiyənin şagirdlərin meyil və marağı əsasında qurulması tələbləri, ümumi təhsilin məzmununda köklü dəyişikliklərin aparılması kimi bir sıra problemlərin həlli sahəsində görüləcək işlərə aydınlıq gətirdi. Təbii ki, müvəffəqiyyətli təlim üçün bir-biri ilə sıx bağlı olan amillər sırasında proqram və dərsliklər xüsusi yer tutduğundan nazirlik bu məsələyə daha böyük diqqət ayırdı. Eləcə də tədris planları və proqramlar, dərsliklər, dərs vəsaitləri və digər tədris-metodik ədəbiyyatın məzmunca yeniləşdirilməsi, nəşri və təhsil müəssisələrinin onlarla təminatı istiqamətində genişmiqyaslı tədbirlərə başlanıldı.[80]

Ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə 2000-ci ildən başlayaraq yeni dərsliklərin nəşri sürətləndirildi. İlk növbədə, tarix və xarici dil proqramları əsasında yeni orijinal dərsliklərin yazılmasına başlanıldı və az müddətdə bu iki fənn üzrə 36 dərslik nəşr olundu.

[80] Mərdanov M. Azərbaycanın təhsil siyasəti (1998-2005)/ M.Mərdanov, F.Şahbazlı.- Bakı: Təhsil, 2005.- Kitab 2.- S.6.



Xüsusilə son illərdə yeni dərsliklərin hazırlanması və nəşri sahəsində əsaslı dönüş yaranmışdır. Belə ki, 2000-2005-ci illərdə ümumtəhsil məktəblərinin Azərbaycan və rus bölmələri üçün 190 adda orijinal dərslik yaradılaraq məktəblərin istifadəsinə verilmişdir. O cümlədən, I-IV siniflər üzrə Azərbaycan bölməsi üçün 84 adda, rus bölməsi üçün 67 adda dərslik nəşr edilmişdir.[81]

Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2002-ci il tarixli fərmanları "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliklərinə yenidən baxılması zərurətini doğurdu. İlk növbədə, görkəmli alimlər və qabaqcıl orta məktəb müəllimlərinin iştirakı ilə "Azərbaycan dili" və "Ədəbiyyat" proqramları yaradıldı (2002-ci il) və bunun əsasında yeni dərsliklərin hazırlanmasına başlandı. Həmin il yeni "Riyaziyyat" proqramı da hazırlandı.[82]

Dərslik nəşrində inhisarçılığı aradan qaldırmaq və dərsliklərin poliqrafik keyfiyyətini yaxşılaşdırmaq məq-

[81] Yenə orada.- S.7.
[82] Mərdanov M. Azərbaycanın təhsil tarixi (1998-2005).- Bakı: Təhsil, 2012.- C. 3.- S.145.

sədilə Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 2002-ci ildə ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün (Azərbaycan bölməsi) 20 adda dərslik açıq tender yolu ilə çap olunub məktəblərə çatdırıldı.

Həmin dövrdə təhsilin özəyini təşkil edən ümumtəhsil müəssisələri şəbəkəsi inkişaf etdi, ümumi təhsilin dövlət standartları və bazis tədris planı hazırlanaraq tətbiq edildi, ümumi təhsilin məzmunca milli və ümumbəşəri dəyərlər zəminində yeniləşdirilməsi istiqamətində mühüm işlər görüldü. Yeni tədris planına tam keçid prosesi 2002/2003-cü tədris ilində başa çatdırıldı.[83]

Dövlət başçısı Heydər Əliyevin tapşırığına əsasən Nazirlər Kabinetinin 11 sentyabr 2000-ci il tarixli Sərəncamı ilə respublikanın ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün milli təhsilin tələblərinə cavab verən yeni dərsliklərin çap olunması nəzərdə tutuldu. Həmin sərəncama müvafiq olaraq 2000-ci və 2001-ci illərin dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan Təhsil Nazirliyinə 2 il müddətinə qaytarılması şərti ilə güzəştli kredit ayrıldı.

[83] Mərdanov M. Azərbaycanın təhsil tarixi (1998-2005). - Bakı: Təhsil, 2012.- C 3.- S.145.



Heydər Əliyev hələ 1997-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında görüşü zamanı milli tariximizin yazılması və tədrisi sahəsində qarşıda duran vəzifələrdən danışarkən, "İlk növbədə, Azərbaycanın XIX-XX əsrlər tarixi yazılmalıdır" tapşırığını vermişdi. Bu tapşırığı ümumtəhsil məktəblərində ümumi və Azərbaycan tarixi dərsliklərinin hazırlanması baxımından həyata keçirmək məqsədilə Təhsil Nazirliyində aparıcı tarixçi alimlər və təcrübəli müəllimlərdən ibarət işçi qrupu yaradıldı və qısa müddətdə milli ideologiya və müstəqil dövlətçilik prinsiplərinə cavab verən, XIX-XX əsrlər tariximizi əhatə edən "Azərbaycan tarixi" (X və XI sinif) dərslikləri hazırlanaraq məktəblərə çatdırıldı.

2001-ci ildə VI-IX siniflər üçün "Qədim dünya tarixi", "Orta əsrlər tarixi" və "Yeni tarix" kimi dərsliklər hazırlanaraq çap olundu. Bu dərsliklərdə ümumdünya tarixi, xüsusən türk-islam dünyası xalqlarının tarixi və mədəniyyəti müasir tələblər və milli dövlətçilik prinsipləri əsasında işıqlandırılırdı.[84]

Çətinlik isə hökumətin 18 may 1992-ci il tarixli qərarı ilə "Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında" Nazirlər Kabinetinin 1978-ci il tarixli qərarının ləğv edilməsi ilə bağlı idi.

[84] Mərdanov M. Azərbaycanın təhsil tarixi (1998-2005).- Bakı: Təhsil, 2012.- C 3.- S.143-144.

Respublikada siyasi-iqtisadi sabitlik formalaşdıqca dərsliklərin məzmunca yeniləşməsi istiqamətində müəyyən işlər görülürdü. Lakin ölkənin mövcud iqtisadi vəziyyəti, yeni dərsliklərin hazırlanması sahəsində təcrübə və səriştənin olmaması səbəbindən müstəqilliyin ilk illərində daha çox sovet dövründə hazırlanmış dərsliklərdən istifadə olunurdu. Bununla belə, həmin illərdə hazırlanmış tarix və ədəbiyyat dərsliklərində sovet dövründəkindən fərqli olaraq milli və ümumbəşəri dəyərlərə üstünlük verilir, köhnə siyasi ideologiyadan imtina edilirdi. Çünki sovet dövrünün tarix dərsliklərində Azərbaycan və ümumtürk tarixi, eləcə də ədəbiyyatı obyektiv işıqlandırılmır, türk-islam mədəniyyəti ilə bağlı verilən məlumatlar tarixi reallıqları düzgün əks etdirmirdi.

1993-94-cü tədris ilindən ümumi təhsilin məzmununda aparılan dəyişikliklərə uyğun olaraq, milli dərsliklərin tamamilə yenidən hazırlanması işinə başlanıldı. V-XI siniflər üzrə 63 adda dərslik çap edildi. 1994/95-ci tədris ilində isə I-XI siniflər üçün 77 adda dərslik çap edilmişdir.

Dərsliyin məktəb üçün strateji əhəmiyyətini dərindən bilən ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Nazirlər Kabinetinin 25 avqust 1994-cü il tarixli qərarı ilə 1995-1996-cı tədris ilindən etibarən hər il ibtidai sinif dərslikləri dövlət vəsaiti hesabına çap edilib, şagirdlərə pulsuz verilməyə başlandı.



Azərbaycan təhsilində dərslik yaradıcılığı sahəsində ən böyük nailiyyətlər məhz müstəqillik illərində əldə edilmişdir. 1991-1998-ci illəri latın qrafikalı əlifbaya keçid, dövrün siyasi abu-havasına uyğun çətinliklər və bundan irəli gələn sistemsizliyin aradan qaldırılması ilə müşayiət olunur. Onu da qeyd etmək lazımdır ki, 1991-ci ildən ölkədə latın qrafikasına keçilməsi barədə qərar qəbul edilməsinə baxmayaraq, bu işə sistemli şəkildə yalnız ümumtəhsil məktəblərində başlanmışdı.[85]

"Azərbaycanın həyatında çoxsaylı taleyüklü problemləri həll etmiş ümummilli lider Heydər Əliyev, 1991-ci ildə qəbul olunmuş, lakin həyata keçirilmə mexanizmi təsdiq edilməmiş bu məsələnin də həllini reallaşdırdı. Heydər Əliyevin Sərəncamı ilə 2000-ci ildən ölkədə, o cümlədən təhsil sistemində latın qrafikasına tam keçid bərqərar oldu."[86]

2003-2011-ci illərdə ümumi təhsil sistemində istifadə edilən 4010 adda dərslik milli-mənəvi dəyərlər əsasında müasir tələblərə uyğun məzmunda yenidən işlənərək, 40 milyondan çox tirajla çap edilmiş, yeni kurikulum tətbiq edilən I-IV siniflər üçün dərslik komplektləri (şagird üçün dərslik, iş dəftəri, müəllim üçün vəsait) hazırlanmışdır.

---

[85] Mərdanov M. Azərbaycanın təhsil tarixi (1998-2005).- Bakı: Təhsil, 2012.- C 3.- S.137.
[86] Yenə orada.- S. 138.

Müstəqilliyin bərpasından sonra ölkəmizdən kənarda yaşayan soydaşlarımızın dərsliklərlə təmin edilməsinə xüsusi diqqət yetirilməyə başlanmışdır. 1994-cü ildən etibarən Gürcüstanın Azərbaycan dilində olan məktəbləri I-XI sinif dərslikləri və dərs ləvazimatları ilə təmin edilir. Dağıstanın Azərbaycan məktəblərinə və Amerika, Hollandiya, Macarıstan, İngiltərə, Kanada, Rusiya, Ukrayna, Belarus, Almaniya və Orta Asiya respublikalarında fəaliyyət göstərən "Bazar günü" məktəblərinə də hər il soydaşlarımız üçün dərslik və dərs vəsaitləri göndərilirdi.

Məktəb kitabxanaları əlavə oxu materialları – uşaq ensiklopediyaları, Azərbaycan və xarici ölkə yazıçılarının əsərləri ilə təmin edilmişdir. Heydər Əliyev Fondunun yaxından köməyi ilə ayrı-ayrı fənlər üzrə 140 adda, 1,4 milyon nüsxə tədris-əyani vəsait hazırlanaraq məktəblərə verilmişdir. Eyni zamanda məktəblər 19 adda 351 min nüsxə xəritə ilə təmin edilmişdir.[87]

Nazirlər Kabineti, o cümlədən Təhsil Nazirliyi tərəfindən müvafiq tədbirlər planı hazırlanıb ardıcıl olaraq həyata keçirilməkdədir...

Təhsil Nazirliyi tərəfindən gerçəkləşdirilən belə tədbirlərdən biri də "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü münasibətilə təhsil

[87] Mərdanov M. Azərbaycanın təhsil tarixi (1998-2005).- Bakı: Təhsil, 2012.- C. 3.- S.13.



müəssisələrində keçiriləcək tədbirlər haqqında" Nazirliyin 29 yanvar 2008-ci il tarixli 131 nömrəli əmri ilə təsdiq olunmuş kompleks fəaliyyət planına uyğun olaraq ölkənin ümumtəhsil məktəblərinin VII-IX sinif şagirdləri arasında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş inşa yazı müsabiqəsinin keçirilməsidir.

"Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir", "Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur" nominasiyaları üzrə 800 mindən artıq ümumtəhsil və texniki-peşə məktəb şagirdinin qatıldığı bu möhtəşəm bilik yarışı üç mərhələdə - məktəb mərhələsi fevralda, rayon (şəhər) mərhələsi martda təşkil edilmiş, sonuncu respublika mərhələsinə vəsiqə almış 126 nəfər məktəblinin "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir" nominasiyası üzrə yekun müsabiqəsi aprel ayının 10-da Bakıda, ulu öndərin adını daşıyan liseyin binasında keçirilmişdir.

Təhsil Nazirliyinin rəhbərliyi tərəfindən müsabiqənin respublika mərhələsində iştirak edən VII-XI sinif şagirdlərinin ümummilli lider Heydər Əliyevin zəngin həyat yoluna və parlaq dövlətçilik fəaliyyətinə həsr olunmuş inşa yazılarının (yekun turda "3" balla qiymətləndirilmiş inşa yazıları istisna olmaqla) "Heydər Əliyev məktəblilərin gözü ilə" adı altında ayrıca kitab şəklində

nəşr etdirilib, qaliblərə hədiyyə edilməsi qərara alınmışdır.

Kitaba müsabiqə qaliblərindən 105, o cümlədən Naxçıvan Muxtar Respublikasmdan 10 nəfərin inşa yazısı daxil edilmişdir.

Azərbaycanın təhsil ictimaiyyətinə təqdim olunan bu kitabda toplanan materiallarla ilkin tanışlıq göstərir ki, məktəblilərimizin ulu öndər Heydər Əliyevin hamıya örnək olan həyat yolunun, çoxları üçün əlçatmaz zirvə sayılan titanik dövlətçilik fəaliyyətinin müxtəlif məqamları əks olunmuşdur.

Ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 85-ci ildönümü münasibətilə Təhsil Nazirliyi, Yeni Azərbaycan Partiyası və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə məktəblilər arasında keçirilmiş "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir" inşa yazı müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi olmuşdur.

"Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir" nominasiyası üzrə keçirilən respublika mərhələsində iştirak edən 126 şagirdin inşa yazı işi nazirliyin xüsusi əmri ilə yaradılan ekspert komissiyası tərəfindən qiymətləndirilmişdir. Respublikanın tanınmış mütəxəssislərindən ibarət ekspert komissiyası şagirdlərin ulu öndərimizin çoxşaxəli fəaliyyətini əhatə etməyə çalışdıqları inşa



yazılarını məzmun, orijinallıq, yaradıcılıq və digər normalar baxımından qiymətləndirərək, son nəticədə 32 nəfərin qalib olduğunu müəyyənləşdirmişdir. Həmin şagirdlərdən 5-i I yerə, 5-i II yerə, 10-u III yerə, 12-si IV yerə layiq görülüb. İştirakçılardan 63 nəfərin yazı işi diqqətdən kənarda qalmayıb, onlara həvəsləndirici mükafatlar verilmişdir.

Nazir Misir Mərdanov inşa yazılarında məktəblilərin ulu öndər Heydər Əliyevin hamıya örnək olan zəngin həyat yolunun, dövlətçilik fəaliyyətinin müxtəlif məqamlarına, tarixi mərhələlərinə dair fikir və düşüncələrini özlərinə xas olan səmimi hisslərlə, ülvi məhəbbət duyğuları ilə dolğun şəkildə ifadə etdiklərini söylədi. Məktəblilərin əbədiyaşar liderimiz Heydər Əliyevə olan sonsuz sevgisindən danışan nazir onların yazdıqları inşalarda bunun geniş əksini tapdığını dedi.

Naxçıvan Muxtar Respublikasında da bu nomi-nasiya üzrə keçirilən müsabiqənin 10 nəfər qalibinin inşa yazılarından ibarət "Heydər Əliyev məktəblilərin gözü ilə" kitabı nəşr olunmuşdur.

2012-ci il mayın 7-də "Gülüstan" sarayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə Azərbaycan Respublikası Təhsil Nazirliyi, Yeni Azərbaycan Partiyası, Heydər Əliyev Fondu, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin

birgə təşkilatçılığı ilə ümumtəhsil məktəbləri və peşə liseyləri şagirdləri arasında keçirilmiş inşa yazı müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi oldu.

Mərasimdən əvvəl tədbir iştirakçıları Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad etdilər, məzarı önünə gül dəstəsi qoydular. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət olundu.

Dövlət və hökumət rəsmilərinin, millət vəkillərinin, təhsil ictimaiyyəti nümayəndələrinin iştirak etdikləri tədbiri təhsil naziri Misir Mərdanov açaraq müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünün ölkəmizin hər yerində - bütün idarə və təşkilatlarda, dövlət qurumlarında, təhsil müəssisələrində, eləcə də dünyanın bir çox ölkələrində geniş qeyd olunduğunu bildirdi. Nazir söylədi ki, ulu öndərin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz rolu və müstəsna xidmətləri nəzərə alınaraq, təhsil sahəsində bu tarixi günü yüksək səviyyədə qeyd etmək üçün cari ilin əvvəlindən başlayaraq Təhsil Nazirliyi tərəfindən müvafiq fəaliyyət planı hazırlanıb və ardıcıl olaraq həyata keçirilməkdədir. Gerçəkləşdirilən kompleks işlərdən biri də Təhsil Nazirliyinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümü münasibətilə təhsil müəssisələrində keçiriləcək tədbirlər haqqında" 17 yanvar 2012-ci il tarixli,



59 nömrəli əmri ilə təsdiq olunmuş tədbirlər planına uyğun olaraq ümumtəhsil məktəblərinin VII-XI sinif, eləcə də peşə liseylərinin şagirdləri arasında dahi şəxsiyyət Heydər Əliyevin şərəfli həyatına və zəngin dövlətçilik fəaliyyətinə həsr edilən inşa yazı müsabiqəsidir. İnşa yazı müsabiqəsinin 2007-ci ildən etibarən keçirilməyə başlandığını söyləyən nazir Misir Mərdanov tədbirə məktəblilərin böyük maraq göstərdiyini və ildən-ilə burada iştirak etmək istəyənlərin sayının artdığını bildirdi.

Müstəqil Azərbaycan önəmli tarixi bir hadisə - müasir milli dövlətçiliyimizin memarı və qurucusu, milli təhsil quruculuğu strategiyasının müəllifi, uşaqların, gənclərin, məktəblilərin böyük dostu ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümünü ulu öndərin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz tarixi xidmətləri, milli dövlətimizin yaranması və möhkəmləndirilməsində müstəsna rolu nəzərə alınaraq sosial-siyasi və mədəni həyatımızın bütün sferalarında olduğu kimi, təhsil sahəsində də bu əlamətdar tarixi günü yüksək səviyyədə qeyd etmək üçün Təhsil Nazirliyi tərəfindən müvafiq tədbirlər planı hazırlanıb ardıcıl olaraq həyata keçirilməkdədir.[88]

[88] Heydər Əliyev məktəblilərin gözü ilə /ön söz. müəl. Misir Mərdanov; tərt. ed. Faiq Şahbazlı və b. - Bakı: Təhsil, 2009. - S.5.

Təhsil Nazirliyinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü münasibətilə təhsil müəssisələrində keçiriləcək tədbirlər haqqında" 26 fevral 2009-cu il tarixli 222 nömrəli əmri ilə təsdiq olunmuş fəaliyyət planına uyğun olaraq gerçəkləşdirilən kompleks tədbirlərdən biri də ölkənin ümumtəhsil məktəblərinin VII-XI sinif şagirdləri arasında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş inşa yazı müsabiqəsinin keçirilməsidir.

"Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur", "Ulu öndər Heydər Əliyevi düşünərkən" nominasiyaları üzrə 700 mindən artıq ümumtəhsil məktəb şagirdinin qatıldığı bu möhtəşəm bilik yarışı üç mərhələdə təşkil olunmuşdur. Məktəb mərhələsi martda, rayon (şəhər) mərhələsi apreldə təşkil edilmiş, sonuncu – respublika mərhələsinə vəsiqə almış 88 nəfər məktəblinin "Ulu öndər Heydər Əliyevi düşünərkən" nominasiyası üzrə yekun müsabiqəsi aprelin 25-də Bakıda – akademik Zərifə Əliyeva adına liseydə keçirilmişdir.[89]

Təhsil nazirinin xüsusi əmri ilə yaradılmış ekspert komissiyası tərəfindən inşa yazılar qiymətləndirilmiş, 20 nəfər qalib elan olunmuş, onlardan 5-i birinci, 5-i ikinci, 10-u üçüncü, qalanları isə Fəxri Fərmana layiq görülmüşdür.

[89] "Heydər Əliyev məktəblilərin gözü ilə" çap olunmuş kitablar aşağıdakılardır: I Kitab: Bakı: Təhsil, 2007.- 325 s.; II Kitab: Bakı: Təhsil, 2008.- 392 s; III Kitab: Bakı: Təhsil, 2009.- 350 s; IV Kitab: Bakı: Təhsil, 2010.- 351 s; V Kitab: Bakı: Təhsil, 2011.- 303 s; VI Kitab: Bakı: Təhsil, 2012.- 320 s.



Naxçıvan Muxtar Respublikasında həmin nominasiya üzrə keçirilmiş müsabiqənin 10 nəfər qalibinin inşa yazıları da mükafatlandırılmışdı.

Nazirliyin rəhbərliyi tərəfindən müsabiqənin respublika mərhələsində iştirak edən VII-XI sinif şagirdləri ümummilli lider Heydər Əliyevin şərəfli həyat yoluna, parlaq siyasi və zəngin dövlətçilik fəaliyyətinə həsr olunmuş inşa yazılarının artıq ənənəyə çevrilmiş "Heydər Əliyev məktəblilərin gözü ilə" adı altında ayrıca kitab şəklində nəşr etdirilib qaliblərə və oxuduğu məktəblərə hədiyyə edilməsi qərara alınmışdır.

Azərbaycanın təhsil ictimaiyyətinə təqdim olunan bu kitabda toplanan materiallarla ilkin tanışlıq göstərir ki, məktəblilərimiz ulu öndər Heydər Əliyevi hamıya örnək olan həyat yolunun, çoxları üçün əlçatmaz zirvə sayılan dövlətçilik fəaliyyətinin müxtəlif məqamlarını, xüsusən də ümummilli lider haqqında öz fikir və düşüncələrini uşaq (yeniyetmə) təbiətinə xas olan səmimi, bəzən də çılğın hisslərlə, bu dahi şəxsiyyətə dərin hörmət, sonsuz ehtiram duyğuları ilə dolğun şəkildə ifadə etmişlər.[90]

Müsabiqənin qaliblərindən biri öz uşaq təbiətinə xas olan təbii hisslə Heydər Əliyev şəxsiyyətinə ümumxalq məhəbbətinə, Heydər Əliyev – Azərbaycan bütöv-

[90] Heydər Əliyev məktəblilərin gözü ilə /ön söz. müəl. Misir Mərdanov; tərt. ed. Faiq Şahbazlı və b.- Bakı: Təhsil, 2009.- S.10

lüyünü aşağıdakı şəkildə mənalandırır: "... Mənim ulu öndərim, sən həmişə bizimləsən! Ruhumuzda, qəlbimizdə, mənəviyyatımızdasan... İllər ötəcək, qərinələr bir-birini əvəz edəcək. Ancaq bir həqiqət var ki, bu heç vaxt dəyişməyəcək. Həmişə yeni, həmişə cavan qalacaq. Bu, Azərbaycan xalqının böyük şəxsiyyətə əbədi məhəbbətidir. Çünki Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyev yada düşür..."

Həqiqətən də, Heydər Əliyevin adı bu gün bölgədə və dünyada layiqli mövqe qazanmış Azərbaycan dövlətinin rəmzi kimi səslənməkdədir...[91]

Qeyd etmək lazımdır ki, indiyədək "Heydər Əliyev məktəblilərin gözü ilə" kitabı 6 dəfə çap olunmuş və bu kitablarda 500-dən çox məktəbli və gəncin ulu öndər haqqında ürək sözləri əks olunmuşdur.

[91] Yenə orada. 2009 - S.11



## HEYDƏR ƏLİYEV HAQQINDA KİTABLARIN ÜMUMMİLLİ LİDERİN ZƏNGİN İRSİNİN TƏBLİĞİ VƏ ÖYRƏNİLMƏSİ SAHƏSİNDƏ TARİXİ ƏHƏMİYYƏTİ

*"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşlarıdır. Əgər mən buna nail ola bilsəm, mən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna nail olmağa çalışıram və çalışacağam."*

***Heydər Əliyev***
***Ümummilli lider***

Ulu öndər Heydər Əliyevin nəzəri irsi milli sərvətimizdir və biz bu qiymətli irsi zaman-zaman öyrənməli, dövlətçiliyimizə və həyatımıza tətbiq etməliyik. Bu istiqamətdə bir çox dəyərli əsərlər yazılıb. Akademik Ramiz Mehdiyev tərəfindən Heydər Əliyev irsinin tədqiq metodologiyası və araşdırmaların strategiyası işlənib hazırlanmışdır.

2007-ci ildə "Azərnəşr" tərəfindən çap olunmuş "Ulu öndər Heydər Əliyevə ithaf olunmuş "Azərbaycanıma inanırdım" kitabının annotasiyasında deyilir: "Bu kitab Azərbaycan Prezidenti İlham Əliyevin dörd il ər-

zində rəhbərlik etdiyi ölkəsi, onun uğurlu inkişaf yolu, respublikanın bugünkü həyatı haqqında parlaq, dərin və obrazlı şöhrətidir. Oxucular Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev haqqında faydalı və çox maraqlı məlumatlar əldə edəcəklər."

Kitabın müəllifi tanınmış yazıçı-publisist, beynəlxalq icmalçı, Rusiya və xarici mükafatlar laureatı Mixail Ozerov, öz kitabında İlham Əliyevin çıxışlarından, xarici və Azərbaycan jurnalistlərinə verdiyi müsahibələrdən, Azər-baycan Prezidentinin doğmalarının və tanışlarının fikirlərindən, həmçinin "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanasının (www.Aliyevheritage.org) təqdim etdiyi materiallardan istifadə etmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyev kitabın "Nəticə"sində qeyd edir ki: "Mən tez-tez Franklin Ruzveltin bir kəlamını xatırlayıram. Atam bu ABŞ prezidentinə heyran idi. Mən də onun qarşısında baş əyirəm. Ruzvelt demişdir: "Bizim qurduğumuz dünya amerikalı, yaxud rus, fransız, Çin dünyası olmaya bilər... O, bütün ölkələrin ümumi səylərinə əsaslanan dünya olmalıdır."

Ruzveltin fikrini tamamlayaraq əlavə edim ki, bizim qurduğumuz Azərbaycan bütün insanların səylərinə əsaslanan ölkə olmalıdır. Ümid edirəm ki, mənim kitabım bir-birimizlə məhz belə münasibətin qurulmasına töhfədir.



Mən inanıram ki, bu kitab hələ başa çatmamışdır. Başa çata da bilməz. Onun qalanını zaman, həyat özü yazacaq, dəqiqləşdirəcək və məqsədlərimizə çatmağa kömək edən gündəlik işimiz yazacaq. Bu kitabın səhifələrində o məqsədlər barədə söz açdım.

Güman edirəm ki, bu kitabın oxucusu yer kürəsinin istənilən yerində olduğu kimi Azərbaycanda da dəyişikliklərin asanlıqla başa gəlmədiyini gördü."

2004-cü ildə "Azərnəşr" tərəfindən nəşr olunub oxuculara təqdim olunan "Dünyanı heyran qoyan insan" kitabında dünyanın görkəmli siyasi və dövlət xadimlərindən, diplomatlardan, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərindən tutmuş biznes nümayəndələrinə, jurnalistlərə qədər ən müxtəlif peşə sahiblərinin otuz ildən çox siyasi hakimiyyətin zirvəsində olan ümummilli liderimiz, xalqımızın dahi oğlu Prezident Heydər Əliyev haqqında fikirlərinin bir hissəsi toplanmışdır.

Müəlliflər qeyd edirlər ki, "ümidvarıq ki, bu materiallar Heydər Əliyev şəxsiyyətinin əzəmətinin, müasir tarixdə onun müstəsna rolunun daha dolğun və dərindən dərk olunmasında indiki və gələcək nəsillərə kömək edəcəkdir."[92]

Kitab akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə çap olunmuşdur. Bu fundamental kitabın tərtibçi redak-

[92] Dünyanı heyran qoyan insan/ideyanın müəllifi və buraxılışa məhsul Ramiz Mehdiyev.- Bakı: Azərnəşr, 2004.- 376 s.

torları Aslan Aslanov, Vaqif Musayev və Dağbəyi İsmayılovdur.

Azərbaycan Respublikasının təhsil naziri, əməkdar elm xadimi, professor Misir Mərdanovun müasir Azərbaycan dövlətinin banisi, Azərbaycanın ilk xalq müəllimi, təhsilimizin daimi himayəçisi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə ithaf etdiyi 4 cilddən ibarət "Azərbaycan təhsil tarixi" monoqrafiyasının II cildində ulu öndərin Naxçıvan Müəllimlər Seminariyasında təhsil aldığı dövrü Lətif Hüseynzadənin xatirələrinə əsaslanaraq belə xarakterizə etmişdir: "Texnikum məzunları içərisində görkəmli dövlət xadimi, böyük siyasət adamı, dünyada yaxşı tanınmış Heydər Əliyevin xüsusi yeri olmuşdur.

Heydər Əliyev pedaqoji texnikuma gələndə dərslər yenicə başlamışdı. Heydər texnikumdan əvvəl Naxçıvandakı beynəlmiləl rus məktəbində oxumuşdu. O zamanlar bu məktəbə hər kəs gedə bilməzdi. Bu məktəbdə yalnız qabiliyyətli, istedadlı, mütərəqqi düşüncəli uşaqlar təhsil alırdılar. Bizim texnikumumuza qəbul müəllimlərin müsahibəsi, sual-cavabları ilə həyata keçirilirdi. Əlirza kişi (Heydər Əliyevin atası – M.M.) bilirdi ki, övladı müəllim olmaq arzusundadır. Bu qamətli, boylu-buxunlu, ilk baxışdan diqqəti cəlb edən gənclə söhbət etdim. Elə ilk dəqiqədən onun bilikli, qabiliyyətli olduğunu duydum. Ədəbiyyatdan, dildən, tarixdən verdiyim



suallara çox gözəl, əhatəli cavablar verirdi. Heydər rusca təhsil almasına baxmayaraq, bir kəlmə də rus sözü işlətməyərək çox təmiz Azərbaycan dilində danışırdı. [93]

Öz düşüncə tərzi, həyata baxışı ilə hamıdan fərqlənirdi. Qoltuğunda çox vaxt kitab görərdim. 1918-ci ildə Türkiyədən Naxçıvana xeyli türk ədəbiyyatı, məcmuələr göndərilmişdi. Naxçıvanda milli kitabxananın əsası bununla qoyulmuşdu. Zəngin türk ədəbiyyatı kitabxanası yaradılmışdı. Bu kitabxana tələbələrimizin ən sevimli yerlərindən biri idi. Heydər boş vaxtlarında tez-tez bu kitabxanaya gedər və buradakı kitabları mütaliə edərdi. Tələbələr də onu çox sevir, hörmətlə yanaşırdılar. [94]

İfadəli, aydın, səlis nitqi, gözəl xətti, savadlı yazısı var idi. Bədii təfəkkürü də çox yüksək idi. İstər türk klassiklərinin əsərlərini, istərsə də rus, Avropa yazıçılarının əsərlərini mütaliə edirdi. Rus dilini gözəl bildiyindən Lev Tolstoyun "Hərb və sülh" romanını oxuyub tələbə dostlarına danışırdı. Rəşad Nuri Güntəkinin, Əbdülhaq Hamidin əsərlərini də oxuyurdu. Çətin ərəb və fars sözlərini düzgün tələffüz edir, mənasını bilir və yerində işlədirdi.

Tarixi yerlərə, abidələrə getdiyimiz zaman o, oranın tarixi haqqında ətraflı məlumat toplayır, yazır və abidənin şəklini çəkirdi. Məsələn, Möminə xatun, Yusif İbn

[93] Mərdanov M. Azərbaycan təhsil tarixi: 4 cilddə - Bakı, 2011.- C.II.-S. 241.
[94] Mərdanov M. Azərbaycan təhsil tarixi: 4 cilddə - Bakı, 2011.- C.II.-S. 241.

Küseyr məqbərələrinin şəkillərini dəftərinə çəkmişdi. Yaxşı xatırlayıram ki, bir dəfə texnikumda onun çəkdiyi rəsmlərin sərgisini də təşkil etmişdik."[95]

Ulu öndərə həsr olunmuş bu fundamental nəşrin I cildinin annotasiyasında deyilir: "Tanınmış ziyalı, ictimai xadim, professor Misir Mərdanovun "Azərbaycan təhsil tarixi" çoxcildliyi Azərbaycan təhsilinin çətin və şərəfli inkişaf yolu haqqında salnamədir.

Azərbaycan təhsilinin tarixi ilk dəfədir ki, bu cür əhatəli və sistemli şəkildə oxuculara təqdim olunur. Görkəmli maarif fədailərimizin, mütəfəkkirlərimizin, pedaqoqlarımızın həyatı, onların xalqın maariflənməsi yolunda, qeyri-bərabər mübarizədə göstərdikləri dözüm və cəsarət haqqında qısa oçerklər bu fundamental əsəri daha maraqlı və oxunaqlı edir. Bu baxımdan, çoxcildliyi həm də təhsil tariximizin publisistik dillə qələmə alınmış ensiklopediyası da adlandırmaq olar.

Çoxcildliyin birinci cildi təhsilimizin ən qədim dövrlərdən 1920-ci ilin Aprel işğalına qədərki tarixini əhatə edir. Bu böyük zaman ərzində təhsilimizin keçdiyi bütün mərhələlər – qədim məktəblərdən, mədrəsələrdən, dünyəvi təhsil ocaqlarının yaranması, ilk dərslik nümunələrinin meydana gəlməsi və ümumilikdə Azərbaycan

[95] Mərdanov M. Azərbaycan təhsil tarixi: 4 cilddə.- Bakı, 2011.- C.II.-S. 244.



xalqının mənəvi mədəniyyət tarixində təhsilin yeri bu cilddə olduqca dolğun işıqlandırılmışdır.

Kitab tədqiqatçılar, müəllimlər, tələbələr və geniş pedaqoji ictimaiyyət üçün nəzərdə tutulmuşdur."

Tarix elmləri doktoru, millət vəkili Musa Cəfər oğlu Qasımlının 2006-cı ildə Bakı Dövlət Universitetinin nəşriyyatı tərəfindən çap olunmuş "Heydər Əliyev – istiqlala gedən yol" monoqrafiyası orijinallığı baxımdan təqdirəlayiqdir.

Azərbaycan, Rusiya, Gürcüstan arxivlərində uzun illər boyu "tam məxfi", "məxfi", "xidməti istifadə üçün" qrifləri altında saxlanılmış materiallardan, ABŞ, Türkiyə, Böyük Britaniya, Polşa, Fransa və Rusiya müəlliflərinin əsərlərindən və b. mənbələrdən istifadə edilərək yazılmış monoqrafiyada sovet hakimiyyəti illərində Azərbaycan xalqını düşündürən başlıca problemlər, görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin müstəqil dövlətçilik baxışlarının formalaşması, hakimiyyətə gəldikdən sonra azərbaycanlıların birliyinə nail olması, azərbaycanlı kadrları hazırlaması, Azərbaycan alimlərinə və elminə qayğısı, tarixi-mədəni, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi sahəsində fəaliyyəti, ədəbi irsə və ədəbiyyata qayğısı, milli incəsənətin tərəqqisi naminə çalışmaları, Azərbaycan dilinin dövlət dili statusunu qoruyaraq inkişaf etdirilməsi, milli hərbçi kadrların hazırlaması, Azərbaycanı beynəlxalq aləmdə

tanıtması, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin qurulması istiqamətində səyləri, Cənubi Azərbaycan məsələsinə diqqət yetirməsi, türk dünyasına münasibətdə mövqeyi, gələcək müstəqil dövlətçiliyin əsaslarını hazırlaması elmi-tarixi baxımdan öyrənilmişdir. Mənbə və ədəbiyyatların, demək olar ki, hamısı elmi dövriyyəyə ilk dəfə gətirilmişdir."[96]

Monoqrafiya elmi dairələr, siyasətçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Bu fundamental monoqrafiyanın məsləhətçisi akademik Ramiz Mehdiyev, elmi redaktoru isə tarix elmləri doktoru, professor Əli Həsənovdur.

Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli, Avrasiya Televiziya və Radio Akademiyasının birinci vitse-prezidenti Vaqif Mustafayev 1999-2011-ci illər arasında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş 11 film yaratmışdır:

"Heydər Əliyev. General" Birinci film (1999)

"Heydər Əliyev. Birinci" İkinci film (1999)

"Heydər Əliyev. Moskva. Kreml" Üçüncü film (1999)

"Heydər Əliyev. Lider" Dördüncü film (1999)

"Heydər Əliyev. Tale" Beşinci film (2000)

---

[96] Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər).- Bakı: Bakı Universiteti, 2006.- 608 s.



"Heydər Əliyev. Əsl məhəbbət haqqında" Altıncı film (2001)

"Heydər Əliyev. Bir həsədin tarixi" Yeddinci film (2002)

"Heydər Əliyev. Peşəkar" Səkkizinci film (2004)

"Heydər Əliyev. Patriot" Doqquzuncu film (2005)

"Heydər Əliyev. Xüsusi təyinat" Onuncu film (2008)

"Heydər Əliyev. Dövlət" On birinci film (2011)

Vaqif Mustafayev öz filmlərində Azərbaycan xalqının lideri, dahi siyasi xadim Heydər Əliyevin möhtəşəm və hərtərəfli şəxsiyyətini bütövlükdə əhatə etməyi öz qarşısına məqsəd qoymuşdur. Bu filmlər öz səmimiyyəti, yüksək bədii səviyyəsi ilə yanaşı, Heydər Əliyev haqqında həqiqəti əks etdirən dolğun ekran əsərləridir.

V.Mustafayevin filmləri bir çox beynəlxalq kinofestivallarda mükafata layiq görülmüşdür ki, bu da çox əlamətdar hadisə sayılmalıdır. Çünki, adətən, festivallarda ölkə rəhbərlərindən bəhs edən filmlərə mükafat verilmir. Belə bir istisna, heç şübhəsiz, dünyada Heydər Əliyev şəxsiyyətinə göstərilən hədsiz maraqdan irəli gəlir.

Vaqif Mustafayevin sənədli filmləri təkcə Azərbaycanda və Rusiyada deyil, bir sıra başqa ölkələrdə də şöhrət qazanıb. İngilis, fransız, alman, Çin, türk, ərəb, rumın, macar, gürcü və s. dünya dillərində səsləndirilib.

Bolqar, yunan, eston, latış və qazax televiziya kanalları özlərinin tamaşaçı auditoriyasını Heydər Əliyevin əfsanəvi şəxsiyyəti ilə tanış etmək arzusundadır və hazırda onların sifarişi ilə həmin filmlərin dublyajı üzərində iş gedir.

Onu da qeyd etməliyik ki, indiyə qədər bu filmlərdəki materialın əsasında istər Azərbaycanda, istərsə də onun sərhədlərindən uzaqlarda Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş neçə-neçə fundamental kitab yazılıb və nəşr olunub. Hər il ümummilli lider Heydər Əliyevin doğum günü, mayın 10-da Azərbaycanın və digər ölkələrin televiziya məkanında bu filmlər tamaşaçılara təqdim olunur.

1997-ci ildə nəşr olunmuş "Heydər Əliyev və Bakı Dövlət Universiteti" kitabının buraxılışına məsul, ön sözün və məqalələrin müəllifi, əməkdar elm xadimi, professor, o dövrdə "BDU-nun rektoru Misir Mərdanov yazırdı: "Bu kitab xalqımızın fəxrləri – XX əsrin ən böyük azərbaycanlısı Heydər Əliyev və möhtəşəm elm və mədəniyyət məbədi Bakı Dövlət Universiteti haqqındadır. Onları bir-birinə bağlayan qırılmaz tellər, onların bir-birinə sədaqəti haqqında salnamədir.

Bakı Dövlət Universiteti və Heydər Əliyev. 50 ilə yaxındır ki, bu iki ad qoşa səslənir. Onların vəhdəti Azərbaycanın siyasi qüdrəti ilə mənəvi yüksəlişi birliyinin rəmzi ifadəsi kimi qavranılır. Heydər Əliyev məmləkətimizin siyasi iradəsinin aparıcı qüvvəsi, Bakı Dövlət Universiteti isə mədəniyyətimizin, elmimizin, təhsilimizin möhtəşəm məbədi kimi tarixi vəzifəni yerinə yetirir.

Bu kitab Heydər Əliyev sədaqətinin böyüklüyü və sönməzliyi haqqındadır."[97]

Ön sözdə Misir Mərdanov daha sonra xüsusi olaraq böyük rəğbətlə vurğulayır: "Heydər Əliyev Bakı Dövlət Universitetinin yetirdiyi ən böyük şəxsiyyətdir. Onun öz yetirməsinin şöhrətini sağlam təfəkkürün qavraya biləcəyi ən uca zirvəsinə yüksəlməsindən duyduğu məmnunluq və iftixar hissindən daha ali bir hiss təsəvvür etmək qeyri-mümkündür. O, universitetə layiq olduğu qiyməti verə bildiyi kimi, universitet kollektivi də öz növbəsində Heydər Əliyevin məhəbbətini cavabsız qoymayıb, ona yüksəkliyə doğru irəliləyişinə həmişə arxa olub, məramını, dəst-xəttini dəstəkləyib, indi də dəstəkləməkdədir. Və beləcə bu qarşılıqlı məhəbbət, sevgi 50 ilə yaxındır davam edir.

Oxucuların mühakiməsinə təqdim edilən kitab Heydər Əliyevlə Bakı Dövlət Universitetinin yarım əsrlik dostluğunun ayrı-ayrı mərhələlərini, məqamlarını yaddaşlarda canlandırmaq, gənc nəslin mənəvi tərbiyəsi örnəyinə çevirmək məqsədi daşıyır. Müəlliflər sənədlərin, fotoşəkillərin dili ilə əfsanə təsiri bağışlayan bu tarixi

[97] Heydər Əliyev və Bakı Dövlət Universiteti: buraxılışa məsul, ön sözün və məqalələrin müəl. Misir Mərdanov; tərt. ed. Əli Əhmədov.- Bakı, 1997.- S.3.

həqiqətin mahiyyətini, sirlərini, mənəvi-emosional gücünü açıb göstərməyə çalışıblar. Ümidvar olduğumuzu bildirmək istərdik ki, bu əsər Heydər Əliyevin çox zəngin və mənalı həyat və fəaliyyətinin daha dolğun, daha əhatəli salnaməsinin yaradılması işində layiqli töhfə olacaq."[98]

Universitet elminin və təhsilinin inkişafına göstərdiyi qayğıya, onun adını və şöhrətini yüksəklərə ucaltdığına, Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərinə görə Bakı Dövlət Universitetinin böyük Elmi Şurası 1994-cü il 28 oktyabr tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyevə "Universitetin fəxri doktoru" elmi adının verilməsi haqqında yekdil qərar çıxarmışdır. Ulu öndər Heydər Əliyev demişdir: "Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Bakı Dövlət Universitetində inkişaf etdirilmişdir."

Heydər Əliyevin Bakı Dövlət Universitetinə xüsusi münasibətinin, onun Azərbaycan xalqının, onun elminin, təhsilinin, mədəniyyətinin inkişafında xidmətlərinə böyük hörmətinin daha bir ifadəsini diqqətə çatdırmağa lüzum görürük. 1994-cü ildə universitetin 75 illik yubileyini hazırlamaq üçün təşkil edilmiş dövlət komissiyasına, Azərbaycan Respublikasının prezidenti sədrlik etmişdir. Qeyd etmək lazımdır ki, bu yeganə yubiley

[98] Heydər Əliyev və Bakı Dövlət Universiteti: buraxılışa məsul, ön sözün və məqalələrin müəl. Misir Mərdanov; tərt. ed. Əli Əhmədov.- Bakı, 1997.- S.4.



komissiyasıdır ki, onun rəhbəri ölkə prezidenti olmuşdur.

Dahi Heydər Əliyevin BDU-ya qayğısının, onun ölkəmizin ali təhsili sistemində tutduğu rolu qiymətləndirməsinin xarakterik təzahürlərindən biri 1997-ci il fevralın 17-də ilk dəfə olaraq universitet rektorunun prezident sərəncamı ilə təyin edilməsi sayıla bilər. BDU-nun professor-müəllim heyətinin bu münasibətlə Heydər Əliyevə ünvanlanmış və "Azərbaycan" qəzetinin 18 fevral 1997-ci il tarixli sayında qeyd edilir: "Möhtərəm Prezident! Bütün Azərbaycan xalqı kimi təhsil işçiləri də sizin qayğınızı daim hiss edir. Sizin müdrik tədbirlərinizin sayəsində elmimiz və təhsilimiz düçar olduğu ağır vəziyyətdən çıxmaqdadır. Bu qayğının ən böyük ifadələrindən birini professor Misir Mərdanovun Azərbaycan ali təhsilinin flaqmanı, iftixarı saydığınız Bakı Dövlət Universitetinin rektoru vəzifəsinə ilk dəfə olaraq prezidentin xüsusi sərəncamı ilə təyin edilməsində görürük. Universitetimizin kollektivi Sizin bu müdrik qərarınızı ürəkdən bəyənir. Biz bunu Bakı Dövlət Universitetinə hökumətimizin və şəxsən prezidentimizin diqqət və qayğısının təzahürü kimi qiymətləndiririk. BDU-nun fəaliyyətinə, onun Azərbaycanda ali təhsilin inkişafında, ictimai-siyasi həyatında roluna verilən ən böyük qiymət kimi dəyərləndiririk. Əmin olduğumuzu bildirmək istəyirik ki,

BDU-nun rektorunun xüsusi prezident sərəncamı ilə təyin edilməsi onun statusunu daha da yüksəldir."

15 fevral 2000-ci il tarixdə Vaşinqton şəhərində "Vaşinqton Post" qəzetinin redaksiya heyətinin üzvləri ilə görüşdə qəzetin baş redaktoru Fred Hayat, icraçı redaktor Leonard Daoni, redaktor müavinləri Robert Kayzer, Alan Kupelham, diplomatik məsələlər üzrə şərhçi Noça Bustani, müxbirlər Devid Ottave, Çarlz Leyn, Maykl Daus, Dən Morqan iştirak edirdilər.

Ulu öndər Heydər Əliyev görüş zamanı demişdir: "Səmimi sözlərə və ötən ilin aprel ayında NATO-nun 50 illik yubileyində iştirak edərkən "Vaşinqton Post"un birinci səhifəsində mənim fotoşəklim ilə birlikdə dərc etdiyiniz məqaləyə görə qəzetin kollektivinə təşəkkürümü bildirirəm.

Terrorizmin, separatizmin xalqlara, ölkələrə böyük zərər gətirdiyini nəzərə çatdıraraq bildirmək istəyirəm ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş, respublikamızın ərazisinin 20 faizi hələ də işğal altındadır."[99]

6 fevral 2001-ci il tarixdə Böyük Britaniyanın "Kaspian" jurnalının baş redaktoru, Azərbaycanın Dövlət Kitabının nəşri layihəsinin əlaqələndiricisi Ceyms

[99] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn]. Fevral, 2000 - mart, 2000 K.25 /H. Əliyev; burax. məs. R. Mehdiyev.- Bakı: Azərnəşr, 2008.- S.117.



Miller ulu öndərlə görüşdə demişdir: "Cənab Prezident, Siz öz fərmanınız ilə "Azərbaycan yeni minillikdə" adlı kitaba dövlət kitabı statusu vermisiniz. İndi biz həmin kitabın nəşr olunması üçün hazırlıq işləri aparırıq. Jurnalımızın redaksiya heyəti belə qərara alıbdır ki, Sizin yeni minillikdə Azərbaycan xalqına etdiyiniz müraciəti, çıxışınızı kitab şəklində çap etsin. Bundan əlavə, hesab edirik ki, bizim auditoriyamız, oxucularımız üçün Sizdən müsahibə almaq maraqlı və mühüm olardı.

Oxucularımız indi Sizə ünvanlayacağımız suallara cavabınızla tanış olmaqla, Azərbaycanın inkişafına mane olan bir sıra köklü problemləri daha yaxından dərk etmək imkanı qazanacaqlar. Düşünürük ki, Azərbaycanın dövlət kitabını çap etməkdən və Sizinlə müsahibəni həmin kitabda dərc etməkdən əlavə, gələcəkdə bu kitabı bir sıra beynəlxalq informasiya agentliklərinə təqdim edək və o, bir sıra başqa beynəlxalq nəşrlərdə də çap olunsun. Ümidvarıq ki, biz gələcəkdə CNN televiziya kanalı vasitəsilə bu kitab barədə müəyyən verilişin hazırlanmasına da nail ola biləcəyik. Əminik ki, belə bir müsahibənin və kitabın nəşr olunması beynəlxalq aləmdə Azərbaycanın səsinin daha gur eşidilməsinə və Azərbaycan reallıqlarının, həqiqətlərinin dünyaya çatdırılmasında rol oynaya bilər."[100]

[100] Yenə orada, 2010.- K.32.-S.255-256.

Fatma Abdullazadə Ulu Öndərə müraciətlə Cənab Prezident, onu biz hazırlayırıq. Amma o, nəşrin əlaqələndiricisi kimi, Azərbaycanda çalışan şirkətlərlə görüş keçirib, onların fəaliyyəti kitab vasitəsilə işıqlandırılacaq. Həmin kitab Sizin Azərbaycan xalqına müraciətinizlə açılacaqdır. Eyni zamanda indiki müsahibənin mətnini də kitaba daxil etmək istəyirlər. Onlar bu müsahibəni müxtəlif jurnallar vasitəsilə də yaymaq və CNN televiziya kanalında isə həm dövlət kitabı ilə bağlı, həm də bu müsahibə ilə bağlı veriliş hazırlamaq istəyirlər.

Heydər Əliyev: Mən bunları başa düşdüm. Bu, "Kaspian" jurnalında olacaq, yoxsa, ayrıca kitab olacaqdır?

Fatma Abdullazadə: Cənab Prezident, bu, ayrıca kitab olacaqdır və burada bir neçə istiqamətdə iş gedir. Bu istiqamətlərin birinə – Azərbaycan iqtisadiyyatı ilə bağlı istiqamətə məhz Ceyms başçılıq edir.

Görüşdə Ceyms Millerin Ulu Öndərə müraciəti diqqətəlayiqdir. "Zati-aliləri, bu gün Sizinlə görüşməyi özümə böyük şərəf hesab edirəm. Çox gərgin iş cədvəlinizdən mənim üçün vaxt ayırdığınıza görə sizə təşəkkürümü bildirirəm. Mən nəşr etdiyimiz və Xəzər regionuna həsr olunmuş "Kaspian" jurnalının nüsxələrini Sizə gətirmişəm. İstəyirəm bunları təqdim edim ki, Siz tanış olasınız. Bizim ən yeni nəşrlərimizdən biri də "Böyük İpək yolu – dünya" jurnalıdır. Nəşriyyatımızın buraxdığı digər bir qrup nəşrlər də Azərbaycan mədəniyyətinin təbliğ olunması ilə əlaqədardır. Biz bunları Azərbaycanın Londondakı mədəniyyət mərkəzində nümayiş etdiririk və Azərbaycan mədəniyyətinin dünyaya çatdırılmasına yardımçı oluruq."



Bu nəşrdə isə zati-alinizin Londona etdiyi rəsmi səfər öz əksini tapıbdır.[101]

(Ceyms Miller "Kaspian" jurnalını və digər nəşrləri Prezident Heydər Əliyevə təqdim etmişdir).

Görüş zamanı Ceyms Miller daha sonra demişdir: "Cənab Prezident, doğru deyirsiniz, bu, yeni jurnal deyildir. Bu Sizin 1998-ci ildə Böyük Britaniyaya rəsmi səfəriniz, orada bu ölkənin kraliçasından tutmuş, dövlət, hökumət rəhbərləri ilə apardığınız danışıqları özündə əks etdirən fotoşəkillərdən və Sizin orada apardığınız işlərə həsr olunmuş materiallardan ibarətdir. Biz bu jurnalı Azərbaycanın Böyük Britaniyadakı, Londondakı mədəniyyət mərkəzində pulsuz yayırıq. Bu mədəniyyət mərkəzi Azərbaycan hökumətinin, Hava Yolları Dövlət Konserninin, bizim şirkətimizin köməyi ilə yaradılmış mərkəz olduğu üçün qəlbən mənə də çox yaxındır. İstəyirik ki, bu mərkəz vasitəsilə Azərbaycan mədəniyyətinə aid olan nailiyyətləri dünyaya nümayiş etdirək,

[101] Yenə orada

bir də Sizin bu işlər üçün göstərdiyiniz fəaliyyəti işıqlandırmaq imkanı əldə edək."[102]

"BDU çox böyük alimlər, ictimai xadimlər, yaradıcı ziyalılar yetişdirib. Lakin tam məsuliyyətlə demək olar ki, Bakı Dövlət Universitetinin ən böyük məzunu, öz xalqına, onun mədəniyyətinə və mənəviyyatına son dərəcə bağlı olan, öz şəxsiyyəti ilə xalqımızın simvoluna çevrilən, Azərbaycan dövlətinin xilaskarı və qurucusu, dünya azərbaycanlılarının lideri Heydər Əlirza oğlu Əliyevdir. Bakı Dövlət Universitetinin Heydər Əliyev qədər həm bütün Azərbaycan xalqının, həm də Universitetimizin şöhrətini yüksəkliklərə qaldıran, millətinə xidmət göstərən ikinci məzunu yoxdur."[103]

Bu fikirlər ulu öndərə həsr olunmuş Bakı Universiteti nəşriyyatında çapdan çıxmış "Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu" adlı növbəti sanballı kitabdandır.

Elmi məsləhətçi və redaktoru Azərbaycan MEA-nın həqiqi üzvü, akademik, Milli Məclisin deputatı Cəlal Əliyev, buraxılışa məsul, ön sözün və məqalələrin müəllifi akademik, Milli Məclisin deputatı Abel Məhərrəmov tərəfindən kitabda Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi, Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu və fəxri doktoru Heydər Əliyevin bu təhsil ocağı ilə bağlı həyatının müxtəlif məqamları oxucuların diqqətinə çatdırılır. Bu böyük şəxsiyyətin Bakı Dövlət Universitetində oxuduğu illər, tələbəlik dövrü sənədlərinin, tarixi fotoşəkillərin dili ilə təsvir olunur. Doğma təhsil ocağına Heydər Əliyevin qayğısının ifadəsi olan yubiley təntənələrində dövlət başçımızın iştirakı, tarixi görüşlər, çıxışlar kitabda öz əksini tapmışdır. Eyni zamanda Prezident Heydər Əliyevin qayğısı ilə yeniləşən Bakı Dövlət Universitetinin 82 illik tarixi dövründə keçdiyi şərəfli yola və müasir həyatına kitabda geniş yer ayrılmışdır.

Azərbaycan Prezidenti Heydər Əliyevin Bakı Dövlət Universitetinin 80 illiyi münasibəti ilə BDU-nun və bir sıra xarici ölkə universitetlərinin rəhbərləri ilə görüşündə Moskva Dövlət Universitetinin rektoru, Avrasiya Universitetləri Assosiasiyasının prezidenti, Rusiya Elmlər Akademiyasının akademiki Viktor Sadovniçi söz alaraq dedi:

- Heydər Əliyeviç, ölkənizdə təhsilə göstərdiyiniz qayğıya görə bir Prezident kimi Sizə Moskva Universiteti adından sağ olun demək istəyirəm.

Əlbəttə, biz başqa ölkələrdə nə kimi universitetlər olduğuna biganə deyilik və başa düşürük ki, Bakı Dövlət

[102] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar [Mətn].- Yanvar, 2001 - noyabr, 2001 /H. Əliyev; burax. məs. R. Mehdiyev K. 32.- Bakı: Azərnəşr, 2010.- S.257.

[103] Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu /burax. məsul, ön söz və məqalələrin müəllifi MEA-nın müxbir üzvü, prof. Abel Məhərrəmov.- Bakı: Bakı Universitetinin nəşriyyatı, 2001.- S.21.

Universiteti Sizin qayğınız sayəsində çiçəklənir, yaxşı yoldadır.

Bir məsələ barəsində də bir neçə kəlmə demək istərdim. Heydər Əliyeviç, mən o dövrə mənsubam ki, həmin dövrdə Sizin yüzlərlə gənc aliminiz Moskva Universitetində oxuyurdu. Mənim aspiranturada oxuduğum gənclik illərim Sizin adamlarla - Maqsud Fərmanovla, Cəlal Abdullayevlə birlikdə keçmişdir. Mən Rəsulovun, Xəlilovun kitablarından dərs almışam. Elə burada əyləşən bir çox dekanlarla da Moskva Universitetində bu və ya başqa cür görüşmüşük, yaxud bir yerdə oxumuşuq.

O illər gözəl illər idi. O vaxtlar biz məktəbimizin, elmi məktəblərimizin görünməmiş dərəcədə yüksək səviyyəsini birlikdə yaradırdıq. Buna görə də istərdik ki, bu ənənələr davam etdirilsin. Hər bir təhsil sisteminin öz xüsusiyyətləri var, lakin elm və təhsil bütövlükdə beynəlmiləldir."

Viktor Sadovniçi çıxışının sonunda ulu öndərə müraciətlə demişdir: "Hörmətli Prezident, sözümü bitirərək, sovet məktəbinin inkişafına verdiyiniz töhfəyə görə Sizə sağ olun demək istəyirəm. Mən şəxsən Sizə çoxlu məktub yazmışam və həmişə də dəstək almışam. Heydər Əliyeviç, ona görə də biz Moskva Universitetində Sizi sevir, qiymətləndiririk və tutduğunuz yolda Sizə çoxlu-çoxlu yaradıcılıq illəri arzulayırıq.



Moskva Universiteti adından ən əziz hədiyyəmizi – vaxtilə dəstəkləmiş olduğunuz Moskva Universiteti haqqında fotoalbomu, habelə ali mükafatımızı – Moskva Dövlət Universitetinin medalını Sizə minnətdarlıq hissi ilə təqdim etmək istərdim. Çox sağ olun!"

BDU-da 1997-ci ildən qapıları hamının üzünə açıq olan Heydər Əliyev muzeyi fəaliyyət göstərir. Bakı Dövlət Universitetinin məzunu, bu ali təhsil ocağının fəxri doktoru və qayğıkeşi olan Heydər Əliyev barədə toplanan hər bir sənəd, bu böyük şəxsiyyətin həyatına aid hər bir fakt və materiallar burada əziz tutulur. Sənədlər arasında 1939-cu ildə Naxçıvan şəhərindəki beynəlmiləl məktəb tərəfindən Heydər Əliyevə verilmiş və yalnız əla qiymətlər düzülmüş kamal attestatı, Heydər Əliyevin BDU-ya daxil olmaq istəyini bildirən ərizə, BDU-ya daxil olmaq üçün verilmiş imtahan vərəqi və başqa tarixi sənədlər son dərəcə nadir və qiymətli eksponatlardır. Bunlar bu gün BDU-da oxuyan tələbələr üçün örnəkdir, bu sənədlərin son dərəcə tərbiyəvi əhəmiyyəti vardır. Muzeyə ayaq basan hər bir tələbənin qəlbindən ilk növbədə Heydər Əliyev kimi oxumaq hissi keçir, Heydər Əliyev ömrünün gənclik çağlarının, tələbəlik illərinin necə də nümunəvi olduğu göz önünə gəlir. Düz 59 il bundan əvvəl BDU-ya daxil olmuş Heydər Əliyevin tələbəlik illəri, BDU-nu müvəffəqiyyətlə bitirərkən çəki-

lən toplu şəkil (vinetka) həmin mənalı ömrün akkordlarıdır.

Ümummilli lider fəaliyyətinin bütün dövrlərində tez-tez doğma universitetə gəlmiş, hər zaman BDU-ya xüsusi diqqət göstərmişdir. Onun universitetin yubileylərində iştirakı, çıxışları qiymətli sənədlər olaraq, BDU-ya Heydər Əliyev qayğısının təzahürləri kimi bu muzeyin ən mühüm eksponatlarındandır.

Muzeydə həmçinin Heydər Əliyevin gərgin fəaliyyətilə yanaşı, ömrünün ən incə məqamlarından bəhs edən sənədlər, fotoşəkillər, kitablar vardır. Heydər Əliyev haqqında universitet alimlərinin yazdığı kitablar da xüsusi maraq doğurur. Heydər Əliyevin ailə albomundan təqdim olunan fotoşəkillərdə bu böyük şəxsiyyətin həssas qəlbli, qayğıkeş bir insan olduğu aydın görünür.

Heydər Əliyev ömrü, onun keçdiyi çox mürəkkəb, lakin şərəfli yol hamı üçün örnəkdir, Heydər Əliyev muzeyi hamının nümunə götürəcəyi bir məktəbdir. Bu muzey universitet durduqca yaşayacaq və hər zaman professor-müəllim, tələbələr və ziyalılarımız üçün müqəddəs ziyarətgah olacaqdır.

BDU alimlərinin yazdıqları və Bakı Universiteti Nəşriyyatı tərəfindən çap olunmuş kitablar da respublikanın mədəni həyatının bir hissəsidir. Ümummilli lider Heydər Əliyevə həsr olunmuş kitabların təqdimetmə mərasimlərinin keçirilməsinin çox böyük mənəvi əhəmiyyəti vardır. Heydər Əliyev muzeyində əziz bir xatirə kimi saxlanılan bu kitablar universitetin ən böyük qayğıkeşi olan Ulu öndər Heydər Əliyevin ömür yolunu əks etdirən töhfələrdir.



15 fevral 2000-ci il tarixdə Cons Hopkins Vaşinqton Universitetində görüşdə Pol Volfoviç (Universitetin xüsusi Beynəlxalq Tədqiqatlar İnstitutunun rəhbəri, səfir): "Cənab Prezident, sizi, görkəmli dövlət xadimini salamlamaqdan, Sizinlə görüşümdən şərəf duyduğumu bildirirəm.

Mən böyük məmnunluq hissi ilə bildirirəm ki, Azərbaycan Prezidenti cənab Heydər Əliyev ilə mərkəzin böyük salonunda keçiriləcək görüşə ABŞ-ın keçmiş və hazırkı yüksəkvəzifəli siyasi xadimləri, səfirlər, diplomatik fəaliyyətlə məşğul olan şəxslər, MDB və Azərbaycan üzrə ekspertlər, beynəlxalq təşkilatların, yerli və xarici şirkətlərin nümayəndələri, universitetin professor-müəllim heyəti, tələbələr, kütləvi informasiya vasitələrinin təmsilçiləri toplaşıblar. Onlar görkəmli dövlət xadimi, dünyanın ən nüfuzlu şəxsiyyətlərindən biri olan Prezident Heydər Əliyevi dinləmək və beynəlxalq, regional məsələlər, ikitərəfli münasibətlər və s. barədə onun fikirlərini öyrənmək arzusundadırlar.

Onu da vurğulamaq istəyirəm ki, Azərbaycan Prezidentinin həyatı öyrənilməyə layiq bir tarixdir. İnstitut görkəmli dövlət xadimi Heydər Əliyev haqqında kitab

nəşr etmək istəyir və bu məqsədlə öz nümayəndəsini Bakıya göndərmək niyyətindədir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti Heydər Əliyev ilə bu görüşü Amerikadakı Mərkəzi Qafqaz İnstitutu və Cons Hopkins Universitetinin Pol Nitz adına Beynəlxalq Tədqiqatlar Mərkəzi təşkil etmişdir."

2 noyabr 1999-cu il tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev böyük öndər Mustafa Kamal Atatürkün məqbərə kompleksini – Anıtqəbiri ziyarət etdi.

Ulu Öndər məqbərənin önünə əklil qoydu, Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün xatirəsini bir dəqiqəlik sükutla yad etdi.

Prezident Heydər Əliyev məqbərə kompleksinin fəxri qonaqlar kitabına ürək sözlərini belə əks etdirmişdir:

"Mustafa Kamal Atatürk bəşər tarixinin, XX əsrin ən böyük şəxsiyyətlərindəndir. İstiqlal savaşına başçılıq edərək, qalib gəlib Türkiyə Cümhuriyyətini yaratmaqla o, türk xalqına böyük yol açmış, Türkiyə Atatürk ideyalarına sadiq olaraq 76 ildir ki, bu yol ilə gedir və böyük nailiyyətlər əldə etmişdir. Qardaş Azərbaycan xalqı Atatürkün şəxsiyyətinə, onun ideyalarına, onun qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yanaşır. Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbə-



yidir. Bu gün mən böyük öndər Mustafa Kamal Atatürkün qəbrini böyük qürur hissi ilə ziyarət edirəm.

Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu mənim üçün, bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bununla fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir."

Ulu öndər Heydər Əliyev Türkiyə və türk xalqının lideri Mustafa Kamal Atatürk haqqında daha sonra demişdir: "Biz Azərbaycanda türkdilli dövlətlərin tarixinə, Türkiyənin tarixinə, Azərbaycan-Türkiyə əlaqələrinin tarixinə böyük əhəmiyyət veririk. Xüsusən Böyük Atatürk irsinin öyrənilməsinə, araşdırılmasına, elmi cəhətdən tədqiq edilməsinə çox böyük önəm veririk. Təbiidir ki, bu barədə Türkiyədə çox işlər görülübdür.

Amma hesab edirəm ki, Böyük Atatürkün yaratdığı və bugünkü nəslə, gələcək nəslə qoyduğu irs elə böyük xəzinədir ki, bu araşdırmalar hələ yüz il bundan sonra da getsə, onun hamısını elm, kitab vasitəsilə, başqa yollarla meydana çıxarmaq mümkün olmayacaqdır. Ona görə də mən fərman vermişəm və Azərbaycanda Atatürk irsinin və türk xalqlarının tarixinin araşdırılması üçün yeni bir mərkəz yaratmışam. Bu mərkəzin Fəxri Prezidenti Azərbaycan Prezidentidir.

Türkiyə Cümhuriyyətinin Atatürkçü yolu Azərbaycan üçün örnəkdir. Biz bu örnəyə sadiq qalacağıq, öz iradəmizi göstərərək ölkəmizi cümhuriyyət yolunda işıqlı sabahlara aparacağıq."[104]

"Nəinki özümün, bütün Azərbaycan xalqının fikrini deyirəm. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, bizim qanımız, canımız, dinimiz, dilimiz birdir. Bunların hamısının olduğu yerdə gərək Türkiyədə iş adamları, dövlət adamları, adi bir vətəndaş da bilsin ki, Azərbaycanın mənafeyi Türkiyənin mənafeyidir, Azərbaycanın dərdi Türkiyənin dərdidir. Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O, vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir."[105]

Müstəqil Azərbaycan dövlətinin müstəqilliyinin bərpasının onilliyi münasibətilə 2002-2006-cı illərdə Bakıda ***"Heydər Əliyev və Şərq"*** adlı 6 cildlik fundamental kitab nəşr edilmişdir. Kitabın müəllifləri elmlər doktoru, professor Vilayət Quliyev, Qalay Allahverdiyev, Vəhdət Sultanzadə, Novruz Məmmədov və Mübariz Qurbanlıdır.

[104] Heydər Əliyev və Şərq: 6 cilddə: Türkiyə Cümhuriyyəti.- Bakı: Çaşıoğlu, 2003.- Kitab IV.- S.8.
[105] Yenə orada.- S.9.



Altı cildliyin II cildi Azərbaycan-İran münasibətlərinə, III-IV cildlər Azərbaycan-Türkiyə münasibətlərinə, V cild İslam Konfransı dövlətlərinə, VI cild "Türk dünyası"na həsr olunmuşdur. Eyni zamanda VI cilddə verilmiş Bakıda Atatürk mərkəzinin rəhbəri, Milli Məclisin üzvü akademik Nizami Cəfərovun "Heydər Əliyev və türk dünyası" adlı geniş məqaləsi (S.5-39) Azərbaycan elminə böyük bir töhfədir.

Azərbaycanda Atatürk Mərkəzinin xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən yaradılmasından məmnunluqla söhbət açan 30 may 2005-ci ildə Prezident Sarayında İlham Əliyevlə görüşdə Atatürk Araşdırmalar Mərkəzinin sədri professor Mehmed Saray dedi ki, ulu öndər Heydər Əliyev Azərbaycan və bütövlükdə türk dünyası haqqında həqiqətlərin beynəlxalq aləmdə yayılması və təbliğ olunması işinə daim böyük önəm verirdi. Türk dünyası qarşısında Atatürkün və Heydər Əliyevin böyük xidmətlər göstərdiyini, onların ideyalarının təbliği və yayılmasının vacibliyini vurğulayan qonaq bildirdi ki, ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" ideyası xalqlarımızı daha da sıx birləşdirir. Mehmed Saray söylədi ki, Prezident İlham Əliyev hazırda bu siyasəti uğurla davam etdirir, xarici ölkələrə bütün səfərlər zamanı Azərbaycan və türk dünyası haq-

qında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırır və bu, türk dünyasında böyük maraqla qarşılanır.[106]

4 mart 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində xüsusi olaraq vurğulayır ki, Azərbaycanın taleyi belə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir. Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış Azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqriflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi mədəniyyət nümunələri, Kurqan tapmtıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur. İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi, azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfə-

[106] Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun sədri professor Sadiq Kamal Tural və Atatürk Araşdırmalar Mərkəzinin sədri professor Mehmed Saray ilə görüş: İlham Əliyev. İnkişaf məqsədimizdir: 10 cilddə.- Bakı: Azərnəşr, 2012.- Kitab VI.- S.165-166.



lər vermişlər. Bizim əcdadlarımız ibtidai mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq, özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz sübut edir.

2000-ci ildə 1300 illik yubileyini təntənə ilə qeyd etdiyimiz "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm bir abidəyə malik olmaq da onu göstərir ki, bu torpaqda hələ bizim eramıza qədərki dövrdə böyük bir mədəniyyət mövcud olmuşdur.[107]

Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Dastanlarımız kimi möhtəşəm sənət abidələri, dünya sivilizasiya tarixində silinməz izlər qoymuş Qətran Təbrizi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli kimi korifeylərin yaradıcılığı ümumbəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideallann bərqərar olmasına xidmət etmişdir. Səfiəddin Urməvinin, Əcəmi Naxçıvaninin, Sultan Məhəmməd Təbrizinin dünya mədəniyyəti xəzinəsinə verdikləri incilər sənətsevərləri indi də heyran qoyur.[108]

[107] Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar.- Bakı: Azərnəşr, 2009.- K. 25.- S.296.
[108] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar.- Bakı: Azərnəşr, 2009.- K. 25.- S.296.

XX əsrin 70-ci illərində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin dəstəyi ilə çoxcildli "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi. Bu nüfuzlu nəşrdə dünya, SSRİ və respublikamız barədə kifayət qədər geniş məlumatlar öz əksini tapmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra Sovet sisteminə xas olan ideoloji məhdudiyyət və qadağaların aradan qaldırılması milli maraqların qorunması zərurəti, genişlənən inteqrasiya əlaqələri müstəqil Azərbaycanın ensiklopediyasının və sahə ensiklopediyalarının hazırlanması işinə ciddi təkan verdi.

Anarın ulu öndər haqqında səmimi sözləri belədir: "Heydər Əliyevin mənim haqqımda, ayrı-ayrı əsərlərim haqqında, 60 illiyimlə bağlı dediyi xoş sözlər mənim onun haqqında dediklərimdən və yazdıqlarımdan az deyil. Yalnız bir dəfə 75 illiyində "Oqonyok" jurnalının sifarişi ilə onun barəsində "Şəxsiyyətin missiyası" adlı məqalə yazmışdım.

İndi bu böyük şəxsiyyətin missiyasının o vaxt mənim yazdığımdan da ulu olduğunu etiraf edirəm. Və şübhə etmirəm ki, illər ötdükcə bu miqyasların çox-çox daha böyük olduğunu dərk edəcəyik.

Heydər Əliyevi tanıyanda çox gəncdim. Sonrakı illərdə Azərbaycan rayonlarına səfərlər zamanı, müxtəlif vaxtlarda Gəncədə, Naxçıvanda, Şuşada, habelə İstanbulda və Ankarada, Moskvada, Romada, Pekində və



Şanxayda, Almatıda, Bişkekdə dövlət başçılarıyla söhbətlərində, sənətçilərlə ünsiyyətində, tarlalarda, ya küçələrdə adi ada-mlarla görüşlərində onu yaxından müşahidə etmək imkanım olub. Saysız-hesabsız toplantılarda, yubileylərdə onu dinləmişəm. Yazıçılarla, sənət adamlarıyla görüşlərində iştirak etmişəm, 2-3 dəfə isə təkbətək çox ətraflı, məhrəm söhbətlərimiz olub. 1997-ci ilin payızında İtaliyadan qayıdarkən təyyarədə ta Romadan Bakıyacan 3 saatdan artıq ikilikdə danışmışıq. Bu söhbətləri gündəliyimdə bütün ayrıntıları ilə və tam dəqiqliklə isti-isti qeyd etmişəm. İndi mənim bu böyük insanın xatirəsi qarşısında borcum – hafizəmdə və kağız üzərində qalmış bütün təfərrüatları, uzun illər müşahidə etdiklərimi və məhrəm söhbətlərimizin tam mətnini, eləcə də Heydər Əliyev fenomeni haqqında düşündüklərimi iri bir yazı şəklində qələmə almaqdır və mən bunu mütləq edəcəm." "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin birinci iki cildinin çapdan çıxması ictimai-siyasi həyatımızda çox əhəmiyyətli hadisədir. Ancaq bu kitabların, - mən bir yazıçı kimi danışıram, - bədii əhəmiyyəti də var. Beş gündə bu üç kitabı roman kimi maraqla oxudum. Hadisələrin özü o qədər maraqlı, gərgin, dramatikdir ki, bədii əsər kimi oxuyursan. Heydər Əliyev deyəndə ki, mən xalqımlayam, xalqla mən birəm, mənim arxamda xalq durur, - bu, tamamilə səmimi sözlərdir. Amma televiziya ilə çıxışında, müsahibəsində deyəndə ki, mənim

şəxsi dostum yoxdur, bu da səmimi sözlərdir. Bu da insan xarakterinin mürəkkəbliyini göstərir, çünki hakimiyyət həm də tənhalıq deməkdir. Mən bu əsərlərin bədiiliyindən danışanda onu nəzərdə tuturdum ki, gələcəkdə, şübhəsiz, romanlar, sırf bədii əsərlər də yazılacaq, bu, Heydər Əliyevə bəsit və şit mədhiyyələr şəklində olmayacaqdır. Çünki mədhiyyələr o zəngin, dolğun, mürəkkəb həyat yolu keçmiş insanı ancaq sxematikləşdirə, ancaq kasıblaşdıra bilər. Bu gələcək əsərlər onun həyatının bütün mürəkkəbliyini, taleyinin bütün çətin sınaqlarını əks etdirən əsər olacaqdır." ("Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin I və II cildlərinin və "Qayıdış" kitabının təqdimat mərasimində çıxışından. "Azərbaycan" qəzeti, 6 iyun 1997) Anar.

Xalq yazıçısı Anarın son zamanlarda qələmə aldığı "Unudulmaz görüşlər" qırx ildən artıq bir dövrün ədəbi, siyasi, ictimai mənzərəsini əks etdirir. Memuar janrında yazılmış bu maraqlı kitabı müəllif ümummilli lider Heydər Əliyevə həsr etmişdir.

Kitabda ulu öndərlə görüşlər, mükalimələr, yazıçıların qurultaylarındakı çıxışlar, ədəbi mübahisələr və s. öz dolğun əksini tapmışdır. Əsəri oxuduqca yaxın keçmişimizin mürəkkəb, ziddiyyətli dövrü və bu mürəkkəb dövrün, hadisələrin içindən müdrikliklə, qalibiyyətlə keçib gələn Heydər Əliyevin işıqlı siması gözlərimiz önündə canlanır.[109]



Lənkəran Dövlət Universitetində 23 dekabr 2006-cı il tarixində keçirilən "Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi" adlı beynəlxalq elmi-praktik konfrans Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev irsinin öyrənilməsi, qorunması, təbliği və tətbiqi ilə yanaşı, Azərbaycanın XXI əsrdə müasir dirçəlişinin müəllifi olan İlham Əliyevin bu irsi bacarıqla, inamla və qətiyyətlə inkişaf etdirməsi nəticəsində əldə olunan uğurların və qarşıda duran vəzifələrin təhlilinə həsr olunmuşdur. Konfransda xalqımızın ən böyük sərvəti olan Heydər Əliyev irsinin idarəçilik prinsiplərinə və metodoloji əsaslarına sadiq qalaraq, onları yaradıcılıqla inkişaf etdirən ölkə başçısı İlham Əliyevin Azərbaycanın dünyanın ən sürətli və dinamik inkişaf edən ölkəsi səviyyəsinə çıxarmasına, müasir inkişaf mərhələsində təhsilin, elmin və yeni texnologiyaların önəmli roluna, Prezidentin müəllifi olduğu və qısa müddətdə böyük uğur qazanmış "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramının həyata keçirilməsinə dair məsələlər müzakirə olunmuşdur.[110]

---

[109] Anar. Unudulmaz görüşlər - Bakı: Təhsil, 2009 - 272 s.

[110] "Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında Ilham Əliyev mərhələsi" Beynəlxalq elmi-praktik konfrans /elmi red. və ön söz. müəl. Fizika –riyaziyyat elmləri doktoru, professor Asəf İsgəndərov.- Bakı, 2007.- 280 s.

Müasir Rusiyada ən məşhur və maraqlı tarixi araşdırmalar müəllifi olan Nikolay Zenkoviç qeyri-adiliyi ilə diqqəti cəlb edən Heydər Əliyev şəxsiyyətinə müraciət edərək onun həyat yoluna öz baxış prizmasından qiymət vermişdir. Nikolay Zenkoviçin "Heydər Əliyev Tale yolları" kitabını 2007-ci ildə S.Əbdürrəhmanova və H.Babayevin tərcüməsi ilə Azərbaycan dilində "Azərbaycan" nəşriyyatında nəfis tərtibatla çap olunması onun bu dahi şəxsiyyət haqqında araşdırmalarının nə qədər mühüm olmasını göstərir.

Heydər Əliyevin Nikolay Zenkoviç tərəfindən qələmə alınmış həyat və tale yolu öz bənzərsizliyi ilə insanı valeh edir. Sov.İKP MK Siyasi Bürosunun keçmiş üzvünün dünyabaxışındakı təkamülün – onun uzaq və yabançı qırmızı ulduzdan ayrılıb, tədricən doğma aypaya qovuşmasının səbəblərinə müəllifin baxışı xüsusilə fərqlidir.

Ulu öndərin həyat və fəaliyyətindən, fövqəladə rəhbərlik qabiliyyətindən və siyasi uzaqgörənliyindən, böyük humanizmindən bəhs edən hər bir kitabın öz yeri və rolu var. Maraqlıdır ki, Heydər Əliyev fenomenindən bəhs edən ən qalın cildlərlə yanaşı, çox kiçik həcmli nəfis poliqrafik tərtibatlı miniatür kitablar da nəşr olunub. Zövqləri oxşayan bu zərif kitablar hamı tərəfindən rəğbətlə, eyni zamanda böyük maraqla qarşılanır. Hər şeydən öncə oxucularda xoş əhvali-ruhiyyə yaradır.



İndiyədək Azərbaycan Respublikası "Kitab" Cəmiyyətinin xəttilə ulu öndər Heydər Əliyevlə bağlı 37 miniatür nəşr işıq üzü görüb. Müxtəlif ölçülərdə buraxılan kitabların hamısı Heydər Əliyev Fondunda və bütün dünyada analoqu olmayan Bakıdakı Miniatür Kitab Muzeyində nümayiş etdirilir. Təkrarsız sənət inciləri kimi yaradılan bu kitablar "İndiqo" nəşriyyatında çap olunub.

Qeyd edək ki, Azərbaycanda miniatür kitab buraxılışı ilə məşğul olan tanınmış ziyalı, naşir "Kitab" Cəmiyyətinin sədri, Miniatür Kitab Muzeyinin təsisçisi, əməkdar mədəniyyət işçisi Zərifə Salahovanın Heydər Əliyev irsini həm də bu cür kitablarla təbliğ etmək fəaliyyəti 1993-cü ildən, ulu öndərin xalqın təkidi, tələbi ilə hakimiyyətə qayıtdığı dövrdən başlanıb.[111]

2013-cü ildə ümummilli lider Heydər Əliyevin 90 illiyi ərəfəsində daha bir kitab işıq üzü görüb. "İndiqo" nəşriyyatında Azərbaycan və ingilis dillərində buraxılan miniatür nəşrin formatı 38x53 millimetrdir. Azərbaycan dilindəki kitab 176 səhifədən ibarətdir, orada 14 foto yerləşdirilib. 174 səhifəlik ingilisdilli variantda isə 17 foto var. Nəfis tərtibatlı bu nəşr "H.halal: hər şey poliqrafiya üçün" müəssisəsinin sponsorluğu ilə çap olunub.

[111] Əliyeva İ. Ulu öndər haqqında 37 miniatür kitab çap olunmuşdur // Azərbaycan.-2013.-S.3.

Kitabın üz qabığı təbii dəridən hazırlanıb, qızılı naxışlarla bəzədilib.

Bu kitab da ulu öndərin 75 illiyi münasibətilə buraxılan kitab kimi xüsusi futlyarda yerləşdirilib. Futlyarın ölçüləri 60x75 millimetrdir. Qutuya eləcə də Moskvadakı "Monetnıy dvor"da qızıldan hazırlanmış medal da qoyulub ki, onun müəllifi İvan Kopıtkindir. Xatırladaq ki, İ.İ.Kopıtkin özünəməxsus incə fəaliyyətlə, yəni medallar tərtib etməklə məşğul olan tanınmış rəssam və heykəltəraşdır.

Medalın bir üzündə Heydər Əliyevin vaxtilə bəyəndiyi portreti, o biri üzündə isə dəfnə və zeytun budaqları ilə əhatələnmiş "90" rəqəmi, rəqəmin üstündə Azərbaycanın gerbi həkk olunub.

Kitabda üç çıxış verilib. Bunlardan birincisi, Azərbaycan xalqının həyatında tarixi günlərdən birində 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanarkən ümummilli liderin çıxışının mətnidir. Daha sonra kitabda Prezident İlham Əliyevin 2004-cü və 2009-cu illərin sentyabr ayında "Əsrin müqaviləsi"nin 10-cu və 15-ci ildönümləri münasibətilə keçirilən mərasimlərdəki çıxışları dərc olunub.[112]

"Zəmanəmizin ən böyük Azərbaycanlısı" kitabını vərəqlədikcə istər-istəməz xalqın – hər bir azərbaycanlı-

[112] Əliyeva İ. Ulu öndər haqqında 37 miniatür kitab çap olunmuşdur // Azərbaycan.- 2013 -S 3.



nın Heydər Əliyev şəxsiyyətinə tükənməz məhəbbətinin şahidinə çevrilirik. Kitabdakı materiallar bir neçə qismə bölünür. Belə ki, kitabda Heydər Əliyev haqqında çoxsaylı çıxışları, dərc olunmuş nəşrləri və mətbu əsərləri ilə yadda qalan Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, YAP Siyasi Şurasının üzvü, filologiya elmləri doktoru, professor Nurlana Əliyevanın yazıları əsas yer tutur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə təhsil müəssisələrində keçiriləcək tədbirləri haqqında" əmrinə müvafiq olaraq çap olunmuş bu kitabda Azərbaycan Dövlət Pedaqoji Kollecində ulu öndərin zəngin və gənclərə örnək olan irsinin işıqlandırılması istiqamətində müəllim və tələbə heyətinin həyata keçirdiyi tədbirlər, tədris-metodiki materiallar, kütləvi informasiya vasitələrində dərc olunmuş məqalələr, "Heydər Əliyev məktəbi"ndə dinlənilmiş mühazirələr toplanmışdır.[113]

Kitab orta ixtisas təhsili və ümumtəhsil məktəblərinin müəllimləri və tələbələri, pedaqoji ictimaiyyət üçün nəzərdə tutulmuşdur.

Dünya şöhrətli rəssam Nikas Safronov Heydər Əliyevin vəfatı ilə bağlı demişdir: "Əgər mən dünyanın bö-

[113] Zəmanəmizin ən böyük Azərbaycanlısı.- /tərt. ed. Nurlana Əliyeva və b.- Bakı: Nurlan, 2007.- 407 s.

yüyü olsaydım, dahi Heydər Əliyevin vəfatını bütün dünya üçün matəm sayardım və dünyada bir günlük hüzn günü elan edərdim. Heydər Əliyev bənzərsiz, misilsiz və fövqəlbəşər bir şəxsiyyətdir. Mən həyatımda ondan nəhəng və planetar miqyaslı şəxsiyyətə rast gəlməmişəm. Mənim üçün o, siyasətdə dühanın - kiçik bir ölkədən böyük dövlət yaratmağa qadir dühanın təcəssümü olmuşdur və olaraq da qalır. Heydər Əliyev təfəkkür qabiliyyətinə, habelə öz xalqına və bütün bəşəriyyətə xidmətdə fədakarlığına görə bənzəri olmayan siyasətçidir."

Və yaxud məşhur Ukrayna yazıçısı, xalq deputatı Boris Oleynikin söylədiyi: "Azərbaycanın milli lideri, böyük siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev həm də dünya siyasətinin patriarxıdır. Onun doğma xalqı üçün, öz ölkəsi üçün nə qədər böyük işlər gördüyü hamıya məlumdur. O, həqiqətən, millətin atasıdır".

Zəmanəmizin böyük oğlu görkəmli dövlət xadimi Heydər Əliyevin keçdiyi şərəfli həyat yolundan bəhs edən Hüseynbala Mirələmovun "Zəfər yolu" əsəri ("Gənclik" nəşriyyatı, 2003-cü il) həcmcə kiçik olsa da məzmununa, orijinal üslubuna görə qalın-qalın kitablarla yanaşı durmağa, böyük və əvəzsiz şəxsiyyət olan Heydər Əliyevin adına layiq olan bir əsərdir. Prezident, üstəlik, bir xalqın, bir millətin ümummilli lideri mövzusuna müraciət etmək hər şeydən öncə tarixi gerçəkliyə obyektiv



yanaşmağı, hadisələri real qiymətləndirməyi, tarixi irəli aparan, geri çəkən qüvvələri görməyi, ictimai-siyasi mübarizənin mahiyyətini dərk etməyi tələb edir.

Nəfis tərtibatda, yüksək poliqrafik səviyyədə çap olunmuş "Zəfər yolu" kitabı üç dildə - Azərbaycan, rus və ingilis dillərində çap olunmuşdur. Kitabın bədii redaktoru Abdulla Ələkbərov naşiri isə Əlican Əliyevdir. Suvenir toplu təsiri bağışlayan nəsrdə Böyük İnsanın – möhtərəm Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən gözəl fotoşəkillər də vardır.

Heydər Əliyev haqqında çox bədii əsərlər, sənədli oçerklər, elmi məqalələr yazılıb. Bu böyük insanın şəxsiyyətinin və gördüyü işlərin miqyası o qədər genişdir ki, onun öyrənilməsi üçün elmdə ayrıca bir istiqamət yaratmaq vaxtı gəlib çatmışdır. Bu əsərlər arasında Azərbaycanın tanınmış yazıçı-publisisti Milli Məclisin deputatı Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və zaman" çoxcildli roman-tədqiqatı xüsusi yer tutur. 2013-cü ildə müasir dövrün görkəmli dövlət və siyasi xadiminin, Azərbaycan xalqının ümummilli liderinin çoxcəhətli həyat və yaradıcılığına həsr olunmuş bu fundamental əsərin son beşinci və altıncı (iki hissədə) kitabları çapdan çıxmışdır. Kitab nəinki Azərbaycanda, həm də onun hüdudlarından kənarda böyük oxucu auditoriyası qazanmışdır ki, bu da həm Heydər Əliyevin qeyri-adi şəxsiyyətinə çox böyük maraqdan, həm də romanın danılmaz

ədəbi-bədii məziyyətlərindən irəli gəlir. Rusiya Milli Kitabxanasında, Sankt-Peterburqdakı Tavriya Sarayında, Ukraynada və Türkiyədə ilk dörd cildin təqdimatı keçirilmişdir. Romanın beşinci kitabı "Naxçıvan dönüşü" adlanır. Bu kitab Heydər Əliyevin həyatının "Naxçıvan dövrünə" həsr olunmuşdur və 1990-cı ilin iyulundan 1993-cü ilin iyununadək olan zaman kəsiyini əhatə edir. Müəllif kitaba ön sözündə oxucuya müraciətində yazır ki, bu nəinki Naxçıvan Muxtar Respublikasının, həm də bütün Azərbaycanın tarixində ən mürəkkəb, həmçinin ən əlamətdar dövrlərdən biridir.

...Öz həyatının başlıca kitabını yazmaq səadəti hər yazıçıya nəsib olmur. Elmira Axundovaya bu, qismət olmuşdur. Müəllif kitablarından birinin müqəddiməsində yazır: "Bəzən məndən soruşurlar: "Heydər Əliyev haqqında daha nə qədər yazacaqsınız?" Açıq etiraf edirəm: "Yəqin ki, bütün həyatım boyu". Təəccüblü heç nə yoxdur. Axı, rus tarixçisi Rudolf İvanovun qeyd etdiyi kimi "...dahi insanlarda bir çox öyrənilməmiş keyfiyyətlər olur, onların aşkara çıxarılmasına və ifadə olunmasına zaman və insanlar kömək edəcəkdir."[114]

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Müəllimlər İnstitutunun rektoru, siyasi elmlər doktoru, professor Aqiyə Naxçıvanlının "Müdriklik zirvəsi" kitabı "Yazıçı" nəşriyyatı tərəfindən 2011-ci ildə nəşr olunmuşdur. Kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə və anadan olmasının 88-ci ildönümünə ithaf olunmuşdur.

"Azərbaycanın dahi oğlu, zəmanəmizin ən qüdrətli şəxsiyyətlərindən biri olan Heydər Əliyevin böyüklüyü, otuz ildən artıq bir dövrdə vətənin, xalqın inkişafı naminə misilsiz xidmətlər göstərməsi, ölkənin ən ağır günlərində ona rəhbərliyi öz üzərinə götürərək, yenicə müstəqillik qazanmış respublikanı parçalanıb məhv olmaqdan xilas etməsi dünya dövlətləri tərəfindən rəğbətlə qarşılanmış, görkəmli siyasətçilərin yüksək qiymətini almışdır.

Bu kitab tarixi şəxsiyyət kimi məşhurlaşmış, unudulmaz Heydər Əlirza oğlu Əliyevin zəngin xidmətlərinə bir daha işıq salmaq niyyəti ilə qələmə alınmışdır."[115]

Əməkdar elm xadimi, professor Yaqub Mahmudov "Heydər Əliyev – ümumdünya tarixinin azərbaycanlı dahisi" əsərində yazır: "Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə neçə-neçə böyük mütəfəkkirlərlə yanaşı, Cavanşir, Babək, Şəmsəddin El-

---

[114] Maraqlı insan haqqında maraqlı kitab // Heydər Əliyev.- Bakı:Şəxsiyyət və zaman roman tədqiqatın son kitabları çapdan çıxmışdır. Azərtac: Azərbaycan.- 2013.- 4 aprel.- S. 2.

[115] Naxçıvanlı A. Müdriklik zirvəsi.- Bakı: Yazıçı, 2011.- 302 s.

dəgiz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli dövlət xadimləri də bəxş etmişdir.

Əsrlər keçdikdən sonra – XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın M.K.Atatürk, C.Vaşinqton, C.Nehru, Ş. de Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu".[116]

Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi ən mürəkkəb, ən ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergidir. Bütün bunların hamısı bir keyfiyyət altında birləşir: Heydər Əliyev Böyük Azərbaycanlıdır. Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi, XX yüzilliyin 90-cı illərində yenidən müstəqilliyə qovuşmuş dövlətçiliyimizin – Azərbaycan Respublikasının xilaskarıdır.[117]

Millət vəkili, professor Yaqub Mikayıl oğlu Mahmudovun (Mahmudlu) "Heydər Əliyev ideyalarının zəfər yürüşü" kitabı 2011-ci ildə "Təhsil" nəşriyyatı

[116] Mahmudov Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü.- Bakı: Təhsil, 2011.- S.335.
[117] Yenə orada - S.336.



tərəfindən çap olunmuşdur. Kitabda Heydər Əliyev şəxsiyyəti, onun zəngin irsinin və ideyalarının davamçısı olan Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti və bu siyasətin uğurları Azərbaycanın dövlətçilik tarixi fonunda araşdırılır. Əsərdə ulu öndərin doğma xalqına bəxş olunmuş ömür yoluna "Azərbaycanın dövlətçilik tarixindən", "Azərbaycan dövlətçiliyinin xilaskarı", "Ötən minilliklərin tarixinə Heydər Əliyev baxışı və ya tariximizin dirçəliş konsepsiyası", "Qurtuluş mübarizəsinin qalibi", "Yeni Azərbaycan Partiyasının banisi, Yeni Azərbaycanın qurucusu", "Ata yurdumuzun Atatürkü" adlanan ayrıca başlıqlar həsr olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi böyük quruculuq və abadlıq işləri, xalqımızın parlaq gələcəyinə istiqamətlənmiş islahatlar proqramı və milli təəssübkeşlik fəaliyyəti kitabın "Heydər Əliyev – zaman və məkan anlayışlarından ucada duran azərbaycanlı dahi" və "Heydər Əliyev ideyalarının zəfər yürüşü" bölmələrində tədqiq edilmişdir.

Kitab Heydər Əliyev irsini, onun inkişaf strategiyasını müasir mərhələdə uğurla davam etdirən Prezident İlham Əliyevin fəaliyyətini öyrənən tarixçilər, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Kitabın elmi redaktoru tarix elmləri doktoru, professor Əli Həsənovdur.

Siyasi elmlər doktoru, professor, millət vəkili Aqiyə Naxçıvanlının redaktorluğu ilə çap olunmuş "Heydər Əliyev: mənəviyyat, mənəvi dəyərlər və mənəvi tərbiyə" adlı kitab "Heydər Əliyev: təhsil, bilik, məktəb" (Bakı, 2006-cı il) adlı ilk sanballı kitabın nəşri ilə başlamış ümumi strateji planın növbəti mərhələsidir.

Elmi və pedaqoji ictimaiyyətin və habelə geniş oxucu kütləsinin diqqətinə təqdim olunan bu kitabda güclü intellektual və mənəvi potensiala malik nəslin formalaşdırılması, tərbiyə olunması ilə bağlı bir sıra ciddi ideyalar və dərin fikirlər irəli sürülür. Heydər Əliyevin 35 il ərzində müxtəlif qəzet və nəşrlərdə səpələnmiş ideyaları ilə diqqətli tanışlıq, bu barədə bəzi ümumiləşdirmələr aparılması diqqətəlayiqdir.[118]

Bu gün dahi liderin xatirəsinə onlarca sanballı kitablar həsr olunur, Heydər Əliyev irsi öyrənilir və təbliğ edilir, gələcək nəsillərə ötürülür.

Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni həyatında özünəməxsus yeri olan filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi, Prezident təqaüdçüsü, «Şöhrət» ordenli alim, pedaqoq, şair, publisist Həsən Mirzəyev (Həsən Mirzə) öz siyasi baxışları ilə də çoxlarına örnək olmuş və olmaqdadır. O, özünün çoxşaxəli fəaliyyətinin bütün sahələrində həmişə uzaqgörən və ar-

[118] Heydər Əliyev: Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə /tərt. Əmrəli İsmayılov; Red.A.Naxçıvanlı.- Bakı: Müəllim, 2008.- 637 s.



dıcıl siyasətçi, sədaqətli Heydər Əliyevçi olmuş və bunu əməli şəkildə sübut etmişdir. H.Mirzəyev "91-lər"in ağsaqqallarından biri kimi də ulu öndər Heydər Əliyev şəxsiyyətinin və ideyalarının yorulmaz təbliğatçısı və təşviqatçısı olmuşdur.

"Heydər Əliyev Azərbaycan Respublikasının memarı, xilaskarı və qurucusudur: Müqəddəslər ölmür" adlı kitabında H.Mirzəyevin ümummilli liderimiz Heydər Əliyevlə bağlı Milli Məclisdə, müxtəlif səpkili toplantı, konfrans, tədbir və məclislərdə, televiziya və radio kanallarında, şeirlərində olan fikirlər öz əksini tapmışdır. Bu çıxış və yazıların ən böyük dəyəri onların son vaxtlar yox, məhz zamanında – 1990-cı ildən başlayaraq (o çətin illərdə) səsləndirilməsində, yazılmasında və dərc olunmasındadır. H.Mirzəyev heç vaxt kənara çəkilib, danışmaq üçün fürsət, məqam gözləyənlərdən olmamış, həmişə sözünü vaxtında və yerində demişdir.

Onun ulu öndərimizlə şəxsi görüş və münasibətləri də Azərbaycanın siyasi tarixinin öyrənilməsi səhifələrindəndir.

Bu cilddə H.Mirzəyevin ulu öndər Heydər Əliyevin siyasi varisi və layiqli davamçısı cənab Prezident İlham Əliyevlə bağlı inam və qürur dolu çıxış və yazıları da geniş yer almışdır.[119]

[119] Mirzəyev H. Heydər Əliyev Azərbaycan Respublikasının memarı, xilaskarı və qurucusudur (Müqəddəslər ölmür).- Bakı: Elm, 2010.- C.14.- 756 s.

İradə Hüseynovanın "Heydər Əliyev və Qafqazda sülh prosesi" magistr hazırlığı üçün nəzərdə tutulmuş 2003-cü ildə "Təhsil" nəşriyyatı tərəfindən çap olunmuş proqramın nəşriyyat annotasiyasında deyilir: Proqram Qafqazda sülh prosesinin vacibliyini doğuran sosial-siyasi, iqtisadi və mədəni amillərin, "Ümumi Qafqaz Evi" ideyasının, Qafqazda sülh, əmin-amanlıq və təhlükəsizliyin, Qafqazın dünyanın inkişaf etmiş dövlətləri ilə inteqrasiyası kimi qlobal məsələlərin Ulu Öndər Heydər Əliyev ideyaları işığında kompleks şəkildə öyrənilməsinə həsr edilmişdir. Proqramda tarixşünaslıqda ilk dəfə olaraq Heydər Əliyevin "Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!" konsepsiyası əsasında Qafqaz dövlətlərinin və xalqlarının sülh, əmin-amanlıq və milli təhlükəsizliyi naminə apardığı ardıcıl mübarizənin, həyata keçirdiyi titanik fəaliyyətinin əsas istiqamətləri ümumiləşdirilir. Proqram ali təhsilin magistratura pilləsində təhsil alan tarixçilər, qafqazşünaslar, politoloqlar, diplomatlar üçün nəzərdə tutulur. Proqram Azərbaycan, rus və ingilis dillərində nəşr edilmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin nəşr etdiyi "Heydər Əliyev və mədəniyyət" (üç cilddə) kitabında Heydər Əliyevin 1969-2003-cü illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycanın mədəniyyət, incəsənət və ədəbiyyat xadimləri – yazıçı, şair, rəssam, heykəltəraş, memar, xanəndə, bəstəkar, aktyor və s. ilə çox-



saylı görüşləri, yubiley mərasimində sənət adamları ilə onların öz sənət dilində söhbətləri, ədəbi-mədəni irsimiz haqqında çıxış və nitqləri toplanmışdır. Bu zəngin materiallar bir tərəfdən Heydər Əliyevin ədəbi-mədəni mənəvi dəyərlərimizə sıx bağlı olmasını, ardıcıl nümayiş etdirirsə, ikinci tərəfdən dövlətimizin müstəqillik tarixini yaradan Heydər Əliyevin yüksək intellektə, dərin zəkaya, fenomenal bədii təfəkkürə və təxəyyülə, geniş dünyagörüşünə malik olduğunu sübut edir.

Kitab 2008-ci ildə "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzində çapdan çıxmışdır. Bu üç cilddə ulu öndərin mədəniyyətlə bağlı müraciətləri, çıxışları, müsahibələri, təbrikləri və s. məlumatlar toplanmışdır.

Görkəmli şəxsiyyətlərin həyatı seriyası ilə Viktor Andryanovun və Hüseynbala Mirələmovun "Heydər Əliyev" kitabı "Nurlan" nəşriyyatı tərəfindən 2008-ci ildə nəşr olunmuşdur.

Heydər Əliyev Sovet İttifaqı hökumətində ikinci şəxs və Sov.İKP MK Siyasi Bürosunun üzvü idi. Qərəzli və ədalətsiz istefadan sonra o, böyük siyasətə qayıtmağa və doğma Vətəni müstəqil Azərbaycana rəhbərlik edib, onu bəlalardan qurtarmağı bacardı. Yazıçılar Viktor Andryanov və Hüseynbala Mirələmov arxiv mənbələrində, Heydər Əliyevin yaxınlarının və doğmalarının, silahdaşlarının və yoldaşlarının xatirələrinə əsaslanıb, bu bö-

yük həyat və fəaliyyəti, bioqrafiyasının mühüm olmayan səhifələri haqqında dolğun və müfəssəl məlumat verirlər.

Yazıçı Hüseynbala Mirələmov araşdırmalarını davam etdirərək, kitabın rus dilində ikinci nəşrinin Azərbaycan dilinə tərcümə edilmiş bu nəşrinə bir sıra yeni, sənədli materiallar əlavə etməklə əsəri daha da zənginləşdirmiş və bu dahi şəxsiyyətin gerçək, bitkin obrazını oxuculara çatdırmağa çalışmışdır.

Kitabda Heydər Əliyevin ailə arxivindəki, Naxçıvandakı Heydər Əliyev Muzeyinin, Heydər Əliyevin şəxsi fotoqrafları R.Bağırovun, Y.Qrabilinin "Trud" qəzetinin və müəlliflərin arxivlərindəki fotoşəkillərdən istifadə olunmuşdur. [120]

Milli Elmlər Akademiyasının müxbir üzvü, kimya elmləri doktoru, professor Vaqif Abbasov "Liderlik fəlsəfəsi" kitabında liderlik haqqında olduqca maraqlı fikirlərini sistemli şəkildə oxuculara təqdim edir.

Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində ölkənin hərtərəfli inkişafına, tərəqqisinə nail olan, onu bütün dünyaya tanıdan, müstəqil Azərbaycanın qurucusu, dövlətçiliyimizin qarantı, ümummilli liderimiz Heydər Əliyev fenomeninin sosiologiya və politologiya elmində liderliyi müəyyənləşdirən 21 qanuna əsasən məharətlə

[120] Andryanov V. Huseynbala Mirələmov. Görkəmli şəxsiyyətlərin həyatı: Heydər Əliyev/ Viktor Andriyanov, Hüseynbala Mirələmov.- Bakı: Nurlan, 2008.- 562 s. (Azərbaycan dilində).



tədqiqi kitabın ana xəttini təşkil edir. Müəllif Heydər Əliyevin titanik fəaliyyətini tarixin prizmasından keçirərək onu dünyanın tanınmış siyasətçiləri, sərkərdələri və dahi şəxsiyyətləri ilə müqayisəli şəkildə təhlil və tədqiq edir.

Vaqif Abbasov Heydər Əliyevin siyasi kursunu ləyaqətlə davam etdirən İlham Əliyevin xalqın etimadını qazanaraq prezident seçilməsinin də qanunauyğunluq olduğunu elmi və məntiqi əsaslarla hərtərəfli təhlil etmişdir.[121]

"Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" kitabı 2011-ci ildə nəşr olunmuşdur.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, əməkdar incəsənət xadimi, filologiya elmləri doktoru, professor Timuçin Əfəndiyevin kitabı ulu öndər, ümummilli liderimiz Heydər Əliyevin çoxcəhətli mədəniyyət nəzəriyyəsinin təhlilinə həsr olunmuşdur. Müəllif tarixilik prinsipinə əsaslanaraq dünya şöhrətli siyasi xadimin mədəniyyət konsepsiyasını şərh etməyə çalışır. O, belə bir fikri metodoloji əsas kimi götürür ki, Heydər Əliyev istər çoxəsrlik zəngin ədəbiyyatımız, istərsə də qədim və bədii cəhətdən kamil mədəniyyət və incəsənətimizin ayrı-ayrı sahələrindən bəhs edərkən bütün

[121] Abbasov V.M. Liderlik fəlsəfəsi.- Bakı: Təhsil, 2004.- 204 s.

bunlara dövlətçilik nöqteyi-nəzərindən, azərbaycançılıq fəlsəfəsinin məxəzləri kimi yanaşmışdır.

Kitabda ulu öndərin milli-mənəvi xəzinəmiz olan adət və ənənələrimiz, dini inanclarımız, ədəbiyyatın, incəsənətin müxtəlif sahələri ilə bağlı söylədiyi fikirlər yer almışdır. Həmçinin Heydər Əliyevin sənət xadimləri ilə unudulmaz görüşləri, onlara göstərdiyi qayğısı, diqqəti tədqiqatda xüsusi qeyd olunur.

Kitab elmi-konseptual xarakterdə olduğundan tədqiqatçı-alimlər, ziyalılar, tələbələr, magistrlar və doktorantlar üçün nəzərdə tutulmuşdur.[122]

M.F.Axundov adına Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan vəsait - "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: (Çoxcildliyin I-IX cildlərinin köməkçi göstəricisi)."- Bakı, 2008.-334 səh. Heydər Əliyev irsini araşdıran oxucuların və mütəxəssislərin "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin I-IX cildlərindən istifadəsini asanlaşdırmaq məqsədilə tərtib olunmuşdur. Burada çoxcildliyin mətnində verilən bir sıra məfhumlar (şəxs adları və soyadlar, şəhər, ölkə, müxtəlif beynəlxalq təşkilatlar, şirkətlər və s.) əlifba sırası ilə qruplaşdırılaraq onlar haqqında ayrı-ayrı cildlərdə gedən materiallara istinadlar verilmişdir. Vəsait kitabxanaçılar, mütəxəssislər və tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

[122] Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, 2011.-260s.



Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 20 aprel 2007-ci il tarixdə imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncamında deyilir: "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr tarixli sərəncamlarına əsasən, son üç il ərzində ümumi sayı doqquz milyona yaxın ədəbiyyat nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir. Yeni nəşrlər kitabxana fondlarını və onlardan istifadə imkanlarını xeyli genişləndirməklə yanaşı, həmin kitabların yerləşdirilməsi baxımından çətinliklər yaratmışdır.

Bu nəşrlər sayəsində gənc nəslin latın qrafikası ilə çap olunmuş bədii və elmi ədəbiyyata ehtiyacının ödənilməsi istiqamətində mühüm işlər görülmüşdür. Lakin həmin kitabların satışının nəzərdə tutulmaması və kitab həvəskarlarının öz şəxsi kitabxanalarını latın qrafikasında nəfis şəkildə nəşr olunmuş ədəbiyyat nümunələri ilə zənginləşdirmək məqsədilə Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi təqdirəlayiq bir iş, ulu öndərin başladığı işin davamı kimi qiymətləndirilməlidir."

## HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN HAZIRLANMIŞ FUNDAMENTAL NƏŞRLƏR MÜSTƏQİL AZƏRBAYCANIN TƏRƏQQİSİNƏ XİDMƏT EDİR

*"Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır."*

***Mehriban Əliyeva***
***I Vitse-Prezident, Heydər Əliyev Fondunun prezidenti***

Heydər Əliyev Fondunun təntənəli açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev demişdir: "Fond Heydər Əliyev siyasi irisni öyrənərək, onu təhlil, tədqiq və təbliğ edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur... Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında fondun rolu böyük olacaqdır".

Akademik Ramiz Mehdiyev "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" məqaləsində yazır: "Bu günlərdə mən "Azərbaycan – İRS" jurnalının növbəti nömrəsi ilə tanış oldum. O, bütünlüklə Azərbaycan Prezidenti Heydər Əliyevə həsr



edilmiş xüsusi buraxılışdır. Ona heyran qaldığımı gizlətməyəcəyəm: Jurnal, həqiqətən də, çox gözəl tərtib olunub, Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif mərhələlərini əks etdirən nadir fotoşəkillər verilmişdir. Buradakı məqalələr də belə yüksək səviyyədədir. Zəngin faktiki material və gözəl ifadə tərzi bir-birini son dərəcə ahəngdar şəkildə tamamlayır. "Həyat dərsi" məqaləsi diqqətimi xüsusilə cəlb etdi. Jurnalın bu nömrəsi də elə həmin məqalə ilə açılır.

Həcmcə çox da böyük olmayan bu məqalədə bütün varlığını doğma xalqına xidmətə həsr edən müdrik siyasətçi və dövlət rəhbəri Heydər Əliyevin fəaliyyətinin geniş mənzərəsi dolğun və dəqiq ifadələrlə canlandırılır. Birinci xanım Mehriban Əliyeva yazır ki, onun həmyaşıdları Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Onun hər bir dərsi insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə, xarakterin gücünə inama parlaq nümunədir, insanın məğlubedilməzliyinə inam dərsidir. Müəllif yazır: "XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir mərhələsi var: 60-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişli-yoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb, uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qat-qat tutumlu əks etdirə bi-

lər. Heydər Əliyev – tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı. 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider.

Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətənin – Azərbaycanın taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı".

Məqalənin müəllifi ilə razılaşaq: Heydər Əliyevin Azərbaycan üçün varlığı "Tanrı payıdır".

Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll kimi Heydər Əliyev də hələ sağlığında canlı əfsanəyə çevrilmişdir.[123]

Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır.

Tarixin hər bir dönəmində ağır, məşəqqətli günlər yaşayan Azərbaycan xalqı da bu mənada fəxr edə bilər. Çünki dövlət quruculuğu, xalqın milli-mənəvi dəyərlərini gələcək nəsillərə yetişdirmək kimi ağır və taleyüklü missiya məhz ulu öndərimiz Heydər Əliyevin qismətinə düşdü. Hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin böyük hamisi olan ümummilli liderimiz müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlərin xalqın milli kimliyinin və özünəməxsusluğunun qorunmasını aktual məsələyə çevirdiyini hər zaman vurğulayırdı. Dahi şəxsiyyət Azərbaycanın min illərin sınağından çıxmış tarixinə, mədəniyyətinə, adət-ənənələrinə həddən artıq bağlı olmaqla yanaşı, onların olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəmirdi. Ulu öndərimiz Heydər Əliyev, bu mənada, həm də xalqın saf inanclarını, sağlam dəyərlərini bütün siyasi ideologiya və proseslərin fövqündə saxlayaraq qorumağı bacarmış lider kimi əbədiyaşarlıq zirvəsinə ucalmışdır.

Əlbəttə ki, böyük tarixi şəxsiyyətlərin ideya və fikirləri, bir qayda olaraq, konkret zaman və məkan çərçivəsinə sığmır. Bu mənada, ümummilli liderimiz Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi, onun milli və ümumbəşəri ideyalarının geniş təbliğ olunaraq praktik həyatda tətbiqi və gələcək nəsillərə çatdırılması qarşıda duran vacib məsələlərdən biri sayılır. Ulu öndərimiz Heydər Əliyevin adını daşıyan Fondun - Heydər Əliyev Fondunun yaranması da məhz bu zərurətdən irəli gəlmişdir.

[123] Dünyanı heyran qoyan insan /ideyanın müəllifi və buraxılışa məsul akademik Ramiz Mehdiyev - Bakı: Azərnəşr, 2004.- S.6-7. (376 s.)

Fond Heydər Əliyevin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.

Yarandığı gündən ulu öndər Heydər Əliyevin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan ali ideallarının ictimai şüurda möhkəmlənməsinə çalışan, millətin gələcəyi naminə strateji əhəmiyyətli layihələri uğurla həyata keçirən Heydər Əliyev Fondu qısa müddətdə milyonlarla insanın ümid, pənah yerinə çevrildi.

Fondun əsas məqsədləri görkəmli siyasi xadim Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək; Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək; elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək; respublikanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirməkdir.



2004-cü il mayın 10-dan fəaliyyətə başlayan Heydər Əliyev Fondu ulu öndərin həyat və fəaliyyət fəlsəfəsinin, onun elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği, gələcək nəsillərə çatdırılması yolunda üzərinə götürdüyü şərəfli missiyanın uğurla həyata keçirilməsi üçün səylə və ardıcıl şəkildə çalışır. Fondda ulu öndərin həyatını, zəngin fəaliyyətini əks etdirən elmi tədqiqatlar və axtarışlar, arxiv materialları əsasında yaradılan ekspozisiya nümayiş olunur. Heydər Əliyev Fondu ölkəmizə səfərə gələn xarici qonaqların ən çox üz tutduğu, ziyarət etmək arzusunda olduğu məkana çevrilmişdir. Fondun muzeyində toplanıb nümayiş etdirilən eksponatlar buraya qədəm qoyan hər kəsdə ulu öndərin zəngin ömür yolu, Vətənə, xalqımızın işıqlı gələcəyinə həsr edilmiş mənalı həyatı, 35 illik bir dövrü əhatə edən siyasi fəaliyyəti barədə dolğun əyani təsəvvür yaradır.

Fondun ziyarətçiləri arasında müxtəlif ölkələrin dövlət və hökumət başçıları, tanınmış siyasətçilər, elm, incəsənət, mədəniyyət, din xadimləri, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri vardır. Onlar fonddan aldıqları təəssürat barədə “Xatirə kitabı”na ürək sözlərini yazır, dünya şöhrətli siyasətçi, dövlət xadimi, fenomen şəxsiyyət haqqında öz fikir və düşüncələrini ifadə edirlər. Ölkəmizin yaradıcılıq təşkilatlarının, təhsil, elm, mədəniyyət, incəsənət müəssisələrinin nümayəndələri tez-

tez fonda gəlir, sərgi və eksponatlara baxır, ulu öndərin xatirəsinə öz böyük hörmət və ehtiramlarını ifadə edirlər. Bu ənənə xüsusilə ümummilli liderin xatirə günlərində daha geniş miqyas alır. Ötən 9 il ərzində bu ekspozisiya ilə bir çox dövlət başçıları, görkəmli dövlət, din, mədəniyyət xadimləri, tanınmış siyasətçilər və bir çox sahələrin nümayəndələri tanış olublar.

Heydər Əliyev Fondu respublikanın müxtəlif regionlarında, böyük şəhərlərdə, həmçinin Azərbaycanın xarici ölkələrdəki səfirliklərində Heydər Əliyev muzeyləri və mərkəzlərinin yaradılmasına dəstək olur. Bu muzeylər müvafiq eksponatlar, sənədlər, fotoşəkillər və digər əyani vəsaitlə təmin olunur. Onlar təkcə Heydər Əliyevin həyatı və fəaliyyəti barədə deyil, tariximizin böyük bir dövrü, Azərbaycanın müasir inkişafı haqqında dolğun və müfəssəl məlumat verir.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, I vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti milli-mənəvi və intellektual yüksəlişə xidmət edən idealların cəmiyyətdə daha da möhkəmlənməsinə yönəlmişdir. Azərbaycanın birinci xanımının istər milli-mənəvi irsin qorunması və dünya miqyasında təbliği, istər elm və təhsilin səviyyəsinin yüksəldilməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki-mənəvi sağlamlığının təminatı yönündə həyata keçirdiyi strateji layihələr onun fəal və-



təndaşlıq mövqeyində dayanmasının, yüksək mənəvi məsuliyyətinin təzahürüdür.

Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, nəcib və tərəqqipərvər təşəbbüslərinə görə 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə İSESCO-nun xoşməramlı səfiri adına layiq görülən, 2007-ci ildə isə “Qızıl ürək” beynəlxalq mükafatı, Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatı, “Əsrlərin xeyriyyəçiləri” Beynəlxalq Fondunun Yaqut Xaç ordeni, Fransanın Ali Dövlət Ordeni ilə təltif olunan Mehriban xanım Əliyeva üzərinə götürdüyü şərəfli missiyanı inamla davam etdirir.

Fondun təşkilatçılığı ilə keçirilən bütün beynəlxalq konfranslarda ümummilli lider Heydər Əliyevin Azərbaycan üçün gördüyü işlər geniş şəkildə tədbir iştirakçılarının diqqətinə çatdırılır. Mehriban xanım Əliyeva bildirir ki, arxada qalan illərin hər birinə müraciət edərək, biz müasir tariximizin hər bir səhifəsində dahi şəxsiyyət, böyük insan Heydər Əliyevin silinməz izini görürük. Bu gün qarşımızda duran əsas vəzifə Heydər Əliyev irsini öyrənmək və gələcək nəsillərə çatdırmaqdır.

2005-ci ildə Fondun birillik fəaliyyətini əks etdirən nəfis tərtibatlı kitab da nəşr edilmişdir. Burada fondun fəaliyyətə başladığı ilk bir il ərzində həyata keçirilən layihələrdən ətraflı bəhs edən bu kitab qurumun öhdəsinə götürdüyü missiyaya sadiqliyini, Heydər Əliyev

ideyalarına sədaqətini, Azərbaycan Prezidenti İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin bir daha əməli təzahürü olmaqla yanaşı, həm də fondun cəmiyyətdə və ölkəmizdən xaricdə getdikcə artan nüfuzunun ifadəsidir. Son iki ildə görülmüş bütün bu işlər, qazanılmış uğurlar, cari ilin əvvəlindən fəallığın daha da artması, ilk növbədə, fondun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xeyirxahlıq, humanizm, vətənsevərlik hisslərinə, milli düşüncəyə söykənən fəaliyyətinin, dünyanın tanınmış bir çox ictimai və mədəniyyət xadimləri tərəfindən də yüksək dəyərləndirilən intellektinin, təşəbbüskarlığının, nüfuzunun, təşkilatçılıq, idarəetmə bacarığının bəhrəsidir.

2005-ci ildə Heydər Əliyev Fondu müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndərimiz Heydər Əliyevə həsr olunmuş yeni il təqvimi nəşr etdirmişdir.

Nəfis tərtibatda hazırlanmış, üz cildində Fondun binasının şəkli verilmiş təqvim Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Yeni il təbriki ilə açılır.

Geniş formatda və yüksək poliqrafik səviyyədə çap olunmuş təqvimdə türk dünyasının parlaq şəxsiyyəti Heydər Əliyevin ömrünün müxtəlif illərində çəkilmiş fotoşəkilləri verilmişdir. Burada, eyni zamanda dahi şəxsiyyətin ayrı-ayrı tarixi günlər, bayramlar haqqında dəyərli sözləri, müdrik kəlamları, ibrətamiz fikirləri verilmişdir. Nəfis tərtibatlı bu nəşr təmənnasız olaraq dövlət qurumlarına və ictimai təşkilatlara, təhsil, səhiyyə, mədəniyyət obyektlərinə paylanmışdır.



2008-ci ildə Moskvada görkəmli dövlət xadimi və siyasi xadim, Azərbaycanın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin 85 illik yubileyi münasibətilə İTAR-TASS agentliyi və Heydər Əliyev Fondu tərəfindən “Heydər Əliyev: Qəlbimin bir hissəsi Rusiyadadır...” adlı fotoalbom nəşr olunmuşdur.

Əlamətdar haldır ki, RF Dövlət Dumasının sədri Boris Qrızlov bu fotoalbomun ilk nüsxəsini mayın 13-də Bakıya rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etmişdir.

Fotoalboma Heydər Əliyevin bioqrafiyasının müxtəlif dövrlərinə - təhsil illərinə, sovet dövründə Azərbaycanın rəhbəri vəzifəsində, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Moskvada işlədiyi illərə aid 400-dən çox nadir fotoşəkil daxildir.

Fotoalboma ön sözü Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və İTAR-TASS-ın baş direktoru Vitali İqnatenko yazmışlar.

Mehriban xanım yazır: “İndi Heydər Əliyev bizim yanımızda deyil, lakin bu, yalnız fiziki yoxluqdur. Onun

yeni həyat bəxş etdiyi Azərbaycan yaşayır və tərəqqi edir, onun davamçıları, o cümlədən Heydər Əliyev Fondu tərəfindən böyük inam və məhəbbətlə həyata keçirilən ölməz ideyaları yaşayır. Fondun yaradıldığı vaxtdan bəri ictimai həyatın öncül sahələrində həyata keçirdiyi çoxsaylı layihələr buna sübutdur. İTAR-TASS informasiya agentliyi ilə Heydər Əliyevi çoxdan yaranmış səmimi münasibətlər bağlayırdı. Buna görə də İTAR-TASS-ın belə bir fotoalbom buraxmaq təşəbbüsünü biz minnətdarlıqla qarşıladıq. Biz Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı nadir kadrlarla tanış olmaq imkanı təqdim edirik".

V.İqnatenko vurğulayır ki, zəmanəmizin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın yaşadığı dövr tarixə həmişəlik Heydər Əliyev epoxası kimi daxil olmuşdur. O, daha sonra yazır: "Heydər Əliyevin bütün həyatı Rusiya ilə bağlıdır. Bu, bizim üçün, rusiyalılar üçün çox əhəmiyyətlidir. Heydər Əliyev Rusiyanı sevirdi, Rusiya da ona qarşılıqlı sevgi ilə cavab verirdi. Buna görə onu həm də öz həmvətənimiz saymağa ixtiyarımız vardır".

2008-2009-cu illərdə Heydər Əliyev Fondu ikicildli "Heydər Əliyev. Müdrik fikirlər" kitabını Azərbaycan və ingilis dillərində nəşr edib. Kitabda ümummilli liderin müdrik kəlamları toplanmışdır.



Topluya daxil edilmiş deyimlər ulu öndərin 1993-2003-cü illərdə müxtəlif məsələlərə həsr olunmuş çıxışlarından, müsahibələrindən, məktublarından seçmələrdir.

2005-ci ildə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş, məlumatın həcmi və geniş əhatə dairəsi ilə fərqlənən "heydar-aliyev.org" adlı domen internet portalı yaradılmışdır. Portalda ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdəki nitqləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri öz əksini tapmışdır. Azərbaycan, ingilis və rus dillərində təqdim olunan bu portal işçi qrupu tərəfindən mütəmadi olaraq yeniləşdirilir.

Növbəti layihə "heydar-aliyev-foundation.org" domeni olan, yüksək zövqlə tərtib edilmiş Heydər Əliyev Fondunun internet səhifəsinin yaradılmasıdır. Zəngin internet səhifəsində fondun yaranma tarixi, fəaliyyəti, beynəlxalq əməkdaşlıq əlaqələri haqqında geniş materiallar yerləşdirilmişdir. Burada fondun mükafatları, fəxri qonaqlar, kitabxana, videoqalereya, fotoalbom bölmələri də maraqla oxunur.

Fondun başlıca məqsədi ümummilli liderimizin zəngin dövlətçilik irsinin öyrənilməsinə və təbliğinə xidmət edən irimiqyaslı proqramları himayə etmək, xalqın rifahının yüksəldilməsinə yönəlmiş faydalı təşəbbüsləri dəstəkləmək, elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə

və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışmaq, respublikamızın beynəlxalq aləmdə nüfuzunu artırmaq kimi mühüm vəzifələrdən ibarətdir.

Beləliklə, Heydər Əliyev Fondunun hərtərəfli fəaliyyətində bir daha Ümummilli lider Heydər Əliyevin ideyalarına sadiqlik görürük. Bütövlükdə, ulu öndərin ideyalarının reallaşdırılmasına xidmət edən Fond bu zəngin irsin qorunmasında və gələcək nəsillərə ötürülməsində əsas rol oynayır.



## KİTAB VƏ KİTAB NƏŞRİ HAQQINDA HEYDƏR ƏLİYEVİN MÜDRİK FİKİRLƏRİ

Kitab nəşri hər ölkənin, hər xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimdən biri sayıram.

Bu kitab "Süleyman Dəmirəl: İslamköydən Çankaya köşkünə qədər" adlanır. Bunu mən yaratmışam. Əziz dostum Süleyman Dəmirəlin 75 illik yubileyinə, doğum gününə həsr olunubdur. Türk dilində yazılıbdır, amma bu, Azərbaycanın, mənim yaratdığım əsərdir.



Azərbaycan, adları dünya ədəbiyyatı xəzinəsinə daxil olan Nizami, Xaqani, Tusi, Füzuli, Nəsimi, Natəvan, Vaqif, M.F.Axundov, Sabir, C.Məmmədquluzadə, M.S.Ordubadi, C.Cabbarlı, Üzeyir Hacıbəyov, S.Vurğun və bir çox başqa yazıçıların, şairlərin, bəstəkarların, alimlərin vətənidir. Gənclərimiz də korifeylərin yaradıcılığına, Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində yaradılan bütün mənəvi sərvətlərə yaxşı bələd olmalıdırlar.

XX əsrdə Azərbaycan mədəniyyəti, elmi, ədəbiyyatı, musiqisi, incəsənəti çox inkişaf edibdir. Bizim xalqımız çox istedadlı xalqdır və qədim dövrlərdən də elm, mədəniyyət, incəsənət, musiqi sahəsində böyük əsərlər yaratmışdır. Ancaq biz bu gün tam əsasla deyə bilərik ki, Azərbaycanın istedadlı şəxsləri, insanları XX əsrdə, ötən bütün əsrlərin nailiyyətlərindən istifadə edərək daha da böyük, dəyərli əsərlər yaratmış, incəsənət nümunələri meydana çıxarmış, tariximizi, elmimizi, mədəniyyətimizi zənginləşdirmişlər.



Şükürlər olsun, yurdumuza, respublikamıza, xalqımıza çoxlu şeirlər, mahnılar, çoxlu musiqi əsərləri həsr olunmuşdur. Onların hamısı gözəldir, hamısı sevindirir. Ən başlıcası isə yurdumuza, vətənimizə - Azərbaycana həsr olunmuş hər bir belə mahnı, hər bir belə musiqi insanlarımızda, məsələn, şəxsən məndə vətənpərvərlik hissi, iftixar, sevinc hissi doğurur ki, bizim Azərbaycanımız var, Azərbaycana həsr edilmiş belə mahnılar, şeirlər var və bu gün müstəqil, azad Azərbaycan var.

Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda dünya, bəşər qarşısında bunlarla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar.



Mən Tretyakov Qalereyasının 25 cildlik kitablar külliyyatından qədim rus rəngkarlığına dair birinci cildi lütfkarlıqla mənə hədiyyə etdiyinə görə, habelə Tretyakov Qalereyası əsərlərinin Bakıda sərgisinə görə Dövlət Tretyakov Qalereyasının direktor müavini Raisa Litvinovaya təşəkkürümü bildirirəm və hesab edirəm ki, bu sərgini əsl mənada böyük hadisə adlandırmaq olar.

Cəmiyyətimizin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

Əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profilli arxivlər və arxiv sənədləri, not yazıları, məktublar, elmi-tarixi yadigarlar və nadir nəşrlərə mədəniyyət sərvətləri statusu verilmişdir.



1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında fərman imzaladım. Fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o, "Kitabi-Dədə Qorqud" dastanının ən azı 1300 il yaşı olduğunu dünyaya nümayiş etdirdi. Bu fərmanla biz bildirdik ki, "Kitabi-Dədə Qorqud" dastanı bütün türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir. Fərmana əsasən yaradılmış Dövlət Komissiyası yubileyin yüksək səviyyədə keçirilməsi üçün geniş tədbirlər planı hazırladı. Həmin fərman verilən gündən keçən müddət ərzində planda nəzərdə tutulmuş bir çox işlər uğurla həyata keçirilmiş, sanballı kitablar çap olunmuşdur. Fərman bir çox gələcək illər, onillər üçün böyük perspektiv açmışdır. Bu tədbirlər, nəşrlər içərisində ən önəmlisinin "Dədə Qorqud" ensiklopediyası olduğunu desəm, zənnimcə, yanılmaram.

Haçadağı, Naxçıvanın başqa yerlərini çəkirdim. Mömünə Xatun türbəsini bir neçə variantda çəkmişəm. Çox təəssüf edirəm, mən Bakıya, oradan Leninqrada, Moskvaya gedəndən sonra buradakı kitablarım, çəkdiyim şəkillər hamısı dağıldı. Təəssüf edirəm. Akvarellə çəkdiyim çox gözəl şəkillərim vardı.



Hörmətli Tur Heyerdal, tədqiqatlarınızı, Azərbaycanın qədim maddi mədəniyyət abidələrinin, Azərbaycan-Norveç tarixi əlaqələrinin araşdırılması və təbliği ilə bağlı fəaliyyətinizi yüksək qiymətləndirirəm.

Təbiidir, dünyanın böyük alimi kimi, böyük səyyahı kimi, siz birinci növbədə öz xalqınızın əcdadlarının haradan gəlməsini arayırsınız və axtarışlar apararaq gəlib bunun izlərini Azərbaycanda tapmısınız. Təbiidir ki, sizin axtarışlarınız, elmi tədqiqatlarınız, arxeoloji tədbirləriniz Azərbaycan alimləri ilə müştərək olmalıdır və elmi axtarışların nəticələri də bir-birinə uyğun olmalıdır.

Azərbaycan xalqının tarixinin, etnik yaddaşının, arxaik təfəkkürünün güzgüsü olan "Kitabi-Dədə Qorqud" nitqimizin, dilimizin, mənəviyyatımızın, ruhumuzun nəğməsi kimi də böyük mədəni-estetik əhəmiyyət kəsb edir. Kitab elə bir qüdrətə malikdir ki, özündən sonra gələn söz sənətimiz, ozan-aşıq sənətimiz, yazılı ədəbiyyatımız onun təsirindən kənarda qala bilməmişdir.

Qırğızların "Manas" eposunun minilliyinin, özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyinin, Şərqin görkəmli mütəfəkkiri, Azərbaycan şairi Füzulinin 500 illiyinin, böyük qazax şairi Abayın 150 illiyinin bayram edilməsi xalqlarımızın mədəni həyatında mühüm hadisələrə çevrilmişdir.



"Kitabi-Dədə Qorqud" nitqimizin, dilimizin, mənəviyyatımızın, ruhumuzun nəğməsi kimi də böyük mədəni-estetik əhəmiyyət kəsb edir.

"Kitabi-Dədə Qorqud" dastanı kimi böyük elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər.

"Kitabi-Dədə Qorqud" milli varlığımızın mötəbər qaynağıdır.

Müstəqilliyin qarşımızda qoyduğu vəzifələr çoxdur. Biz hüquqi, demokratik dövlət quruculuğu yolu ilə inamla addımlayaraq siyasi islahatları həyata keçiririk, iqtisadiyyatı inkişaf etdiririk, dövlətimizi möhkəmləndiririk. Bununla yanaşı, son illərdə müstəqilliyin imkanlarından istifadə edərək tariximizi təhlil etmək, ədəbiyyatımızı, mədəniyyətimizi yenidən dərk etmək və dünyaya nümayiş etdirmək sahəsində çox işlər görülmüşdür. Sözsüz ki, bu istiqamətdə bundan belə də qarşımızda duran mühüm problemlər çoxdur və ümidvaram ki, biz onları həll edə biləcəyik. Bu genişmiqyaslı planların mərhələ-mərhələ gerçəkləşdirilməsi Azərbaycanın müstəqil dövlət kimi dünyada daha yaxşı tanınmasına kömək edəcəkdir. Əlbəttə ki, "Kitabi-Dədə Qorqud" ensiklopediyasının nəşri də həmin ali məqsədə xidmət edən bir amil olacaqdır.



Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir. Böyüyə hörmət, ata-anaya məhəbbət, iman və etiqad, namus və qeyrət, ailəyə, torpağa, vətənə sədaqət – bu insani keyfiyyətlər, mənəvi məziyyətlər Qorqud övladlarının qanına ana südü ilə ata nəfəsi ilə birlikdə daxil olur və son mənzilə qədər də onlarla birlikdə gedir. Dədə Qorqud dünyasındakı milli dəyərlər, stereotiplər, rituallar sistemi əslində hər bir azərbaycanlının varlığının ayrılmaz hissəsidir. Müasir dövrdə azərbaycanlıların mentalitetində milli və ümumbəşəri dəyərlərin yerinin müəyyənləşdirilməsi də Dədə Qorqudun etik prinsiplərindən çıxış etməklə gerçəkləşir.

Mən orta məktəbdə oxuyarkən "Ədəbiyyat müntəxəbatı" kitabında Vaqif haqqında bir-iki səhifə məlumat və şeirləri var idi. Biz orta məktəbdə oxuyarkən Vaqifin "Bayram oldu, heç bilmirəm neyləyim" şeirini öyrənmişdik. Mənim orta məktəbdən yadımda qalan odur.

Biz bu gün Vaqifin şəkillərini, heykəlini görü-rük. Amma həqiqətdə Vaqifin fotoşəkli olmayıbdır. Vaqifin şəklini də Səməd Vurğun və Vaqif rolunu oynayan böyük sənətkarımız, aktyorumuz Ələsgər Ələkbərov və Azərbaycan Dövlət Dram Teatrı yaratmışdır.



"Kitabi-Dədə Qorqud" dastanı bütün türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir.

Bizim ədəbiyyatımız, musiqimiz, tarixi köklərimizi sübut edən əsərlərimiz – bunların hamısı təbiidir ki, çox böyük əhəmiyyətə malikdir.

Qədim və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizasiyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsilə Qobustan və Gəmiqaya təsvirləri, həmçinin epiqrafik abidələr şəklində daşların yaddaşına həkk olunaraq günümüzədək yaşamışdır.



Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" kimi dahiyanə məktəb yaradıbdır və bizə böyük mənəvi irs qoyub gedibdir. Mirzə Cəlilin bu xidmətləri bizim üçün, dediyim kimi, bu gün də çox qiymətlidir. Biz bundan çox güclü istifadə etməliyik. Çünki hələ "Anamın kitabı"nda yazılan, təsvir olunan meyillər bu gün də cəmiyyətimizdə özünü büruzə verir.

"Molla Nəsrəddin" jurnalının faksimilesi on iki cilddən ibarətdir.

Təəssüf ki, on il bundan öncə onun cəmi bir cildi buraxılıbdır, indiyə qədər qalanları çap edilməyibdir. Etiraf etmək lazımdır ki, 10 il bundan qabaq bunun hamısını bir ildə buraxmaq olardı. Beş il bundan qabaq da bunu buraxmaq asan olardı. Amma indi bunlar çətinləşibdir. Buna baxmayaraq, biz buna əməl etməliyik və geniş yaymalıyıq ki, xalqımız Mirzə Cəlil dühasından bəhrələnərək mənəviyyatca daha da saf olsun, mənəvi dəyərlərimiz daha da möhkəmlənsin.



"Kitabi-Dədə Qorqud" ensiklopediyasının yaranma ideyası da Anara məxsusdur.

Məhz "Kitabi-Dədə Qorqud"un təbliği baxımından Anarın xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Bəlkə də, Anar uşaqlar üçün Dədə Qorqud haqqında kitab yazanda, yaxud Qorqudla bağlı başqa kitablarını yazanda çoxları bunun nə qədər əhəmiyyətli olduğunu o dərəcədə dərk edə bilmirdilər. Amma indi biz artıq öz milli dəyərlərimizi, köklərimizi, tariximizi olduğu kimi təsvir etməyə çalışarkən vaxtilə atılmış belə addımların nə qədər qiymətli olduğunu dərk edirik.

Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam. Bəlkə də bu əsərlərin bəzilərini ondan sonra oxumamışam, ancaq o illərdə - o uşaqlıq, gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam.



Füzulinin bizə məlum olan portreti 1930-cu illərdə çəkilmişdi. Mən yenə də orta məktəb dövrünü yada salıram. O vaxt rəsmlə çox məşğul olurdum. Mən 1938-ci ildə Füzulinin həmin portretinə baxıb, onu boya ilə çəkmişəm.

Nizaminin portretini 1947-ci ildə Qəzənfər Xalıqov yaradıbdır, heykəlini də Fuad Əbdürrəhmanov yaradıbdır. Nəsiminin portretini Mikayıl Abdullayev, heykəlini isə Tokay Məmmədovla İbrahim Zeynalov yaradıbdır. Yəni bunlar hamısı gözümüzün qabağında olmuş işlərdir.

Əgər şair Azərbaycanı vəsf edirsə və Azərbaycanın nə qədər gözəl, nə qədər qüdrətli, nə qədər iftixar hissi doğuran bir ölkə olduğunu öz şeirində göstərirsə, demək, bu, hər bir azərbaycanlıda öz Azərbaycanına, vətəninə, torpağına məhəbbət hissi yaradır... İndi yaşa dolmuş və 60-70-ci illərdə gənc olan yazıçılarımız və şairlərimiz də bu sahədə çox böyük xidmətlər göstərmişlər.

Bu gün məmnuniyyət hissi ilə deyirəm – “Qobustan” jurnalı o vaxt çox böyük işlər gördü.



Poeziyada və dramaturgiyada bənzərsiz sənət nümunələri olan əsərlər yaradan Hüseyn Cavid bir şəxsiyyət, mütəfəkkir və sənətkar kimi, ibrətli həyat və yaradıcılıq yolu keçmişdir. Böyük şair Hüseyn Cavidin əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuşdur.

Sultan Məhəmmədin əsərləri, onun miniatür sənəti 500 il bundan öncə bizim Azərbaycanın bu sənət sahəsindəki nailiyyətlərini göstərir. Sultan Məhəmməd bunun əsasını qoyubdur. Amma ondan sonra da İranda və Azərbaycanda o üslubda çox gözəl əsərlər yaranıbdır. Çox gözəl əsərlər... Məsələn, indi bizim müxtəlif təşkilatlar jurnallar, kitablar nəşr edirlər. Onların içərisində miniatür əsərlərin fotosuratlərini dərc edəndə, o kitablar, jurnallar daha da çox dəyər kəsb edir. Çünki o əsərlər çox orijinaldır. Miniatür sənəti çox orijinal sənətdir.



Mən çox məmnunam ki, bu gün Azərbaycanda yazıçılarımızın, şairlərimizin və ictimai-siyasi xadimlərimizin kitablarının miniatür nəşri, şübhəsiz ki, bu mədəniyyətimiz kitab nəşrimiz üçün çox əlamətdar hadisə, böyük nailiyyətdir.

Biliræm ki, yazılanlar və yazmaq istəyənlər çoxdur. Bu adamlar – alimlər, yazıçılar, mədəniyyət xadimləri yazdıqlarının bir çoxunu çap etdirə bilmirlər. Bu çətinliyi hamımız dərk etməliyik. Ancaq bununla kifayətlənmək olmaz. Hər bir çətinlikdən çıxış yolu tapmalıyıq, özü də bu yolu birlikdə axtarmalıyıq. Dövlət də bütün imkanlardan istifadə edəcəkdir. Ancaq ayrı-ayrı cəmiyyətlər, təşkilatlar, iş adamlarımız da bu işə qoşulmalıdır. Arzu edirəm ki, bu tövsiyənin əməli nəticələri olsun.



Biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Həqiqətən də, "Kitabi-Dədə Qorqud" dastanı kimi böyük elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər.

Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır və kitabxananın böyük xəzinəsində öz yerini tutarlar. Zənnimcə, bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan adamlar kitabxanamızı zənginləşdirmək üçün, yəqin ki, ona kitab bağışlayacaqlar. Bilirəm, bizim bu kitabxananın çox böyük fondu var. Kitabxananın direktoru bu barədə məlumat verdi.



Kitabxana elə bir yerdir ki, gərək, daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır, bunlar insanlara yeni biliklər, yeni məlumat gətirir. Ona görə də bizim bu mərkəzi kitabxanamız daim yeni-yeni nəşrlərlə təmin olunsun. Vaxtı ilə biz bunu planlı şəkildə edirdik. Dövlət planı var idi, heç kəsi narahat etmədən bu kitabxananı yaradıb inkişaf etdirmişdik və indi də fəaliyyət göstərir. Ancaq gərək indi buraya hər kəs öz payını versin. Azərbaycanın bütün ictimaiyyətini bu xeyirxah işə dəvət edirəm.

Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bu kitabı da (Qurani-Kərimi) bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim. Səfər zamanı biz İslam aləminin müqəddəs yerlərini ziyarət etdik və bundan çox məmnun olduq. Orada – İslam dininin mərkəzi Məkkədə mənə Quranın nüsxələrini bağışlamışlar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət Kitabxanasına verirəm.



Məhəmməd Füzuli öz yaradıcılığı ilə, öz əsərləri ilə indiyədək yaşamış, indi də yaşayan və bizim hamımıza ilham verən, mənəvi qida və ruh verən əsərləri ilə sonrakı nəsillərin şair, yazıçı, bəstəkar, rəssam və heykəltəraşların yaradıcılığı üçün gözəl mövzular, ideyalar vermiş, onlara ilham vermiş, onların öz sənətlərinin yüksək zirvələrinə qalxmasına kömək etmişdir.

Bu gün Azərbaycanda yaşayan qaçqınların və məcburi köçkünlərin həyatını əks etdirən fotoşəkillərdən ibarət kitabın yaranması və təqdim olunması təqdirəlayiq, əlamətdar bir hadisədir.



Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da – intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız – ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var. Bunu yaradanlar bizim xalqın insanlarıdır. Onlar bəşər mədəniyyətini əsrlərdən-əsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar.

"Kitabi-Dədə Qorqud" eposunun Almaniyanın Drezden şəhərinin Kral Kitabxanasında saxlanılan əlyazmasının Azərbaycan Respublikası Prezidentinə bağışlanmış faksimilesi Azərbaycan Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna verilsin.



Tərcümə məsələsi bizim üçün həmişə çox vacib məsələ olubdur. Yəqin ki, bəziləri xatırlayırlar, 70-ci illərdə şəxsən mənim üçün bu, mühüm bir problem kimi qarşımda durmuşdu. O vaxt biz tərcümə mərkəzi yaratmaq barədə qərar qəbul etdik. Ancaq o vaxtlar biz tərcümə deyəndə əsərlərimizin rus dilinə tərcüməsi və rus dilindən əsərlərin Azərbaycan dilinə tərcüməsi nəzərdə tutulurdu. Onda başqa tərcümə haqqında söhbət getmirdi.

Nizaminin məqbərəsini qorumaq bizim müqəddəs vəzifəmizdir. Siz də bunu etməlisiniz, biz də etməliyik. Gərək elə olsun ki, indiki nəsil də, gələcək nəsil də vaxtilə buraxılmış səhvləri buraxmasınlar.

Nizami Gəncəvinin 800 illiyi 1948-ci ildə keçirilmişdir. 1981-ci ildə biz Nizaminin ədəbi irsinin öyrənilməsi haqqında böyük bir qərar qəbul etdik. Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tutdular ki, 840 il yuvarlaq tarix deyildir. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər.



Mən qürur hissi keçirirəm ki, Nizaminin yolunda az iş görməmişəm. Onun xatirəsini əbədiləşdirmək, irsinin daha da təbliğ olunması, yayılması üçün, kitablarının nəşri üçün çox iş görmüşəm.

Bu axşam biz burada birlikdə Zərifə xanım haqqında olan kitab-albomun təqdimat mərasimini, eyni zamanda bir xatirə gecəsini yaşadıq.

Bugünkü mərasim məni və ailə üzvlərimi bir daha on dörd il bundan öncə olan günlərə, aylara qaytardı. Nə qədər çox il keçsə də, bizim ailəmiz bu itkinin ağrısını-acısını həmişə hiss edir. Hesab edirəm ki, nəinki biz, mənim nəvələrim də, onların davamçıları da bu hisslərlə yaşayacaq və bizim hamımız üçün əziz, unudulmaz Zərifə xanım həmişə qəlbimizdə yaşayacaqdır.

Zərifə xanımın haqqındakı kitab onun şəxsiyyətinə, həyat yoluna, insani keyfiyyətlərinə, mənəviyyatına layiq bir kitabdır. Bu kitabı hazırlayanlara, çapdan çıxaranlara təşəkkür edirəm.



"Azərbaycan internəşnl" jurnalının fəaliyyəti xüsusi qiymətə layiqdir. Çox qətiyyətlə demək olar və bunu etiraf etməliyik ki, indiyə qədər xarici ölkələrdə dərc olunan, nəşr edilən cürbəcür nümunələr – kitablar, jurnallar içərisində "Azərbaycan internəşnl" jurnalı qədər Azərbaycan haqqında dolğun, düzgün və çox parlaq, gözəl, cazibədar məlumat yayan jurnalımız, toplumuz olmayıbdır.

"Azərbaycan internəşnl" bütün parametrlərinə, xüsusiyyətlərinə görə dünyada, ən inkişaf etmiş ölkələrdə nəşr edilən yüksək səviyyəli jurnallarla rəqabət apara bilən bir jurnaldır.

Bu jurnal həm Üzeyir Hacıbəyovu, Rəşid Behbudovu, Niyazini, həm bizim böyük şairlərimizi, rəssamlarımızı təbliğ edir, həm də bu gün meydana gələn gənc istedadlarımızı təbliğ edir. Bu, nə qədər gözəl təşəbbüsdür, işdir!

Mənim bu jurnal haqqında o qədər böyük təəssüratım var ki, bütün bunlar barədə çox danışmaq olar. Ən mühüm cəhət bir də ondan ibarətdir ki, bu jurnal artıq 47 ölkədə yayılır, 7 min nüsxə tirajla nəşr olunur. Deməк, bu jurnal 47 ölkədə, özü də yüksək dövlət dairələrində, ictimai təşkilatlarda, böyük biznes, maliyyə mərkəzlərində yayılır. Bu, çox əhəmiyyətlidir.



Biz yeni əlifbaya – latın əlifbasına keçmişik. Mən hiss edirəm ki, latın əlifbasının tətbiqi çox ləng gedir. Hesab edirəm ki, bu işləri də sürətləndirmək lazımdır.

Repressiyaya məruz qalmış böyük tarixi, mənəvi dəyərlərimizdən, əsərlərimizdən biri də "Kitabi-Dədə Qorqud" dastanı olmuşdur.

Böyük Atatürkün yaratdığı və bugünkü nəslə, gələcək nəslə qoyduğu irs elə böyük xəzinədir ki, bu araşdırmalar hələ yüz il bundan sonra da getsə, onun hamısını elm, kitab vasitəsilə, başqa yollarla meydana çıxarmaq mümkün olmayacaqdır. Ona görə də mən fərman vermişəm və Azərbaycanda Atatürk irsinin və türk xalqlarının tarixinin araşdırılması üçün yeni bir mərkəz yaratmışam. Bu mərkəzin Fəxri Prezidenti Azərbaycan Prezidentidir.



O vaxt yubiley günlərində biz "Dədə Qorqud" eposunun, Azərbaycan dilində yazılmış eposun Drezden kitabxanasında saxlanılan nüsxəsinin surətini almaq istəyirdik. O indi gəlib çatıbdır. Mən onu sizə təqdim etmək istəyirəm. Hesab edirəm ki, Azərbaycanın bu günü və gələcəyi üçün ən böyük nailiyyətlərdən biridir ki, biz "Dədə Qorqud"u repressiyadan xilas etdik, xalqımıza qaytardıq. Nəhayət, onun əlyazmasının, indiyə qədər Drezden kitabxanasında qorunub-saxlanılan əlyazmasının surətini biz Azərbaycana gətirmişik. Mən bunu Əlyazmalar İnstitutuna təqdim edirəm.

Mətbuat ana dili, ədəbi dil uğrunda mübarizənin önündə gedirdi. Ədəbi dil normasının müəyyənləşməsində bütün görkəmli ziyalılar iştirak edirdilər. Xalq dili xəzinəsinin qapıları "Molla Nəsrəddin" vasitəsilə ədəbi dilin üzünə açılırdı. Bu dövrdə yaranan səhnə sənəti də yeni milli-mədəni şəraitdə ədəbi dilə bədii nitq vasitəsilə öz töhfəsini vermişdir.



Ana dilinin taleyinə heç bir ziyalının laqeyd qalmadığı bu dövrdə Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov, Ömər Faiq Nemanzadə kimi görkəmli söz ustaları Azərbaycan dilinin saflığı və onun yad ünsürlərdən qorunması uğrunda fədakarcasına mübarizə aparırdılar..

Dram, satira, realist nəsr dilinin yarandığı XIX əsrdə elmi üslubun əsası kimi müasir elmi-fəlsəfi dilin ilk nümunələrinə də rast gəlirik. Mətbuat dili də bu əsrin məhsuludur. "Əkinçi"dən başlayaraq yaranmış milli mətbuat bu dilin inkişafında mühüm rol oynamışdır.



Ərəb əlifbasını daha uyğun bir əlifba ilə əvəz etmək məqsədi ilə 1922-ci ildə əlifba Komitəsi yaradıldı və həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtib etmək tapşırıldı. Bir qədər sonra isə yeni əlifbaya keçildi. 1926-cı ildə Bakıda birinci beynəlxalq türkoloji qurultay çağırıldı. Bu, türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi. Qurultayın Bakıda keçirilməsini 20-30-cu illər Azərbaycanının dilçilik sahəsindəki elmi potensialına verilən qiymət kimi səciyyələndirmək olar.

1922-ci ildə Azərbaycan hökumətinin qərarı əsasında yeni əlifba komitəsinin yaradılması, həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtibinin tapşırılması yeni qrafikaya keçirilməsi yolunda atılmış ilk ciddi addım idi. 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-ci ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayın tövsiyələrinə cavab olaraq 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi.



Qısa bir müddət ərzində latın qrafikasının işlədilməsi Azərbaycanda geniş kütlələr arasında savadsızlığın ləğvi üçün olduqca əlverişli zəmin yaratdı. Bütün bu nailiyyətlərə baxmayaraq həmin əlifba 1940-cı il yanvarın 1-dən kiril yazısı əsasında tərtib edilmiş yeni qrafikalı əlifba ilə əvəz olundu.

Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyi, Təhsil Nazirliyi və Elmlər Akademiyası ilə birlikdə "Azərbaycanın dövlət rəmzləri" adlı məlumat kitabının hazırlanıb çap olunmasını, dərslik, plakat, təqvim və digər çap məmulatlarmda dövlət atributlarının təbliğ olunmasını təmin etsin.



Azərbaycan dilinin istifadə dairəsi də genişlənmiş, onun tətbiqinin və inkişafının elmi əsaslar üzərində aparılması ehtiyacı meydana çıxmışdır. Rusca-azərbaycanca və azərbaycanca-rusca lüğətlər, təcrübi-tədris kitabları nəşr olunmuşdur. Məhz bu dövrdən başlayaraq, Azərbaycan ədəbi dilinin normalarının müəyyənləşməsində nəzəri-dilçilik ideyaları təzahür edir. Bu baxımdan Mirzə Fətəli Axundovun ədəbi dil haqqında milli ədəbiyyatın realist məzmununa uyğun gələn tezisləri xüsusilə diqqəti cəlb edir.

Təkcə adına görə yox, həm böyük, həm orta, həm də kiçik alim vardır. Alim olmaq üçün birincisi, gərək fitri istedada malik olasan. İkincisi, gərək fitri istedadından istifadə edib, seçdiyin sənəti sevəsən və həmin elm sahəsini mənimsəmək üçün fədakarlıq göstərəsən. Üçüncüsü, gərək sən öz üzərində daim işləyəsən və bunların nəticəsində də böyük alim, müəllim ola bilərsən.



Vladimir Vladimiroviç, 1949-cu ildə Leninqradda, Peterburqda xüsusi məktəbi bitirdiyim haqqında şəhadətnaməni mənə təqdim etməklə siz məni çox təsirləndirdiniz. Mən Leninqradda bu məktəbi bitirəndə siz hələ dünyaya gəlməmişdiniz. Leninqradda təhsil aldığım dövrdə çox şey öyrəndim. Həm də bu təhsil ocağını tamamilə bitirmək üçün, görünür, icbari olan həmin fənlər çərçivəsində deyil, eləcə də başqa fənlər çərçivəsində çox şey öyrəndim. Mən çox şeyə nail oldum və bu, gələcək fəaliyyətimdə, mədəniyyətdə, elmdə, təhsildə mənə çox kömək etdi.

Borc o demək deyildir ki, vətənpərvərlik tələb edirsən, o da vətənpərvər olur. Yox. Mən bunu deyərkən bildirmək istəyirəm ki, bütün təhsil ocaqlarında, gənclərlə məşğul olan bütün təşkilatlarda vətənpərvərlik hissinin aşılanması, vətənpərvərlik hissinin hər bir gəncin qəlbində olması üçün lazımi tədbirlər görmək lazımdır.

Hər bir gənc əsaslı təhsil almalıdır. Hər bir gənc müasir həyatın tələblərini mənimsəməlidir. Hər bir gənc müasir həyatda iqtisadiyyat, siyasət sahələrində, sosial sahədə bütün yenilikləri, dünyada gedən prosesləri bilməlidir.



XX yüzillik isə Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrüdür. Ədəbi dil məsələsi hələ əsrin əvvəlindən ictimai-siyasi mübarizənin tərkib hissəsi olmuşdur. Həmin dövrdə ana dili kitabları hazırlanmış, dərsliklər buraxılmış, müntəxəbatlar tərtib olunmuşdur. Azərbaycan dilinin səs quruluşuna və qrammatik sisteminə dair kitablar yazılmışdır.

Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur.



Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur.

Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır... Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır.



Azərbaycanda yaşayan qaçqınların və məcburi köçkünlərin həyatını əks etdirən fotoşəkillərdən ibarət bu kitab qaçqınların vəziyyətini bu qədər geniş əks etdirən ilk kitabdır. Ancaq, mən hesab edirəm ki, Azərbaycanda yaşayan qaçqınların, məcburi köçkünlərin, çadırlarda ağır şəraitdə yaşayan insanların vəziyyətini əks etdirmək üçün bir neçə belə kitab lazımdır. Bu məsələ heç vaxt bir kitaba sığmaz.

Bəzən bütün alimlərimizin, şəxsiyyətlərimizin arxivləri dövlət əhəmiyyəti kəsb edən sərvətdir.

Hesab edirəm ki, Nazirlər Kabineti Prezidentin İcra Aparatı ilə bərabər kitablarm yaranmasının proqramını hazırlamalıdır, tərtib etməlidir. Bu proqramın əsasında bir çox seriya belə kitablar yaranmalıdır.



Əlyazmalar Fondu, əsrlərdən bəri qalmış o kitablar bizim üçün böyük sərvətdir.

Zəngin tariximizi əks etdirən çox əsərlər var, kitablar var, maddi əşyalar var. Ancaq bunların hamısının içərisində bizim milli mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi əks etdirən əsərlər hamısından qiymətlidir və bu gün üçün, gələcək üçün hamısından da gərəklidir.

Miniatür rəssamlıq sənəti bütün dünyada tanınmış və çox yüksək qiymətləndirilən rəssamlıq məktəbi və üslubudur.



Şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur.

Mən bu gün iftixar hissi ilə deyə bilərəm: 1969-cu ildən Azərbaycan rəhbəri olduğum zamandan indiyə qədər bir şairin, bir yazıçının əsərinin qarşısı alınmayıbdır.



Elmimizlə, mədəniyyətimizlə, mənəviyyatımızla çox ehtiyatlı, çox diqqətli davranmaq lazımdır. Bu işləri bazar iqtisadiyyatının ixtiyarına vermək olmaz!

Əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqcalar, mədəniyyət və tarix profilli arxivlər və arxiv sənədləri, not yazıları, məktublar, elmi-tarixi yadigarlar və nadir nəşrlərə mədəniyyət sərvətləri statusu verilmişdir.



Müvafiq icra hakimiyyəti orqanları xaricdə yaşayan azərbaycanlılarla mədəni əlaqələr yaradır və inkişaf etdirir, o cümlədən onların mədəniyyət və informasiya mərkəzlərinin, fondlarının, təsisatlarının məqsədyönlü fəaliyyətinə köməklik göstərir, bu qurumların Azərbaycan Respublikasında nəşr olunan kitabları əldə etmələri, qəzet və jurnallara abunəçi olmaları üçün şərait yaradılır.

Mən çox məmnunam ki, bu gün Azərbaycanda yazıçılarımızın, şairlərimizin və ictimai-siyasi xadimlərimizin kitablarının miniatür nəşri, şübhəsiz ki, bu mədəniyyətimiz kitab nəşrimiz üçün çox əlamətdar hadisə, böyük nailiyyətdir. Bununla əlaqədar, mən sərginin təşkilatçılarını, Azərbaycan Respublikasının "Kitab" Cəmiyyətini, buraya toplaşanları təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, bu iş, təşəbbüs gələcəkdə də davam etdiriləcəkdir. Burada mənim Azərbaycan Prezidenti vəzifəsinə başlayarkən andiçmə mərasimimdə söylədiyim nitqin də miniatür nəşri nümayiş etdirilir. Bu gün həmin kitabı mənə təqdim etdilər. Mən bundan çox məmnunam.



Doğrudur, indiki ağır sosial-iqtisadi böhran dövründə, respublikamızın iqtisadiyyatında yaranmış çətinliklərlə əlaqədar və başqa ölkələrlə əlaqələrimizin məhdudlaşdığı bir vaxtda nəşriyyat işi çox çətinliklərlə qarşılaşır. Bu, təbiidir. Ancaq biz bu çətinliklərin qarşısını almalıyıq, bunun üçün yeni-yeni yollar axtarmalıyıq.

Nizaminin xatirəsinə mənim bir xidmətim də olubdur. İndi burada fürsətdən istifadə edib onu da demək istəyirəm. Nizami Gəncəvinin əsərlərinin bir qismini 1948-ci ildə onun 800 illik yubileyi keçiriləndə rus dilinə tərcümə etmişdilər. Biz onun 840 illik yubileyini keçirəndə əsərlərinin tamamilə rus dilinə tərcümə olunması və Moskvada – əgər burada ədəbiyyatçılardan varsa, bilirlər, Moskvada "Xudojestvennaya literatura" nəşriyyatı var idi. O, ən yüksək səviyyəli, tarixi şəxsiyyətlərin kitablarını nəşr edirdi – böyük tirajla nəşr olunması barədə qərar qəbul etdik.

Bu asan bir iş deyildi. Mən buna da nail oldum, bu qərar da qəbul edildi. Ancaq elə oldu ki, bu qərar həyata keçirilənə qədər mən Bakıdan Moskvaya işə keçdim. Təbiidir ki, orada da mənim səlahiyyətlərim böyük idi. Bu işə nəzarət etdim və Moskvada "Xudojestvennaya literatura" nəşriyyatında Nizami Gəncəvinin 5 cilddən ibarət poemalarının çox nəfis şəkildə nəşr olunmasına nail oldum.



Puşkinin anadan olmasının 100 illiyi münasibətilə Bakıda, Şamaxıda, Naxçıvanda xüsusi mərasimlər keçirilmişdir. Naxçıvanda – mən bunu uşaqlıq vaxtlarından bilirəm, o vaxt, hələ 1899-cu ildə Naxçıvanın ən böyük küçələrindən birinə, yəni Naxçıvanın, demək olar ki, bir başından o biri başına gedən bir geniş prospektə Puşkinin adı verilmişdir. Həyatım elə gətiribdir ki, mən Naxçıvanda bu küçədə doğulmuşam. Ancaq məktəbdə oxuduğum zaman Puşkinin əsərləri ilə, onun şeirləri ilə tanış olduğum zaman mən anladım ki, nə üçün Naxçıvan kimi çox böyük olmayan bir şəhərin ən böyük prospektlərin birinə Puşkinin adı verilmişdir.

Puşkin Azərbaycan üçün doğma bir insandır. Çünki Puşkinin yaradıcılığı Azərbaycanda hələ XIX əsrdə Azərbaycanın mütəfəkkir şəxsiyyətləri, alimləri, şairləri tərəfindən öyrənilirdi və tərcümə edilirdi. Təsadüfi deyil ki, Azərbaycanın böyük yazıçısı, şairi, filosofu Mirzə Fətəli Axundov Puşkinin əsərlərindən bəhrələnmiş və Puşkinin vaxtsız ölümü münasibətilə özünün ən dəyərli əsərlərindən birini - "Şərq poeması"nı yazmışdır.

1880-ci ildə Moskvada Puşkinə abidə qoyulan zaman Azərbaycan şairi Seyid Əzim Şirvani bu hadisəyə öz böyük şeirini həsr etmişdir.



Bu kitabdan birini mənə vermişdilər. Amma görünür, bu daha yaxşı nəşrdir. Əvvəl mənə birini göndərmişdilər. Ancaq görürəm ki, bu, yeni nəşrdir. Bəli, XX əsrdə dünyanın 100 siyasi xadiminin tərcümeyi-halını burada yazıblar. O cümlədən Heydər Əliyevin.

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN MİLLİ KİTABXANASINA HƏDİYYƏ ETDİYİ KİTABLARIN BİBLİOQRAFİK SİYAHISI

| Dillər üzrə | Sayı |
|---|---|
| Azərbaycan | 131 |
| Rus | 107 |
| Türk | 2 |
| İngilis | 18 |
| Fransız | 1 |
| Ərəb | 1 |
| Fars | 3 |
| **Cəmi** | **263** |

### Azərbaycan dilində

1. Abşeron meyxanaları [Mətn] /Tərtibçi müəlliflər. R.İmaməliyev, T.Səlimov, M.Müsəddiq.-Bakı: "Boz oğuz", 1993.- 200 s.

2. Axundzadə Ə. Müqəddəs peyğəmbərlər tarixi [Mətn] /Axund Əbdüssalam Axundzadə.-Bakı: "Azərnəşr", 1993.- 140 s.

3. Aytmatov Ç. Çingiz xanın ağ buludu [Mətn] / Ç.Aytmatov; Tərcümə edən M.Osmanoğlu.-Bakı: Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi, 1992.-188 s.



4. Azərbaycan xalqının hünəri əbədi yaşayacaqdır.- Bakı: "Azərbaycan", 1995.-32 s.

5. Azərbaycan incəsənəti [Mətn]: Monoqrafiya / K.C.Kərimov. R.S.Əfəndiyev, N.İ.Rzayev, N.D.Həbibov. Bakı: "İşıq", 1992.-344 s.

6. Azərbaycan tarixi xəritələri [Xəritə]: atlas / Tərt. İ.Süleymanov, V.Sultanova, A.Səmədzadə. Bakı: Azərbaycan Ensiklopediyası, 1994.-24 s.

7. Azərbaycan təbiəti [İzomaterial] / Mətnin müəl. və tərt. ed. B.Ə.Budaqov. Bakı: "İşıq", 1980.-128 s.

8. Azərbaycanın aşıq və şair qadınları [Mətn] /tərt. ed. Ə.Cəfərzadə; red. M.Ələkbərli. Bakı: "Gənclik", 1991. - 288 s.

9. Bakıxanov A. (Qüdsi) Seçilmiş əsərləri [Mətn] / A.Bakıxanov.-Bakı: Yazıçı, 1984.-474 s.

10.Balasaqunlu, Y. Qutadqu bilik – Xoşbəxtliyə aparan elm [Mətn]: Poema /Y.Balasaqunlu. Bakı: "Azərnəşr", 1994.-492 s.

11.Bəhlulzadə Səttar [Mətn] / Mətnin müəllifi. M.Nəcəfov; Red. A.Musayev.- Bakı: İşıq, 1994.-16 s.

12.Böyük övliyalar [Mətn]: Həyatları, rəvayətləri, hikmətli sözləri [Toplu] / R. Dikici; Elmi red. İlacı V.Məmmədəliyev. Bakı: "Vətən", 1993.-128 s.

13.Bünyadov Z. Qırmızı terror [Mətn] /Z.Bünyadov. Bakı: “Azərnəşr”, 1993.-331 s.
14.Bünyadzadə Ü. Bir ölümün acığına |Mətn] / Ülvi Bünyadzadə. Bakı: “Gənclik”, 1993.-256 s.
15.Cavad H. Türklərin tarix və mədəniyyətinə bir baxış [Mətn]: İslamdan əvvəl və islam dövrü. Başlanğıcdan XVI əsrə qədər / C.Heyət.- Bakı: “Azərnəşr”, 1993.-176 s.
16.Cəlil Məmmədquluzadə [Mətn] / Mətnin müəllifi və tərtibçi İ.Həbibov. Bakı: “İşıq”, 1987.-190 s.
17.Cəmil Ə. Əsərləri |Mətn] / Ə.Cəmil; tərt. ed. E.Cəmilzadə.-Bakı: “Azərnəşr”, 1988.- 335 s.
18.Cənubi Azərbaycan ədəbiyyatı antologiyası [Mətn]: Dörd cilddə / Tərtib ed. Z.Əkbərov; Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu. Bakı: “Elm”, 1994.-404 s.
19.Dadaşov A. Dəvətnamə [Mətn]: hekayələr və povestlər /A.Dadaşov; Red. M.Çəmənli. Bakı: “Yazıçı”, 1992.-176 s.
20.Dastanlar [Mətn] / Toplayanı. Ə. Axundov. Bakı: “Azərnəşr”, 1993.- 156 s.
21.Dəmirov İ. Bitkilər və təbabət [Mətn] /İ.A.Dəmirov, D.Y.Hüseynov, C.Z. Şükürov. Bakı: Gənclik, 1992.- 128 s.
22.Didərginlər [Mətn] / Tərtib ed. Hidayət; Red. V.Məcidov. Bakı. Gənclik, 1990.-384 s.



23.Düşen F. Tamilla. Məhəbbət ... göz yaşı ... ölüm [Mətn]: roman / F.Düşen; Tərcümə edən. P.Səfərov.-Bakı: 1991.-118 s.
24.Eloğlu S. Zəngəzur hadisələri [Mətn] / S.Eloğlu; Red. İ.Sadıq. Bakı: Azərnəşr, 1993.-58 s.
25.Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti [Mətn] / O. Əfəndiyev. Bakı: “Azərnəşr”, 1993.-304 s.
26.Əfəndiyev T. Qara qapılar [Mətn]: roman /T.Əfəndiyev. Bakı: “Azərnəşr”, 1993.-298 s.
27.Əzizinəm Qarabağ... [Mətn]: Bayatılar / Tərtib edən və ön sözün müəllifi. İ.Quliyev. Bakı: “Gənclik”, 1993.-192 s.
28.Nicat Ə. Qızılbaşlar [Mətn]: Roman / Ə.Nicat. Bakı: “Azərnəşr”, 1993.-231 s.
29.Əliyev H. Ə. Şəxsi mövqe [Mətn] / H.Ə.Əliyev. Bakı: “Azərbaycan”, 1994.-28 s.
30.Əliyev Ş. Prezidentlik institutu dərs vəsaiti [Mətn] / Ş. Əliyev. Bakı. Bakı Universiteti, 1994.-115 s.
31.Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə [Mətn]: Həsən bəy Rumlunun “Əhsənüt-təvarix” əsəri üzrə. / Ş.Fərzəliyev. Bakı: “Elm”, 1983.-152 s.
32.Füzuli M. Hədiqətüs-süəda [Mətn] / M.Füzuli; tərtibçi Ə.Səfərli, M.Nağısoylu, N.Göyüşov. Bakı: “Gənclik”, 1993.-368 s.
33.Füzuli M. Leyli və Məcnun [Mətn] / M.Füzuli; red. H.Araslı. Bakı: Gənclik, 1993.-232 s.

34.Göyüşov R.B. Azərbaycan arxeologiyası [Mətn] / R.Göyüşov. Bakı: "İşıq", 1986.-188 s.

35.Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları [Mətn] /Ü. Hacıbəyov. Bakı: "Yazıçı", 1985.-152 s.

36.Hacıyev T.İ. Azərbaycan dili tarixi oçerklər və materiallar [Mətn]: dərs vəsaiti / T.İ.Hacıyev. K.N.Vəliyev. Bakı: "Maarif", 1983.-188 s.

37.Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır [Mətn] / Tərtibçilər. N.İbrahimov, İ.Şükürov. Bakı: "Azərbaycan", 1994.-175 s.

38.Həsən-Cəlalyan Y. Alban ölkəsinin qısa tarixi (1702-1722) [Mətn] /Yesai Həsən-Cəlalyan; Erməni dilindən tərcümə edən. T.İ.Ter-Qriqoryan; Ruscadan çevirən H.Dadıyev, V.Musayev; Ön söz müəllifi T. Z.M.Bünyadov.-Bakı: "İşıq", 1992.-50 s.

39.Həsənov C., Azərbaycan beynəlxalq münasibətlər sistemində [Mətn]: 1918-1920-ci illər/C.Həsənov. Bakı: "Azərnəşr", 1993.-362 s.

40.Hicran F. Qarabağda talan var [Mətn]/F.Hicran. Bakı: "Gənclik", 1992.-160 s.

41.Hüquq ensiklopedik lüğəti [Mətn]/red. A.M.Dadaşzadə, İ.Ö.Vəliyev. "Bakı", 1991.-544 s.

42.Hüseynov R. Məhsəti - necə varsa [Mətn] / R.B.Hüseynov; red. Ə.Cəfər; rəyçi. Ə.Hacızadə. Bakı: Yazıçı, 1989.-335 s.



43.Hüseynov S.Q. Anama deyin ki... [Mətn] / S.Hüseynov, V.İsaqoğlu; Red. N.Qocaoğlu. Bakı: "Azərbaycan", 1993.- 64 s.

44.Xaçmaz zəfər gözləyir [Mətn] / Rəssam Hafiz Həsiroğlu; Tərtibçi Polad Qasımov, Müzəffər Məlikməmmədov. Bakı: "Azərbaycan", 1995.-256 s.

45.Xarici iqtisadi əlaqələr terminlər lüğəti / Tərtibçi K.Şükürov, F.Ələskərov, A.Hüseynoğlu. Bakı: "Azərnəşr", 1991.-176 s.

46.Xəlilov X. Qarabağın elat dünyası [Mətn] / X.D.Xəlilov. Bakı: "Azərnəşr", 1992.-119 s.

47.Xıdırov C. İraq türkmanları [Mətn]: (Qısa tarixi, ictimai-siyasi və ədəbi məlumat) / C.V.Xıdırov; Red. A.Bağırov; Rəssam. K.Abdinov. Bakı: "Azərnəşr", 1993.-104 s.

48.İbrahimbəyli M. Bütün yaxşılıqlara ölüm [Mətn]: Povestlər / M.İbrahimbəyli; Red. İslam Sadıq. Bakı: "Azərnəşr", 1993.- 376 s.

49.İlaxır çərşənbələr [Mətn]. Bakı: "Azərnəşr", 1992.-62 s.

50.İlk Azərbaycan kitabı [Mətn] / Tərtibçi. A.Xəlilov; məsləhətçi. N.Həsənzadə. Bakı: "Şərq-Qərb", 1995.- 48 s.

51.İmanzadə İ.M. Torpağın qanlı köynəyi [Mətn]: Cəbrayıl şəhidləri /İ.İmanzadə. Bakı: Bakı Universiteti, 1994.-336 s.

52.Ülkü U. Qızıl ulduzdan hilala doğru [Mətn]: Heydər Əliyevin fırtınalı həyatı / İ.Ülkü; Türkcədən çevirəni. K.Quliyeva. Bakı: "Azərbaycan", 1994.-75 s.

53.İsmayıl M. İki od arasında [Mətn]: Roman / İ.Mahmud; Red. Z.Əsgərova. Bakı: "Gənclik", 1993.-344 s.

54.İsmayılov, R. Azərbaycan tarixi [Mətn]. Bakı, 1993.-162 s.

55.Kalankatuklu M. Albaniya tarixi [Mətn]: Alban salnaməsi /M.Kalankatuklu, M.Qoş; tərc. ed. Z.Bünyadov. Bakı: "Elm", 1993.-272 s.

56.Keşokov A. Ay doğanda [Mətn]: Roman / A.Keşokov; rus dilindən tərc. ed. A.Bağırov. Bakı: "Azərbaycan", 1994.-320s.

57.Kəngərli Q.N. Erməni lobbisi... Azərbaycan faciəsi [Mətn] /Q.Kəngərli. Bakı: "Yazıçı", 1992.-280 s.

58.Kərimli A.V. Vətən sizi unutmaz [Mətn]: Zəngilan şəhidləri /A.Kərimli. Bakı: "Azərnəşr", 1995.-80 s.

59.Kərimli A.V. Zəngilan şəhidləri [Mətn] / A.Kərimli; red. Q.Aslanov. Bakı: "İşıq", 1994.-192 s.

60.Kotler F. Marketinqin əsasları [Mətn]: dərslik / F.Kotler; Rəyçi. S.Məmmədov, A.Allahverdiyev; Buraxılışa məsul. N.Qaramanlı; Tərc. R.Hacıyev, R.Məmmədov.- Bakı: "Ergün", 1993.-560 s.

61.Qacar M. Füzuli şəhidləri [Mətn] /Mahmud Qacar. Bakı: "Azərbaycan", 1995.-112 s.



62.Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən [Mətn] / Q.Qeybullayev.-Bakı: "Azərnəşr", 1994. - 248s.

63.Qəhrəman Təbrizim [Mətn] /Tərtib ed. M.R.Xəlilbəyli. Bakı: "Gənclik", 1994.-356 s.

64.Qlobal üfüqlər Prezident Əliyevin ABŞ Səfəri [Mətn] /red. B.Bler, J. Qəribova. ABŞ: Azerbaijan International, 1997.-68 s. (Ulu öndərin şəxsi avtoqrafı ilə)

65.Qoca H. Fransızlar yurdum haqqında [Mətn] /Hamlet Qoca. Bakı: "Yazıçı", 1990.-248 s.

66.Qumilyov L.N. Qədim türklər [Mətn] /L.Qumilyov. Bakı: "Gənclik", 1993.-536 s.

67.Qurbani A. Vətən bizə arxalanır [Mətn] /A.Qurbani. Bakı: "Azərbaycan", 1995.-128 s.

68.Mehdiyev Ş. Ədəbi əsərlər toplusu [Mətn] /Ş.Mehdiyev. Bakı: "Elm", 1990.-384 s.

69.Mehdizadə, M. Beynəlmiləl siyasətdə petrol [Mətn] /M.Mehdizadə.- Bakı: "Azərnəşr", 1994.- 61 s.

70.Məhəmməd Ə. Məhəmməd Peyğəmbərin həyatı [Mətn] /M.Əli; Tərcüməçi. S.Nəsirzadə; Red. E.Məmmədyarova; Rəssam. İ.Kərimov. Bakı: "Azərnəşr", 1993.-188 s.

71.Məmmədxanlı Ə. Babək [Mətn]: roman /Ənvər Məmmədxanlı. Bakı: "Azərnəşr", 1994.-264 s.

72.Məmmədov B.A. Qarabağın baməzə adamları [Mətn]: (ədəbi portretlər, lətifələr) /B.Məmmədov. Bakı: "Yazıçı", 1992.- 150 s.

73.Məmmədov İ. Ermənistan azərbaycanlıları və onların acı taleyi [Mətn]: Qısa tarixi oçerk /İ.Məmmədov, S.Əsədov. Bakı, 1992.-72 s.

74.Məmmədov N.B. Azərbaycanın yer adları [Mətn]: Oronimiya /N.Məmmədov; Elmi red. B.Ə.Budaqov; Red. T.Məmmədov. Bakı: "Azərnəşr", 1993.-180 s.

75.Məmmədova F. Azərbaycanın siyasi tarixi və coğrafiyası [Mətn]. Bakı: "Azərnəşr", 1993.-262 s.

76.Mirzə O. Adlarımız [Mətn]: Məlumat kitabı / Mirzə: Red. A.Bağırov. Bakı: Azərbaycan Ensiklopediyası, 1993.-272 s.

77.Molla Nəsrəddin [Mətn]: 12 cilddə. Bakı: Elm, 1988.- C.I.-720 s.

78.Mürşüdoğlu A. Qaldı...: şeirlər. Bakı, 1994.-76 s.

79.Nazimoğlu R. Ağsu şəhidləri [Mətn] / R.Nazimoğlu; Red. V.Quliyev. Bakı: "Azərbaycan", 1993.- 64 s.

80.Nemanzadə Ö.F. Seçilmiş əsərləri [Mətn] / Ömər Faiq Nemanzadə; Toplayan, tərtib edəni, ön sözün Ş.Qurbanov; Red. K.Talıbzadə. Bakı: "Yazıçı", 1992.- 536 s.



81.Nemət M. Azərbaycanda pirlər [Mətn]: (Sosial-ideoloji iqtisadi-siyasi mərkəzlər) /M.Nemət. Bakı: "Azərnəşr", 1992.-104 s.

82.Gəncəvi N. Lirika [Mətn]: Sirlər Xəzinəsi; Şərəfnamə /N.Gəncəvi; red. hey. H.Abbaszadə, M.Abdullayev, O.Ağayev; tərc. ed. X.Rza, A.Şaiq. Bakı: "Yazıçı", 1988.- 628 s.

83.Novruzov, N.Q. Masallının şəhid oğulları [Mətn] / N.Novruzov. Bakı: "Azərbaycan", 1994.-128 s.

84.Ədiloğlu N. Azərnur [Mətn]: Qanlı ocaq /N.Ədiloğlu, Red. V.Quliyev. Bakı: "Azərbaycan", 1994.- 232 s.

85.O Vətən üçün yaranmışdı [Mətn] /Toplayan və tərtib ed. T.Əhmədov; Red. V.Həbiboğlu. Bakı: "Gənclik", 1992.-304 s.

86.Ordubadi M. Qanlı illər 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi / Məmməd Səid Ordubadi. Bakı: "Maarif", 1991.-144 s.

87.Öməroğlu İ. Dünya susur, tarix susmur [Mətn] / İsmayıl Öməroğlu; Xüsusi red. E.Cabbarov; Red. E.Fərruxzadə. Bakı: "Gənclik", 1994.-432 s.

88.Rəcəbli Ə.Ə. Orxon-Yenisey abidələri [Mətn] / Ə.Ə.Rəcəbov. Bakı: "Yazıçı", 1993.-400 s.

89.Rəfili M. Mirzə Fətəli Axundov [Mətn]: həyatı, mühiti və yaradıcılığı /M.Rəfili. Bakı: "Elm", 1990.-252 s.

90.Rza R. Soruş [Mətn]: şeir /R.Rza. Bakı: "Yazıçı", 1988.-60 s.

91.Rəsulzadə M. Əsərləri [Mətn]: 1903-1909 /M.Ə.Rəsulzadə.-Bakı: "Azərnəşr", 1992.-C.I.-470 s.

92.Rəşidəddin F. Oğuznamə [Mətn] / F.H.Rəşidəddin; Tərcüməçi, ön söz: R.M.Şükürova; Elmi red. K.Vəliyev; Rəssamı. F.Fərəcov; Red. M.Əsədova. Bakı: "Azərnəşr", 1992.-72 s.

93.Rübailər aləmində [Mətn] /red. B.Azəroğlu; tərtib, farscadan tərcümə, ön söz və şərhlərin müəl. M.Sultanov. Bakı: "Azərnəşr", 1989.-265 s.

94.Rzayev X.A. Atalar sözü [Mətn] / X.Rzayev; tərtib ed. R.Cəfərov, Y.Babayev. Bakı: "Nicat", 1993.-174 s.

95.Rzayeva H. De neylərdin, Vətən, məni [Mətn]: şeirlər / H.Rzayeva. Bakı: "Şur", 1994.-32 s.

96.Sabir M.Ə. Hophopnamə [Mətn] / M.Ə.Sabir; tərt.ed. M.Məmmədov. Bakı: "Yazıçı", 1992.-560 s.

97.Sadıqov Ə. Uzağa gedən qatar... [Mətn]: Saatlı şəhidləri /Ə.Sadıqov. Bakı: "Azərnəşr". 1995.-112 s.

98.Saləddin Ə. Əhməd Cavad [Mətn] / Əli Saləddin. Bakı: "Gənclik", 1992.-328 s.

99.Səmədov V. Vətən üçün lazım gəlsə... [Mətn] / V.Səmədov, S.Aslanov. Bakı: "Azərbaycan", 1994.-192 s.



100. Tahir S. Lirika [Mətn] /S.Tahir. Bakı, 1992.-88 s.

101. Sultanov Z. Ağdərədən gələn var [Mətn] /Z.Sultanov. Bakı: "İşıq", 1993.-176 s.

102. Sultanov Z. Xocalı faciəsi [Mətn] /Z.Sultanov. Bakı: "İşıq", 1993.-104 s.

103. Süleymanov M. Azərbaycanın səma şahinləri [Mətn]: Hərbi oçerklər / M.Süleymanov. Bakı: "Şur", 1994.-144 s.

104. Süleymanov M. Seçilmiş əsərləri. Bakı, 1993.-452 s.

105. Süleymanov M. Seçilmiş əsərləri. Bakı, 1993.-C.2.-248s.

106. Şamiloğlu S. Şəhid şəhərin şəhid oğulları (Ağdam) [Mətn] /S.Şamiloğlu. Bakı: "Azərbaycan", 1994. -208 s.

107. Şərq təbabəti və milli xörəklərimiz [Mətn]. Bakı: Elm, 1994.-212 s.

108. Şuşinski F. Xan Şuşinski [Mətn]: monoqrafiya /F.Şuşinski; red. S.İsmayılova; ön söz. T.Quliyev. Bakı: "İşıq", 1989.-104 s.

109. Şükürov S. Gəncəli Cavad xanın hekayəti [Mətn] / S.Şükürov. Gəncə, 1992.-212 s.

110. Tağıyeva R.S. Nizami obrazları xalçalarda Albom / R.Tağıyeva. Bakı: "İşıq", 1991.-148 s.

111. Tahir M. Şeyx Şamil [Mətn] / M.Tahir; Rus dilindən tərcümə edəni və ön sözün müəllifi. O.Nicat. Bakı: "Azərnəşr", 1992.-112 s.

112. Talıbzadə K. Tənqid və tənqidçilər [Mətn] /Kamal Talıbzadə; rəyçi. Ş.Salmanov. Bakı: "Yazıçı", 1989.-491 s.

113. Təbrizdən dörd dəftər [Mətn]: atalar sözləri, məsəllər, hikmətlər /Toplayanı və tərt. ed. Ə. Azərlu. Bakı: "Azərnəşr", 1994.-168 s.

114. Rza X.U. Ayla günəş arasında [Mətn]: Şeirlər və poemalar /X.U.Rza; Ön söz. İ.Şıxlı. Bakı: "Yazıçı", 1992.-560 s.

115. Rza X.U. Mən Şərqəm [Mətn] /X.R. Ulutürk; Red. Ş.Salmanov.-Bakı: "Elm", 1994.-768 s.

116. Rza X.U. Uzun sürən gənclik [Mətn]/X.R.Ulutürk; Red. İ.Sadıq. Bakı: "Azərnəşr", 1994.-437 s.

117. Vahabzadə B.M. Fəryad [Mətn]: [dram və poemalar] / B.Vahabzadə; tərt. ed. və red.: A.Bağırov. Bakı: "Azərbaycan", 1995.-352 s.

118. Vahabzadə B. Foto-kitab. Bakı, 1995.-128 s.

119. Vahabzadə B. Şənbə gecəsinə gedən yol [Mətn] /B.Vahabzadə. Bakı: "Azərnəşr", 1991.-332 s.

120. Vahabzadə B. Ümidə heykəl qoyun [Mətn]: yeni şeirlər / B.M.Vahabzadə. Bakı: "Yazıçı", 1993.-128 s.



121. Vahabzadə B. Vətəndaş. Bakı: "Gənclik", 1994.- 224 s.

122. Vəkilov M. Cavanşir [Mətn]: tarixi roman / M.Vəkilov. Bakı: "Gənclik", 1992.-224 s.

123. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan [Mətn] / N.Vəlixanlı. Bakı: "Azərnəşr", 1993.-157 s.

124. Vəlili M. Azərbaycan [Mətn]: Coğrafı-təbii, etnoqrafik və iqtisadi mülahizat /M.Vəlili. Bakı: "Azərnəşr", 1993.-208 s.

125. Vəliyev C. Xalqın iradəsi ilə [Mətn]. Bakı: "Azərbaycan", 1994.-30 s.

126. Yaqub Z. Şair harayı [Mətn]: (şeirlər və poemalar) /Z. Yaqub. Bakı: "Gənclik", 1995.-224 s.

127. Yaqublu N. Xocalı qırğını [Mətn] /N.Yaqublu; Red. F.Nağıyeva. Bakı: "Azərnəşr", 1992.-128 s.

128. Yaqublu N. Məmməd Əmin Rəsulzadə [Mətn] / N.Q.Yaqublu. Bakı: "Gənclik", 1991.-308 s.

129. Yücel Y. Qazi Bürhanəddin Əhməd və dövləti: [Mətn]: 1344-1398 / Y.Yaşar; Türk dilindən çevirənlər: Z.Bünyadov, N.Vəlixanlı. Bakı: "Elm", 1994.-200 s.

130. Yeddi gözəl kitabı [Mətn]: Nizami Gəncəvinin "Yeddi gözəl" poemasının el dastanı / Ərəb əlifbasından müasir yazıya köçürəni və işləyəni. M.Məmmədova. Bakı: "Azərnəşr", 1991.-08 s.

131. Yusifov Y. Qədim Şərq tarixi [Mətn]: dərslik / Y.Yusifov. Bakı: Bakı Universiteti, 1993.-496 s.

**Rus dilində**

132. Абу-Бакр ибн Хосров ал-Устад [Текст]. Баку, 1991.-584 с.

133. Алиев Г. Личная позиция [Текст]. / Г.Алиев. Баку, 1994.-28 с.

134. Алиев К. Античная Кавказская Албания [Текст]. К.Алиев. Баку, “Азернешр”, 1992.-238 с.

135. Алиев Ш. Национально-государственное интересы в СССР [Текст]. / Ш.Алиев. Баку, 1989.-280 с.

136. Алиев Ш. Национально-государственное интересы и разделение властей [Текст]. / Ш.Алиев. Баку, “Азернешр”, 1992.-238 с.

137. Анар. Деде Коркут: Повесть по мотивам азербайджанского эпоса [Текст]. Анар. Баку, “Гянджлик”, 1988.-128 с.

138. Английские народные сказки [Текст]. Москва, Кристина и Ольга, 1993.-96 с.

139. Антология педагогической мысли Азербайджанской ССР [Текст]. Москва: “Педагогика”, 1989.- 592 с.

140. Армяно-татарская смута на Кавказе как один из фазисов Армянского вопроса [Текст]. Баку, “Шур”, 1993.-48с.



141. Асадов Ф.М. Арабские источники о тюрках в раннее средневековье [Текст]. / Ф.Асадов. Баку, 1993.-204 с.

142. Бажов П.П. Малахитовая шкатулка [Текст]. / П.Бажов. Москва, 1990.-303 с.

143. Бретаницкий Л. Художественное наследие Переднего Востока эпохи феодализма [Текст]. Л.Бретаницкий. Москва, 1987.-256 с.

144. Бунин И.А. Окаянные дни [Текст]. И.Бунин. Москва: “Советский писатель”, 1990.-128 с.

145. Вагабзаде Б. Лирика [Текст]. Б.Вагабзаде.-Баку, “Азернешр”,1990.- 67 с.

146. Вагабзаде, Б. Мы на одном карабле [Текст] / Б.Вагабзаде. Москва, 1986.-334 с.

147. Вургун, С. Избранное [Текст] / С.Вургун. Баку, 1976.-280 с.

148. Вургун С. Лирика [Текст]. С.Вургун. Баку, “Язычы”, 1988.-104 с.

149. Вургун С. Стихотворения и поэмы [Текст]. С.Вургун. Баку, “Азернешр” 1990.- 67 с.

150. Галеви Д. Жизнь Фридриха Ницше [Текст]. Д.Галеви. Москва, 1991.-67 с.

151. Галеви Д. Жизнь Фридриха Ницше [Текст]. Д.Галеви. Рига, 1991.-271 с.

152. Гейдар Алиев открывает миру Азербайджан [Текст]. Баку, 1994.- 176 с.

153. География. Энциклопедия [Текст]. Москва, “Росмэн”, 1995.-128 с.

154. Готовимся к школе. Начинаем измерять [Текст]. Москва, “Росмэн”, 1995.- 4с.

155. Греки [Текст]. Москва, “Росмэн”, 1995.-128 с.

156. Грибоедов, А.С. Горе от ума письма и записки [Текст]. А.Грибоедов.- Баку, 1976.- 280 с.

157. Детская энциклопедия [Текст]. Москва, “Росмэн”, 1994.-128 с.

158. Джейхун Г. Избранное [Текст]. Г.Джейхун. Баку, 1993.-128 с.

159. Джером К. Трое на четырех колесах [Текст]. К.Джером.- Москва, 1991 .-123 с.

160. Есенин С. Персидские мотивы [Текст]. С.Есенин. Баку, “Язычы”, 1985.-80 с.

161. Живой мир. Энциклопедия [Текст]. Москва, “Росмэн”, 1995.-128 с.

162. Жильяр П. Император Николай 11 и его семья [Текст] / П.Жильяр. Москва, 1991.-288 с.

163. Ибрагимбеков Р. Избранное. В 2-х томах [Текст]. Р.Ибрагимбеков. Баку, 1989, т-1.-408 с.

164. Ибрагимбеков Р. Избранное. В 2-х томах [Текст]. Р.Ибрагимбеков. Баку, 1989, т-2.-373 с.

165. Из сокровищницы рукописей Азербайджана [Текст]. Баку, 1983.



166. Изобретения. Изобретатели и остроумные идеи [Текст]. Москва, “Росмэн”, 1994.-56 с.

167. Иллюстрированная мировая история. Викинги [Текст]. Москва, “Росмэн”, 1995.-64 с.

168. Калита Н. Ксилографии [Текст]. Н.Калита. Москва, 1980.-16 с.

169. Касумова С.Ю. Азербайджан в III-VII вв. [Текст]. С.Касумова. Баку, “Элм”, 1993.-140 с.

170. Керимов К. Дорога в космос [Текст]. К.Керимов. Баку, 1995.-352 с.

171. Книга битв. III-1У до н.э. Древний Египет Междуречье. Древняя Греция, Древний Рим, Древний Китай [Текст]. Москва, “Росмэн”, 1994.-144 с.

172. Книга о самых первых [Текст]. Москва, “Росмэн”, 1994.-60 с.

173. Книжные знаки московских художников [Текст]. Москва, 1985. Выпуск IV.-230 с.

174. Книжные знаки московских художников [Текст]. Москва, 1985. Выпуск III.-211 с.

175. Купер Д.Ф. Шпион [Текст]. Д. Купер. Минск, 1992.-303 с.

176. Кэмнбелл, Р. Как на самом деле любить детей [Текст]. Р.Кэмпбелл. Москва, “Знание”, 1992.-190 с.

177. Мамедов, С.А. Азербайджан по источникам XV-первой половины XVIII вв. [Текст]. С.Мамедов. Баку,1993.-240 с.

178. Мамедов Т.М. Кавказская Албания в IV-VII вв. [Текст]. Т.Мамедов. Баку, “Маариф”, 1993.-216 с.

179. Мансуров А. Белые пятна истории и перестройка [Текст]. А.Мансуров. Баку, “Язычы”, 1990.- 224 с.

180. Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сэфэвидов с западноевропейскими хостранами [Текст]. Я. Махмудов. Баку, 1991.-264 с.

181. Медицина. Врачи, коалдуны и лекарства [Текст]. Москва, “Росмэн”, 1994.-56 с.

182. Меликов А. Я обвиню... [Текст]. А.Меликов. Баку, “Гянджлик”, 1994.-208 с.

183. Мирзаджанзаде А.Х. Диакоптика процессов нефтеотдачи пластов [Текст]. А.Мирзаджанзаде. Баку, 1995.-366 с.

184. Мировая история в датах [Текст]. Москва, “Росмэн”, 1995.-128 с.

185. Мудрость веков. Древняя медицина о сохранении здоровья [Текст]. Баку, “Язычы”. 1992.-216 с.

186. Наджафов М.П. Саттар Бахлулзаде [Текст]. М.Наджафов. Москва, 1985.-120 с.



187. Наука. Энциклопедия [Текст]. Москва, “Росмэн”, 1995.-128 с.

188. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана [Текст]. М.Нсймат. Баку, 1991.- 178 с.

189. Несмелое А.И. Без Москвы без России [Текст]. Стихотворения. поэмы, рассказы /А./Несмелое. Москва, 1990.-462 с.

190. Одежда. Для работы и отдыха [Текст]. Москва, “Росмэн”. 1994.-56 с.

191. Ответы на вопросы, которые ты всегда хочешь задать [Текст]. Москва, “Росмэн”. 1994.-60 с.

192. Открытия, которые изменили мир и кое-что ещё [Текст]. Москва, “Росмэн”, 1994.-60 с.

193. Парадисис А. Жизнь и деятельность Балтазара Коссы. Папа Иоанн. XXIII [Текст]. А. Парадисис. Москва, 1961.-224 с.

194. Пиков М. Ксилографии [Текст]. М. Пиков.-Москва, 1986.- 20 с.

195. Пища. Застолье, повара и рецепты [Текст]. Москва, 1994.-56 с.

196. Полеты. Пилоты и метательные аппараты [Текст].- Москва, “Росмэн”, 1995.-56 с.

197. Развлечения. Сцена, экран, актёры [Текст]. Москва, “Росмэн”, 1994.-56 с.

198. Ратные цивилизации [Текст]. Москва, "Росмэн", 1995.-96 с.

199. Римляне [Текст]. Москва, "Росмэн", 1994.-96с.

200. Ричард Х. Корабли. Моряки и море [Текст]. Х.Ричард. Москва, "Росмэн", 1995.-56 с.

201. Романов П.С. Без черемухи [Текст]. П.Романов. Москва, "Правда", 1990.-464 с.

202. Русско-азербайджанский словарь [Текст]. Баку, 1991, том 1, А-К, -606 с.

203. Русско-азербайджанский словарь [Текст]. Баку, 1991.- Том 2. Л-П.-712 с.

204. Русско-Азербайджанский словарь [Текст]. Баку, 1991.- Том 3. Р-Я.-556 с.

205. Рустамханлы С. Книга жизни [Текст]. Баку, "Гянджлик". 1990.-384 с.

206. Салех бей. Армянство [Текст] /Салех бей. Баку, "Элм", 1994.-440 с.

207. Самедоглу Ю. День казни [Текст]. Ю.Самедоглу. Москва, "Советский писатель", 1988.-264 с.

208. Свиридонов Г.М. Здоровья кладезь-природа [Текст]. Г.Свиридонов. Москва, 1990.-271 с.

209. Свифт Дж. Путешествия Гулливера [Текст]. Дж.Свифт. Москва, 1992.-128 с.



210. Скляренко С.Д. Владимир [Текст]. Роман. С.Скляренко. Москва, "Дружба народов", 1991.-512 с.

211. Слово об Узеире Гаджибейли [Текст]. Баку: Элм, 1985.-216 с.

212. Спорт. Игры, игроки и зрители [Текст]. Москва, "Росмэн", 1994.-56 с.

213. Сулейманов М. Дни минувшие [Текст]. М.Сулейманов. Баку, 1990.-344 с.

214. Чаладзе Т. Карабах: война в лицах [Фотоальбом]. Чаладзе Т. Баку, 1993.-88 с.

215. Топчубашев А.Л. Дипломатические беседы в Стамбуле [Текст]. Л.Топчубашев. Баку, 1994.-160 с.

216. Топчубашев Л.М. Меморандум [Текст]. Л.Топчубашев. Баку, 1993.-38 с.

217. Торонцев А. Книга битв. IV век до н. э. -VI век н.э. [Текст]. А.Торонцев. Москва, "Росмэн", 1994.-144 с.

218. Трактат между Карабахским ханом и Российской империей о переходе ханства под власть России от 14 мая 1806 года [Текст]. Баку, "Шерг-Герб", 1992.

219. Транспорт. По земле, по дороги, по рельсам [Текст]. Москва, "Росмэн", 1994.-56 с.

220. Фантастика Рея Брэдбери [Текст]. Москва, “Экология”, 1992.-301 с.

221. Френсис С.Ф. По эту сторону рая [Текст]. С.Френсис. Москва, 1991.-256 с.

222. Хаггард Г.Р. Священный цветок [Текст]. Г.Хаггард. Москва, 1991.-272 с.

223. Ходжалы. Хроника геноцида [Текст]. Баку, “Азернешр”, 1993.-144 с.

224. Хрустальное сердце [Фотокнига]. Баку, 1990.-144 с.

225. Царство людей. Одежда, утварь, обычай, оружие, украшения народов древних и новых времен [Текст]. Москва, “Росмэн”, 1994.-160 с.

226. Черный январь [Текст]. Баку, “Азернешр”, 1990.-288с.

227. Чертово колесо. Сборник научной фантастики на тему «человек и НТР» [Текст] В 2-х томах. Москва, “Радуга”, 1992.- Т.1.-432 с.

228. Чертово колесо. Сборник научной фантастики на тему «Человек и НТР». [Текст]. в 2-х томах. Москва, “Радуга”, 1992.-Т.2.-288 с.

229. Шаврова Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инфодцам [Текст]. М.Шаврово.-Баку, 1990.-146 с.

230. Шапкин Л. Монологи засекреченного ученого [Текст]. Л.Шапкин. Баку, 1992.-80 с.



231. Шарифов, А. Прорыв информационной блокады [Текст]. А.Шарифов. Баку, “Язычы”, 1992.-200 с.

232. Шведские народные сказки [Текст]. Москва, 1993.-88 с.

233. Штоль Г. Генрих Шлиман мечта о Трое [Текст]. Г.Штоль. Москва, “Молодая гвардия”, 1991.- 432 с.

234. Шукюров И. Будапештский саммит [Текст]. И.Шукюров. Баку, 1995.-28 с.

235. Шукюров И. ОИК: Армения признана агрессором [Текст]. И.Шукюров. Баку, “Азербайджан”, 1995.- 16 с.

236. Шыхлы И. Буйная Кура. Роман. Огненные дороги. (Повесть) [Текст]. И.Шыхлы. Москва, 1990.-510 с.

237. Юнус, Э. Венок. Стихи [Текст]. Э.Юнус.-Баку, “Гянджлик”, 1994.-80 с.

238. Яковлева, И. След динозавра [Текст]. И.Яковлева. Москва, “Росмэн”, 1993.-192 с.

**Fransız dilində**

239. Seidzade D. Traits du portrait politigue de Gueidar Aliev [Text] /D.Seidzade. Baku, 1994.

**Ərəb dilində**

240. Qurani-Kərim

**Türk dilində**

241. Aliyev R. Nizami Gencevi [Mətn] /R.Aliyev. Bakü, 1991.-96 s.

242. Önemli politik yaşamdan esintiler [Mətn]. Bakü, 1994.-31 s.

**İngilis dilində**

243. Aliyev H. Azerbaijan oil in the World Policy [Text] /H.Aliyev. Baku: Azerb.publ.house, 1997.-437 p.

244. Aliyev H. New Political Course [Text] /H.Aliyev. Baku: 1997.-141 p.

245. Aliyev H. Refugees [Text] /H.Aliyev. Baku: "Azerb. Publ. House", 1997.-32 p.

246. Armenian Nazism-Two İntcrprctalions [Text]. Baku: 1994.-24 p.

247. Azerbaijan Republic [Text]. Baku: "Azerb. Publ. house", 1997-96 p.

248. Century's Contract [Text]. Baku: 1994.-44 p.

249. Essential English for foreign students [Text]. Book 1.- 1994.-272 p.

250. Essential English for foreign students [Text]. Book 2.-1994.-250 p.

251. Essential English for foreign students [Text]. Book 3.-1994.-329 p.

252. Essential English for foreign students [Text] Book 4.-1994.-319 p.





253. Global Horizons: President Aliyev's visit to the USA [Text]. Baku: "Azerb. International". 1997.-68 p.

254. Heydar Aliev. Stcodfast position [Text]. Baku: 1994.-40 p.

255. President Heydar Aliyev [Text]. Washington: Embassy of the Republic of Azerbaijan, 1997.-20p.

256. President Heydar Aliyev [Text]. Washington: Embassy of the Republic of Azerbaijan, 1997.-20p

257. President. Heydar Aliyev [Text].

258. Seyidzade, D. Lines from biography of great politician [Text] /D.Seyidzade. Baku: 1994.

259. Tahir Salakhov [Text]. Leningrad, 1980. -163 p.

260. Years gone by, years ahead [Text]: Brief essay: Biography of the President of Azerbaijan Republic Heydar Alirza oglu Aliyev [Text]. Baku: "Azerb. publ.house", 1997.-186 p.

# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR, DÖVLƏT, ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ ULU ÖNDƏR HEYDƏR ƏLİYEV HAQQINDA

*"Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti daha da qüdrətli, zəngin olacaq, hərtərəfli inkişafa nail olacaqdır. Heydər Əliyevin ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir."*

**İlham Əliyev,**
***Azərbaycan Respublikasının Prezidenti***

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva demişdir: "Heydər Əliyev fəlsəfəsini başa düşmək, dərk etmək üçün Azərbaycan xalqının son 50 illik tarixini öyrənmək, yüzlərlə elmi, siyasi, bədii, publisistik əsərləri oxumaq lazımdır. Yaşlı nəsil Heydər Əliyevin – ulu öndərin ölçüyəgəlməz xidmətləri ilə yaxşı tanışdır. Bugünkü nəsil də, gələcək nəsillər də bu böyük düha sahibinin xalqı, vətəni üçün gördüyü işləri, vətən qarşısındakı xidmətlərini bilməlidir. Heydər Əliyevin parlaq



şəxsiyyəti, Heydər Əliyevin irsi bir məktəbdir – tərbiyə, mənəvi zənginlik, kamillik, vətənpərvərlik, qəhrəmanlıq, dövlətçilik, ümumbəşərilik məktəbi. Bu məktəbdən, bu ümmandan hər bir kəsin bəhrələnməsi üçün ulu öndərin zəngin irsi tədqiqatçılarımız tərəfindən mütəmadi olaraq tədqiq edilib öyrənilməlidir. Ümidvarıq ki, nəsillər bir-birini əvəz edəcək, ulu öndərə olan sevgi və məhəbbət hissi, onun tükənməz irsindən bəhrələnmək, öyrənmək arzusu daha da genişlənəcək, ürəklərdə əbədiləşəcək, tarixin yaddaşına həmişəlik qızıl hərflərlə həkk olunacaqdır."[124]

Bir çox görkəmli şəxsiyyətlər, elm xadimləri və politoloqların nəzəri fikirlərinə və konsepsiyalarına görə Mustafa Kamal Atatürk, Corc Vaşinqton, Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll kimi Heydər Əliyev də hələ sağlığında canlı əfsanəyə çevrilmişdir.

Tarixin hər bir dönəmində ağır, məşəqqətli günlər yaşayan Azərbaycan xalqı da bu mənada fəxr edə bilər. Çünki dövlət quruculuğu, xalqın milli-mənəvi dəyərlərini gələcək nəsillərə yetişdirmək kimi ağır və taleyüklü missiya məhz ulu öndərimiz Heydər Əliyevin qismətinə düşdü. Hakimiyyətdə olduğu bütün dövrlərdə milli-mənəvi dəyərlərimizin böyük hamisi olan ümummilli lide-

[124] Baxşəliyeva G. Fövqəladə missiya, yaxud tarixin ən böyük Azərbaycanlısı. /Azərbaycan şərqşünaslığı: Elmi-kütləvi jurnal./ №1(17), 2019.-s. 2-6

rimiz müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlərin xalqın milli kimliyinin və özünəməxsusluğunun qorunmasını aktual məsələyə çevirdiyini hər zaman vurğulayırdı. Dahi şəxsiyyət Azərbaycanın min illərin sınağından çıxmış tarixinə, mədəniyyətinə, adət-ənənələrinə həddən artıq bağlı olmaqla yanaşı, onların olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəmirdi. Ulu öndər Heydər Əliyev, bu mənada, həm də xalqın saf inanclarını, sağlam dəyərlərini bütün siyasi ideologiya və proseslərin fövqündə saxlayaraq qorumağı bacarmış lider kimi əbədiyaşarlıq zirvəsinə ucalmışdır.

Görkəmli şəxsiyyətlər ulu öndər Heydər Əliyevin mərhəmət, nəciblik və yüksək humanizmə əsaslanan ali idealları haqqında gözəl fikirlər söyləmiş, onun dünya miqyasında və Azərbaycanda tutduğu mövqeyə münasibət bildirmişlər.

Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevin bu mənada dedikləri çox önəmlidir: "Heydər Əliyev Kremldə işləyərkən mən, adətən onun yanına dəstək almaq üçün gedirdim, çünki o məndən bir qədər yaşlıdır və həmişə də ondan dəstək alırdım. Belə düşünürəm ki, Azərbaycan xalqı keçilmiş mərhələyə baxmayaraq, Heydər Əliyevi dövlətə başçılıq etməyə çağırmaqla düzgün hərəkət etmişdir. Sizin rəhbərliyinizlə aparılan məqsədyönlü və ardıcıl siyasət sayəsində



Azərbaycan azad inkişaf yolunda, öz dövlətçiliyini və beynəlxalq aləmdə mövqelərini möhkəmlətmək işində böyük uğurlara nail olmuşdur."

Görkəmli ictimai-siyasi xadim, vaxtilə Ukrayna Respublikasının prezidenti olmuş Leonid Kuçmanın da ulu öndər haqqında fikirləri diqqətəlayiqdir: "Yaroslav Mudrıy ordenində belə bir yazı var: Müdriklik, şərəf-şöhrət. Belə sözləri tam mənası ilə Heydər Əliyevə aid etmək olar. Dövlət başçısı kimi Siz ölkənin inkişafının siyasi və iqtisadi məsələlərində müdriklik göstərirsiniz. Siz Zaqafqaziya regionunda, Avropa qitəsində və dünyada layiqli yer tutan Azərbaycanın şöhrətini öz fəaliyyətinizlə artırırsınız."[125]

Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Fransa Respublikasının, Rusiya Federasiyasının, Türkiyə Cümhuriyyətinin, Qazaxıstanın, Gürcüstanın, Ukrayna və b. dövlətlərin görkəmli dövlət və ictimai-siyasi xadimləri ulu öndərin dövlətçilik fəlsəfəsinə, onun idarəetmə məharətinə və müdrik şəxsiyyət olmasına dair çox qiymətli fikirlər söyləmişlər.

Amerika Birləşmiş Ştatlarının sabiq dövlət katibi, dünya şöhrətli ictimai-siyasi xadim Henri Kissincer ulu öndər Heydər Əliyevlə dəfələrlə görüşmüş, onun haqqında çox dəyərli fikirlər söyləmişdir: "Mən Prezident Hey-

---

[125] Mərdanov M. "Azərbaycan Respublikasının dövlət rəmzləri" Çaşıoğlu. Bakı, 2001.-270 s.

dər Əliyevlə əvvəllər də görüşmüşəm və bizim indiki söhbətimizdən də çox şərəf duyuram. Mən görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik zəkasına inanıram və bilirəm ki, onun rəhbərliyi altında Azərbaycan öz müstəqilliyini daha da möhkəmləndirəcək və əbədi edəcəkdir."

Amerika Birləşmiş Ştatlarının sabiq prezidenti Corc Buşun ulu öndər haqqında fikirləri isə çox maraqlıdır: "ABŞ Azərbaycanın tərəqqisi və regionun təhlükəsizlik probleminin həlli naminə Sizinlə sıx əməkdaşlığa hazırdır...

Sizin kimi liderlərlə işləmək şansı əldə etdiyimə görə çox məmnunam."

Görkəmli dövlət və ingilis siyasi xadimi Toni Bleyer isə xalqımıza müraciət edərək demişdir: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər."

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası Elizabet Aleksandra Mariya Vindzorun ulu öndər haqqında fikirləri belədir: "Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı, onunla olan görüşümüzü çox yaxşı xatırlayıram."



Fransa Respublikasının sabiq prezidenti Jak Şirak ulu öndərlə Fransada və müxtəlif beynəlxalq tədbirlərdə Heydər Əliyevlə görüşlərindən ürək dolusu danışaraq demişdir ki: "Birgə işdə aramızda yaranmış və ölkələrimiz arasında münasibətlərin inkişafına yönəlmiş şəxsi və möhkəm dostluq münasibətlərinə görə çox şadam."

Azərbaycan Respublikasının Milli Məclisinin sabiq sədri, əməkdar elm xadimi, professor Murtuz Ələsgərov göstərirdi ki: "Tarix Heydər Əliyev xəttinin düzgünlüyünü, onun bütün düyünləri açа bilən dərin siyasi zəkasını bir daha sübuta yetirdi."

Uzun müddət ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Bakı Dövlət Universitetinin rektoru və Azərbaycan Respublikasının Təhsil naziri vəzifələrində işləmiş, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, professor Misir Mərdanovun ulu öndər haqqında məhəbbətlə söylədikləri: "Elmin, təhsilin, mədəniyyətin kamil bilicisi kimi prezident Heydər Əliyevin qayğısı və diqqəti biz təhsil işçilərində də nikbinlik hissi oyadır. Azərbaycan elmini və təhsilini daha yüksəklərə qaldırmaq üçün fədakar əməyə həvəsləndirir."[126]

[126] Süleymanov R. Azərbaycanda kitab nəşrinin inkişaf tarixində Heydər Əliyev mərhələsi. Kitabşünaslıq və nəşriyyat işi: Elmi, nəzəri və təcrübi jurnal: Bakı. 2014, №1. S. 20-33

Xalq yazıçısı Anar ulu öndər Heydər Əliyevə qarşı olan hörmətini və rəğbətini belə müəyyənləşdirmişdir: "Ümummili lider Heydər Əliyev haqqında danışarkən bir məqamı qeyd etməmək mümkün deyil. Şəxsiyyətlərin miqyası, bir tərəfdən onların öz zamanlarında gördükləri işlərin, yaratdıqlarının, etdiklərinin, dediklərinin, həyata keçirdiklərinin əhəmiyyəti ilə, əhatəsi ilə, təsir dairəsi ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin tarixdə əks-sədasıyla, uzun illər, dövrlər müddətində hadisələrin gedişatını yönəltməsi ilə müəyyənləşir. Hər iki meyarla Heydər Əliyev - tarixi şəxsiyyətdir. Bu danılmaz həqiqəti kimsə inkar edə bilməz. Bu gün dünya miqyasında tanınmış siyasi xadim olan Heydər Əliyev Azərbaycanın geniş siyasi meydanına 1969-cu ildə çıxdı. Doğrudur, bu tarixdən neçə illər qabaq da Heydər Əliyev təhlükəsizlik xidmətlərində məsul vəzifələrdə çalışıb və o dövrün yazılmamış qanunlarına uyğun olmayan bir şəkildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri də təyin olunub. Bu, o dövrün qanunlarına ona görə uyğun deyildi ki, adətən müttəfiq respublikalarda bu vəzifəni yerli millətin nümayəndələrinə etibar etmirdilər, həmin postu başqa yerlərdən göndərilmiş, əsasən rus kadrlar tuturdular. DTK keçmiş rejimin ən qapalı idarələrindən biri idi və onun nəinki işçilərini, rəhbərlərini belə ictimaiyyət çox vaxt üzdən də tanımırdı. Heydər Əliyevin bu cəhətdən də məharətlə istifadə etdiyini yada salmaq istəyirəm.



Mərkəzi Komitənin katibi seçiləndən sonra ilk vaxtlar çox adamın üzdən tanımadığı Heydər Əliyev şəhəri gəzir, qanunsuzluqları, əliəyrilikləri, pozuntuları özü öz gözləriylə əyani şəkildə müşahidə edir və yerindəcə günahkarların cəzasını verirdi. Belə faktlar da əhalidə yeni ədalətli rəhbərin iş başına gəlməsi və hər cür ədalətsizliklərin kökünü kəsəcəyi haqqında fikirlərin geniş yayılmasına səbəb olurdu. Bu üsul, təbii ki, ən qısa bir müddətdə davam edə bilərdi, çünki tezliklə respublikanın yeni rəhbərini hamı üzdən də tanımağa başladı və Heydər Əliyev qanun pozuntularına qarşı mübarizəsini başqa, daha geniş miqyasla davam etdirdi.

Ümumiyyətlə, sovet dövründə Heydər Əliyev Azərbaycanda böyük quruculuq işləri həyata keçirdi, respublikamızın siması əhəmiyyətli dərəcədə dəyişdi. Bilirsiniz ki, o, rəhbər seçilənə qədər Azərbaycan keçmiş ittifaq respublikaları arasında ən geridə qalanlardan biri idi. Amma Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan hərtərəfli inkişaf etdi. Onun hakimiyyəti illərində xalqın özünüdərki, milli şüurun oyanışı baxımından da mühüm nəticələr əldə olundu. Ulu öndərimiz müstəqilliyimizin dönməzliyini təmin etdi. Heydər Əliyev Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirdi."

Xalq yazıçısı Anarın bu fikirlərini əhatə edən iri-həcmli, "Unudulmaz görüşlər" kitabı 2011-ci ildə "Qızıl kəlmə" ədəbi mükafatına layiq görülmüşdür.[127]

Milli Məclisin deputatı AMEA akademi Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva "Fövqəladə missiya, yaxud tarixin ən böyük Azərbaycanlısı" məqaləsində yazır. Məşhur bir deyimə görə, dağın əzəmətini görmək üçün ona uzaqdan baxmaq lazımdır. Tarixi hadisələr də belədir. Günümüzdə ölkədə son 50 ildə baş verən proseslərə və həmin proseslərin mərkəzində dayanan ulu öndər Heydər Əliyevin fövqəladə missiyasına nəzər saldıqda, o dövrün tariximizdə müstəsna yerini və əhəmiyyətini daha dərindən dərk edirik."[128]

Ulu öndər Heydər Əliyevin böyük türk dünyasına və Türkiyə Cümhuriyyətinə qarşı rəğbəti tükənməz idi. Hələ qüdrətli Sovetlər Birliyinin aparıcı rəhbərlərindən biri olarkən türk dünyasına qayğı ilə yanaşmış və onlara mümkün olan köməklikləri əyani surətdə çəkinmədən cəsarətlə etmişdir.

Ulu öndər Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisində xüsusi ilə vurğuladığı "Biz

[127] Süleymanov R. Azərbaycanda kitab nəşrinin inkişaf tarixində Heydər Əliyev mərhələsi. Kitabşünaslıq və nəşriyyat işi: Elmi, nəzəri və təcrübi jurnal: Bakı. 2014, №1. S. 20-33

[128] Heydər Əliyev dünyanın gözü ilə [Mətn].-Bakı: "Təhsil", 2003.-148 s.



bir millət, iki dövlətik" sözləri atalar sözünə çevrilmişdir və əbədi yaşayacaqdır.

Türkiyə Cümhuriyyətinin doqquzuncu prezidenti, ulu öndərin yaxın dostu Süleyman Dəmirəl demişdir: "Dövlət xadimi olan qardaşım Heydər Əliyevin keyfiyyətləri, istedad və təcrübəsi Azərbaycanda demokratikləşmə prosesinin intensivləşməsinə, bu ölkənin dünya birliyinə sıx inteqrasiyasına ciddi təkan verməlidir."

Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanın məhəbbətlə söylədiyi fikirlər də çağırış xarakterlidir: "Gücünü ortaq keçmişimizdən alan yaxın və dostcasına münasibətlərimiz zati-alilərimizin uğurlu rəhbərliyi nəticəsində bütün sahələrdə inkişaf edərək bugünkü səviyyəyə çatmışdır. Ölkələrimiz arasındakı nümunəvi münasibətlər daha da möhkəmlənərək gələcək nəsillərə çatacaqdır."

2004-cü il mayın 10-dan fəaliyyətə başlayan Heydər Əliyev Fondu ulu öndərin həyat və fəaliyyət fəlsəfəsinin, onun elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği, gələcək nəsillərə çatdırılması yolunda üzərinə götürdüyü şərəfli missiyanın uğurla həyata keçirilməsi üçün səylə və ardıcıl şəkildə çalışır. Fondda ulu öndərin həyatını, zəngin fəaliyyətini əks etdirən elmi tədqiqatlar və axtarışlar, arxiv materialları əsasında yaradılan ekspozisiya nümayiş olunur. Heydər Əliyev Fondu ölkəmizə səfərə gələn xarici qonaqların ən

çox üz tutduğu, ziyarət etmək arzusunda olduğu məkana çevrilmişdir. Fondun muzeyində toplanıb nümayiş etdirilən eksponatlar buraya qədəm qoyan hər kəsdə ulu öndərin zəngin ömür yolu, Vətənə, xalqımızın işıqlı gələcəyinə həsr edilmiş mənalı həyatı, 35 illik bir dövrü əhatə edən siyasi fəaliyyəti barədə dolğun əyani təsəvvür yaradır.

Fondun ziyarətçiləri arasında müxtəlif ölkələrin dövlət və hökumət başçıları, tanınmış siyasətçilər, elm, incəsənət, mədəniyyət, din xadimləri, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri olmuşdur. Onlar fondda ulu öndər Heydər Əliyev haqqında "Xatirə kitabı"na ürək sözlərini yazır, dünya şöhrətli siyasətçi, dövlət xadimi, fenomen şəxsiyyət haqqında öz fikir və düşüncələrini ifadə edirlər. Ölkəmizin yaradıcılıq təşkilatlarının, təhsil, elm, mədəniyyət, incəsənət müəssisələrinin nümayəndələri də tez-tez fonda gəlir, sərgi və eksponatlara baxır, ulu öndərin xatirəsinə öz böyük hörmət və ehtiramlarını ifadə edirlər. Bu ənənə xüsusilə ümummilli liderin xatirə günlərində daha geniş miqyas alır. Ötən 15 il ərzində bu ekspozisiya ilə bir çox dövlət başçıları, görkəmli dövlət, din, mədəniyyət xadimləri, tanınmış siyasətçilər və bir çox sahələrin nümayəndələri tanış olublar.

Heydər Əliyev Fondu respublikanın müxtəlif regionlarında, böyük şəhərlərdə, həmçinin Azərbaycanın xarici ölkələrdəki səfirliklərində Heydər Əliyev muzeyləri və mərkəzlərinin yaradılmasına dəstək olur. Bu muzeylər müvafiq eksponatlar, sənədlər, fotoşəkillər və digər əyani vəsaitlə təmin olunur. Onlara təkcə Heydər Əliyevin həyatı və fəaliyyəti barədə deyil, tariximizin böyük bir dövrü, Azərbaycanın müasir inkişafı haqqında dolğun və müfəssəl məlumat verilir.



Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, I vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti milli-mənəvi və intellektual yüksəlişə xidmət edən ideallarin cəmiyyətdə daha da möhkəmlənməsinə yönəlmişdir. Azərbaycanın birinci xanımının istər milli-mənəvi irsin qorunması və dünya miqyasında təbliği, istər elm və təhsilin səviyyəsinin yüksəldilməsi, istərsə də səhiyyənin inkişafı, insanların fiziki-mənəvi sağlamlığının təminatı yönündə həyata keçirdiyi strateji layihələr onun fəal vətəndaşlıq mövqeyində dayanmasının, yüksək mənəvi məsuliyyətinin təzahürüdür.

Fondun təşkilatçılığı ilə keçirilən bütün beynəlxalq konfranslarda ümummilli lider Heydər Əliyevin Azərbaycan üçün gördüyü işlər geniş şəkildə tədbir işti-rakçılarının diqqətinə çatdırılır. Mehriban xanım Əliyeva bildirir ki, arxada qalan illərin hər birinə müraciət edərək, biz müasir tariximizin hər bir səhifəsində dahi şəxsiyyət, böyük insan Heydər Əliyevin silinməz izini görürük. Bu

gün qarşımızda duran əsas vəzifə Heydər Əliyev irsini öyrənmək və gələcək nəsillərə çatdırmaqdır.

2005-ci ildə Heydər Əliyev Fondu müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndərimiz Heydər Əliyevə həsr olunmuş yeni il təqvimi nəşr etdirmişdir.

Nəfis tərtibatda hazırlanmış, üz cildində Fondun binasının şəkli verilmiş təqvim Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Yeni il təbriki ilə açılır.

Geniş formatda və yüksək poliqrafik səviyyədə çap olunmuş təqvimdə türk dünyasının parlaq şəxsiyyəti Heydər Əliyevin ömrünün müxtəlif illərində çəkilmiş fotoşəkilləri verilmişdir. Burada, eyni zamanda dahi şəxsiyyətin ayrı-ayrı tarixi günlər, bayramlar haqqında dəyərli sözləri, müdrik kəlamları, ibrətamiz fikirləri verilmişdir. Nəfis tərtibatlı bu nəşr təmənnasız olaraq dövlət qurumlarına və ictimai təşkilatlara, təhsil, səhiyyə, mədəniyyət obyektlərinə paylanmışdır.

2008-ci ildə Moskvada görkəmli dövlət xadimi və siyasi xadim, Azərbaycanın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin 85 illik yubileyi münasibətilə İTAR-TASS agentliyi və Heydər Əliyev Fondu tərəfindən "Heydər Əliyev: Qəlbimin bir hissəsi Rusiyadadır..." adlı fotoalbom nəşr olunmuşdur.



Əlamətdar haldır ki, Rusiya Federasiyası Dövlət Dumasının sədri Boris Qrızlov bu fotoalbomun ilk nüsxəsini mayın 13-də Bakıya rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim etmişdir.

Fotoalboma Heydər Əliyevin bioqrafiyasının müxtəlif dövrlərinə - təhsil illərinə, sovet dövründə Azərbaycanın rəhbəri vəzifəsində, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Moskvada işlədiyi illərə aid 400-dən çox nadir fotoşəkil daxildir.

Fotoalboma ön sözü Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və İTAR-TASS-ın baş direktoru Vitali İqnatenko yazmışlar.

Mehriban xanım yazır: "İndi Heydər Əliyev bizim yanımızda deyil, lakin bu, yalnız fiziki yoxluqdur. Onun yeni həyat bəxş etdiyi Azərbaycan yaşayır və tərəqqi edir, onun davamçıları, o cümlədən Heydər Əliyev Fondu tərəfindən böyük inam və məhəbbətlə həyata keçirilən ölməz ideyaları yaşayır. Fondun yaradıldığı vaxtdan bəri ictimai həyatın öncül sahələrində həyata keçirdiyi çoxsaylı layihələr buna sübutdur. İTAR-TASS informasiya agentliyi ilə Heydər Əliyevi çoxdan yaranmış səmimi münasibətlər bağlayırdı. Buna görə də İTAR-TASS-ın belə bir fotoalbom buraxmaq təşəbbüsünü biz minnətdarlıqla qarşıladıq. Biz Heydər Əliyevin həyat və

fəaliyyəti ilə bağlı nadir kadrlarla tanış olmaq imkanı təqdim edirik".

V.İqnatenko vurğulayır ki, zəmanəmizin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın yaşadığı dövr tarixə həmişəlik Heydər Əliyev epoxası kimi daxil olmuşdur. O, daha sonra yazır: "Heydər Əliyevin bütün həyatı Rusiya ilə bağlıdır. Bu, bizim üçün, rusiyalılar üçün çox əhəmiyyətlidir. Heydər Əliyev Rusiyanı sevirdi, Rusiya da ona qarşılıqlı sevgi ilə cavab verirdi. Buna görə onu həm də öz həmvətənimiz saymağa ixtiyarımız vardır".

Rusiya Federasiyasının prezidenti Vladimir Putin ulu öndəri çox yaxşı tanıyırdı və onun haqqında, hətta onunla görüşəndə belə gözəl sözlər deyirdi. Xüsusi olaraq vurğulayırdı ki, "Görkəmli dövlət xadimi və siyasi xadim kimi Sizə Rusiyada səmimi hörmət hissləri bəsləyirlər. Azərbaycan xalqının rifahı naminə çoxşaxəli fəaliyyətiniz Sizə bütün dünyada şöhrət qazandırmışdır."

Rusiya Federasiyasının çox görkəmli ictimai-siyasi xadimi Mintimer Şaymiyevin ulu öndər haqqında söylədikləri də çox maraqlıdır: "Siz tükənməz enerjiyə, adamlarla işləmək bacarığına maliksiniz, lakin lazım gələrsə, məqsədə çatmaq naminə çox qəti mövqe tutmağı da bacarırsınız." (14, s. 23)

Gürcüstan Respublikasının sabiq prezidenti, görkəmli ictimai-siyasi xadim Eduard Şevardnadze fəxrlə



qeyd edirdi ki: "Fəxr edirəm ki, Azərbaycan Respublikasının rəhbəri, dünya şöhrətli, görkəmli siyasətçi Heydər Əliyev mənə qardaş və dostdur."

Dünyada və Azərbaycanda ulu öndər haqqında deyilənlər və söylənənlər çox böyük tədqiqatlar tələb edir. İnanırıq ki, gələcəkdə bu mövzuda irihəcmli monoqrafiyalar yazılacaq, dissertasiyalar müdafiə olunacaq və genişmiqyaslı beynəlxalq konfranslar keçiriləcəkdir.

# NƏTİCƏ

